**ALLAHVERDİ EMİNOV**

# RƏQQASƏ

**roman**

**BAKI – 2025**

**Nəşriyyat redaktoru:**

**Qasımov Nicat Müşfiq oğlu**

**Rəyçi:**

**Vahid Şahinoğlu**
Yazıçı

**Texniki redaktor:**

**Heydərova Aynur Səftər qızı**
Filoloq

**Dizayner:**

**İsmayılzadə Surə Adil qızı**
Rəssam

**Allahverdi Eminov. Rəqqasə (roman)**
Bakı, "ADMİU", 2025, 440 səh.

## Dan yeri

### 1.

*12.04.2018*

Bu uşaq ananın üçüncü övladı idi, (ikisi oğlan çağa ikən ölmüşdü), nədənsə "üçüncü" qız olsa da Ana kədərlənmədi, sevindi. "3" rəqəmini sevirdi. Ad məsələsi "qırxına"can qapalı qaldı. Seçimdə müxtəlif zövqlər işə mane olurdu. Ölənlərin də siyahıda adı vardı, amma Ata fikrini gizlətmədi və qəti: – Mənlikdi ad məsələsi, – dedi və gülümsədi, dodaqları titrədi. Ananın isə göz qapaqları aşağı endi, kirpiklərində göz yaşı parladı. – Qızın üzündə oynaq məzə var, ayaqlarıyla havanı təpikləyir, əlləriylə havanı vurur, bir gözlərinə bax! – dedi.

Ana qızının sözlərini sakitcə eşidirdi, həqiqətən Aytacda – qızında nəsə qeyri-adi bir şey umurdu, ortabab həyata alışmışdı. Ata pis maaş almamışdı. Ana səsini çıxartmırdı, narazılıq etmirdi, əvəzində cəsarətli ümidlərlə yaşayırdı və qızına nümunə olmaq istəyirdi. Amma sezirdi ki, qızının üzündə ihtehza, pərtlik dolaşır və bu əlamətləri normal sayırdı, hələ ağlının səsinə qulaq asmaq vaxtı çatmamışdır, sevinc və qəlb riqqətinin ifadəsi görünmür. Aytac coşğun həyatdan uzaqda idi.

Övladları ilə söhbət həyətdə – bağçada gedirdi. Göyərçinlər – Ata bu quşları sevirdi, saatlarla onla-

rın uçuşuna tamaşa eyləyirdi – quşlar kəlləmayallaq aşırdı. Göyün tünd maviliyi ağacların yarpaqları arasından süzülürdü. Ana nədənsə qəmli-qəmli gülümsəyirdi və dağınıq həyat sürməkdən qorxurdu.

Ana ani huşdan ayıldı, səssiz dialoq sanki dünən olmuşdu: Aytac bu il birinci sinfə getmişdi, dərsdən qayıdan vaxtıydı, qəşənglikdə seçilirdi, bədəncə də, sifətcə də. Ana üçün bu fərqliliyin əhəmiyyəti yoxdu, bu yaşlarda qızlar bir-birinə oxşayırlar. Rəqsə çox həvəs göstərirdi, dərnəyə yazılmışdı. Xüsusi rəqs üçün paltar – geyim dəsti verilmişdi.

Ana qızının simasını yaddaşına köçürür, az sonra qəşəng, bədəndən dolu – incə olacağına şübhə eləmirdi. Gözləri iri və süzgündü, yerişi astadı, sanki qarışqa üstə yeriyir, amma çevik addımlar atır. Sinəsi qabarır, döşləri sivridi, saçları qaradı, hələlik bir hörüklüdü. Əlləri və barmaqları şumaldı, ağdı. Dirsəkdən yuxarı ətlidi, indidən qolsuz köynəyi xoşlayır. – Ananın nəzərində qızı necə də sürətlə böyüyür! Anası ona keçi dərisindən başmaq almışdı.

Televizorda göstərilən rəqsləri həvəslə süzürdü, oturmurdu, gözlərini çəkmirdi onlardan. Bu həvəsi anası təbii sayırdı, uşağın həvəsini öldürmürdü: “hansı sənəti sevirsə dalınca getsin” – ərinə demişdi. O da razılaşırdı, oxumuş adamdı.

Ata həyətə düşmüşdü, göyərçinləri havaya qovmuşdu. Xeyli olardı göyün gümüşü rəngində mayal-

laq vururdular, vərdişlərini sahiblərinə nümayiş etdirirdilər. Göyərçinlərdən biri – ağ dişisi daha ucaya qalxır, dalbadal mayallaq aşır, qanadlarının şaqqıltısı ilə həmcinslərini ayıldırdı və "mesaj" göndərirdi.

Aytac atasının yanında durmuşdu. Baxışları sürətlə aşan – qanad çalan, son mayallığını vurub enənlərə qoşulan quşa dikilmişdi. Həyətdə "mızıldayıb" yemək axtaran göyərçinlərdən dişini bələdlədi. O, yorulmuşdu; qidalanmaq yadına düşmürdü. Narın addımlarla qıza yaxınlaşmışdı, başını qaldırıb süzür, qırmızı-qonur gözləri sanki alov saçırdı.

Aytac göyərçinləri saydı – hamısı yerindədi.

## 2.

Ana içəri girəndə qızı oynayırdı, ekranda yaşlı qadın süzür, iki rəqqas onu dövrəyə alıb yaxınlaşmaq istəyirdi. O isə cavanlara "naz" satırdı. Bu mənzərə qızcığaza qəribə gəlir, başını bulayır: "Qoca"-nın belə hərəkətinə təəccüb eləyirdi. Rəqs gedirdi, iki cavan isə əl çəkmək fikrində deyildi. Anasının arxada durduğundan xəbərsizdi və qəfil görəndə gözlərindəki parıltı söndü və bunu Ana duydu, əlini qızının çiynində saxladı, dedi:

– O rəqqasə vaxtilə məşhur idi, hörükləri həqiqi özünündü, qoşa idi, afişaları küçələri bəzəyirdi. O vaxt mən texnikomda oxuyurdum. Rəfiqələrimlə

afişaların qarşısında dayanırdıq, qiptə hissi keçirirdik. Eh, qızım. – Ana köks ötürdü, o illərə qayıtmaq istədi. O rəqqasəni həyatda çox görmüşdü. O vaxt rəqqasə qızın görünüşü həyat enerjisinin nə qədər güclü olduğundan soraq verirdi, bir işarəydi. Məxsusi məlahəti ona pay göndərdiyi incəliyi, çiçəklənən qəşəngliyin kölgəsi. Rəqqasənin şüurunda tutqun bir anlayış doğulurdu, kişilərlə ünsiyyətdə, buna "bağlamaq" deyirdilər o illərin dilində. "Qızım rəqqasəliyin dalınca gedərsə, səhvlər buraxa bilər? Valehedici həyatına yenicə qədəm qoyanda, ehtiras hissini təzəcə qavrayanda". – Ürəyində bu fikirlər cümlələrə çevrilirdi ki, rəyini bildirsin, bunun üçün bir rəqqasə kimi nəyi qurban verməlidir: şüurlu davranışını, güzəştsiz iradəsini, şaxanə vüqarını.

Ana qamaşan gözlərini sildi. Qeyri-ixtiyarı divana yanını qoymuşdu. Ekran əvəzlənmişdi: Rəqqasənin özünü gördü, arxasında xalça üzərində "60" rəqəmini oxuyub başını aşağı saldı. "Qızım rəqqasə olarsa məhəbbətini tapacaqmı? Həllinə tələsən şübhələri – bu ağır yükü daşımalıdı – harayacan, hansı yaşacan? Onu sevən olarsa Məhəbbətinin dalısınca sürünməlidimi? O, pərəstişkar kişilərə olan ehtiras qüvvəsini balanslaşdırmağı bacaracaqmı?" – Suallar beynində küləyin çiçəklərdən qovduğu bal arıları kimi perikdirirdi, nə deyəcəyini dilində qıfıllamışdı.

Aytac nəzərini ekrandan ayırmamışdı. Başlanan alqışlar onu yerindən qaldırdı, əlləri bir-birinə toxundu. Və alqışları eşitmədi, çün, onu soyuq, solmuş gülüstana aparmışdı, əvvəllər rəngbərəng güllər, çiçəklər ətir saçırdı, küləklərə dözürdü, arıların yolunu gözləyirdilər, şirələrini onlar üçün saxlayırdılar – alışmışdılar. Sonra. Sonra elə özünün vücudundakı şirəni sordular bal arısı donuna girən kişilər... Rəqqasənin məhəbbət duyğularına çirkili sular tələsdi, özünümühafizəni unutdu, onu varlı və vəzifəli kişilər gözaltıladılar. Güclü və ardıcıl məhəbbət özüylə iztirab gətirdi, bu sevgi gülüstanında, məhəbbət mehrabında fədakarlıq lazım idi. Rəqqasədə lirik işgəncələr əmələ gəlirdi, buna tab gətirmək isə...

Qızcığaz anasının xəyalını qırmaq istəmirdi. Mizin arxasında oturdu, "ev tapşırığını" yarımçıq qoyub, televizora fikrini yönəltmişdi. "Hesab"dan müəllimdən aldığı misalları cavabları ilə çıxartmalıydı. Fasilə unutdurmuşdu.

Ana hiss elədi və divandan qalxıb qızının sol yanına, masaya dirsəkləndi:

– Unutmusan, eləmi? – Sualın cavabını gözləmədi və misalları nəzərindən keçirdi. Qızına köməkliyi dəymişdi, anlayırdı, orta məktəbi yaxşı qiymətlərlə bitirmişdi. Köməyinə gəlirdi. Yanılmamışdı, birini izahı ilə həll elədi.

Qızının çöhrəsindən məsum uşaq ifadəsi çəkilməmişdi. Hələ ki, onun oynaq ağılı hayına çatmırdı, böyüyəcəkdi, haldan-hala qonacaqdı, qızındakı şəfqətli təbəssümü oxudu.

Ekrandan getməmişdi rəqqasə, davam edirdi, yəqin ki, yubileyi idi. Özü yaşda pərəştişkarlar yoxuydu, lap yaşlı incəsənət xadimləri və cavanlardı, bir də vaxtilə onunla rəqs meydanını fəth edənlərdi. Harada qalmışlar onun pullu, vəzifəli pərəstişkarları, ona “eşq” elan edənlər? Rəqqasənin könlünü ərmağan edən kişilər? Bu dünyada idilərmi, yoxsa onlar bulvarda “dördləşib” domino daşlarını dığırladırlar?

Rəqqasəyə suallar gəlirdi, kiçicik ağ kağızlarda, açıb oxuyurdu. O, yumşaq səslə danışırdı. Bənövşəyi dairəciklər gözləri qabağında sanki papiros tüstüsünə qovuşurdu. Gözlərinin kinli işığı xatirələrinə uduzurdu: “Eh, hövsələsiz dar həyat. Məni tez-tələsik imtahana çəkdin və qalib çıxdın, uduzdurdun məni. Sevməyə macal tapmadım”. Rəqqasəni səbəbsiz təşvişə oxşar duyğular sarsıtmışdı, solğun gözləri ixtiyarsız tamaşaçılara dikilmişdi. Mixəyiyə çalan sifətində qəmginlik çırpınırdı, qırışların yuvalandığı yanaqlarından sanki turşumuş incəçiçəyinin şirəsi axırdı. Və birdən gözləri işım-işım işığa düşdü, parladı, tutqun duyğular ürəyində əks-səda verdi. Onu

xəyaldan bir dəstə çöl çiçəyi ayırdı, bağrına basıb qoxulayırdı...

Rəqqasə bir dəfə sevinmişdi, "bir dəfə" onun etiraf elədiyi ifadəsiydi. Uydurma hesabında deyildi. Bir rəqs gecəsində baş vermişdi. Çiçəklər arasında qoyulan vərəq parçasını yerinə keçəndə görmüşdü və dərhal o oğlanı tanımaq istəmişdi, baxışdı, qəlbinə mavi sevinc dolmuşdu, amma iztirablı hövsələsizliyə yol vermədi. Vərəq tikəsini koftasının cibində gizlətdi. Oğlan üçüncü sırada idi, diqqətlə baxmaq ürəyindən keçdi, onun gözləri çəkilməmişdi, onun keşiyini çəkirdimi? "Gözlər gözəlliyin pəncərəsidir, onun açıq gözündən baxmaq gərək" – pıçıldadı qəlbinə və azca qurcalandı yerində. Və yəqinləşdirdi konsertdən sonra onu bayırda gözləyəcəkdi, bu, ənənəvi üsullardan biridir...

Tribunada saçı ağappaq, qara kostyumlu, "baboçkalı" köynəkdə bir kişi danışırdı. Rəqqasənin cavanlığından başlamışdı. Ekranda isə yubiliyarın ötən illərin rəqslərindən parçalar göstərilirdi. Diqqət yayılırdı, danışanın sözləri kənarda qalırdı. Rəqqasə "Naz eləmə"ni oynayırdı, tamaşaçılara naz sata-sata. Bir cavan salondan səhnəyə quş çevikliyilə qalxdı və birbaşa hələ yerinə keçməmiş rəqqasəyə dəstə gülü uzatdı, bir-iki addım atandan sonra əlini toxundurdu. Rəqqasə çiçək qoxusunu aldı, mübhəm ağrı və həyəcanını gizlətmədi. Təşəkkürlü səsində irad-

si duyulurdu. Axı, hələ gəncdi, bərkdən-boşdan çıxmamışdır. Göyərmiş dodaqlarında təbəssüm donmuşdu. Belə anlarda, hansıki sevincini yaşayırdı – sakit və ağıllı gözləri yol çəkirdi, üzü qəribə rəngə boyanırdı. Onun ətli və uzunsov baldırları vardı. Ayaoxşar girdə sifəti elə bil çərçivəyə salınmışdı, bu yaşında rəqqasə – qız olaraq qəlbində himayə axtarırdı. Bəlkə bu, dumanlı məhəbbət hisslərindən xəbər gətirir. Gözlərinə yığışan yaşları çiçəklərin işığına qarışmışdı. O, gül-çiçək verən cavanın sirayət elədiyi qoxu duyğusunu anlamaqdan hələ uzaqdı. Eləcə də ehtirasın qəddar qərarlarını "oxumamışdı", nişanəsinin təmini dadmamışdı, atəşin məftunluqdan qaçmamışdı...

– Rəqqasə mənim əmimim həyat yoldaşı olmuşdu. – Bu sözlər tamaşaçılarda təşviş yaratdı, axı xəbəri eşitməyənlər daha çoxdu, maraqlananlar azdı, hansı sənətkar qocaldı, səsini itirdi, səhnədən ayrıldı unudulur, yeni nəsil isə tanımır. – Bu sözləri rəqqasə – yubiliyar gözləmirdi, izdivacda yaşamışdı, yaxşı günləri olmuşdu. Bunlar itirilmiş mirvari dənələriydi, axtarıb tapmağa ehtiyac yoxuydu. İndi mirvarilərin sahibinin özü itmişdi. – Heyif ki... – Susdu. Salona göz gəzdirdi, hər bir tamaşaçının baxışında nigarançılıq cilvələnirdi. – Heyif ki, övladları dünyaya gəlmədi. – Susdu, qanrılıb rəqqasəni gözucu süzdü. Əlindəki çiçək – gül dəstəsi titrəyirdi. – Heyif ki... –

Səsi xırıldadı, tutuldu və o çiçək dəstinə bir də baxdı – nə üçün? Rəqqasənin sinəsinə sıxdığı ətirsaçan çiçəklər sanki birdən solmuşdu. Taleyi onu boşuna buraxmışdı, ömrünə büllur hədiyyələr bəxş eləməmişdi. – Rəqqasə isə...

Alqışların nə üçün səsləndiyini bilməsə də ayağa qalxdı, baş əydi və çiçəklərdən bir-bir salona səpələdi.

Rəqqasə – yubilyar salona hələ də göz gəzdirirdi, kimisə axtarırdı, ona haçansa gül dəstəsi bəxş edən o cavanımı? Suala onun özündən savayı kim cavab tapmaq məharətinə malik olardı.

Tribunadan hələ də təntənəli səs davam etməkdə idi, ağsaç, sifətindən məyusluq oxunmayan mayestronun ürəyi boşalmamışdı. Rəqqasə səsi, bəlağətli sözləri qulağına alırdı, amma mənasını anlamırdı. O, bu saatlarında bu anlaşmaya hazır deyildi. Onun xəyalı indi sönmüş həqiqətlərin yanında idi...

Balerina – səhnədən yenicə ayrılmış bu qadın onun görkəminə baxdı xeylicə.

– Səndən rəqqasə olar, qızım. – Astadan dedi sözləri və bir də bu qızı süzdü. – Super rəqqasə! – İnamla gələcək şagirdindən cavab gözlədi və güzgünün qabağında stula çökdü, sol ayağı sürüşmüşdü. – Mən zəmanət verirəm! Yaxşı ad daşıyırsan. Vaxt yetişər bu adını doğruldarsan!

Şagirdi olacaq və ya olmayacaqmı – başında qaynaşan tərəddüdləri fikrindən yayındırdı. O, balerina olmaq arzusu ilə gəlmişdi, amma gələcəyini söyləyirdi adlı-sanlı baletmeystr. Xoşuna gələn o idi, təbii danışardı, ona diqqət yetirib sözünə ip salırdı. – Bir elm sahəsi var, bəri başdan çatdırım ki... – Güzgünün qabağından çəkilib yumşaq oturacaqlı kətildə əyləşdi, kənarda atılıb-düşən qızlara, "istirahət eləyin hələlik" sözlərini çatdırdı. – "Fizioqnomika" adlı bir elmi sahəsi yaranmışdır Fransada, vaxtilə. Banisi Ejen Ledo olmuşdur, on doqquzuncu əsrdə. – Bu ara bir qadın padnosda çayı gətirib stolun üstünə qoydu. İmkan tapıb onun üzünə baxdı, mehribanlıq duydu aurasından.

– Təşəkkür, əzizim, ürəyimdən keçmişdi çay içmək pis olmazdı. Bu qızı yanıma gətiriblər, həvəsi var, ona görə. Amma azca utancaqdı, deyəsən qaraqabaqlığı da. Və gülümsündü. – Mahiyyətini açıqlayacağam səninçin. Həm də özün anlayasan, başa düşəsən ki, düzgün seçmisən bu sənəti – peşəni. – Armudu stəkanda gətirilmiş çayı yarıyacan qurtum-qurtum içir, rəqs edən qızları gözündən yayındırmırdı. – Bu elmə görə insana kənardan baxırsan, əlbəttə, görünüşünə onun xasiyyətini müəyyənləşdirirsən. Qəbul olunub bu elm, amma indi iyirmi birinci əsrdir, ana övladının xasiyyətini dəqiqləşdirməkdə aciz qalır.

O, birinci dəfəydi bu sözü eşidirdi, dərsliklərində rast gəlməmişdi. “Biologiya, yaxud idman müəllimlərimiz adını çəkməliydi”. – Sualı qəfildən verib susdu. Balerina sualı gözləmirdi: “Elm həqiqətən səhv nəticə çıxarmır. Qızın ətli, uzun, harmonik baldırı, girdə üzü. Hə, şagirdim olarsa, ehtiyatla şərh etməliyəm. Ana tərbiyəsinə üstünlük vermişdir” – düşündü. Stəkanı padnosa qoydu. İri laylı pəncərəni açdı, içəri əvvəlcə pak hava axdı, qoca bağbanın əkdiyi ağaclar çiçəklərindən yayılırdı qoxu, qocaman ağaclar cavanların qonşuluğunda çılpaq idi, vaxtilə meyvələrini yetişdirmişdilər. İndi növbə cavan ağaclarındı. Binanın yeri yaxşı seçilmişdi, dikdə idi və üçüncü mərtəbədən Xəzər aydınca görünürdü. Gəmilər yüklərini uzaqlara daşıyırdı. Yaxtada gözdən salınmış “köhnə”lər lövbər salmışdı: “Düşmənin də gözdən düşməsin” – balerina ürəyindən keçirdi nisgilini. Mənə də növbə çatacaq, elə çatmış kimiyəm, baş rolda oynayanda anşlaq olurdu. “Yeddi gözəl”də tamaşaçılar zalı dağıdırdılar, fit səsi “təkrar” “təkrar!” Jurnalistlər növbəyə düzülmüşdü. Eh! Qadın ömrü uzun olsa da, onun gözəlliyi, qəşəngliyi kəpənək ömrüdür. Şirəsini kişilər sorandan sonra... Atırlar, maraqlanmırlar dünənki o xanım hardadır? Qızın gözəlliyindən ehtiyatlanıram, iradəsini cilovlaya bilməsə...

Baxışlarını səmaya dikdi balerina, haradansa pəmbə bulud üzü dənizə yan almışdı, sanki işindən ayrılan adamın çənəsindən tər damcılayırdı, gülə-gülə Xəzərə tökülürdü. Qağayılar bundan xəbərsizdi, yoxsa bu gümüşü giləleri göndərilmiş pay bilib havadaca udardılar. Buludun tənhalığından balerina kövrəldi və ömrüylə tutuşdurmaq istədi, nədənsə daşındı fikrindən. Bəlkə də səbəb tənəffüsə çağıran zəngin səsiydi.

– Bu sənəti tutan – ya qız, ya oğlan olsun – zahiri görünüşü ilə daxili məzmunu, düşüncəsi, xasiyyəti arasında bağlılıq olmalıdı, ahəngdarlığı nəzərdə tuturam. Axı, insanın psixologiyası – xarakteri, xüsusilə, sifət cizgilərində gizlənir. Sifət görünüşünün öz “dili” var, əgər onu danışdırmağı bacarsan, sənə çox mətləblər bəlli olacaq.

Qızcığaz – qəfil öz “şərhini” gizlətmədi: – Deməli, hər bir qız, qadın özünün fiziologiyasını tapa bilər, ustad! Xarakterini!

Balerina qızcığazı yenə başdan-ayağa süzdü, elə bil bir daha görməyəcəkdi. Hələ razılıq almamışdı, ancaq əldən buraxmaq istəmirdi. Neçə ildir belə görünüşlü, mühakiməli qıza rast düşməmişdi. Qərarı bu idi, ilk görüşdən mənzərəni aydınlaşdırmalıdı, sonralar problem yaranmasın.

– Unutma, hər bir adamın xarakteri Allah tərəfindən onun üzünə yazılıb, sadəcə onu oxumağı ba-

carmaq gərək. Məsələn: Sən ciddisən, amma xoş xasiyyətlisən. Özünə evdə baxarsan: alnın enli, qafatan dərin, qaşın altındakı sümüyün qabarıqdı. Gözlərinin rəngisə bəlli – əyilib baxdı. – Qonurdu, işıqlıdı. Və qəhqəhə ilə qızcığazın əlindən öpdü, alnına sığal çəkdi.

Qızcığaz cavabsız buraxdı, nə təsdiq elədi, nə də inkar, ancaq uşaqlığında acı, tünd, kəskin şeyləri, hətta iyi sevirdi. Sevinəndə üzü tər çıxmış qanqal kimi çiçəkləyirdi. Təbəssümündə qızğın yanaqları tən yarıya şırımlanırdı. Bağça çəpərinə söykənib durar, başını çiyinlərinə çəkib, havada mayallaq vuran göyərçinlərə baxar, nə fikirləşirdisə şeh hopmuş torpağın üstündə oturardı.

Qurumuş qanqal gövdəsini külək silkələyirdi, boş-boş xışıldadırdı. Ayaqyalın olduğundan – belədə baldırları dincəlirdi – damarları zolaq-zolaq olur, pəncələri şumal taxtaya dönürdü. Anasının qəzəbinə gəlməmək üçün bir baş yuxarıya – artırmaya çıxmırdı, həyətdə gəzişir, göyərçinlərə əvvəlcə dən verir, sonra havaya uçururdu, xeyli onların "davranışından" ləzzət alırdı: "Bu çılğın hərəkətlərim bu günüm üçün imiş? Balerina əbəs demədi mənə ki, xasiyyəti Allah göndərir, üzündə yazılar, oxuyasan" – düşünürdü. – Belə çıxır mən ehtiyatlı həyat pillələrini ehtiyatla, ehtiraslarımı boğaraq qalxaramsa enməyə Allah möhlət verər. Gözəlliyimi, sənətimi pula sata-

ramsa, “bağışlayaramsa”, sonra o “hədiyyəni” geri almaq mümkünmü?

Ağ pəmbə bulud süzülüb qurtarmışdı, qağayılar bu dəfə də aldanmışdılar, yağış başlamışdı, onları çimizdirirdi. Xırdaca balıqların rəqsi bir tamaşaydı qağayılar üçün. Ləpəciklərin üzərinə baş qoyduqca o andaca “gəlin” köçürdülər qağayılara. Beləcə yağış xeyli davam elədi. Balerina uzaqdan müşayətçi olsa da ləzzət alırdı, özünü dəniz sahilində görürdü: Şəhər söyüdünün – o kənddə bitənlə şəhərdəki söyüddə fərq görürdü. Həyətlərindəki söyüd hər tərəfə əl-qol atır, quşlara yer verir ki, yuva salsınlar, bala çıxartsınlar. Şəhər söyüdləri sıx budaqlarını asfalta sallayır, yarpaqlarından sızan günəş işıqlarını “əsir” eləyir.

Bəstəkar oğlan onu ilk baletinə dəvət eləmişdi, baş rolda oynayacaqdı.

Gəmi gəzintisinə çıxdılar, hansısa adaya üzürdü gəmi. Sərnişinlərin çoxu cavanlardı, deyib-gülürdü. Gedib qayıtdılar, bircə dəfə oğlanın əli onun barmaqlarını yüngülcə ovuşdururdu, bu hərəkətindən qızardı, özünü o yerə qoymadı. Ustufca barmaqlarını çıxartdı, dağılmış saçını arxaya atdı, çiynindən sürüşən nazik plaşını sağ qoluna keçirdi.

O da yadındadı: çiyni üstdən gənc bəstəkara nəzər yetirdi, buna səbəb ilk gəncliyinin məhəbbətli duyğuları idi. Özünü romantik əfsanənin baş obra-

zında görürdü, axtarırdı. Hisslərini susmaqla ifadə eləyir, özündə gələcək qadın idealı yaratmağı düşünürdü. Sanki gecədir. Ay ağacların başı üstən gümüşü qalxan kimi titrəyir, amma qəzəblənmir, əksinə onları qoruyur, keşikdə dayanır. Söyüd ağacının sıx budaqları arasında yuva quran ana-ata quşlar bala sorağındadı. Belə xəyali düşüncələrdən gənc bəstəkarın səsi ayırırdı: – Çatdıq sahilə, Balerina! (Sonacan onun adını demirdi: "Sənin elə adın Balerinadır). – Gülümsərliklə pıçıldadı. O, şəhərə gələndə də uşaqlıq və yeniyetməlik çağlarından çıxmamışdı, həyət, ağaclar, yollar həyatından aralanıb harayasa çəkilmişdi.

Mayestro sözünü tamamladı, tamaşaçıların alqışlarında endi, yubiliyarın qarşısında dayandı, əlindən tutub özünə çəkdi və hər ikisi üzünü irəliyə çevirdi.

Rəqqasə xanımı tər almışdı, onu bu qədər sevdiklərini ağlına gətirməmişdi. Ona elə görünmüşdü daha unudulmuşdur, elə deyilmiş.

Ana üzünü qızı tərəfə döndərdi:

– Əlli illiyində iştirak eləmişəm atanla. – Qürurla xatırladı. – Opera və Balet Teatrında keçirilirdi. O vaxt. – Ana nəyisə yadına salmağa çalışırdı, gözlərini yumdu, sol əlini alnına apardı, orada gizlənmiş hansısa hadisənimi, təəssüratımı dartıb çıxarmağa tələsirdi. Qızı sual verdi:

– Dəyişilib, eləmi? – Anaya sual yersiz göründü.

– Əlbəttə, on il az deyil qadın üçün, bu sənətin yiyəsi üçün. Unutma ki, balerinalar, rəqqasələr çox dəbdə qala bilmirlər, elə səhnədə yaşa dolurlar. Balerina elə kişi tərəf – müqabilinin qucağında solur. Eh! Sən də! – Sözünü tamamlamaq istəmədi, lüzum görmədi, qızı ruhdan düşürərdi, belə ehtimal elədi anası. – Yaxşı qalıb. – Nikbin dilləndi. – Bünövrədən gözəl idi. Çünki çox nadir hallarda rəqs edirdi, çünki əzəldən balerina olmuşdu. Həyat yoldaşı ilə yolları ayrılandan sonra bir daha baletdən uzaqlaşdı, ancaq sənətin kökündən yox. Titulları da rəqs sənətinə görə almışdı. O, bir parlaq ulduz idi, az alovlandı, ancaq şöləsi sönmədi. Sonra pedaqoqluğu seçdi, neçə-neçə tələbəsi adlı-sanlıdı...

Rəqqasə səhnənin qırağına qədər mayestro ilə addımladı. Tamaşaçılarla onun arasında 5-6 addım qalmışdı, birinci, ikinci sırada oturanların əksəri gül dəstələrini tutmuşdu, məqamın intizarında idilər.

Sol yarusda başlanğıc cərgədə qara kostyum geyinmiş, qara qolstuku ağ köynəyə taxmış birisi narahat oturmuşdu, əlində ancaq qırmızı güllər və çiçəklərlə bağlanmış dəstə tutmuşdu. Ani nə fikirləşdisə eynəyini çıxarıb cibinə qoydu, baxışları toqquşdu. Baxışları həyəcanlı və seyrçi görünürdü, mətinli təsir bağışlayırdı. Tərəddülə yerindən tərpəndi, nəsə

fikirləşdisə sakit-sakit rəqqasənin üzünə baxdı bir neçə saniyə və qəfil durdu, irəli yeridi. Gül dəstəsini ovcuna sıxdı. Təqdim etmək qərarını vermişdi. Bu anlarda mayestro rəqqasənin biləyindən bir də tutub arxaya çəkildilər. Yanaşı oturdular. O adam artıq səhnənin qurtaracağında idi və gözlərini yubiliyardan çəkməmişdi. Var gücüylə gül dəstəsini ona sarı tulladı – fərqinə varmadı bu hərələti nəzakətsizlikdi, yoxsa yox. Amma elə tuşlamışdı, düz onun dizləri üstə düşdü və qomun ipi açıldı, güllər bir-birindən ayrıldı, döşəməni al-qırmızı rəngə boyadı. Bu güllər qərənfillər deyildi. Mayestro dərhal durub o adama baş əydi...

Bu şəxs kimiydi, nəçiydi – qaranlıq qaldı tamaşaçılar üçün. Bircə o imkan olmuşdu, rəqqasəyə susamış nəzərlə baxmışdı, çılğın ümidlər, cilovunu buraxmış arzular gözlərində sönmüşdü. Əvəzində bir etiraf, güclü vüqar hiss vardı və yaşın münasibətləri üzərində çox olaylar baş vermişdi, ona kədər gətirmişdi.

Rəqqasədə məhəbbətin pıçıldadığı hisslər ölməmişdi, gənclik payına düşən, titrək pıçıltılarda duyğulu təəssuratlar yer almışdı. Cavabsız qalan məhəbbəti, sevgisi rəqqasənin duyğularında dağıdıcı təəssüat yaratmışdı, qızğınlığa tələsirdi. Qəlbində yox, vücudunda ehtiras atəşini yandırmaq eşqi əmələ gəlmişdi və inanmışdı ki, bir kişi olaraq onun ma-

rağına cavab verəcəkdir; o adam isə doğulmuşdur, qarşısına çıxmışdır. O adam onun gözəlliyini mənimsəmək məftunluğuna qabildir, ağuşunda məstanəliklə çapalayacaqdır. Amma.

– Əlli illiyi təmtəraqlı keçərdi yəqin? – Qızı təkrarən soruşdu. – Müəllimimiz xatırladır ki, əvvəllər tədbirlərə ciddi yanaşırdılar. Hər kəsin yubileyi müəyyən çərçivəyə salınırdı. Ana, sən bu illərdə tələbə olmusan, deyirdin biz rəqqasənin afişalarına heyran-heyran baxırdıq, ona qibtə edirdik.

Ana qızının hələ dörd-beş yaşlarında verdiyi sualları cavabsız buraxmamışdı, eləcə indi olsun. Daha Aytac arpa-arpa böyüyürdü.

– Müəllimin yanılmayıb, elədi. Hökumət adamları az hallarda iştirak eləyirdi, baxırdı kimin yubileyidir, yaxud vəfatı ildönümüdür. Rəqqasənin əlli illiyində bizə ellilikcə bilet verilmişdi, həmkarlar təşkilatımız vardı. Yadıma düşür ki, Mədəniyyət Nazirinin özü gəlmişdi, qırmızı papaqda "ünvanı" oxudu. O da yadımdadır, böyük balet kraliçası Qəmər Almaszadə iştirak edirdi, onu qucağına basdı, ucadan: "Sən, hələ mənim gözümdə uşaqsan!" Bir alqış qopdu ki!

– Ana, belə başa düşürəm müstəqilliyimizdən əvvəlki dövrdə incəsənətə, onun daşıyıcılarına münasibət fərqliymiş, dedi ki, rəqqasə tanınsa da ona bu yaşda "Əməkdar artist" fəxri adı verilmişdi. La-

qeyidlikdir, ana. – Qızı az qaldı siyasətə toxunsun, bir səbəbini anası əlaqələndirdi:

– Daha uşaq deyilsən, orta məktəbi bu gün-sabah qurtarırsan, müəllimlərin təzələnir, yeni söz eşidirsən. Tarixi dəyişdirmək istəyirlər. Halbuki, hər adam özünü yaşayır, şəxsi maraqlarını həyata keçirməyə çalışır, bunun üçün şəxsi azadlığından istifadə etməyə çalışır. O adam filan iş edə biləcəyini, yaxud bunu bacarmayacağını varlığıyla hiss eləyir, ancaq o işi necə gördü – daha həmin iş müəyyən vaxtda yerinə yetirilibsə geri qaytarılmır, təkrar da olunmur, tarixin malına çevrilir. Bir adamın, qızım, şəxsi həyatında iki cəhəti görünür, biri fərdi, o bir sövqi-təbii pətək həyatıdır. Birincisi həyatda mənafe mücərrəd olursa, daha sərbəstdir, sövqi-təbii pətək həyatında isə insan qabaqcadan yazılmış qanunları icra edir.

Qızının fikrə dalması, gözü yol çəkməsi ananın diqqətindən yayınmırdı, bu isə ona xoş gəlirdi ki, ağıllı-kamallıdı, mühakiməyə meyil göstərir, gələcək həyatı üçün bunlar mütləq lazımdır.

– Ana, – dedi. – Çox qəliz çıxdı a! – Dodaqlarını dili ilə islatdı, burnunu azca ovuşdurdu. – Belə çıxır, cavanlığına qibtə elədiyin rəqqasə vaxtında qiymətləndirilməyib? Dedin ki, hər adam özü üçün yaşayır, o da yaşayıbdır.

Qızının sualı və reaksiya verməsi anasının söhbətini davam etdirməsinə imkan yaratmadı, ürəyində: "Məktəbə ümidləri bağlamaq azdı, kənara çıxmaqdan qorxurlar, başınızı aşağı salın, məsələ-misal həll edin, başqa şeylərlə nə borcunuz" deyirlər. – İnsanlar şəxsi həyatlarını yaşasalar da, bəşəri məqsədlərə çatmaqdan ötrü qeyri-şüurlu alətə dönür, ona bənzəyir, görülən işlər, hərəkətlər bir araya gələndə çox əhəmiyyətli olur. İnsan öz mövqeyində nə qədər yüksəyə qalxarsa, nə qədər çox varlanarsa onun başqa adamlar içərisində hakimiyyəti bərqərarlaşır.

Qızın üzü xoşbəxtcəsinə gülümsədi, gözləri işıqlandı. Ana əmindi ki, Aytacın öz fikrini ifadə eləmək məharəti güclüdür, daha nitqini ifadə etməyi bacarır. O, çiyinlərini sıxmışdı, nəsə söyləmək durumunda idi və məharətli ifadə ilə başını tərpətdi.

– Vaxtında inadcıl, yaxıcı baxışları olub, hə? – Sualdımı, yoxsa təsdiqdimi – anası anlamaqda çətinlik çəkdi – zirək pərəstişkarları necə? – Bu sonuncu müraciətin sual olduğunu yəqinləşdirdi.

Ana birbaşa cavablandırdı:

– Ədəbsiz kişi hisslərini də unutmayaq, rəqqasələrin bu mənada. – Ana istehzalı təbəssüm içərisində dedi bu sözləri. – Qadınlar, xüsusən. – Susmağa üstünlük verdi, çatdıracağı sözlərin mənasını qızına anlatmağın vaxtının yetişmədiyini başa düşdü. Ana nəyi düşünürdü qəlbində: Qadın ehtirsını birdən yox

– damcı-damcı içməlidir – heyrətindən, çaşğınlığından ağlasın yatağında, əri duysun ki, ağuşunda zərif titrək məxluq çapalayır. Ehtiras duyğuları hərarətli dalğalar kimi vücudunda sahilə doğru can atır, azca da olsa baş qoysun ora. Quşların səsini eşitsin, yarpaqların xışıltısı qulaqlarında səslənsin rəhmsiz kişi ehtirasının zərbəsinə təkrar-təkrar məruz qalmasın. – Anaya daxili mühakiməni pıçıldayan qızı idi, gələcək yolunda rəqqasə olacağını bələdləmişdi, bu cığır olaraq qalmır, addımlar və tapdaqlar altında genişlənir, yola çevrilir – kənardan diqqətə gəlir.

Vaxt tələsir, bu gün-sabah üçün bir də görərəm o, səhnədədir rəqqasə qiyafəsində, ehtiyatsızlıq edər, bu anlarda dərhal qara – qorxudan uzaqlaşmalıdır. Olsun ki, müşküldür, hissləri ağlının kölgəsində dayansın, belə halda qızlar, ümumiyyətlə, may yasəməni kimi təravətlərini bağışlamağı sevirlər. Qızının davranışında bəzən tutqun, kədərli, mükəddər zövq yaranır – ana həssaslığında duyur – işi alınmayanda kinli-kinli gülümsünür və "ana, bu məsələdə yenə çaşdım" deyir. Məsələnin düzəlməsinə, həllinə nə var, həyat, ömür məsələsinin səhv cavabını müəllimin də, anan da düzəltməkdə acizdir. "Dəhşətli" qız yaşı səssiz süzülən mələklərin ömrüdür, ona qibtə eliyirlər, ona öyrətmək gərəkdir gələcək həyatı ayrı-ayrı məkanlara aparan yollarda ruhundan nəsə ayrılır, rahiyəsini əsirgəmir və bu vaxtlarda kişi

tayfası peydə olur, böyürdən çıxır ki, mən sənin sənətinin vurğunuyam. Hətta zülmət içindən çıxdığı üçün hayqırır da. Naqis, şəhvətə bürünmüş ehtiras şüuru xəstəliyindən xilas edir, bəli, nail olur! Bununla da qorxuya məxsus şübhələri çəkilib gedir, vəzifəsi, yaxud pulu var.

Ananın üzü əzab içində idi, hətta bir neçə dəqiqə gözlərini ekrandan çəkmişdi.

Qızının yenə qəfil qənaətini eşitdi:

– Ana, rəqqasələr pərvanə kimidilər, şamdan-şama tələsir, – dedi və ağzını büzüb gülümsədi, dodaqlarının ucu titrədi.

Ana çay tədarükü üçün mətbəxə keçmişdi. Aytac hələlik otaqda dəftər-kitabını yığışdırmışdı, açıq pəncərədən içəri yaz havası vururdu, bayırdan xoş rayihələri gətirirdi. Belə vaxtlarda öz aləmində – yeniyetməliyin bəxş elədiyi hisslərlə üzbəüz qalırdı, qız rəfiqələrilə söhbətlərinə "dayaqlar" verirdi, yaxud inkar eləyirdi. Rəfiqələri – birlikdə üç nəfərdilər, zövqləri bir-birilə üzləşirdi. O, göy qübbəsində nəsə ona xoşbəxtlik gətirəcək bir şeyi axtarırdı, lakin əsrarəngiz heç nə tapmırdı. Qəlbi fəhmli ümidlərlə dolurdu, özündən məmnun idi, özünə güvənc hissi romantiklikdi – bu, onu rəfiqələrindən fərqləndirirdi, heç də həmişə belə olmurdu. Gələcək həyatın qəm-qüssəsi onu bürüyürdü və eşitdiyi, oxuduğu olmuşlardan uzaqlaşmaq istəyirdi, xüsusən, evdə

tənha rəqs edəndə bütün pis hadisələri unudurdu, ağrılı məqamları yaddaşından silmək istəyirdi və bu vaxt dodaqları titrəyirdi. Belə bədbəxt əhvalatlardan qəhrəmanlarına babalı tuturdu: “Niyə insan bu hala düşməlidir? Niyə yazıçılar belə obrazlar yazırlar? Elə insanın rəqqasə – xanımın, yubiliyarın keçmişindən izahlar verməsi mənə işarədirmi? Bəlkə istəmir rəqqasə olum, onun qəhrəmanı olum, mənim pərəstişkarımın sayı minlərlə olsun! Bəlkə mənim taleyimdən qorxur, özüm-özümçün bədbəxtlik gətirərəm!” Və sığal çəkdi alnıma, fikrindən ayrılmaq istəmirdi. Kənardan ona baxan olsaydı üzündəki qalib – təntənə ifadəsi oxuyardı: “Anamı hələ də dəqiq anlamıram ki, mənlə razıdır, yoxsa tərəddüddədir? Rəqqasələrin taleyindən nigarandırmı? Müşahidələrinə aldanırmı anam?”– Qonaq otağından zəng eşitdi, cavab üçün tələsəndə artıq anası özünü yetirmişdi: “Anam dolayısı ilə haradansa “bədbəxt” sözünü dilinə gətirdi, mən otaqda məşq eləyirdim, o isə divanda dirsəklənmişdi. Üzündə axı, təlaş əlaməti duymadım, anam ürəyində çəkən qadındı, görürəm, uşaq deyiləm ki. Stulda oturdum, bu, anamın ürəyincə oldu, çünki üzümə qızartı çökmüşdü, dodaqlarım qurumuşdu, dizlərim yorğunluqdan əsirdi, dabanlarım sızıldayırdı. Xeyli danışdıq, o, olub-keçənləri xatırlamağı xoşlayandı, atam da yeri gələndə irad tutur ki, nə olub sənə. Qocalanda danışarsan da, – deyib-gülür. Amma anamın kəlamları ibrətli çıxır, qa-

baqlar bilməzdim, anlamazdım. Hə, anam bədbəxtlik məsələsində yaxşı sözlər dedi, ağlıma batdı: “Qızım, bədbəxtlik insanın özündən gəlmir, göndərilir və bir alət vasitəsinə dönür. Bədbəxtliyin baiskarını tapsan onu bağışlamağa çalış. O zaman necə xoşbəxt olacağını anlarsan. Mən bunu qadınlara şamil edirəm, kişilərin qərarı isə bam-başqadır, birdir: Sərt cəza. Anlamaram, bədbəxtlik yaradanın günahlarını kişilər bağışlasın, bacarsın bunu. Hə, bunu yaratmamağın bircə yolu var: Qadınlar bu rəzalətə yol açmasınlar, kişiləri baiskar roluna çağırmasınlar”.

Aytac özünün nəticəsini dodaqaltı pıçıldadı: “Gərək parlaq mühit olsun ki, hisslər qasırğası qadını dəniz dibinə sürüməsin”.

Ana stəkanları stolun üstünə qoydu, əlinin səliqəsiylə bişirdiyi ərik mürəbbəsini də. Qızına ümidli şəfqətlə nəzər saldı. O, doymurdu qızına baxmaqdan, hər dəfə də onun taleyini fikirləşirdi. Bir dəfə özünü məzəmmət eləmişdi: “Nə yaxşı müəllimə olmamışam, şagirdlərimi öyüd-nəsihətdən bezdirərdim”. Amma tənqidinə haqq qazandırmışdı  ki, bu gün məktəbdən tərbiyə ayağını üzüb. On-on beş il əvvəl uşaqların tərbiyəsi irəlidəydi, beynin nə qədər biliklərlə dolsa da bir ciddi səhvinlə torpağın da əlindən çıxar, Vətənin də. Daha bu işdə elmin, biliyin bir qara qəpiyə dəyməz...

Ananın kədərdən çırpınan gözləri yol çəkirdi...

## 3.

Rəqqasə azarkeşlərinin, həmkarlarının, digər başqalarının alqışlarını eşidirdisə, başa düşmürdü, hamısını təntənəli bir ssenariyə bənzədirdi və yubileylər beləcə başlayır, qurtarır, qalır özüylə, keçmişiylə. Müəllimimiz deyirdi ki, yubiley, şadlıq, xürrəmlik deyil, ölümə bir addım yaxınlaşmaqdır. Haqlı idi o, çünki özü iki "yubiley"in şahidiydi, qəhrəmanı idi. Bu çılğınlıqdan uzaq, amma kövrək düşüncələr onu ilk dəfə "sənin sənətinə vurğunam, səni sənətinlə bərabər sevirəm" sözlərini xatırladı və kişini xatırlamağa çalışdı: siması çox dumanlı görünürdü. Hər bir tamaşasına gəlirdi və qırmızı güllərdən kiçicik buket hədiyyə edirdi. Əvvəl verib uzaqlaşırdı.

Nəhayət onun saqqızını oğurlaya bildi bu adam, görüşünə tərəddüdsüz getdi, sakit, ağacların kölgəsinə qoyulmuş skamyada oturdular. Kafeyə getməkdən qətiyyətlə imtinaya iradəsi yetdi, oğlan daha sözünü göyətmədi. Aralarında qısa vaxt olan söhbəti ala-toran xatırladı. İlk etirafı bu oldu ki, ailəsi dağılmışdır, qısqanclıq ucbatından – açıqlamadı hansıdır günahkar, istərsə ona evlənər və sənətinin davamına mane olmayacaq. Cavabı təxmini belə idi ki, ərə getmək barədə düşünmək istəmirəm, hələlik tezdir, on doqquz yaşın içindəyəm. Məni uğurlar gözləyir.

O, dinmədi, tutuldu sifəti, hətta gileyləndi özündən ki, təklik əl vermir ona. Vəzifəsinin icrasına maneçilik də yaradır. “Nə gizlədim, sənin bütün vücuduna aşiqəm, sən oynamırsan, uçursan mələklərsayağı” – pıçıldadı. – Mən nə desəm yaxşıdır: “Şair deyilsən ki? Mələklərlə şairlərin dostluğu qədimdir. Şairlərdən qorxuram”. Yamanca gülümsündüm. O isə çiyinlərini çəkdi, nə desə yaxşıdır: “Şair deyiləm. Sən mənim olsan şairləşərəm, gözəl rəqqasə”. İlk görüşdə onun “svoyski” davranışına vuruldum. Amma razılaşmadım. Biz telefonla danışırdıq. Amma anamın nəzarətindən çıxmamışdım və buna cəsarətim çatmırdı.

Fikirdən rəqqasəni mayestronun: “Güntac, erkən rəqs günlərini göstərir rejissor. Qanrıl”. Lent alqışlarla qarşılandı. Halbuki, bu səsləri o, eşitmək iqtidarında deyildi və sol yana döndü. O, sevdiyi “Naz eləmə”ni oynayır, tərəf müqabilinə həqiqətən naz satırdı. Xatırladı həmin məqamları. Rəqs vaxtı ehtiyatsızlıq eləyib, sinəsini örtən tül – ağ köynəyinin yaxasını düymələməyibmiş, eləcə də çıxıb. Oğlan ona yaxınlaşıb iltifat edəndə belinin qıvrılan anlarında sinəsi açılıb və operator dərhal bu görünüşü qabarıqlaşdırıb. Xatırladı bu lenti. Ləğv eləmək qərarını verdilər, lakin bədii quruluş rəhbəri Əminə xanım Dilbazi qəti erirazını bildirdi ki, rəqsdə onsuz da rəqqasənin bədəni üzdədir, tamaşaçılar üçün də belə

epizod lazımdır, təbii alındı. Əminə xanım da xanımdır, kim sözünü iki edər.

Rəqqasənin bədəni uçundu, taqəri sarsıldı. Rəqqasə o deyildi, onun lap cavanlığı idi. Göyərçin vaxtı idi, səmada günəş işığında qanadlarını gərən çağları idi. Rəngi ağarmışdı, gözləri ilə o cavan rəqqasəni axtarırdı, dərdli-dərdli gülümsədi, xatirə qəlbini dərindən yaralamışdı. Göz qapaqları öpüşdü, işıqlar söndü onun üçün və yalnız bir nəfər, onunla ilk görüşünə çıxan Güntac qaldı. Tənha. Üçüncü görüşdə o, əlini ovcunda sıxdı və enerjisini oğlandan əsirgəmədi. Bu hərəkəti nədən xəbər verirdi, olmaya tutqun xəyal idi, sarsıntıdan doğmuşdu? Bu düşüncələrdə rəqqasənin üzündə, gözündə sakitlik sezilirdi, bu arxada qalmış xoşbəxtlik payı idimi? O, oğlandan ismətli öpüş istəmirdi, nə də məsum nəvaziş. Hələlik bunlara qadir deyildi, gücü çatmırdı. Baxışları hələ Ayın səpələdiyi işıqları "tutmaq" istəyirdi. O, oğlanın cazibə qüvvəsinə tabe olacaqdımı? Əli belə onun əsarətindən çıxmamışdı, kişinin təmasından yanaqları vaxtından gec dərilən alma kimi qızarmışdı, füsünkar sinəsini tər almışdı, koftası bədənini sıxmışdı, hərəkətində zərif qəşənglik əmələ gəlmişdi. Bu, cavan rəqqasənin bakirəlik əlamətiydi. Bu əlamətlər aşkar olmayan xəyal idi, ona sərt toxunmuş hərarət kimi görsənmişdi.

Qətiyyətli təklifdən rəqqasə sarsılmışdı, həyəcanlanmışdı, gözlərinin haləsi dəyişilmişdi. Dodaqları hey səyriyirdi, hörüyü barmaqlarında alovlanırdı. O, ağuşuna sıxdıqca xəyalı oğlana güzəştə getməmişdi – qaçırmışdı, özü "oğurlamışdı". Füsunkarlığı qəlbinin əks-sədası idi, o da uçmuşdu. Zərif, ipək sap kimi ahını boğmaq məcburiyyətinə dözməli olmuşdu. Xoşbəxt idi, itirməmişdi, ehtirasının hökmranlığı altına düşməmişdi. Elə bu anlarında özünü itirmiş halda oğlanın öpüşünə cavab vermək istədisə...

Mayestro yenə onun əlinə toxundu, hiss eləmişdi rəqqasə dərin xəyal dünyasına qonaq çağırılmışdır, oyatmaq istəmədi. Ekranda daha bir rəqsi nümayiş etdirirdilər. Bu oyunu əlli yaşında göstərmişdi: bədəni dolu idi, qollarının havası səngimişdi, saçları "çəldlik" eləmişdi, amma rəqsi çevikdi, ləngərliydi. Mayestro məhz bu yaşı üçün fikrindən dönmüşdü. Rəqqasə salona göz gəzdirdi bu dəfə də, özü də bilmirdi kimi axtarır. Amma axtaracaqdı, hansı yaşının müşahidəçisini: Mürgülü enerjisi ilə əlləşən yeniyetmə cavan rəqqasənimi?

Daima təşvişlə üz-üzə gələn rəqqasə. Hələlik o, mübarizə aparmaq bacarığından məhrumdur. Qayğısız səadət ona kənardan baxır. Ümidləri duman – çənə bürünüb axır, günəş şəfəqlərini görcək əriyib otlara, çiçəklərə, ağaclara sızacaq. Şübhələrin cay-

naqlarına atılacaq. Səadəti əldə etmək üçün coşqun əzabla üzləşəcək.

O, barmaqlarını bir-birinə sıxdı, soyumuşdu, sanki qar altında qalmış quru çubuqlardı. Dodaqları uşaqlığının xam dodaqları kimi aralandı, deyəcəyi son sözləri uçub getdi. İndiki halı kədərdən soraq verirdi. Dağınıq həyatının, yoxsa qırıntıları idi? O, göz yaşları içərisində güldü, bu o anlardı möhkəm qar yağmışdı kəndə, el-obaya. Qartalın qara kölgəsi dümağ qarın üstündə sürüşürdü, meşəyə sarı uzanırdı və o, dodaqaltı mızıldandı, heç kəs eşidə bilmədi.

Zəng vaxtı tamamlandı, əksəri qızlar olan şagirdlər barmaqları ucunda siniflərə axışırdılar, ikincisi çalındı: özü və müəlliməsi. Pərişanlığı yorğunluqdan irəli gəlirdi, O, incəsənət kollecində də dərs aparırdı, əzəldən işinə həvəsi və səliqəsi vardı, başladığını sona çatdırmağa adət eləmişdi, yetirmələrinə bu xasiyyətini aşılamağı bacarmışdı. Müəllimə barmaqlarını daraqlayıb saçına sığal çəkdi. Xadimə böyürdən çıxdı və onlara – əsasən müəlliməni nəzərdə tutmuşdu – uzada-uzada salam verdi.

– İndi biz “Daban rəqsi”nə başlayacağıq, – astadan dedi. – Bu hava Əminə xanıma məxsusdu, ilk quruluşunu da özü veribdir. – Bu izahatdan sonra bədəninə qəmgin-qəmgin baxdı, sol və sağ əlini “ortasında” saxlayıb sıxdı. Baldırları qəşəngliyində qalmışdı, əyilib hər iki dabanını ovcuna aldı, ayaq bar-

maqlarını oynatdı. Hiss olunuurdu o, "Daban rəqsi"nə hazırlıq görür.

– Bax, hərəkətlərimə diqqət kəsil, – pıçıltı ilə dilləndi və bir gediş süzdü. – Dabanlarını yerə döyə-döyə oynamalısan. Güclü kimin dabanı varsa, rəqsi özünə ram edir. Xeyli yaşı olsa da Əminə xanım bu rəqslə möcüzə yaradırdı.

Güntac bu rəqsi üç dəfə təkrar eləmişdi – xatırladı. – Üçüncünü məharətlə başa çatdırmışdı. Müəlliməsinin baxışı nə deyəcəkdi – özünə sual verdi içində, xüsusilə, narahatlığı o idi. Dodaqaltı mahnı mızıldayırdı, unudulmuş xalq melodiyası idi, nənəsindən eşitmişdi. Müəlliminin üzündə sevinc işartısı da elə bil rəqs eləyirdi.

– Haradan ağlına gəldi bu üsul? – Sualdan çox razılıq idi və başladı özü bir-iki misranı pıçıldamağa. – Sənin məlahətli səsin varmış. Müğənniliyi seçmiş olsaydın? – Öz stulunda oturdu, qılçalarını üst-üstə aşırdı, sağ ayağını ritmə uyğun oynatdı. – Yaxşı eləmisən. – Üzündə zərif narazılıq gəzdi. – Müğənnilər. – Susdu, çayı bəhanə edib stəkanı padnosdan götürdü. Çay qaynarlığını soyuğa verməmişdi, buğlanırdı, bir-iki qurtum acısına içdi və stəkanı yerinə qoydu.

– Yaxşı hərəkət etmisən, indiki müğənniləri oxumaqdan daha öncə "sponsor ovu" maraqlandırır, bir də rəsmi ad almaq. Neçə illərdir rəqabət bu ad

üstündə gedir. Şükürlər olsun, onlar məqsədlərinə nail olurlar! – İkibaşlıydı.

Müəllimə hirsli-hirsli o baş bu başa gedirdi, kiçik rəqs zalında, nəsə oxumaq ürəyindən keçirdi. Güntac belə yozası olmuşdu. Bu fikirdə ikən ona yaxınlaşdı

– O melodiyanı sözləri ilə astadan oxu, yaman tutdu məni. – Rəqqasə nə qədər əlləşdisə sözlərini yadına sala bilmədi, yoxsa müəlliməsinin xatirinə elə oturduğu yerdə, mayestronun yanındaca sakitcə oxuyacaqdı. Huşsuzluğuna acıdı da!

– İnsan var – yaxşı şeyi görmək istəmir – nədəndir? Hey nəsihət dərsinə baş-layır, zəhləni tökür, adamın başına ağıl qoymaq istəyir, buna mənim halım çatmır. Müəllimə stuldan qalxdı. Onu ovundurmalıydım, əlbəttə, ancaq mahnını zümzümə etməklə.

Mayestro qaltanlı pıçıltı ilə dedi:

– Son sözündə ilk müəlliminin adını çəkərsən, Qəmər Almaszadənin! Böyük bir baletmeystrin!

– Mayestro. – Güntac da asta pıçıltıyla cavab verdi:

– Qəmər xanım mənim müəllimimin ustadı olmuşdu. Mən nə götürmüşəmsə Əminə Dilbaziyə borcluyam.

Mayestro rəqqasənin əlindən ustufca yapışdı:

– Xoşbəxtsən, ona görə formanı saxlamısan, iki böyük sənətkardan ustad dərsləri almısan!

Müəllimə çayını sonadək içmişdi, özünə gəlmişdi, hiss olunurdu yüngülləşmişdir. Səbəbkar o mahnı idi, sözlərini indi unutduğunu.

– Rəqqasələr – balerinalar xanəndələrdən tamam fərqli həyatlarını yaşayır, xüsusilə, qadınları. Bizim sənətin daşıyıcılarının yeganə qüsuru. – Sözünü yarımçıq kəsdi və gülümsündü, dodaqları şirələndi, hələ gözdən düşməyən bədənini güzgüyə tərəf yaxınlaşdırdı. – Ömrümüzün yarısı güzgünün qabağında itir, yox, itiririk.

Onda idi diqqətim. Onun işıldayan gözlərinin dairəsində kiprikləri çırpınırdı; o, nifrətinə üstünlük qazandırmaq istəyirdi. Ömrü uzunu kişilərin təqibinə məruz qaldığının əvəzini mənim iştirakımla çıxmağa çalışırdı. Daima bu təqib onda tutqun ovqat yaratmışdı, duyduğu saf riqqəti və mərhəmət hissi oğurlanmışdı. Bu dəqiqələrində müəllimələsinə qarşı fəzilət duyğusu baş qaldırmışdı, bu qadına səxavətli günəş şüası lazım idi, şəfəqlərini əsirgəməsin.

– Mən özümü gizlətməmişəm heç zaman. – Nəhayət, sükutu pozdu. – Kişi pərəstişkarlarımdan qaçmışam, xarici qamətli kişilərin buraxdığı təsirə də qapılmışam, hətta sevinmişəm, sevilmişəm. Sonralar ağıla dolduqca. – Bu vaxt xadimə – o qadın əlində armudu stəkanda çayı padnosa qoyub uzaqlaşdı.

Ağır taxtalı qadına oxşayırdı. – Bircə dəfə. – Qəmgin səslə tələffüz elədi bu iki kəlməni. – O, kişiyə – cavana yox ey. – Əlini havada yellədib, yanına gəldi. – Bütün qəlbimlə bağlanmışdım ona, baxışlarını məndən yayındıranda qısqanırdım, hərəkətlərini bilixtiyar təqlid eləməyə çalışırdım, bu mənim ona sədaqətli məhəbbətimə işarəydi. Barmaqlarımı ovcundan çıxarmağa cürət etmirdim, elə bilirdim cansız barmaqlarım üzülər. Bircə dəfə "tənqid" gözüylə onu süzdüm, gicgahında, ağzının ətrafında qırışları gördüm, amma qüssələnmədim, kişilərə məxsus əlamət hesab etdim. Əvvəlki işvəkarlığım yerində oynayırdı. Heç halda onun gözlərində istehza və şübhə ifadəsi görmədim.

Maraqlı xasiyyəti o idi, söhbətində sual almağa yer qoymurdu, ilk gündən bunu hiss elədim, özümü suallardan kənarlaşdırdım, yaxşı hərəkət idi bu. Son "açıqlama – xatırlaması"ndan sonra o nəzərimdə kimsələşmişdi. O, sakit, tufandan qaçmış əqidəsini ürəyinin dərin qatlarında gizlətmişdi, zövq və əyləncə dünyasından uzaqlaşmışdı, gümanımda. Bəlkə də gözəl, qəşəng və sənətində mahir olan balerina – rəqqasə zamanın, sərvətin təsirinə uyub özünü ləkələmişdi? Axı, gecə vaxtı, Ay kiçiləndə balıqlar tilova tez düşür, – yem üçün tələsirlər! Bilirdim, kişilərin duyğularının və hərəkətlərinin səbəblərini başa düşmək bizim peşənin qız – qadınına çətindir. Axı,

olmayan, yaşamadığın nəsnələri görmək mümkünsüz cəhddir. Kişilər qadınlara, yalmananlar belə "bicllikləri" xoşlamırlar. Mən birinci dəfə buna səyli oldum. – Müəllimən söhbətinə qayıtdı və gülümsədi. – O, hirsli-hirsli papirosunu yandırdı, dolu qullab vurdu, tüstüsünü çevrilib yana buraxdı. Onun xasiyyətində şübhələrə, tərəddüdlərə yer vardı, özünə həddsiz güvənci, dərin ağlı bu cür böyütmüşdü onu. – Skamyadan durdu, papirosunu sonacan çəkmədi.

– Mənim içimdəmi, beynimdəmi bir yalan, yox həqiqətdir – qadınları axmaq, rəzil hesab edirəm. Bütün qadınları. – İki sözü qəsdən vurğu ilə səsləndirdi. – Onların hətta fəhmli sevgisində mənasızlıq görürəm, həm də bu məhəbbətdən qorxuram. Bu, sadə qısqanclıq hissi deyil. Və əllərini sinəsində çarpazladı.

Bu sözləri deyəndə onun sifəti birdən-birə qırışıb iztirab ifadəsi aldı, baxışlarını yayındırdı. O, qəribə nəzərlərilə gözlərimin içinə baxırdı, həyəcanımı sezirdi, məndə isə ciddiyyətli duyğular oyanmışdı. Qalın – çarpaz atılan tüfəng gülləsi qəlpə-qəlpə ciyərlərimi tutmuşdu. Atəş isə işıqda bərq vurmuşdu, tüstülənirdi. O, boğuq və qəzəbli çığırtımı eşitməyə hazırdı.

Baxdım ona, kişinin azca çərəlmiş ətli dodaqları səyriyirdi, gümanladım fikrini: ya yersiz hesab edir, ya da tələsdiyini təsdiqləyir. Bu dəqiqələrimdə mənə

elə gəldi onun gözləri rəngini dəyişdi, pişik gözləri kimi oynayır, bədənindən qurumuş küləş qoxusu gəlir, burnumu göynədir. Mən cəld hərəkətlə yerimdən qalxdım, onunla üzbəüz durdum, dörd yanımda nələrsə qaynaşırdı. – Mənə bu ovqatda göründü – bəlkə ətrafımdakı fəvvarə kimi sıçraşan birələrdi, bu dəqiqə bədənimə daraşacaqlar. O, bu dəqiqə daha arıq göründü, qəlbi balacalaşmışdı, gözləri işığını itirmişdi. Gözlərini yumub başını əsəbiliklə yırğaladı, belə hərəkətləri dəlixanadan təzəcə qaçanlar edirlər qırmızı paltarlı qadını görəndə. Mən ki, göyə – maviyə çalan paltarda idim.

Bu görüşdə hava daha da bəyazlaşmışdı, tankerlərin hərəkəti dayanmışdı, borulardan çıxan qara tüstülər sönmüş siqarın son "nəfəsi" kimi Xəzərin sularında boğulur, atılıb düşürdü, aldanan balıqlar dərhal ləpələrin altına cumurdular. İynəyarpaqlı söyüd ağacı sakitləşmişdi. Buludlar dağılmışdı. Mənim qəm-qüssəm parçalanmışdı, qara şüşə kimi çilik-çilik olmuşdu.

Qoşa it sahildə tənbəl-tənbəl şörtüyürdü, nəmi çökmüş asfaltı imsiləyirdilər. Mən bir təhər dözüb onun sifətinə, əsasən gözlərinə baxmaq qərarını verdim. Gözlərinin altı torba kimi sallanmışdı, onunla görüşəndə belə olmamışdı. Deməli, vücudunda mübhəm, məndən saxtakarcasına gizlətdiyi ciddiyyətlər varmış, üzünə vurmuşdu, alt dodağındakı ça-

pıq səyriyirdi. Sanki qorxu içərisində idi və üstümə əclaflar kimi tulladığı sözlərinə düzəliş vermək istəyirdi, nəsə deməyə çalışırdı, səsi titrəyirdi.

Mən dözmək, susmaq – bacarığımdan uzaqdım və birinci dəfə onun rəngini seçə bilmədiyim sifətinə tüpürdüm. Bu hərəkətə haqqım çatırdı, axı, özümü ona bağışlamamışdım...

– Güntac, – gecəni aparan aktyor rəqqasəyə tərəf gəldi. Əlini ona uzatdı, bir neçə saniyə duruxdu, onun yaşarmış gözləri işıqda parıldayırdı, həm də miskin bir təbəssüm oxudu. Aktyora elə gəldi, rəqqasə elə indicə kimdənsə ayrıldı, bu, bəlkə onu yormuş həyatı idi, bəlkə yorulmuşdu, əl çatmayan hisslərini itirirdi. Bəklə də bu saatca ağır və azğın kişi nəvazişi içində onu boğurdu və həqarətlə gülümsəyirdi. Olmaya huşsuzluğun zülməti ağuşunda keçmişini xatırlamağa çalışırdı, ürəyi od vurulmuş xırman kimi baş qaldırmışdır. Və aktyor rəqqasəni yerindən qaldırdı, özüylə tribunaya yox, səhnənin ortasına, bir qədər də tamaşaçılara yaxınlaşdırdı. Alqışlar...

– Budur məşhur rəqqasə – adını onsuz da bilirsiz, nə ehtiyac təqdimata. – Üzünü ona tərəf çevirdi. – Söz sizindir, amma pərəstişkarlarını, ənənəni gözləməklə...

Sənin arenaya çıxmaq vaxtın çatıbdır, bilməlisən. – Müəllimi çayını içə-içə dedi bu məsləhəti və

qürurla tələbəsinin üzündə nəsə axtarmaq istədi. Onun sifəti isə ahəngində idi və son dərəcə sakitdi. – Bahalı şəhərin oğrusu da bahalı olur, – dedi və stuldan qalxıb örtülü pəcərəyə baxdısa, yaxınlaşmadı. – Biz peşə adamlarının bütün hərəkətləri yalnız kişilərin marağındadır, bəs? Bəs niyə bəd ideya atıblar ortaya ki, dövləti qadın idarə etmək şərəfinə qadir olmamışdır!

Mən bu sözləri qulağıma alanda təəccübləndim, halətimi o, hiss edib bəlkə də. Məni qabaqladı:

– Tamamilə səhvdir, – deyib gülümsədi. Bu "təbəssümdən" məni şübhə götürdü və dilləndim ki, ona görə qadın başçılar kişiyə vurula bilər, hisslərini ehtirasında itirər, daha nə bilim, nə! – Dilimə güc vermişəm sən demə! – Dövlətin intereslərini də!

– Qızım, yağışdan islanan meşə alatoranda işıldar, quşlar, böcəklər sakit dayanmaz, bala böyüdən qartallar, canlı ət gətirən "nəhənglər" ovuna çıxar, yolayrıcı otlar yuxulu-yuxulu enər, şeh damcılarını silkələyib, torpağa yola salar. Nəhayət, son, son! – Cavabını alar!

Mövzu davam olacaqdı, çünki mən daha mühakimə eləmək iqtidarına yiyələnməmişdim, görürdüm müəlliməm ağlabatan fikirlərimə reaksiya verir. Hətta məni "anlar" düşündürürdü, bircə dəfə dedim ki, ustadım, bir anı əldən çıxarsan, o bir an daha gəlməyəcək.

O, ayağa qalxdı, kortəbii gah güzgüyə tərəf, gah da ümidli baxışlarını saxla-yırdı. Qəfildən dilləndi:

– Hə, “anlar”, “anlar”, fövtə verəndə nəinki dəqiqələrini, saatlarını, hətta illərini, ömrünü itirirsən, sən deyən kimi, sonrası gəlməyəcək. Mən ... – Tərli alnını ipək dəsmalla sildi, sanki münaqişəli hisslərlə vuruşa hazırlaşırdı, qaralmış şüurunu bəlkə bir oyanışı gözləyirdi. Xışıldayan ipək yupkasını aşağı dartdı – deyəsən əvvəldən dar idi, fikir verməmişəm – incə bədəni kədərin ağırlığındanmı, sözümün yükündənmi sanki sınacaqdı.

– Mən. – Pıçıltı dodaqlarından qopdu. – Qızlıq həyatımın xürrəm, şən günlərindən mənə heç nə qalmadı, anba an itirdim, bu isə məndə payız fəslini sevməyə sövqi-təbii hiss oyatmışdı, budur, həyatım səssiz-səmirsiz sürüşüb gedir. Bax “anın” fəlsəfi dərsidir. Yadıma düşür, fəlsəfə müəllimimiz Bəhram Avılov “an”lardan elə şeylər danışırdı. Sənin haradan gəldi ağlına.

Mən padnosdan stəkanı götürüb ona uzatdım, hələ soyumamışdı. Əlim barmaqlarına toxuncaq onun soyuq bədənini fəhmlə dəqiqləşdirdim. Görəsən o, haralara uçurmuşdu xəyalını.

– Hə. Bağışla, – pıçıltısı yumşaq səsləndi. – Oyuncaq ağlayan uşağı ovundurmaq üçün mənasız bir vasitədir, təşəbbüsdür.

Günəş tər yaşıllıq üzərində parlayır. Yaşadığım həyat yalnız özüm üçün aldığım oyuncaq deyilmi? Sınan məhəbbəti calamaq kimi bir şeydir. Onun qırıntıları da, özü də keçmişdə qalmışdır, indi olmayan varlıqdır. Başı köpüklü dalğalar ha sahibinə can atsın.

– Sağ ol, çay yerinə düşdü, – deyib oturdu. – Mən onun gözlərində çılğın ümid axtarıram. O, yaşadığı həyat tərzinin təzyiqi altında həqiqətpərəst olmuşdu, əyilməmişdi, kişi çarpayısı üçün tələsməmişdi, onun üçün sevgisini itirmişdi.

– Müəllimimiz Bəhram Avılov deyirdi ki, insan idrakı təkbaşına həqiqəti dərk edə bilməz, həqiqət yalnız cəmiyyətin üzünə açılır, həqiqəti vəhy qüvvəsiylə anlamaq mümkündür. Sonralar həyata, çərdəymiş səhnəyə atılanda başa düşdüm ki. Mən mənasız əzaba vurulmuşam, məhəbbətimə yox. İnsanların öz sevgisinə amansızlığı, laqeydliyi birinci olaraq qadınları tapır, bu yazıq məxluq kişilərə nə edir ki. Vücudlarını qurban verirlər, bundan qiymətli nə ola bilər!

Müəllimənin üzündə sonsuz süstlük, acı taleyindən küsənlik. O, sözlərini, fikrini hələ tamamlamamışdı. Hər bir qadının öz tale yükü var – onu daşımağa borcludur. – Söhbətinin səsləri altında bir-birinə sarılan gözlərin parıltısı. Bu vaxt alçaq boylu dolğun bir qız yanımızdan keçdi dabanlarını döşəmədən çəkmədən. Qızın dəyirmi və solğun üzü göründü. Qulağının dalından hörüyü çıxmışdı. Gözlərinin

ürkək nəzərinin kölgəsi yaddaşıma hopdu. Müəlliмə diqqətində dedi:

– İstedadlı qızdı, heyif balacadı boyda, daha uzanmaz. – Dodağı qaçdı.

## 4.

Ananı bu günlərlə, aylarda düşündürən Aytacın gələcək taleyiydi. Qarışıq dövr – zaman gəlib, insanlar başqalaşır, kökündən uzaqlaşır. Xüsusən, qız uşaqların taleyi çətinləşir: dərhal sevişirlər, görüşlərə çıxırlar, evlənirlər. Bəs sonra? Boşanırlar! Sanki heç vaxt görüşüb-danışmamışlar. İnsan elə məxluqdur – iztiraba yıxılanda vaxt istər ki, iztirabı onun canından kimsə qovsun, çıxarsın, azad nəfəs alsın, kimsə ümidi doğrultsun. Adamlar yetişib – heç vaxt heç kimə inanmırlar, ehtiyacdan əl açırlar – sözü belə eşitmir, özünü karsallığa salır, belələrinin qəlbi, ürəyi donur, günahsız qarışqaları, böcəkləri ayaqları altında hamar eləyir. – Ana düşünür, düşünür. Xəbərsizdi, qızı bu yaşında sevirmi, yaxud onu istəyirlərmi, az sonra qarşısında yeni dünya görünəcək, aləmin açıldığını hiss edəcək. Qorx o gündən – bu cəmiyyətdə cəhdin – hərəkətin, hətta uğurun mənasız olduğunu zənn edib narahatçılığa başlayacaq. Qarşısına mübhəm suallar çıxacaq. Rəqqasə olacaqsa...

– Ana döşəmədə pişiyin rezin topla oynadığını görür, diqqətini bəzən itirir, bəzən də ona elə görünürdü bu “Banan” (adını Aytac qoymuşdu) balaca qızcığazla oynayır, yox, yeddi yaşına keçmiş bu pişik heç vaxt evi tərk eləmədi, nə də qonşu “gəlmə” pişikləri həyətə buraxdı. Aytac özü oğrun-oğrun “görüşə” gedirdi. Aytac dəcəl idi və bu xasiyyəti ucbatından tez-tez yıxılırdı, dizlərindən əzilirdi. Onu “ufff, ana” deyə səsləyirdi. Uşaq yıxılanda anasını çağırır, atasının yanında gedəndə belə. Əliylə əzilən yeri barmağı ilə göstərir ki, “budu, budu, ana”. Ağrısının yüngülləşəcəyi ümidini anası doğruldur! Axı, nə etmişdi ki! “Heç nəyi” təsəvvüründə canlandıran uşaq hipnozcasına anasını həkim yerində görürdü. Neçə dəfə Aytac beləcə anasını çağırıb ki, öpsün! Anasının qayğı göstərməsi uşağı ovundurur. Ana mənəvi xassələrə malik qadındı, bacara bildiyi dərəcədə yaxşı olmağa çalışır, qızına gələndə – onun həyatda öyrənə bilməyəcəyi şeyləri öyrətməyə çalışırdı, aşılamaq istəyirdi ki, meşşanların sürdüyü həyata nifrət bəsləsin. Sonralar özü hər şeydən xəbərdar olacaq. Amma... Etirazına özü cavab verdi. – Aytac daha uşaq olmayacaqdı, böyümüşdü, gözəl qız idi, “analar demişkən”, “qızlar bulağından su içmişdir”, ilk konsertlərə dəvətlər alır, onun ruhi fəaliyyəti başqa müstəviyə keçmişdir, şirnikdirici sahəyə. Burada o, haqlı da, haqsız da yaşayacaqdı. Bu məkan sənət-

kar xanımların ovuna çıxır, sevgi aləmini diqtə eləmək istəyir və nail olur. Bax, qorxduğu odur – o meşşan məmurlar pusquda dayanırlar. Təzə səhnəyə, telekanallara çıxan qızları, xanımları görüb mütləq şirəyə yapışan iştahla qamarlayırlar. Bu imkanlı adamlar üçün həyat necə də dadlıdır, zövqlər və əyləncələr aləmində. Oğurladıqları göy əskinazları ayaqları altına yox, sinələri üstünə səpirlər, döşləri bu əskinazları elə sıxır ki!

Ananın üzünü yazıq bir təbəssüm işıqlandırdı. Onu yoran, fikirləşməyə vadar edən bu cür həqiqətlər idi, amma üstün cəhəti o idi yorulmamışdı, hisslərini itirməmişdi. Əvəzində ağır, əzgin kişi məhəbbətinin əks-sədasını eşitmək vahiməsini tapmışdı. Ana kədər içində çapalayırdı, özündən xəbərsiz göz yaşları solmuş yanaqlarına düşür, tez də quruyurdu. Çeynədiyi sarımsaq çiçəyini unutmuşdu. İntizar aləmi onun sifətini yalayırdı. Ana divardan asılmış Aytacın məktəbli portretinin ona zillənmiş baxışlarından fərəh duyurdu və birdən hər şeyi unudub nikbinliyinə qayıdırdı. Fotoqrafın balaca, ancaq uzunsov zirzəmidəki otağına apardığı o günü xatırladı, sanki indicə qayıtmışdılar: Aytacın qara saçları hörülmüşdü, dolu girdə üzü çiçək ləkəklərinə bənzəyirdi. Ütülü köynəkdə saçlarına lent bağlamış qızcığaz. Fotoqraf əl hərəkətlərilə ona “göstərişlərini” verirdi: yəni gülümsə azacıq, alınırdı və usta bundan razı qalırdı.

Sonra evə qayıdanda uşaq anasına iradını gizlətmədi, dedi ki, fotoqrafın səs telləri xarabdı, "cır çıxır", diksinirdim. Halbuki, kişi isti, qaynar uşağın saçlarını sığallayır, necə oxumasına aid suallarla onu daha bir şəkil çəkdirməyə ruhlandırdı və məqsədinə nail oldu. Bu dəfə Aytac ayaq üstə, rəqs pozasında özünü "əbədiləşdirdi". Ana kənardan baxır, gülümsəyir: qızının gözlərində çılğın və kövrək ümid işarırdı, işıq parıltıları oyanırdı. Qızının uşaq qəlbində gələcəyə qanad açan həyat çırpınırdı.

**5.**

Sultan Məlik şah ən yaxşı ox atan olmuşdu və ən çılğın ovçuluq da ona yad deyildi. Bir ovda o, nökərlərinə əmr verir ki, ovda vurduqlarını saysınlar. Fantastik rəqəm alınır: 10 min baş heyvan. Və digər əmrində isə: 10 min dinar sədəqə verməyi qərarlaşdırır: "Mən əylənmək xatirinə heyvanların qanını tökmək üçün qadir Allahdan qorxuram". Maraqlı və ibrətamiz ondadır, gözəl qadın pərəstişkarları, hansı ki, gizlində bir oxuyanı, yaxud balerina qızı – qadını saxlayır, onu təmin edir, madiyyat imkanları ilə. Onları subay, yaxud ərli qadının namusunu ləkələmək hissiyatı (görəsən varmı?) əsla maraqlandırmır.

Ananı indidən vahimə qazanında qaynadan bu idi – vaxt müqabilində görmüşdü: başqa planetdən gəlməmişdi a!

İnsan ölümə məhkumdur, böyük Allah onu belə xəlq eyləmişdir, ona görə də İnsan özünün mühafizəsi üçün düşünməyə borcludur. Qadın tayfası kişidən daha çox özünü anlamalıdır, çünki onun bədəni həris kişilərin əhatəsində yaşayır, özü qapıları döyür, nəyəsə nail olmağa çalışır. Əgər balerinadırsa, ona layiqli rolunu rejissor vermirsə o, həmin qapını zərif barmaqları ilə döyür, sinəsində hayqıran saçlarını ustufca əllərində oynadırsa, rəqqasədirdə, onu möhtəşəm rəsmi konsertlərə, televiziya ekranına buraxmırlarsa... Onu necə tanıyarlar, sevərlər? – Ana bu saatlarında özünü müəllim qiyafəsində görürdü, orta təhsili olsa da, dünyagörüşü həqiqətpərəstliyə güclü meyilliydi. Yeganə qızını riyakarların caynağına atmaq ona yad idi. O, riyakarlar ki, ən qorxunc günahların sahibidirlər, ona görə ki, onları təkəbbürlü etmişlər. Özünü anlamaq məqsədi təkəbbürlü olmağın məkirli tələsi deyilmi? – Sual haradan yetişdi ağlıma? – Daha bir sual da belə əmələ gəldi.

Ana mütaliəçi qadın olaraq, tələbə vaxtlarında saysız bədii və arabir elmi kitablar oxuyurdu. Onun "qeydlər" dəftərçəsi indi durur, yadigar kimi qoruyur. Bir neçə gün əvvəl olardı Sultan Məlik şah barədə bir tarixçinin məqaləsini kəsib saxlayıbmış – oxuyub, bayaqkı ov əhvalatını da oradan yadında saxlamışdı... Məlik şah hökmdarlığından sui-istifadə ilə sarayına məmləkətin ən qəşəng, xoşagəlimli

qadınlarını cəmləşdirmişdi. – Ana bu epizodu oxuyanda məkrlə güldü ki, deyəsən bizim məmləkətdə rollar dəyişib, indi vəzifəlilər, haram pula yiyələnənlər bu rolu aparırlar, hələ bir övladları da. – Şahın iri qara sehrkar gözlü, uçan kirpikli kənizi vardı, Leyla idi. Onu Rum vilayətindən hədiyyə etmişdilər, gözəl rəqqasə idi, məlahətli səsində ecazkardı. O, Leylası ilə əylənən zaman cürbəcür mey badələrdə kişi əllərində yox, qadın barmaqlarında sıxılması üçün darıxır. Nə olsun ki, cansız, billur şüşədən hazırlanmışdır. Badəni əvvəlcə Leylasına təklif edirdi, sonra özü kobud və ətli barmaqları ilə saxlayırdı. Leylasının içməsindən həzz duyardı... – Bu təsvirdən əsəbləşdi, – beyninə min bir fikir gəldi: pıçıldadı: – Əvvəl, tələbə olanda bu mənzərəni nağıl hesab eləmişdim və tarixçini söymüşdüm də. Yanılmışam, avam olmuşam, indiki həyat Sultan Məlik şahın dövrünü çox-çox geridə qoyub. Oxuyanlar, oynayanlar mey azarkeşinə dönüblər. Hə, Məlik şah qırmızı rəngli mey doldurulmuş badəni qaldırır və Leylaya pıçıldayır:

– Mənim sənin dilindən eşitdiyim bir şeir. – Susur, misraları xatırlaya bilmir, Qara gözlü, zərif belli Leyla anlayır ki, şah hansı şeiri istəyir... Və sulanmış, titrəyən dodaqlarından misralar badəsinə süzülür:

***Bizi pəncəsində sıxmadın zaman,***
***Mey içək, ömrümüz xoş keçsin bu an.***
***Dünyadan gedəndə bu zalım fələk***
***Bir su içməyə də verməyir aman.***

Məlik şah Leyladan gözlərini ayırmırdı. Qadının saçları özünə yer tapmırdı, dodaqları qızarmışdı, gözləri par-par yanırdı, qaşları düyünlənirdi. Şah isə özünü-sözünü itirmişdi. Ətli burnu titrəyirdi, saçları kirpi iynəsi kimi biz-biz durmuşdu, alnı qırışmışdı. Leylanın cana işləyən qara bəbəkləri şaha tuşlanmışdı, bədənini sıxan ehtiras içində yerindən qalxdı. Sinəsi, döşü bir andaca at belisayağı büküldü. Şah keflənmişdi, amma nəyisə axtaran, onun üçün darıxan, nəyisə görməyə, duymağa can atan qiyafəsinə düşmüşdü. Leyla şahın daxili aləmində nəyə ehtiyacı olduğunu sezməyə adət eləmişdi, bir də hədəqəsində dayanan gözlərindəki baxışa. Leyla əvvəlcə dodaqaltı zümzümə elədi, üzündəki sonsuz sevinc işığı gücləndi, amma acı taleyinə yazığı gəlirdi, beş-on il sonra? Gözəlliyini bu zəngin otağa bağışlayandan sonra necə? Heç zaman ürəyindəkini dilindən qaçırtmamışdı. – Hər bir qızın, yaxud qadının öz tale yükü olur. – Ananın ürəyindən keçdi. – Leylaların cinsi duyğusu, fəhmi ürəyindən keçdi. Hissiyatları onları məcbur eləyir ki, – düşündü... Leya qollarını sağa-sola uçurdu, hər bir barmağı hörüldü və parıl-

dayan qaşlı üzüklər sinəsinə işıq saldı, ta göbəyinə qədər qızıl ilan kimi süründü. – Ana vərəqin birini oxumadan çevirdi. Ağrıdan sönükmüş gözlərini ovuşdurdu. Açıq qapıdan o biri otaqda məşhur rəqsi məşq edən qızını süzməyə ehtiyac duydu. Aytacın üzünə işıq düşmüşdü, solğun rəngli işıq ləkələri uçuşurdu. Özündə boşluq və heysizlik hiss elədi, ürəyi xiffətlə döyünmüşdü, pərxaşlıq qatırdı fikirlərinə. Aytac mürəkkəb rəqs elementini məharətlə ifa edəndə üzündə təbəssüm canlandı və soyuq istehza, xəfif qorxu, ahəst səs onu tərk elədi. Sifəti sakit və duru hala dönmüşdü. Qızının şumal, qəşəng üzündən həyat qaynarlığı yağırdı. Və rəqsi tamamlayıb, ehmal addımlarla mətbəxə keçdi. Vərəqin bir neçə yerində cümlələrin altından xətt çəkilmişdi, tanıdı. Vaxtilə, bəli, tələbəykən özü cızmışdı. Kədərləndi. O vaxt elə Aytac yaşına adlamışdı, amma o vaxtların qızlarını oxumaq düşündürürdü, işləyib ali təhsil diplomu maraqlandırırdı. İndi Aytacları? – Nə "sual" idi, nə "nida" idi! İnanırlar və ardıcıl həvəslərinin dalınca romantik gələcək onların idealıdır.

– Sultan Məlik şah rəqs edən Leylasının qarşısına az qaldı iməkləyib getsin, mey tutmuşdu onu. Leyla süzüb şahın qabağına gəldi, sığışdırmamışdı özünə – o, sürünsünmü, iməkləsinmi. – Qadınlar belə "təzimi" xoşlasalar da, Leyla belə hərkətə yol vermirdi. Şah azca dikəlib başını ona sarı uzatdı və ətirli

tənbəki iyi verən nəfəsini uddu, bunun mənası hədiyyə ilə başa gəlir: elə də oldu. Şah bir brilyant daşlı üzüyü barmağına taxdı. Baş barmağını ovcunda büküb dodaqlarına apardı...

Şah məstanə görüşdən ayılır, rəqs yox, oxumasını istəyirdi., misraları xatırlayıb anlatdı ki, şeirin dalını işvəkarlıqla pıçıldasın, “qüssədən tutulmuşam, xilas elə məni” deyərək, şahın arzusuna əməl eləsin. Leylanın gözəlliyi, bədən rəqsi qarşısında həyat eşqinə baş vururdu, hisslərini təzələyirdi, daha çox yaşamaq ümidinə inanırdı. Həyat eşqi ilə dolu gözlərinin parıltısı damla-damla işıq saçırdı. Leylanın üzündə şəfqət qarışıq ifadə canlanmışdı. Yorğun döşlərini tarım çəkmişdi imkan tapıb, təravət saçan yalın bədəni görünürdü. Leyla şeiri söyləməyə hazır ovqatda gözlərini mənalı endirdi və qaşlarını çatdı:

***Bu qoca dünyadan getdikdə sən, mən,***
***Kərpiclə örtülər qəbrimiz həmən.***
***Başqa qəbirlər üçün torpağımızdan,***
***Kərpic düzəldəcək, bunu düşün sən.***

**– 0 –**

***Bir udum mey dəyər bütün cahana,***
***Bir külün kərpici dəyər min cana.***
***Şərablı dodağı silən bir dəsmal***
***Dəyər min sarığa, min meylə ana.***

Misralar qurtarcaq Leyla dizini qaldırıb şahın ağuşuna atıldı və həqiqətən, şərablı dodağını tütünlü kişi dodaqlarına toxundurdu.

Şahın bədəni varınca əsdi, qolları açıldı, Leyladan beləcə iltifat görməmişdi, nəydi bu? O, ilhama gəlmişdimi? Yaddaşı şəhvətdən təzələnmişdimi? Leyla hiss etdi ki, şah nəsə demək həvəsindədi, onun şeir pərəstişkarlığından məmnun olurdu, xüsusilə, belə xumarlanan əhvalında. Yanılmamışdı. Şah qəmli səslə söylədi:

***Bu ot ki, göyərib çay qırağından,***
***Bitib bir dilbərin alt dodağından.***
***Asta gəz, çəməndə hər qızıl lalə***
***Çıxıb gözəllərin boz torpağından*.**

Və badələrə ağ şərab süzdü, bu şərabı Rumdan göndərmişdilər. Şahın bu, qəfil yadına düşdü. Leylanı agah elədi, "iç, sənin doğulduğun torpağın məhsuludur", deyib badəsini toxundurdu. Onun dadmasını gözlədi.

Şah yenə qəmli səslə misraları səsləndirdi:

***Sevinc içindədir, ey saqi, gülzar,***
***Düşün bircə həftə gülün ömrü var.***
***Mey iç, gül-çiçək dər, sən göz açınca***
***Səbzələr, çiçəklər olar tari-mar.***

## 6.

Rəqqasə nə vaxt tamaşaçılarla üzbəüz durduğunu yuxu sandı, həqiqətmi, röyamı idi? O, 70 yaşındamı pərəstişkarlarına "hesabat" verirdi? Onu istəyənlər vardı, indi qocalmışlar. – Fikrini inkar elədi: "yox, qocalan onlar deyil, mənəm". – Kövrəldi, ürəyindən uçan sözlərindən.

Vaxtilə öz rəqsləri və qəşəngliyilə ən zərif gözəl xanımları kölgədə buraxmışdı, zərli tül rəqs tamaşalarından süzülən bədənindən, ağ çiynindən həsəd paylayırdı tamaşaçılara. O vaxtlar rəqqasə Güntac idi, bu gün yetmiş yaşlı yubiliyar idi! İllərin amansızlığı deyilmi? Bu yaş dönümü onun üçün lazım idimi? – Yox – pıçıldadı qəlbinin dərinliyində. – Nahaq razılaşdım, onsuz da unutdulmuşdum, bir neçə nəslin yaddaşında. Yalnız bəzi verilişlərdə görsənirdim. Bu xeyirxah işi də mənim o günlərimi görənlər edir. Onlar da... – Üzünü tamaşaçılara tutdu, hələ bir kəlmə də dilindən çıxarmamışdı: "İlk dəfə, bəlkə də sonralar tamaşaçılarım məni alqışlara tutmuşdu, illərdən qalan ritmik səslər də sanki rəqsə qoşulmuşdu. Bədəni od tutub yanırdı, asılı deyildi məndən, cavandım axı" – bu xatirə haradan gəldi yaddaşına, lazım idimi? Və o dəqiqələrdə gəldi: cavan bir kişi, təxmini eləmişdi o vaxt – otuz-otuz beş yaşlarında olardı – zəngin qırmızı rəngli güllərdən bir gom dəs-

təylə yerindən cəld qalxdı. Qara kostyumun ağ köynəkdən sallanan qırmızı qolstuklu, saçı daraqlı ona tərəf addımladı və ona çata-çatda dayandı. Onun gözlərinə qeyri ixtiyari baxmışdı, axı insanda dəyişməyən yeganə gözlərdir, illərə təslim olmayan gözlər. Bu epizodu xatırlatdı qeyri-şüurlu. Yox, psixoloqlar demişkən, belə deyildi, ürəyi, hissiyyatı belə hərəkət eləmişdi. Əlləri barmaqlarına toxunanda elə bil cərəyan vurdu, titrədi, çırpındı. Ürəyi inkar hissiylə vurmurdu. Təkəbbürlü ləyaqətini qorumağı bacaran kişi təsiri oyatmışdı. Aydın görünən məmnuniyyət təsiri bağışlamışdı. O, bir neçə saniyə gözlərini mənalı-mənalı ona tərəf hərlədi və dəsti verib çəkildi. Rəqqasə yenə susmuşdu, rəqqasələrin dili yox, qolları və ayaqları "danışır", yaxşıki ayıq tamaşaçılar vəziyyəti bu cür qiymətə mindirirlər.

Tamaşaçılar bu dəqiqələrdə yubiliyar rəqqasədə ixtiyarsız təəssüf hissi sezirdilər... Bu sürətli vaxt kəsiyində üçüncü sıradan ağ saçlı, şıx geyimli kişi göründü. Sağ tərəfində oturan cavan cəld ayağa qalxıb ona şərait yaratdı. Bir-iki addım atmışdı, əlində əsası göründü. O, səhnəyə doğru gəlirdi. Sol qolu bir dəstə qırmızı rəngli gül dəstəsini böyrünə sıxmışdı, bunu görünür, əsaya mane olmamaq üçün etmişdi. O, səhnədə danışmağa hazırlaşan rəqqasəyə diqqətlə nəzər yetirirdi: Rəqqasəni yubiliyar qiyafəsində görmürdü – bu hissiyyatda sünilik yox idi – rəqqasə qız

təravətli çiyinli, süd kimi ağ dərili, qara hörüklü, üzündə zərif, düz cizgiliydi. Amma yorğun, bir qədər də təbəssümündə kinayə ifadə olunmağı təxmin elədi. Amma bu təsəvvürünü andaca unutdu. O, gülümsəyirdi və nazik, boyasız dodaqları titrədi, süzgün baxışları yaşıla çalırdı, məftunedici təsir bağışlayırdı, parıltılı kiprikləri və dartılmış qaşları məlahət saçırdı. İndi, bu anlarda rəqqasənin əsrarlı gözləri məchul dərinlikdən baxırdı. O, liderliyi sevirdi, buna nail olmaq üçün ərköyünlük də edirdi.

Qocanın qəlbinin dərinliyində nəsə titrədi, daxili donmuşdu, bəlli bir dəhşət ona hakim kəsilmişdi. Cavanlığına məxsus gərgin təbəssüm dodaqlarında qovuşmuşdu, nəfəsi burun pərlərinin ətrafında titrəyirdi.

Rəqqasə diqqətini sabitləşdirə bilmirdi, azacıq diksindi və əllərini yana saldı, acı dərman dadı verən hissləri ürəyini ağırlaşdırırdı. Çılçıraqdan saçılan işıqlar qara nöqtələr kimi oynaşırdı. İçi, vücudu donmuşdu, göz qapaqları ağırlaşmışdı. Gələcəyini verməyən keçmişi ona hakim olurdu, amma cavanlığı... gecə açmış çiçəklər kimi səhərəcən yaşamadı. O, mübhəm hissin anlaşılmaz əsarətindən canını qurtarmaq istəyirdi. Xatirələrindən doğan coşqunluğunu gəzirdi və qocanın baxışları xoşbəxt bir əzabı ifadə edirdi, bəlkə də o, rəqqasənin görünüşünə nəgəhani bir vurğunluqla gəlmişdi. Keçmişinin sərgələfi-

ni itirmişdi, susmuş və itirilmiş füsunkarlığı ona qalib gəlmişdi. Rəqqasənin ürəyi təşvişlə döyünür, heçliyin qoynundan çıxmaq istəyirdi. Keçmişi onun üzgün sifətinin cizgilərində ifadə olunurdu. Küstahlıqla qoca kişiyə zillənmiş gözləri qərar tutmurdu, boğazına yığılmış göz yaşların dodaqlarında deyəcəyi sözləri boğurdu. Son sözləri qəfil yaddaşında səsləndi: "Xarici gözəlliyin və məharətli rəqqasəliyin səni yoldan çıxarmasın". Bu sözlərin şahidi bir özü idi, bir də söyüd ağacı... Və sakitcə ağlamışdı özündən xəbərsiz, cavabı isə: "Mənim göz yaşlarım sənin sevincindirmi?" olmuşdu. Son görünüşünü də yaddaşına büküb saxlamışdı: – Onun tərtəmiz üzü əyilib dərinləşmişdi, nazik bığları dodağının üstündə itmişdi. Elə bil ədavətli və davakar qadın tayfasından özünü qorxuya bürümüşdü. Həqiqəti bu qisasçı həyatı özü qədər inadkar və tərs dözüm və iradə olur, daxilindəki gizli hissiyatın əvəzini çıxmaq istəyirdi. Özündə isə fövqəladı hiyləgərlik yox idi, çünki çilik-çilik olmuş sevgisində taqət qalmamışdı. İndi, əsalı kişinin əlində gül dəstəsi ona yaxınlaşdığı anlarda itirdiyi gücünü burda tapmaq istəyirdi. Tapacaqdımı?!

## 7.

Aytac xəstəhal bibisini yoluxmağa gedəndə payız idi, yayın istisindən hayıf çıxan günlərini yaşayırdı. Kəndləri çayqırağı məkandı, o tayında ensiz meşə zolağı üzü cənuba uzanırdı. Uşaqlıq xatirələri bu yerlərdə qalmamışdı, oğlan deyildi... Amma tamam yad da olmamışdı, o tayda atası ilə harayasa getmişdi. Meşə zəngin idi, dərinə kök atmış ağaclar uzaqdan boy vermişdi, məxsusi strukturda bir nəslih vardı. Məktəbli olanda ağacların başı üstündə boz qarğaların boğuşmasını xatırlayır, qida uğrunda quzğuna çevrilirdilər. Çayın sağında-solunda ağ buludlara oxşar çiçəklər açılmışdı, lalələr xoruzun pipiyi kimi yellənirdi, qoxusu burun acışdırırdı. Nə yaxşı, belə gül-çiçəklərin ortasında reyhan, yarpız bitir.

Payız ayaq açandan buludlardan nəm yağış iyisi gəlir, şimşək çaxanda toparlanan buludlar parçalanır, Çayın kənd axarında, sahili boyunca iynəyarpaqlı xırda ağaclar, yarpaqları payızın əlindən qurtulmuş toz ağacları görünür. Günəşli günlərdə buludlar karvan-karvan səmada əriyir. Neçə ildi şəhərdə yaşayırdı – atasının işiylə bağlı – doğulduğu, boya-başa yetişdiyi ev də, kənd də Aytacın həyatından ayrılırmış, məktəb, kiçik səhnədə oynadığı rəqslər isə qalırdı. O, arzusunun belə reallaşmasını gözlə-

mirdi, ancaq şəhər həyatı xəbərsiz bu diləyini diqtə eləyirdi... Rəqs havası başında və qəlbində, heysiyyatında dağıdıcı həvəs oyatmışdı. Qızın davranışı yaşından irəli gələn əsəbilik gətirmişdi. Oğlanların bu yaşdakı qızlara maraqları onları ruhlandırırdı, gələcək həyatlarına inam yaradırdı. Romantik lirik macəralar sırasına düşür, kişi ehtirasını dadmaq ürəklərindən keçir. Özləri öz ehtiraslı "nöqtə"lərini tapır: boyunlarının bədənlə birləşdirən yeri, döşlərinin ucu, bellərinin yancaqları ilə "öpüşən" nöqtəsi.

Aytac rəqqasəliyə vurğunluğundan bəzi məqalələri də oxuyurdu: Rəqs zamanı bədənini musiqi ilə "birləşdirməsi" – vacib şərtdir, çətin olsa da. Barmaqları ucunda süzmək fəhmi. Bunlar şəhvani aqressivlik üçün şərt sayılır. Başlıcası isə kişi öpüşündən qaçmaq iradəsidir.

Aytac on üç-on beş yaşlarında qəribə hissiyatla mübarizədə udurdu: kişilərdə, yəni cavan oğlanlarda zərifliyi xoşlamırdı və məqamə gələndə onlardan qaçırdı, rəfiqələrinin acığına gəlirdi: Lovğalanır, eqoistdir. Bunu dilində belə səsləndirirdi ki, kişiləri sevmək dərəcəsinə gəlməmək lazımdır və dəli kimi uğunurdu, pufərək götürülürdü. Rəfiqələrinin bəzisi başqa aləmdən xəbər gətirirdi: Oğlanlardan sığal ummaq qəbahət sayılmır, ancaq o da sənin kimi xam olmalıdır, baxanda ürəyin axmalıdır, qapı ağzına qaçmamlısan, sonra ələ keçməzsən. – Bu sonuncu

fikrə gülüşürdülər. Sarışın rəfiqəsi dedi ki, təhlükə duyanda qəlbini idarə eləməyi bacarmalısan, buna iradən dözməlidir. – Qızın qorxu ifadəli gözləri süzdü. – Daha şulum, ağzının suyu axan yeniyetmənin qarşısında yox ey! Qızlar, oxumuşam ki, kürən adamlar bədhövsələ olurlar ey! Özlərindən çıxırlar da! Və yaxşıca gülüb doyduılar.

Şəhərə tələsən Aytacın son gəzintisiydi rəfiqələrilə və payız idi. Külək bağlardan qalxan tüstü burumlarını yuxusu dağılmış uşaq kimi qovurdu. Buludların zolağı altında zəifləmiş günəş qımıldanırdı, axşamdan çiləyən yağış gilələri otlara, çiçək yarpaqlarına ağırlıq salırdı. Buludlarla günəşin "yarışı" başlayırdı: gah üfüqdən boylanır, gah da bulud tikələrinin arxasında gizlənirdi – gizlənpaç oyunu idi. Axır ki, Günəş bulud axının hərarəti altına saldı, əritdi. Payız hələ güclənməmişdi. İnsanların yay yorğunluğu ağacların toza bələnmiş yarpaqları kimi ağırlaşmışdı. Arıq və nazik yay paltarları asılqanlarda yerini tapmışdı. İnsanların gözlərinin pəri sönmüşdü.

Aytac üçün inam israrlı idi: Həyat, seçdiyi peşə onun başına misilsiz hədiyyələrini əsirgəməyəcəkdi. Şux baxışları titrəyirdi. Meşənin çaya baxan qırağında, gödək ağacların məşum kölgəsində oturmağı arzuladı. Meşənin lal və mürgülü sükutunu pozmasın. Onun uşaqlıq şıltaqlığı arxada qalsa da, ölməmişdi,

bu sonuncu gün onun görüşünə gəlmişdi, ötmüş səsini, keçmişini dinləyirdi. Aytac ağır yükü çiyinlərinə çatmışdı, parlaq zənginlik dalısıyca düşmüşdü. Kişi tamaşaçılar onun ehtiras qüvvəsini alovlandırırdı, zənnimcə, səhnədə uçur, ayaqları yeri tapmır. Amma – Aytac acı-acı xatırladı ki, qəfil ayağı büdrədi, yaxşı ki məqamında tərəf –müqabili cəld belindən yapışıb qaldırdı, gülümsədi, baxışları toqquşdu. Fasilədə təşəkkürünü bildirdi və aldığı cavabı yozdu: "Təki həyat səhnəsində büdrəməyəsən" – deyib müəmmalı gülümsündü: "Yıxılanda da mənim təkin zorlu kişilərin qucağına düşəsən".

Bu sözlər on səkkiz yaşına qədəm qoyan qızı təşvişə salmaya bilərdimi. Bir də o, elə yanıqlı gözlə baxdı ki... Gəl, bu eyhamı anla! Yalnız sakit baxışları ilə cavab verdi. Aytac özünə gəldi, onun dönən sifəti vardı: "Qadınlara yapışıb qopmayan, dinclik verməyən murdar kişilər də var. Siz nə yaxşı..." – Udqunub susdu, çəpəki ona göz qoydu.

– Yeniyetmə cavan qızın ziddiyyəti ilə dillənmişdi. Məyusluq ifadə edən ovqatı çəkilirdi, ilk aylarda özünü aciz gös-tərmək istəmirdi. Bir vaxt usta müəllimi demişdi. Kişi anladı ki, gənc rəqqasənin iztirablı və intizarlı həyacan hissini başa düşməmişdir, əksinə, qıcıqlandırmışdır. Qol-qıçı ağır olsa yüngül hərəkət etmişdir. Tərəf müqabilini həqarət hissinin təsiri altından çıxarmalıdır. Rəqs oyununda

ümumən davranış tərzi alınmayanda kinli-kinli gülümsərdi: “Axı, bu qız hələ məni tanımır” – məqamı nəzərə almalıyam, bundan sonra. Aytac hələlik onun zahirinə bələddi: Yaşına görə cavan görünən, geniş üzü, irəli çıxan çənəsi, dolu çiyinləri. Möhkəm və qəti addımları ritmi əzik-üzük edir. O, qadınlar üçün füsünkar kişidir, özünə inamlıdır, bədəncə müqavimətə qalib gəlməyi bacarır: – Beləsi çox vaxt bundan “qadın ovu” kimi yararlanır.

Aytacın həyatının səhər çağı oyanmışdı, necə ki, günəş sübhdən üfüqləri qan rənginə boyayır, sonra yavaş-yavaş qalxır müvəqqəti yatağından – kürreyi – aləmi işıqlandırır. Gecədən yuxuya qalan buludlar günəşə sarı hərəkət edir, donmuş canlarını isitmək istəyir. Günəş də buludların zolağı altında burulur, axşamdan yağan yağış giləleri yarpaqlara ağırlıq salır. Gah da bu payız vaxtı buludlarla günəşin “yarışı” başlayır, gün çıtartısı üfüqü tərk edib şəfəqlərə qarışır. Bu “rəqabətdə” günəş qalib çıxır: bulud axınını hərarəti altına salır.

Aytacın ilk rəsmi tərəf müqabili Çapay kənd havasında, dağətəyi kənddə doğulmuşdu. Yeniyetməliyindən iri ovçu gözləri, çalpaq zövqü vardı, at minməyi xoşlar, belinə qalxanda şaxlaşaraq irəliyə baxır və miniksiz dördnalla çapırdı. Bu vərdişlərlə kənddə ad-san qazanmışdı. Dərslərində babat oxuyurdu, ancaq incəsənət aləminə vurğundu, rayon mərkəzin-

dən 3-4 kilometr aralı olan kənddən mərkəzə gəlirdi, rəqsə gedirdi. Alınırdı onda, müəllimi çox şirnikləndirdi onu, baş-beynini "oğurlamışdı". Necə ki rəqsə başlayırdı, həyəcan sakitləşirdi, dalğınlığı çəkilirdi. Bir zövq – axı demişdik onun çalpaq zövqü var – necə ki, rəqs sənətinin sirlərinə azmaz yiyələndi, başqalaşırdı, qadınları sevməyə başlayırdı, saçlarının daranışınacan diqqətliydi. Həmkarlarına, uşaqlıq dostlarına dediyi bu olurdu ki, qadın varlığına sadə zövqlə yanaşmayın, onun üz qəşəngliyi, gözlərinin süzgünlüyü, yerişi də bu məxluqu cəmiyyətin kübar təbəqəsinə həmişə dartır, onu əxlaqı çətinliklər qarşısında qoyur, xüsusilə, kişi məkanında: mərkəzi fiqura döndərir. Çapay başqa ix-tisaslı instituta imtahan verib qəbul oldu, memarlıq fakultəsinə, çünki həndəsə və fizika kimi çətin fənlərin öhdəsindən gəlirdi orta məktəbdə.

Rəqs fəaliyyətinə bir klubda başladı, bəxti gətirdi, burada da müəllimi ürəyincə oldu.Yaşına görə peşəkar rəqs sənətindən ayrılmışdı, cuzi təqaüdlə kifayətlənmişdi, dərnəklərdə "uşaq" hazırladırdı.

Pis xasiyyətləri yox deyildi Çapayın: rəqibinin alçaldılmasından xoşallanırdı, yapışanda buraxmırdı, çox qısqancdı: bilir ki, bu hiss insanın həyatına təsir edən nagahani bir duyğudur və deyirdi ki, qısqanclıq itirilmək istəməyən adamın, əlaqənin itiriləcəyi, yaxud məhdud altında olduğu qorxu ilə yaşa-

nan ruhi haldır, amma xasiyyətində qalır. İlk evləndiyi qadından ayrılmağın başlıca səbəbi bu xəstəlik idi. Bir təsadüfdən tanış olmuşdu, ciddi qaməti hesabına özünü ona yaxınlaşdırmışdı... Qadını onu çox tez tanımışdı və uşağa qalmadan ondan ayrılmışdı. Çapay bəzən tənha vaxtı etiraf edir ki, qısqanclığı yaşayan mən hətta rəğbətini qazanan tanışlarımın yarısını itirirəm, əhəmiyyət verilməyən, sayılmayan, sevilməyən insan kimi dəyərsizləşirəm. Çapay evli olduğu qadınla yaşayanda özünü sakit duyğularının daşıyıcısı kimi aparırdı. Sanki mələk xasiyyətlidir. Şirin – dilavər dilinə, səsinə vurulmamaq çətin iradə tələb edir: “Mələyim – deyirdi. – səni – mən məchul, gözəl dünyamdan təsadüfən tapmışam. Qorxunc həşəratlarla dolu bir dünyadan qoparmışam, murdar kişilərin əlindən almışam. İmkan vermədim alverçi qadınlar sənə elçi gəlsinlər”. – Belə bəlağətli sözlər hər an beynində cücərə bilirdi. – Mən hələ sevgimi axtarıram.

Çapay müqavimətdən qaçmaq, yəni məruz qalmamaq üçün cavan qızların ən zəif və zərif yeri sayılan  “məktub” janrına üstünlük verirdi. Bu qabiliyyət onda təmiz dağ havasından, meşəqırağı ov heyvanların, quşların bolluğundan yaranmışdı? Darıqlı –dərili atın üstündə vüqarlı dayanmağından qalmışdı? Hər halda incəsənətə meyilliyinin rolu daha çox idi. Günlərin birində, vəziyyətin meyşox olduğu

çağlarda qızın ondan soyuduğunu hiss eləyib, erkən oyandı: Səhər soyuğundan titrəyən dan yeri qızaranda məktub yazmağı qərara aldı. – Məktub təkbətək şirin söhbət etmək vasitəsidir, dərdini təhqir etməkdən qorumaq kimi bir şeydir. – Çapay düşündü, təzəcə başladığı papiros çəkmək vərdişində bir siqaret çıxarıb yandırdı, astadan sümürdü, tüstüsü alnını cıza-cıza saçlarında dağıldı.

– Mən onun heç bir oğlanla sevişə bilməyəcəyinə inanmıram"  inamı ilə vərəqi qabağına çəkdi və romantik ruhla yazmalı idi. Boş şəkilsiz – filansız divarlarda titrək kölgələr işıqda qaçışırdı. Hisslərini qəlbinin dərinliyindən qəlpə-qəlpə qoparırdı, özünü zövq və əyləncə aləmindən kənarlaşdırırdı, belə məqamlarda söz-ləri həzin, yumşaq, bir az da yalvarışlı alınırdı. Qızın üzündəki mülayim ifadəsi, gülümsəyəndə gümrahlaşan çöhrəsi, səyriyən çılpaq yanağı gözlərindən qaçmırdı: qızların duyğularının, hərəkətlərinin səbəblərini anlamaq lazımdır, bu, mənim üçün çətindir, – düşündü: – Olmayan nəyisə görmək müşküldür. Onun özünə inamı dərin müşahidəsindən və zəkasından irəli gəlir. – Çapay göz qapaqları içərisində qızın görünüşünü, bir görüşünü canlandırdı, o yerdə ki: günəşin işığı qızın donunda ilişib qalmışdı, şümal bədənində şölə saçırdı, mütənasib baldırları, tumanının enli dalğavari krujevariləri görünürdü. İşıldayan topuqları üzlü süd rənginə çalırdı.

Amma təbəssümünü gizlədib, altdan-altdan ona baxırdı. Bu ştrix ona hava-su kimi gərəkliydi, deməli, ona laqeyd deyil. O, fərəhli, gözəllikdən qidalanan məhəbbətindəki mənasızlıqdan qorxurdu, bir də... – Qısqanclıq hisssindən vahimələnirdi. Nəhayət, stolda əyləşdi və uzun bir məktub qaraladı. Qəribəsi o idi, imzasına təxəllüs yapışdırmışdı, sonra nə fikirləşdisə pozdu. – Lazım deyil. – Qərarında tərəddüd elədi. – İmza sənəddir, izdivac – əgər baş tutarsa – o biri başı da olur, toppuz kimi başı tutur, yaxşısı budur "Ç.K.İlqar"yazım, həm də anlar ki, mən məhəbbətimdə ilqarımı pozan deyiləm: "Ürəyim sinəmdə anasının intizarını gözləyən quş kimi döyünür. Qəfəsdəyəmsə mavi səmada, göyün bəyazlığında qanad çırpıram. Sənin xoşladığın o yerə can atıram, o yer mənimçün sehirli məkandır. Duyğularımızı bir-birimizə bağışladığımız sahil qırağına elə tələsirəm, hansı qüvvə mənə mane olur ki, ora addım atmayım, qısqanırlar. Mən həmin qüvvələrə yalvarıram ki, yolumu çəpərləməyin, orada mənim mələyim gözləyir məni. İndi-indi anlayıram ki, məhəbbət sevən oğlanın ən etibarlı dayağıdır. Sən necə? Həmişə şairlər yazıblar ki, məhəbbət qəlbin sönməyən günəşidir, sən özün başdan ayağa mənim ürəyimi günəş kimi alovlandırırsan. Alovdan qorxuram. Könlümün sən öz könlüsən, bunu duyursanmı? Hər səhərimin açılan dan yerisən, elə məktubu da dan yeri qızaranda

yazıram. Hava açılır, buludlar istəmədən qaçırlar, kəndimiz yadıma düşür, səni bir gün oraya aparacam, imtina eləməzsən. Meşəmizdən yuxarı qalxan vadiləri sanki görürəm, şehə boyanmış yarpaqlar sanki parıldayır...

Sən bu havada Günəşi səsləyirsən, mənsə səni. Haraya desən gələrəm, lap soyuq-sazaq olsun, qışın qarı yağsın, leysan-yağış səpələnsin. Səslə məni – unudulmayan hisslərim məhəbbətimizin zirvəsinə ucalsın. Məni sən səslə, gələrəm. Böyük şairimiz Əliağa Kürçaylıdan onun şeirini sevdiyini bir dəfə mənə söyləmişdin, hətta Nəzakət Məmmədovanın – talesiz xanəndənin ifasında xoşladığını da demişdin! (Təki sənin taleyinə ona bənzəməsin). Şeirdən bəzi sətirləri vərəqə köçürürəm:

***Harda olsam gələrəm,***
***Təki sən səslə məni.***
***Darda olsam gələrəm***
***Təki sən səslə məni.***

***Yaxin olsun, ya uzaq,***
***Dərə olsun, ya da dağ***
***Məni kim saxlayacaq?***
***Təki sən səslə məni.***

***... Eşqə yurd isə sinəm,***
***Qocaliq gəlsə nə qəm,***
***Dönərəm gəncləşərəm,***
***Təki sən səslə məni.***

***Sənsən eşqim, əməlim,***
***Gəlsə bir gündə ölüm –***
***Verməram can, a gülüm,***
***Təki sən səslə məni.***

Ürəyim həyəcanlıdır, barmaqlarım titrəyir, düşünürəm, tərəddüddəyəm: həyatım, gözüm, nəfəsim, ümidim görüşümə gələcəksənmi? Məni başa düşəcəksənmi? Gözləyəcəm, daima səni, çırpınan ürəyimi sakitləşdirəcəksən. Çılğınlıq eləmə, əzizim. Təmkinli ol – haçansa biz birləşəcəyik, inan buna. Məhəbbətdə kişilər təmkinlidisə, onlar qovuşurlar.

Sənin o gözlərində bu işıqlı aləmi fəth edəcəyəm. Hər bir rəqsimi sənə bağışlayacağam, səni tamaşaçılar arasında axtarıb tapacağam. Mənə qeyri-adi ilham gələr. Bircə dəfə tamaşaçım idin, dəvətimi yerə salmadın, dünyanı bağışlamışdın. Rəqsdən sonra həmkarlarım dedilər ki, bu gün səndə qeyri-adi enerjini hiss elədik, sevgili adam idin. Sən yuxumsan, həqiqətimsən, könlümün pərisi, uçan mələyim.

Sən hər dəfə görüşümüz üçün tələs. Sən ayrılığımız üçün tələsmə! Məni tənha qoymaqdan qorx, ürəyim tənhalıqdan partlaya bilər. Yenə şair Əliağa Kürçaylının misralarını xatırladım. Allahım, məni nə üçün şair yaratmışdın?

***İncidib, söylə nə üçün getdin sən?***
***Gəl ki, qəlbim sıxılar təklikdən.***
***Bircə gəl, sonra otur danla məni,***
***İstəsən qarşıla tufanla məni.***
***İstəsən sən külək ol, döy üzümə,***
***İstəsən zülməti çökdür gözümə.***
***İstəsən od kimi yandır məni sən,***
***İstəsən candan usandır məni sən –***
***Bunların heç biri qorxutmur, inan.***
***Gəl ki, qurtar məni tənhalıqdan!***

Tənha buraxma məni, bu görüş bizə sevinc – nəşə verəcəkdir, vücudumuz titrəyəcəkdir. Əllərinin istisi bədənimi yandıracaq, məni vüsala səsləyəcəkdir. Bəs sən necə?

Cavabını alacağıma əminəm".

## 8.

Məşhur rəqqasə Əminə xanım Dilbazinin vəfatından sonra rəqs aləmində sükut yaranmışdı. Onun işgüzarlığı və istedadı böyük ustad Əlibaba Abdullayevdən keçməydi. Cavanlığını tez-tez xatırladan bu xanım-xatında süni güzəşt yox idi, ilk vaxtlardan Aytac bunu bəklə də yoldaşlarından daha erkən duymuşdu. Və özünü toparlamışdı ki, səhnədə artıq tənə yeməsin. İnsafən, bədii rəhbər Əminə xanım Aytac-

dakı rəqslə musiqini duymaq və bağlamaq qabiliyyətini sezmişdi, lakin üzə vurmamışdı: arxayınlaşar, özünə güvənc yaranar və şöhrət xəstəliyinə yoluxar. Bu keyfiyyətləri də ona Əlibaba Abdullayev aşılamışdı.

Dəfnində yetirmələrindən yalnız Çapaya söz verdilər ki, dilavərdir dildən, pafosla danışandır. Həm də hələlik sayılan kişi rəqqasdır: yerində improvizələr edir, idmanla, xüsusilə, gimnastika ilə məşğuldur və çox mütaliəçidir. Xarici kitabları həvəslə oxuyur. Əminə xanım onun belə cəhətlərinə yaxşı münasibətini gizlətməmişdi, yalnız üstüörtülü yox, ikilikdə bildirmişdi ki, uxaşorluqdan əl çək, evlənmək barədə düşün, rəqqas cinsindən asılı olmadan ailəliyi vacibdir, onun qayğısını evdə daşımağa kimsə lazımdır. Əminə xanım yaxşı ki, Çapayın bir dəfə evliliyindən xəbərsizdi. Bu, hələlik rəqs kollektivinə bəlli deyildi. Bir neçə dəfə Çapay özünə pıçıldamışdı ki, Əminə xanım bilsə məni qovar, ona nə var "pramoy" qadındır, sənət fədaisidir.

Dəfn mərasimi təntənəli keçdi. Mədəniyyət nazirinin rəsmisi ona layiq sözlər üfürdü. Kollektivi isə yeni bədii rəhbərin kimliyi maraqlandırırdı. Çapay söz düşəndə fikrini açıqladı: ondan qorxaq ki, bizə ömründə qılçalarının yerini bilməyən birini gətirsinlər!

Sözlər yerində idi, ancaq etirazın səsinə bükülmüşdü və titullu rəqqasə qadın dilləndi:

– Əgər balet məktəbinə, ali ocağına bir kişini direktor qoyurlarsa? – İroniya ilə güldü. – Beləsinin heç bir qadınla iş görə biləcəyinə inanmıram! – Sözləri ciddimi atdı ortaya? Gülüş oyatdı. Kollektiv bu qadının belə atmacalarını iclaslarda eşitmişdi. Rəhbər olanda lap yaxşı, o rəqqasənin duruş tərzini, sirayətedici təsirini, sevinc və yaxud məyusluq ifadə edən üzünü mənimsəməyi bacarmalıdır. – Rəqqasənin təəccüb dolu sözləri "danışmaq" istəyirdi.

– Direktorun işi-gücü balerinaların məşqinə baxmaqdır, bilirsiz də kimi nəzərdə tuturam. – Sözləri Aytac deyəndə tutqun üzü açıldı, göz qapaqlarını endirdi. – Belə çıxır bizdə qadın baletmeystr yox ki yaşı ötmüş, yad ixtisaslını axtarıb tapırlar.

Çapay: "Məqamlar var, qazdan ayıq olur, fikrini, sabahını "tutur". O, sözün daşıdığı mənasını dərhal çək-çevir edir".

Aytacın sözlərində dərin kinayə vardı və ürəyindən keçdi ki, hələ belə çıxışlar tezdir, ey qəşəng subay qızcığaz. Beləlləri fərqinə varmır, rəsmi ad-filan siyahıya düşəndə yuxarıdan ad-soyadı qaralanır. Danışan çoxdan "Xalq artisti" olmalı idi, on ildir "Əməkdarlığı" qılçalarında oynadır. Aytac kimiləri qınamıram, cazibədar qadınlar kinayə ilə danışmağı sevirlər.

Sol qolu sağ əlinə toxunan rəqqasə astadan dedi:

– Baxın, onun sifətinə – “Əməkdar”a işarə vururdu. – Yaşlılara məxsus hiddət üzündən oxunur, nə işin var siyasətlə, sonra peşmanlayasan.

Qadın Çapayın ayaq ucunu astadan basdı:

– Aytaclara fikri verme., “hər üzü düzəldi, qaldı saqqal darağı”, rəhmətlik nənəmdən eşidərdim bu məsəli.

Çapay otuz yaşı keçmiş, amma gözəlliyini itirməmiş tərəf – müqabilindən biri olmuş bu dul qadından təzə-təzə xoşu gəlirdi, əvvəllər diqqət yetirməmişdi. Sonralar o, çalışırdı yanında otursun, pıçıldaşsın. Çapay bir də onun ədalığına heyran idi. Ətli və dümdüz ayaqları ilə baldırları ahənglik yaradırdı. Rəqslərdə yığılmış alnı, çatılmış qaşları altında parlayan tünd göy gözləri inadkar ehtiras çapalayırdı. Özünün öyünməyinə inananda: “Kişilərin inadkar təqiblərinə təslim olmamışam, ancaq tutulmuşam hikkəmdən. Kişilər məharətli balıq ovçularıdı, torlarına düşənləri seçir, cır balıqları kənara tullayır, iriləri, kürüsüzləri qucaqlarına alır, su üçün darıxan balıqlar da hey çapalayır o vaxta qədər ki.

Çapay bu geniş nitqin fəlsəfəsini anlamışdı o vaxtı, yenə də üstündən hoppanmışdı, yanan alova düşəcəyindən qorxmuşdu. Həyəcanlanmaq hissindən uzaqlaşmışdı, elə bil əsəblərini yuxuya vermişdi. Amma onun canındakı həyat – yaşamaq eşqinin

soyumayacağına əmindi. Və arxayıncasına gülümsünmüşdü. Haçansa istərdi ətir saçan, ağappaq çiçəyin ağuşuna atılsın, ürəyindən keçirmişdi. Amma təmkinliyində səbəb də yox deyildi: günügündən tər çiçək kimi açılan, dolğun, sağlam Aytac qarşısına sədd çəkmişdi. Gözlərində uşaq məsumluğu, nəmli təbəssüm hayqırırdı gizlincə. O, hələlik – bu kəlməni istehza ilə də pıçıldayırdı – kişilərə xəsis qızıla göz dikən kimi baxıb üzünü yana çevirir, qızılın aldadıcı işığından işvəkarlıqla: – Tənhalıq yaman şeymiş, – dedi, – unutmaq üçün təkliyə lakkırtı da vurursan.

Çapay qanrılıb nəzərində indicə elə bu dəqiqələrdə mələkləşən tərəf – müqabili birinci dəfədi görürdü? Sual qeyri-ixtiyari doğulmuşdu və yerinə düşmüşdü: Mehriban üzündə intizar dolu ağrı vardır, gözlərinin altında nazik zolaqlar əmələ gəlmişdir, gözlərindən süzülən işıq günün batan çağını xatırladır. Qadının daxilində isə həyatının diqtə elədiyi ikrah və dəhşət hissi yaşanırdı. Rəngi azca saralmışdı, göy iri gözləri ürkəkcəsinə məchul nöqtəyə dikilmişdi. Bəlkə də o “nöqtədə” dayanan Çapay idi, gülümsəyir, gümrahlaşır ki, kişi doğulmuşdur. Aralıda – daima sabit, yerini dəyişməyən rəqqasə kişinin gözləri çeşməyin üstündən ona zillənmişdi. Bu adamı o, zövq və əyləncə aləmindən uzaq kimi tanımışdı, əqidəsinə də beləcə çatmışdı: Mum kimi saralmış

boynu, kədərli və qətiyyətli görünüşü. Amma daxili dünyası təmizdi, alicənabdı. Xatırladı ki, kollektivə yenicə gələndə ona "ilişmişdilər", bir rejissor vardı, tez-tez kollektivə baş çəkirdi. Məqsədini o, anlamışdı və elə səhnə arxasında mübahisələri düşür, nəsə deyəndə üzündə sillənin izi qalır, onu qovur. Hə, indicə yadına düşdü, baxışlarının səmtini dəyişmişdi. Çapaya olan hissləriylə bəraət qazandırırdı. Çapaya bağlılıq bir də ona görə təhlükəsizdi – hələlik subaydı o, soltanlığından enməmişdir, onu kimsə sığallamayıb qar topası kimi. Rəqs zamanı alnına, sifətinə yayılan qara saçları birbaşa cana hopur. Bəzən bu cür "özünə etirafı" risqini alt-üst eləyirdi, hisslərinin müstəsnalığını əlimizdən alırdı.

Qadın əllərini dizləri  üstə çarpazladı, ona elə göründü, üzü birdən birə qırışdı, iztirab ifadə elədi, gözlərini aşağı dikdi. Sonra Çapayın gözlərinin içinə baxdı. Kimsə söz demək xatirinə danışırdı, görünür, vaxtını düzgün bölüşdürməmişdi. Qəribə və ciddiyyətli fikirlər də beynində dolaşırdı.

Aytacı düşündürən sənətinə olacağı qayğısı və "ustad" dərsiydi Əminə xanımdan sonra. Ardıcıl və mütəhərrik məşqləri onu bezikdirmirdi, əksinə, ruhlandırırdı, baxmayaraq Çapayın bəzən pişik pusqulu baxışları ilə qarşılaşırdı. Sanki zəif istidən buz bağlamış hissləri saçaq-saçaq olurdu və buzun üstü qatı qatlaşırdı. O, vestbulda oturdu, əlini yanağının altına

qoydu, atasının xiffətini çəkir. Həkimlər ona kəndə, kənd havasına ehtiyacı olduğunu deyirlər: – Sən mənzərəli, varlı torpaqda doğulmusan, bu havada dolub boya vermisən. Xoşbəxtsən ki dava-dərmana ehtiyacın yoxdur.

Aytaca da bəlliydi, həkimlərə elə də inanmağa dəyməz, yalnış diaqnoz qoyurlar. Sonuncu məsləhəti qardaş Türkiyədə təhsil almış Araz doktor vermişdi, o, məşhur doktor Ufuq bəy Abacıoğlunun klinikasında təcrübə keçirmişdi. Naşılıqdan idi atasının işlədiyi otaq – atma üçün yığılan həblərlə doludur, hər şeydən burun dərmanlarının iyi gəlir. Klinikada dəfələrlə olmuşdu atasıyla. Əynində cındırı çıxarmış, axıra yaxın bunu dəyişmişdi – xalatlı tibb bacısı hərlənirdi. Taqqa sinəsi görünürdü. Solğun işıqlı döşəməyə taqqıltı salır, səssiz-səmirsiz kliyentə baxır, yanında doğmasını görəndə özündən çıxır, iltifat göstərir.

– Atam dalğın həyat yaşamalıdı. – Aytacın məsləhəti bu idi.

Rəfiqəlik elədiyi rəqqasənin: – Dünən Nazirlikdə bizim bədii rəhbərimizi təyin ediblər, son qeyri-rəsmi xəbərdir. – Sözləri Aytacın fikrini perikləşdirdi. – Bu xanım opera salisti idi. – Aytac onunla söhbət edəndə bu “məsləhətini” ürəyindən keçirirdi. – O, danışanda səlist səsləri “jest”lə, hakiminə çıxırdı və arabir şirin-şirin gülümsəməyi də olurdu, yeri gə-

ləndə ağzının suyunu udurdu, fürsət tapıb həyəcanını ifadə etməyə yol tapırdı. Amma Aytac onunla qısa kəsə söhbətdə yorulurdu. Zərifliyi xoşlayan bu plastik yerlişli  qızda o görüm yaranmışdı və gözləri qabağında canlanırdı ki, ondakı qorxu və sərtlik ifadə edən baxışları xeyir gətirməz. Yaxşı ki, qadının üzünə solğun və yorğun kölgə düşmüşdü.

– Kimliyini demədiz. – Aytac hannan dilləndi. – Naşı deyil ki? Əsas budur!

Qadının üzünə təəccüb dolu ifadə gəldi, burnuyla fısıldadı, elə bil indicə nəfəsi karıxacaqdı. Aytaca maraqlı görünən o idi, xəbəri sevinclə gətirmişdir, sonra da təəccüblənir. Sualı tapıb verənəcən qadın dedi:

– Tanınmış, şöhrətli xalq artisti Qasımov Yusifdir.

Aytac ani keçmişə qayıtdı, ustadı bu soyadı dəfələrlə çəkmişdi, İtaliyaya, İsveçrəyə, Almaniyaya, İspaniyaya, Fransaya, hətta İrana qastrol səfərlərində olduğunu xoş ovqatla xatırlatmışdı: “Yusif bəy, həqiqətən, cavan da olsa bəylik ədalarına malikdir, milli rəqslərə xeyli yeniliklər gətirmişdir. Onunla hər dəfə tərəf – müqabili olarkən səhnədə uçurdum” – deyəndə sonuncunu ulğumunda saxlamağı bacarnayan rəqqasə xanım soruşdu ki, deginən dayna, qızlar onnan sarı sinoy gedirlərmiş! – Gülmüşdü. Ustadın xətrinə dəyən isə “gülüşü” idi. Və cavabı

sərt alınmışdı: "Sənin kimi ağızdan yırtıqlara meyl göstərmədiyi" oldu. Xanım rəqqasə elə həmən saatdan çıxıb getdi, səhnəyə bir daha qayıtmadı. Tipin biriymiş. Müəllimәsi onu heç dərəcəsinə endirməklə təhqir eləmişdi.

Vestyubulda xeyli əyləşmişdilər – daha bir xəbər çatdı onlara: "Gələn həftə Mahnı və Rəqs Ansanbılı qastrola çıxır bir həftəliyə". Sözləri eşitcək Aytacın üzündə narazılıq cizgiləri oynadı, çənəsinə qədər yayıldı, səbəbi o idi, atasının bu halında kəndə gedib – getməmək havasında özünə sığışdıra bilməzdi. Aytaca etiraz etməzdi, amma vicdanının səsi boğulardı. Bəli, atası sağalacaqdı: iynəyarpaqlı ağaclar, qara şam və qoz ağacları ilə baş-başa verən meşə zolağı  çay boyu uzanır. Səhərlər hava açılır, buludlar günəş işığından dağılır. Üfüq mavi rəngə çalır. Bunlar atasını sağaldacaq, onu yeniyetməliyinə, gəncliyinə döndərəcək və yaşadacaqdır.

Aytac xoş duyğulardan ayıldı və yeni bədii rəhbəri necə inandıracağı yollarını aramağa başladı...

Çapay mənzilində dincəlməyi qərarlaşdırmışdı, qastrola çıxmaqda həmişə israrlı olmuşdu. Yad şəhərlərlə tanışlıq, yerli qadınlarla öz xanım – qızların gözəlliyini müqayisə etmək, kitab mağazalarından bədii əsərlər almaq. Aytacın üzürlü səbəbdən qalmasına təəsüfləndiyini açıb-ağartmadı. Rəqqasə Xumara xanımdır, siyahıya salınmışdır. Və sevincin-

dən ayağı yerə dəymirdi: Aytacın yoxluğu Çapayla "mırt" vurmağa imkan yaradacaqdı. O, ürəyində öz fikirlərini daha cəsarətlə açıqlayırdı: "Bu oğlana sahib olmalıyam! O, nə qədər ki..." – Bircə bu cümləni tamamlamağa cəsarəti çatmırdı. – Mənim itirəcəyim heç bir şey yoxdur.

O, sevərək evlənməmişdi, onunla sərt davranırdı – yerli-yersiz. Hirsləncək gözlərinin altı torba kimi əsirdi. Gümüş altıqlı iri stəkanda çayı qaynar-qaynar hordadırdı. Papirosunu malajit külqabıya basır, közərən siqaretin nəfəsini kəsirdi. Qadın ondan zövq ala bilmirdi, günahı isə ərində axtarırdı, cinsi harmoniyanı pozurdu. Əri bilməlidir qadını rəqqasədir, bütün vücudu sakitliyi sevmir. Yumşaq və ağ barmaqlarını çarpayıda ovxaladı. Təzə ərə gedən vaxtlarda ərinə sakit yanaşırdı, qızarırdı, yanaqları allanırdı, o isə ağ zolaqlı toxunma yorğana bürünürdü. Şahvani aqreessivliyə meyillidi, bu calpaşıq mühitə tezliklə yaxınlaşırdı. Yatağa qədər ərindən öpüş almağa cəhd edirdi. Belə halları davamlı etmək istəyir, cəhd göstərir, əvəzində sanki ondan qisas alır, açıq-aşkar özünü yad kişi cismində aparır. Bu isə, nəhayət, qadının duyğularında, düşüncələrində, davranışlarında qərarsızlıq yaratmışdı: bir yastığa baş qoymaq qadına qorxunc gəlirdi, ağrıverici təsir oyadırdı. Qadın tayfası bu şəhvaniliyi canında, bədənində duyursa, özünün Lunaparkdakı fırlanan yellən-

cəkdə hiss edirsə, lakin fantaziyası boşa gedirsə – duyğularında və münasibətlərində, hisslərində də bu halı yaşayır.

Qadın bir dəfə, Aytacın ansambla qayıtmasa vaxtı risqə yol vermişdi: xasiyyətinə bələd olmadığı qıza yaşlı, evli qadın simasında məsləhət görmüşdü ki, gələcəkdə ərli olacaqsan, bir kişinin qismətinə pay gedəcəksən, əlaqən – bir az çəkinib üstüörtülü vurğulamışdı – normal fiziki və psixoloji şərtlərl yerinə yetirilməlidir, yəni o şeyləri nəzərə almalısan: əhvalın yüksək olmalıdır, xoş sözlər dilinə gətirməlisən, qayğısızlığa inandırmalısan. Çünki ərin, kişinin – gülüşdü sözünün tələffüzünə – sənin bədəninə sadəcə yanaşmamalıdır, yox ki, mürəkkəbsən, anlaşılmazsan. Məhəbbətlə yataq Oyununu qarışdırma, qızcığaz. Məhəbbət alayı möcüzədir ki, hər kəsə nəsib deyil. – Sözləri pıçıldayanda qadının birdən-birə əhvalı dəyişdi, gözləri yol çəkməyə başladı, bəlkə bu, onu yoran həyat idi, bəlkə hisslərini itirmişdir. Şişmiş həris dodaqları əsirdi, damarları görünən uzunsov məməsi tilova ilişmiş kiçicik şal kimi dartınırdı. İntizar atəşindən qaçmaq istəyirdi.

Aytac ayağa qalxdı, söhbətin uzanmasından qorxdu, ilk dəfəydi, yaşlı xanım qadından açıq-saçıq məsləhətlər eşidirdi. Sinəsi tərdən islanmışdı, gidişirdi. O, şəhvani məzəmmətə layiq deyildi, incə bədəni hisslərin ağırlığından sınmamışdı.

Aytac susdamışdı, çay içmək bəhanəsiylə ayağa duranda o, etikanı gözləməyə çalışdı. Çapay onları bir yerdə görəndə təəccübləndi, sakit ahənglə dedi:

– Bədii rəhbərimiz kabinetindədir, səni çağırır. – Üzünü Aytaca tutdu. – Qadın şaşındı.

– Tanıdız onu? – Soruşdu.

– Bəli, görünür, məxsusi məsələdir. – Çapay yoza bilmədi və: – Səni çay qonaqlığına dəvət edirəm. – Həris gözlərilə qadına, məhrəm hesab etdiyi rəqqasənin əlindən tutub qaldırdı. O, ayaqlarını çarpazlamışdı. Çapayın barmaqlarının istisini alanda ehtirasa bənzər, bir az da qorxusayağı hissləri yaşadı və bu oğlanı itirmək istəmirdi, səbəbində özünə haqq qazandırırdı: "Talesizlik, tənhalıq, əlacsızlıq". Tamam ruhi vəziyyət. Əvvəlki, xeyli cavan duyğularını itirmişdi, ərinə sahib olacağına əminliydi. Əriylə mübhəm əlaqəsini qorumaq və davamlı etmək, cəhd göstərmək arzusu puça çıxmışdı, əvəzində sanki ondan qisas alırdı, bəzən isə açıq-aşkar güc tətbiqini əsirgəmirdi. Bu barədə ağıllı və məntiqli nəticə çıxarırdı: "Cütlər: ər və qadını nail olduqlarını itirəcəyini fikirləşib özlərini dəyərsiz, diqqətdən uzaq, sayılmayan, sevilməyən "qurbanlar"sayağı təsəvvürə gətirirlər. Bu hallarda qadın qısqanclığa daha həssas yanaşır, öz haqq və istəklərinə üstünlük verir, kişi isə təhdid, zordan istifadəylə nəticə əldə edir".

## 9.

Atanı rahat gətirdilər, el-obası da rahatdı, hər kəs başını aşağı salıb təsərrüfatla məşğul idi, iş sarıdan cavanlar korluq çəkirdi, əl-ayağı diri olanları ora-bura aparırdılar. Məktəb, bağça, xəstəxanada iş vardı, köhnə inzibati binalar dağıdılmışdı, kubik daşları aparılmışdı, damkəsək tikmək üçün. Köhnə dəyirman daha yaramırdı, keçmişinə keşik çəkirdi, amma bir kərpicinə də toxunulmamışdı: bu dəyirmanda taxıl üyüdülürdü, hələ uşaqkən işləyərdi, rəhmətlik atasına kömək edərdi. Dəyirmançı müharibədən qayıtmışdı, saldat gödəkcəsini bədənində gəzdirirdi. Məktəbdə görüşə çağrılanda da elə bu paltarda görünürdü. Xatırladı adını: Tanrıverdi. Arıq, uzunsov boylu – ovçu idi. Əsgərlik çəksə də, hərbi zövqdən uzaq idi. Dəyirmanın həyətində cılız söyüd ağacının altında məxsusi yeri vardı və bir də hündür arxalı stulu. Çayxor idi, termosu böyründə ocağın gövdəsinə söykərdi aşmasın, əlini atanda tez götürə bilsin. Ehtiram və qorxu sifətində birləşmişdi, müharibədən qalma vərdişiydi, əsəbləşəndə, onu hövsələdən çıxaranda qan görmüş gözləri bərəlirdi hiddətindən. Belə vaxtı ən hörmətli adamla da canı didə-didə danışırdı, ona dönən baxışlardan bezirdi. Üzündəki xalı kənardan görünmürdü, xala iki xırda tük çıxmışdı. Tez-tez papiros sümürürdü, tüstüsünü

püfləyirdi. Cib dəsmalı tər-təmiz olurdu. Evi kəndin qurtaracağında idi və şabalıdı rəngli atı ona sadiqdi. Kəndə gələndə eşitmişdi Tanrıverdi rəhmətə gedib, üç gündən sonra atın bağrı çatlayıb. Ata dəyirmanın işləmədiyini Tanrıverdi kişinin ölümü ilə əlaqələndirdi ki, onun sağlığında heç kəs cəsarət eləyib dəyirmanı susdurmağa girişməzdi.

Otuz yeddinci ildə istifadəyə verilən Klub da sökülmüşdü, yeri kalafaya dönmüşdü. O, Klubun beş-on addımlığında ayaq üstə, qollarını aşağı sallayıb duruxdu, kənardan görsəydilər, deyərdilər kişi keçmiş Kluba başsağlığı verir. Xatırladı ki, ilk dəfə bu klubda "Berlinin alınması" kinosuna baxmışdı. Bütün kənd camaatının yarısı gəlmişdi. Kinoçunun adını da yadına saldı: İsabala. Qara kərpic bığlı, qara saçlı – otuz yaşı ancaq olardı. Onun kəndə gəlişi bayrama dönürdü: – Barı, Klubu yadigar saxlayardılar, beş-on taxtadan, kubiklərdən ötrü bu abidəni dağıdarlarmı? Otuz yeddidən yeganə şahid abidəni? – Atanın beynində çaxdı və ürəyi döyündü. Klubdan yuxarıda çinarlıq vardı, o da kəsilib-doğranmışdı, adda-budda qalmışdı. Quşların yeganə ocaqları idi, yuvalarını tikirdilər. Qarğalar, sağsağanlar, başqa quşlar – mehriban qonşuluqda neçə illərdi yaşayırdılar. Axşam toy-bayramları olurdu, cəh-cəhləri olurdu, ətrafa xoş avaz səpərdilər. Səhər erkən oyanar, ruzi tapmaq dalınca gedərdilər.

Yuvalar boş qalmışdı, balaları ananlarına qovuşub getmişdi: – Məgər quşların ataları olmur? – Ciddi, yarızarafat özünə sual verdi və gülümsündü Ata.

Ata evinə dönmüşdü, bacısının böyük oğlu köçmüşdü, ailə qurmuşdu. Bir uşağı olmuşdu, babasının, yəni atalarının adını daşıyırdı, məktəbi hələ bitirməmişdi. Bacısı qabaqcadan hazırlıq görmüşdü, oğlu ilə gəlib evi sahmana salmışdı, gəlinə qardaşının nəyi xoşladığını, nəyə diqqət yetirdiyini və ilaxır şeyləri anlatmışdı. Bacısı oğlu tüfəngini hazır vəziyyətə salmışdı, patronlar almışdı, çarpayısını çıxdaş eləməyə qoymamışdı, baxmayaraq dəmiri qaralmışdı, gümüşü rəngi solmuşdu. Döşəyi, yastığı, yorğanı evindən gətizdirmişdi, öz əliylə sırımışdı. Maraqlı o idi Atanın xoşuna gələcək – Aytacın otağında (dərslərinə burada baxırdı, onlar şəhərdə olanda) hündür, enli güzgülü pəncərəyə baxırdı, onlar şəhərə yığışanda yerini dəyişdirmişdilər, onu da köhnə yerinə gətirmişdilər.

Aytac mobil telefonla əvvəl bibisinə zəng atdı, xeyli danışdı, mövzu bəlliydi, razılıq elədi. Sonra atasıyla calaşdı, dedi ki, ata, anam darıxır və yaxşıca güldü. – Yerini qızdır, arvadını "pasılka" edəcəyəm, – yenə güldü. – Bundan sonra narahat qalma. Rəsmilər qarşısında konsertimiz olacaq. Mən də yer almışam. Ciddi hazırlaşırıq. Yeni bədii rəhbər istedadlara qiymət verəndir, axır bizi başa düşən tapıldı.

Axşama yaxın qohum – əqraba Atanın başına yığışmışdı, saat on ikiyə qədər danışdılar, güldülər, keçmişə qayıtdılar...

Səhəri erkən qalxdı, adətiydi və həyət-bacaya endi. Bir nigarançılığı onu rahat buraxmırdı: Papirosu buraxmalıydı, qəti söz vermişdi. Daha bir narahatçılığı gözlənilmədən baş verdi: Hansısa gecə ovuna çıxmış heyvanın ucbatından dağıdılmış qarışqaların cərgəsində pərişanlıq duydu, hər birisi azuqələrini harasa daşıyırdılar. İsti yuvaları – burada doğulmuşlar və balalamışlar – tərk eləyirdilər. Xeyli tamaşa elədi, o çağa qədər – günəş boz-qırmızımtıl çən içərisində üfüqə enirdi, gecə şehi otları nəmləndirmişdi. Adda-budda fərdi əkilmiş zəmilərə kombayn ağzı dəymişdi, buğda, arpa sünbüllərinin bir qismi yerə tökülmüşdü, quşlara yem olmuşdu. Günəş üfüqdən uzaqlaşdıqca buludlar dağılır, duman – çən əriyir, torpağa çökürdü. Açıq qalan, ətrafı təmizləyən günəş tünd – qırmızı şara oxşayırdı. İllərlə çimdiyi sulu çayda bir qayıqçı gözünə dəydi, qayıq yanpörtü üzürdü, qayıqçının əlində qamışdan düzəldilmiş bir çubuq qırmaq yellədirdi, körpə kimi qırmızı qolları görünürdü. Beş-altı addımlığında isə gücsüz qarışqalar təzə yuva axtarıb tapmışdılar. Ataya elə gəldi, bu qarışqaların yerişində bir qalibiyyət vardır, hər halda bu ərazi onların vətənidir, tərk et-

mək niyyətində deyillər, düşmənlərinə azuqələrini qoyub qaçmağı belə düşünmürlər.

Orta yaşlı bir kişi – əsas yolda idi, girdə qarnı köynəyin tayından çıxmışdı, şalvarı onun uzun qılçalarına, kök budlarına yapışmışdı. Baxdı, amma tanıya bilmədi – kənddən uzaqlaşanda görüdyünü də tanımırsan. Ata özünü məzəmmət elədi. – Həyəcanlanmışdı. Çayın burulan səmtində haçandan kəsilmiş, çürümüş kötüyün üstündə oturdu, canındakı həyat dirilirdi, özünə gəlirdi, qocalmaq istəmirdi. Kütləşmiş, çoxdan uyumuş ruhu sanki yuxudan ayılırdı, ləçəklərinə sarı rəng vurulmuş otlar, çiçəklər, yabanı günəbaxanlar Atanı yeni həyata səsləyirdi lal olsalar da. Buracan piyada gəlməsi – elə də uzaq deyildi – bədənini bərkitmişdi, vaxtilə cavanlığında tapdığı, öyrənməli olduğu məsələlərdən indi öyrənmək istəyirdi. Vaxtilə itirdiyi, etina etmədiyi hərəkətlərini bilixtiyar edirdi və edəcəkdi: bu, torpağın sədaqətiydi, övladına məhəbbətiydi. Ətrafına baxanda, uzaqda kənd naxırı yavaşımışdı, otlaqlarda mal-qara, dairəvi tonqal qalamışdılar sığırçılar. Hətta Atanın ürəyindən keçdi ki, çör-çöp yığıb o da qalasın – yeniyetməliyinin xətrinə, amma yersiz hesab elədi.

Ona ləzzət verən, ruhunu dincəldən çox şeyi duyurdu, hətta reaksiayası olurdu. Bal arıları pətək – yuvalarından oyanıb çöllüklərə, yeganə meşəyə yol almışdılar, elə sürətlə uçuşurdular – pilot lazım idi

baxıb heyrət eləsin. Bir xeyli  əvvəl çayın üstüylə süzən duman sanki atdan düşmüşdü, sürünə-sürünə ölümə doğru gedirdi. Bununla çay balıqlarının da ölümü başlayırdı, uşaqlar qırmaqla çayaşağı öz yerlərini tuturdu. Bayaq gördüyü qayıqçı uzağa getməmişdi. Ata ona sarı baxanda tilov qamışının ucundan sallanan əl boyda balıq çapalayırdı.

Havanın gümüşü işığı güzgü parçasını tapmşdı. Balığın quyruğu havanı cızdı, qayıqçı şən ovqatla bığını qolçağı ilə tumarladı, əyilib siqaret yandırdı, tüstüsünü havaya üfürdü. Belə diqqətsizlikdən çapalayan balıq qırmaqdan canını qurtardı və çəpinə kəsilmiş ipək parça kimi dalğalandı, üzgəcləri ağ vərəq kimi parıldadı.

Uzaqda – bu kəndə o qədər getmişdi – nənəsinin doğulduğu yer idi – həsrətlə boylandı, köks ötürdü: dağın yamacına səpələnmişdi evlər, kəhraba təsbeh daşları kimi gözə dəyirdi. Bağlardan tənbəl-tənbəl qalxan tüstü havada əriyirdi. Kənd, onun adamları şəhərlilərə elə gəlir qayğısızdılar, yeyib-içib erkən yatırlar, vəssalam!  Bəlkə də əsəbsizdirlər kənd adamlarının qayğılı və iztirablı duyğuları var, hərəkətlərinin mübhəm səbələri də. Bu iki nəsnəni başa düşmək gərəkdir, bu isə bəzi rəsmi dairələr üçün sadədir, onlar olmayan şeyi görməyi bacarmırlar.

Ata əllərini dizləri üstə çarpazladı, ağırlığını sağ qıçının üstünə saldı, ayağının ucuyla saralmış otları

aralayırdı. Çaydan qaçan xırda gölməçələrin qırağında çıxan otlara hələ xal düşməmişdi, vaxtında rənginə bələnmiş otlar da gözə dəyirdi. Belə yerdə məskən seçən quşlar civildəşə-civildəşə dayaz suyun qabaqcıqları kimi bir-birinin ardınca sıçraşırdılar. Uzağa uçmurdular, ayrılmaq istəmirdilər. Bu quşlar çayın o tayından uzaq olmayan meşəliyə belə getmirlər: bu quşlar görəsən canı çıxmış otlarda nə görmüşdülər? Şəhərdən əsən küləklərin şaplağına belə tab gətirirdilər! Bu quşlar heç nədən, hətta nadinc uşaqlardan belə qorxmurdular, yalnız yeganə çəkindikləri iriqanadlı gərilmiş çalağandan savayı, onu görcək dərhal yuvalarına çəkilib, balalarını gizlədirdilər.

Ata, ayağa qalxdı, sıx otluğu aralayan cığıra tərəf irəlilədi, təzə düşmüşdü, qırmaq atan uşaqlar salmışdı, onların ayaqları kimi nazikdi. Yapıxmış yovşan qoxusu burnunu qıcıqlandırdı. Əyilib bir budağını qoparıb iylədi və pencəyinin sol cibinə qoydu. Qoxudan öskürdü, iki-üç gün içində kəsgin azalmışdı. Kənd havasının ilk "müalicəsi" idi – bu cür qiymətləndirmişdi, telefonda qızına da beləcə məlumat vermişdi və sevindirmişdi.

Kənd itləri üzü çaya doğru tənbəl-tənbəl şörtüyürdü, nəmi çökmüş cığırı imsiləyirdilər. Eləsi vardı, arıqlığından qabırğaları sayılırdı. İtlərin yönü balıqçı uşaqların yanında idi. Bu tilovçular qırmağa

azıb düşən xırdaca balıqları onların payı kimi atırdılar. Necə ki, gün çırtdadı, yır-yığış edib qayıdırdılar, itlər də qarınları şişmiş halda daha tənbəllik eləməyib yorturdular. Maraqlı mənzərə yaranmışdı Ata üçün – kənd uşaqları üçün bu, adi idi – boz canavar kənddən əliboş atlana-atlana qayıdırdı, əlinə toyuqdan-cücədən, qoyun-quzudan bir şey keçməmişdi. Ümidlərini çayın o tayına – meşəliyə bağlamışdı. Dovşanların artan ayları idi, balalarını böyütmüşdülər, qaçırırdılar. Canavar Atanı – tənha gəzən, yanında iti olmayan insanı görürdü, baxmayaraq uzaqda idi. Qorxu içərisində dayandı, güman aclıqdan tənbəlləşmişdi və yorulmuşdu, ancaq ümidini itirməmişdi. Heyvani sayıqlığını sıxmamışdı. Sınıq-salxaq taxta körpü canavarın yaddaşından silinməmişdi – bu mümkün olan şey deyildi. Bəzən tək olmurdu, dişiylə körpünü adlayırdı. Tayı yanında olanda daha cəsarətli olurdu, neçə ildi birgə yaşayırdılar. Balalayanda harada, necə olsa da nəsə tapıb yemək üçün daşıyıb gətirirdi. Bu gəlişi boşuna keçmişdi, hərçənd, südəmər balaları yox idi, onlar müstəqil oldu, öz başlarını dolandırırdılar.

Canavar sanki yuxudan ayıldı. Kəndin aşağısından götürülən atlının çiynində tüfəngi görmüşdü, ehtiyatını əldən vermədi...

Ata həyət qapısına çatmışdı, dəmir darvazadan içəri görünmürdü, çəpər xeyli hündür idi, yalnız səs-küy eşidilirdi:

– Görüşümə gələnlər olacaq. – Ata yozdu və zəngi basdı. Azca keçmiş darvazanın kiçik qapısı açıldı, sən demə, zirəsi keçirilməmişdir. Həyətdə uzun taxta stolun dalında kişilər oturub şirin-şirin danışırdılar. Söyüddən asılan qoyunun cəmdəyi sallanırdı. Səliqə ilə soyulmuş, ikiyə yarılmışdı. Xayası üstündə idi. Çırpıdan iri topa gözünə dəydi, kabab üçün hazırlanmışdı. Bacısı sacı asıb fətir bişirirdi. Köhnə qazan ocaqda idi: bilirdi ki, qardaşı soyutmanı çox xoşlayır.

## 10.

... Yusif Qasımov rəqs truppasına – ansambla Çapayı salmadı, bu böyük qalmaqal yaratdı. Çapay bunu sona üç gün qalmış bildi və birbaşa bədii rəhbərin kabinetinə girdi, mədəniyyətlə salamlaşdı. Təcrübəli Yusif Qasımov Çapayın sifətindən şübhələndi, incə halda özünü yığışdırdı: "Əsəbi gəlib, bir qazan qaynadacaq" – ürəyindən keçirdi. Və sol tərəfdə oturmasına işarə elədi, Çapay da əyləşdi. Bu dəfə etikanı pozmalı oldu, içində dolaşıq fikirlər qaynaşırdı, əsəbləri qorxmuş toyuq kimi çırpınırdı. Rəhbər isə hirsli müsahibini yumşaltmaq barədə düşünürdü. Katibə qız adəti naminə iki stəkan çayı,

mürəbbəni gətirib çıxdı və üç növ almanı da unutmadı. Çapay qırmızı yanaqlı almaları altdan-altdan süzdü. Sarı yanaqlısı da diqqətindən yayınmadı. Sükutlu gərginlik də Yusif Qasımovun nəzərindən çəkinmədi və armudu stəkanı ovcunda sıxdı, üzünü Çapaya turdu:

– Soyutmayın, – astadan dedi. – Təbii çaydır, Lənkərandan keçmiş tələbəm göndərmişdir. Məni unutmurlar, sağ olsunlar. – Çaydan bir-iki qurtum içdi və qırmızıyanaq almadan götürdü, ovcunda hərlədi. Burnuna apardı. Münaqişəli hisslərdə özünü çox təmkinli aparır, “rəqibinin” kəsəyə dönmüş üzgün sifətini “oxuyur”. Çapaya baxanda onun gözləri titrək duman içində işıldayırdı, qaralmış şüurunda bir oyanış ümidində idi. Almanı hələ dilimləməmişdi, Çapaya sual verdi – nəzər salıb dedi:

– Almanı uşaqlıqdan sevirəm.

Etiraf Çapayın xoşuna gəlmədi: “Nə danışır, bu kişi?” Sual içində susdu.

Yusif Qasımov təmkinini pozmadan:

– Çapay bəy. – Stolun altında arxaya yığdığı ayaqlarını qabağa uzatdı: “Nə olsun? Nə demək istəyirsən?” Gözlərini ona dikdi.

Yusif Qasımov bu məqamı tuta bildi. – Soruşuram, meyvənin, lap bu almanın. – Qırmızıyanaq almanı sarıyanaqla əvəzlədi. – Ağacdan düşmə səbəblərinin fəlsəfəsi var, hansısa yazıçıdan oxumuşam.

Sözlər Çapayı sanki oyatdı:

– "Düşür, ona görə yetişir, ancaq belə sadə deyil. Sualı yox yerdən verməz" – fikrini iki sözlə ifadə etdi:

– Yetişir ki, qopur. Və qırmızıyanaq almadan indicə birini əlinə aldı, qoxuladı. Saplaqdan bir qırığı almada qalmışdı. Möcüzəsayağı saplağa baxdı, yenə iyisini aldı. – Mayestro, elə dediyim kimi.

– Praktiki sən düzgün yanaşırsan. – Almanı havada fırlatdı. Stolun üstünə qoydu.

Katibə boş padnosla içəri girib, boş stəkanları aparmaq üçün yığışdırdı.

Yusif Qasımov:

– Təkrarla,– deyib, həmin almanı ovcunda sıxdı.

– Çapay bəy, – yumşaq səslə izahına başladı. – Meyvə cinslərinin ağacdan düşmə səbəbləri təsadüfi olmur. Təbiətdə heç bir şey gözlənilmədən yaranmır, eyni zamanda məhv olmur. Bir səbəbi, meyvə yerə düşməyə tələsir. – Gülümsündü, diqqəti yayındırmadı. – İkincisi, saplağı quruyur, bəlkə də yorulur almanın, armudun, daha hansılarının. Biz insanlar da yoruluruq. Sənətdə olanda elə coşqunluqla hərlənirsən, ayaq döyürsən, axır yorulursan. Üçüncüsü, gün istisi soldurur, ağırlaşır meyvə, bir yandan da külək. Amanını kəsir. – Almadan bir dilim kəsdi, şirəsi bıçaqda gilələndi. – Kimsə onu yeməlidir. –

Ağzına apardı, dişlədi, dodaqları islandı. – Bir sınağa çəksənə, dadı necədir, yemək lazımdır.

Çapayın üzünə baxdı, halını praqnozlaşdırdı və: – Başqa mühüm səbəbləri də yox deyil, cavan oğlan!

Çapay güldü verilən qiymətə: "Nəyim cavandır müdir?" – Sualına təəccübləndi: "Düz buyurursan, həssas kişisən, həyat sevərsənmiş. İndi-indi eşqə düşürəm. Aytac başımı, ağlımı  sərxoş edib, özümdə olmuram. Məni ondan ayırdığın üçün qapını açmışam". – Təəccüblə gözünü döydü.

– Buyurun, Yusif müəllim. Alma! Hm, əbəs o kinonu çəkməmişlər.

– Bəli, elədir. Bir səbəbi meyvənin hüceyrələri pozulur, təbii qanundur, bizim də. – Susdu. Xırdalamadı. – Daha səbəbi? – Suala bənzər dilləndi. – Kortəbii hadisələrin baş verməsi?

Çapay sıxılırdı, sualların məntiqi olması, bu qədər kitab oxusa da, belə məsələ ilə qarşılaşmadığının ağrısını çəkirdi. O, inadkar idi, söz altında qalmazdı, fakta – ziyasına arxayın idi. Başını tərpətdi, diş dəyməmiş almanı vazaya qoydu, ancaq bıçaq əlindəydi.

– Rəhbər. – Bu sözü tez-tez işlədirdi. Yusif Qasımovun xoşu gəlməsə də üzə vurmurdu istərdi vəzifəsini tam dilə gətirsinlər. – Mənim də sualım olacaq. Mən də hansı kitabdansa oxumuşam, xatırlamıram. – Adektvat cavab hazırladı. – Nə səbəbdən aslan meşənin sultanı sayılır?

Yusif Qasımov duruxdu, susdu, çiyinlərini çəkdi. Ani sükut yarandı.

Çapay üzə vurmadı ki, cavab verməkdə acizsən. Sarıyanaq almadan birini götürdü və bir dilimini təklif eləmədən dişlədi.

– Hə, məsələ inandırıcıdır. – Dilimi çeynəyib uddu. – Baxmayaraq meşədə aslandan da güclü Qorilla meymunu yaşayır, ancaq. – Katibə içəri indicə girdi və çay stəkanlarını ortaya qoydu, bir neçə qəzet də gətirmişdi. Çapay oxuduğundan yapışdı. Lakin sözünü tamamlamadı.

Yusif Qasımov izahat verdi.

– Təkcə meymun yox, ayının qolu daha güclüdür.

Çapay istehzalı halda sözünün ardını gətirdi:

–Təkcə güclə ölçülmür sultanlıq.Böyüklük üçün bəzi şərtlər əsasdır. Uşaq da şah taxtında oturur.

Yusif Qasımov yerində qurcalandı, bayaqdan başı üstə vızıltı qoparan milçəyi bükdüyü qəzetlə vurmaq təşəbbüsündə oldu, milçək ayıldı və pəcərəyə tərəf uçdu. Çapayın sözünün üstünə söz gətirmədi və diqqətini ona yönəltdi.

– Aslanın meşə sultanı olmasına səbəb onun davranışıdır – qaşları düyünləndi. – Təəccüblənməyin. **Bir səbəb** ondadır, acımamış ova girişmir, deməli, xasiyyətində yırtıcılıq əlaməti yoxdur. **İkinci səbəb** acanda nə qədər ehtiyacı olur o qədər də ov-

layır, deməli, görməmiş deyil. **Üçnücü səbəb** ov üçün ən güclü heyvanlardan seçir, fağırla-yazıqla işi yoxdur, gücünü zəiflərin üzərində tətbiq etmir, yoxlamır.

Yusif Qasımov kresloda sakit halda idi, Çapay görmüşdü ki, o, kresloda bir neçə dəfə fırlanmaq adətindədir. O, fikrinin arxasının intizarındadır. – **Dördüncüsü** ov üçün bala üstə olanı, yəni hamilə heyvanı xoşlamır, deməli, şəfqətlidir. **Beşincisi** birinci ovdan sonra öncə ailəsinə ovu yeməyə icazə verir, kənara çəkilir. Deməli, fədakardır. **Altıncısı** artıq qalan yemeyini basdırmaz, yaxud başqalarının yeməsi üçün əlçatmaz yerə aparmır, deməli, xəsis deyil.

Çayı soyumuşdu, stəkanı götürdü və könülsüz içdi. Yusif Qasımov kreslosunda bircə dəfə fırlanıb əvvəlki yerində dayandı, diqqətlə müsahibinin üzünə baxdı: "İnsanlar var acizlərə, tabelikdə yaşayanlara mənasız əzab verir, amansızlıqdan, laqeydlikdən ləzzət duyurlar. Hm, beləsi dilsiz, küt şüurlu heyvanlardan da aşağıda durur – ürəyindən keçdi. – Hm, Çapay, hm. Aslan qədər qeyrəti çatmayanlar məgər azmıdır? – Azca aralandı, parlayan dişləri göründü, uşaq təbəssümü ilə sözünü davam elədi. – Böyük-böyük idarələrdə, nazirliklərdə stolun dalında oturan özünü nəzakətli göstərən məmurlar günahsız insanların əzab, iztirab çəkməsindən xəcalət

çəkirlərmi? Çürümüş bir şeyi kökündən qoparmaq gərəkdir! Beləsi ziyanavər adamdır, yaxud, bağışla məni, heyvandır!

Onun gözlərində işıq parıltısı oynadı. Başını silkələdi, alnına işıq şöləsi düşmüşdü:

– Səninlə söhbət etmək feyzindən məmnun qaldım, Çapay: – Dodaqlarını çarpazladı. – Misalınız məni məchul fikirlərdən azad elədi. Çapay, öyrədilmiş itlər var – dal ayaqları üstə oynayırlar. Çalağan ölü cəmdək yeyir, bizim  iki ayaqlılar isə dirisini...

Pəncərənin arasından işıq süzülürdü. Yarpaqları qırılan, asta küləkdən havada uçan sarı yun tikələri kimi idi, otaqdan baxanda belə mənzərəni anladırdı. Ağacların lüt qalan budaqları iyrəkləşirdi.

Çapay Yusif Qasımovun üzündən nəzərini hələ ki çəkməmişdi, sonsuz süstlük sezirdi. Sol qolunu yanaqlarının altında yastıqlamışdı.

Yusif Qasımov səhvini ikili söhbətdə başa düşdü, üstünü vurmadı. Könlünü almalı idi, o, hər şeydən əvvəl, kollektivin rəhbərlərindən biridir, qaldı aslansayağı vərdişə, gülmək istəyirdi, ancaq yeri deyildi: “Rəhbərmi, kişimi – kim olursa səhvini etiraf etməyə hünəri çatmalıdır. Budur, qəbahət axtarmağın özü nadanlıqdır”:

– Çapay, əzizim, hər şey keçdi, səhvdəyəm, hələ yaşayırıq, eyni kollektivdə çalışırıq. Bu il daha iki

qastrol səfərimiz olacaq. Mədəniyyət Nazirliyinin lahiyəsində var. İncimərsən ki?

Çapay yumşalmışdı, amma Yusif Qasımovun kabinetinə gəlməsindən peşimanlanmadı, bəzi cizgiləri müşahidə elədi.

Kabinetindən çıxan Çapay dodaqaltı pıçıldadı:

– Xumara xanım. – Xumara ayaq saxladı, təəccüb ifadə edən gözləri süzüldü və Çapayın pörtmüş sifətində gəzişdi. Çapay istədi laqeyd keçsin, çünki binadan çıxarmağı qərara almışdı. Lakin cavanlıq enerjisi üstün gəldi: Xumara xanımla söhbət eləmək onunla – gizlətməyə ehtiyac görmədi – əylənmək risqinə əl atmalı idi. Bu qadın hər saat kişiləri ovsunlamaq qüdrətində idi – saxlamışdı ədasını xüsusilə. Başqa cür necə ola bilərdi: uşaq dünyaya gətirməmişdi. Tibb baxımdan bu ali dəyərdən məhrum idi. Əri bunu yəqinləşdirəndən sonra başqa bir qadınla görüşürdü, bəlkə də övladı vardı, hələlik gizlətməlidi. Xumara xanıma beş-on il əvvəl neçə yerdən ona eşq elan edənlər vardı, imkanlılar da. Amma könlü "rədd" cavabı vermişdi. Xoşlamadığı necə olursa, bəyənmir, onun üçün daxili ehtirasın səsi hər şeydir. Təsəvvürə gətirə bilməmiş ki, yataqda kişiylə necə rəftar edər qadınlıq tələbatını. Oyundaşına necə mənimsədə bilər: Pul, vəzifə, sərvət lazımlı vasitədir, xüsusilə, qadın üçün. Amma qadının sərvəti bunlardan çox qiymətlidir. Öz dünyagörüşü onu aldatmaz.

Xumara xanım üçün nəydi qiymətli saydığı şəhvanəliyin fəlsəfəsimi? Məşhur aktyor Elzabet Teylorun kitabını çox əvvəllər oxumuşdu: "Yatağa tələsməmək. Bu halı "Oyunun qapısı" kimi qiymətləndirilir. Açıq qalmamalıdır, kimsə boylanıb görsün. Üzbəüz qalanda ev xalatı geyinməməli və pəncərə qırağına keçməməli, ağaclara, səmaya tamaşa etməməli. Ağ ev göyərçinlərin necə məharətlə mayallaq aşmalarından zövq almalı. Oyundaşı "anlaşılmazlıq" hissiylə üz-üzə qoymalı. Oyunda məğlub olmamaq inadı.

Bir dəfə o – dəbdə ikən – telekanalda şou aləmində gənc müğənni haqqında qalmaqalla bağlı aparıcı ondan soruşdu ki, pulsuz kişiylə sevgin ola bilərmi, qamətlidir, düşüncəlidir.

Qız müğənni bildirdi ki, heç vaxt pulsuz kişiylə nə sevgili olar: "Əgər özüm zülümlə pul qazanıramsa nə edirəm kasıbı? Oturub yesin, günümü qara etsin. Ac və dinc canım. Pulsuz kişini sevə bilmərəm. Televizor ustası olsun, rəngsaz işləsin, amma yaxşı qazansın. Sevgim o zaman baş tutar".

Xumara xanımın yaddaşından hələ silinməmişdi o cavab. Fikir – düşüncə onu üçüncü mərtəbədən birinciyə gətirmişdi, qeyri-şüurlu. Haçandan o xanəndəni telekanallarda görmürəm. Olsun ki, sevgilisi – gülür – sevgi əvəzində ayaqlarını çarpayıya mıxlayıb. Ölmüşün dolu, ağ baldırları vardı.

Aparıcı onu da sakit buraxmadı, açıq suala tutdu:

– Rəqqasələrə qarşı kişilərin təqibi bütün dövrlərdə olmuşdur, buna səbəb bədənlərinin alverçisi olanlardı, onların çağırışıdı. – Xatırlayır ki, suala ürəyindən keçən cavabı verdi. – Təbii. Gözəl, gözəgəlimli qadının hədəfə alınması bizim kişilərin payına daha çox düşübdür. Kişilərin özü baş açmır ki, harda başlayır, harda qurtarır. Bu, onlar üçün də sirdir.

Müsahibə işdə birmənalı qarşılanmadı, ağız büzənlər də öz yerində. Bu o vaxtdı yenicə ərə getmişdi, yaxşı günləri gəlmişdi. Təzə-təzə parlayan illərdi. Hər rəqs nömrəsindən sonra gül dəstələri atılırdı ayaqları altına. Bir dəfə maraqlı söz ünvanına çatdı, hələ xatırlayır. Teleekranda birbaşa əlaqə zamanı sual vermişdi bir cavan qız ki, Xumara xanım, unikal rəqqasəsiniz, oynayanda rəqsinizi adam unudur. Fiquranız aldadır, özünə çəkir. Min manata xınaya gedən xanım, ərinə də beş min manatlıq maşın alsan yaxşı olardı. Hazırcavablıq eləyib demişdi: "Yoldaşıma maşın yox, sənin kimi babatı lazımdır sürməyə. Buyur, gəl, görürəm çox narahatsan". Belə xatirələr, əhvalatlar o qədər başına gəlmişdi, bunları adi ovqatına, xətrinə dəyməməklə qarşılamışdı, sənətçilərin taleyi belə qalmaqallarla ötüb-keçir. Eləsi qarşısına çıxıb subay vaxtı, tanış olmaq üçün dillər töküb,

andlar içib ki, sənətinə maneçilik törətməyəcək. Kişilər var – uzaqdan-uzağa qadın düşgünüdür, yaxınlaşmağa isə cəsarəti çatmır. Göreşən kimi qaqqıldaşan boş-bekar cavanları da görürdü, sur-sumbata xoşa gələnlər də qarşısına çıxırdı. Köhnə duyğular dalğalarsayağı onun üstünə dartınırdı, sanki sahilin yarğanına çırpılıb geri qayıdırdı. Onun vücudunda məhv olmuş bir həyat sızlamışdı. Ağlayıb içini çəkmişdi, özündə boşluq duymuşdu, bədəni boşalmışdı, döşləri qoca əmcəkləri kimi sallanmışdı, bir kişi belə ona toxunmamışdı. Amma nəyəsə ümidliydi, özündən yüksəkdə və alçaqda duranlardan çox şeyi götürürdü, alırdı. Xumara xanım rəftarını dəyişməməyə çalışırdı: soyuqqanlı, bərbəzəyə alüdə olmamaq, hər kişiyə meyl salmamaq. Mahnı və rəqs ansamblının orta yaşlı rəhbəri bir-iki dəfə ona söz atmışdı, amma özünü başadüşməməzliyə qoymuşdu. Axırı ikilikdə ürəyini açmışdı ki, evliyəm, uşaqlarım böyüyüb, səni ikinci qadınım qiymətində saxlaram, istəsən uşaq da dünyaya gətirərsən. Cavabı olmuşdu ki, mən bakirəliyimi qismətimə düşənə bağışlayacam. Bununla söhbətə son qoyuldu. Bədii rəhbər üzlü adam olmamışdı, vəziyyəti qiymətləndirməyi bacarırdı. Görünür, cavabından xoşu gəlmişdi. "Əməkdar artist" fəxri adını onun təqdimatı ilə almışdı.

Xumara yerişini yavaşıtdı, xəzri əsməyə başladı. Az sonra bədii rəhbər qəzaya düşdü. – Bu kədərli xatirə Xumara xanımı sarsıtdı və “ölməli adam deyildi”, eşidəndə xəbəri – ilk sözü olmuşdu.

Xumara xanım küçənin ayağına doğru gedirdi, nə vardı orda, nə üçün səmtini yönəltmişdi? Sual dolu gözlərini döydü, amma hələ gözlərində həyat eşqi, hisslərini sevdiyi bir kişiyə bağışlamaq taqəti qalırdı. Başını küləkdən aşağı sallayan söyüd ağacının altındakı skamya boş idi, oranı külək, yağış az tuturdu, əyləşdi. Yorğun döşlərini nazik kostyumu sıxırdı, təravətini itirməyən bədəni görünmürdü. Ehtirası hələ sönməmişdi. Əslinə qalsa o, sevgiylə ərə getməmişdi, düşüncəylə ailə qurmuşdu və çalışmışdı şərəfini gözləməklə rəftar eləsin əriylə. Sən demə, bu kişinin ürəyi inkar hissiylə dolu imiş.

Addım səsləri onun xəyalını qırdı və sümüyünə damdı, kimdirsə onu tanıyandır ki, arxasınca gəlir. Yanılmamışdı, Çapay idi. Boz rəngli şapkası alnını yarıyacan örtmüşdü, gözlərini mənalı-mənalı hərlədirdi. Və baxışlarını Xumaranın ayaqlarına zilləmişdi. Bu anlarda küləyin təsirinə dözməyən budaq onun yanaqlarına toxundu, elə bil yapışıb qalmışdı. Çapay bu mənzərəni görüb, söyüdün yarpağı tökülməmiş budağını araladı və salamladı, ixtiyarsız təəssüf hissi oyandı. Kinli etinasızlıq Çapayı buraya gətirmişdi, ürəyi atdanmışdı. Xumara xanım gözləmir-

di, ehtimallara yozmaq istəmirdi, hisslərini ifadə etməkdən çəkinməmişdi, amma burada, heç kəsin olmadığı sahildə hisslərinin coşğunluğunu ifadə edə bilərdi, sıxılmazdı.

Solğun sifətinə yapılmış saçları Çapayın diqqətinə gəldi. Kostyumunun düymələri bağlanmışdı və ürəyinin dərinliyində nəsə titrədi Çapayın. Ona aydın olmayan həyəcan hakim kəsilirdi, cavanlığı damarlarında coşurdu və soruşdu:

– Tək-tənha neynirsən burda? – Sualın məntiqsizliyini Çapay hiss elədi və düzəltmək istədi. – Yorğunluğun gətirib? – Mənə desən gələrdim. İxtiyarsız gəlirdim, darıxmışdım.

Xumara xanımın yanaqlarının zərif dərisi titrədi. Çapaya tuşlanmış gözləri donub qalmışdı. Üzünü təbii məmnuniyyət ifadəsi bürüdü, sinəsinin cizgiləri göründü. Saçları boynunda yelləndi. Çapaya ərklə oturmağı təklif elədi, sol əliylə yerini göstərdi. Çapay əyləşdi, dənizdə kiçik qayıqlar qılçasının birini itirmiş quş kimi atılıb-düşürdü. Sahiblərindən əllərini üzmüşdülər, daha onlara lazım deyildi. Bəzən gözəlliyini yaşına qurban vermiş qadınlar bu sayaq düşünürlər: "Daha kişi üçün yaramırıq, bizdən qaçırlar, bal arısı ehtirasıyla yeni çiçəklər sorağına düşürlər". Xumara xanımdan belə fikir keçmişdimi? İnanmaq? Axı, o, hələ yaşa dolmamışdır, rəqslərini şux ovqatla oynayır, istəsə hər bir kişi

üçün yağlı tikə olar. Onu yozmaq olar ki, Çapydan xoşu gəlir, birmənalı!

Xumara xanım çiyinlərini səbirsizliklə çəkdi və dişlərini sıxdı, bir-iki cümlə dedi, hiss elədi danışıq ahəngi dözülməz alınır. Bəzi qadınlara məxsus diqqətsiz mühakimə əzəldən onda olmamışdı, marağının təhrikinə qapılmışdı. Azacıq diksindi, əllərini sinəsində qoşalaşdırdı. Xumara xanım özlüyündə təəccübləndi. O gün elə şux idi. Çapayla elə diri danışırdı ki. Bəs indi? Təklik deyilmi? Yan-yörəsinə baxındı və Çapayın üzündə baxışlarını saxladı. Acı dərman dadı verən mübhəm hissləri boğazını acışdırdı.

– Sən, Xumara xanım. – Çapay idi. – Sən həvəs ucundan evlənmişdin? – Səsi titrədi və elə gəldi ona bu sualı yersizdir.

– Hə, Çapay, nə gizlədim. – Səsinin ahəngindən Çapaya elə gəldi Xumara xanım ağlayacaq sualın düzgün cavabından.

Dodaqları səyriyirdi. Kişi tayfası ilə üzbəüz oturmaq – Çapayla – hisslərinin anlaşılmaz əsarətindən canını qurtarmaq istəmirdi və şikayətli səslə pıçıldadı:

– Mənimki gətirmədi ilkindən. – Xumara xanımın baxışları xoşbəxtmi, əzabmı ifadə edirdi? Və ahı ilə soyuq dodaqlarına hərarət çilədi. Söyüdün yarpaqlarını qoxuladı və budağı buraxdı barmaqları

arasından. Susmuş füsünkarlığa qalib gəlirdi. Səsində yatmış ehtiras səslənirdi, baxışları təşvişlə Çapayda toxdamışdı. Heçliyin ağuşundan çıxmaq istəyirdi, lal duyğulardan dodaqları dartınırdı. Çapay Xumara xanımın qəşəng üzündə gözəlliyi görürdü. Partdaşıq saçlarına sığal çəkməyə cəsarət göstərmirdi.

– Qarşılıqlı ehtiram, ünsiyyət məhəbbət üçün, görünür, bəs eləmir. – Çapay sualdan yan keçdi. – Səsində səbirsizlik açıq-aşkar hiss olunurdu.

– Mənimi nəzərdə tutursan? – Xumara xanım ilk dəfə sual verirdi. – Mən bu günlərimdə. – Boğazını arıtladı. – İndilərimdə çəməndə dəryazla gövdəsi kəsilmiş çiçəklərə bənzərəm, solmuş bu gül-çiçəkləri qoxuyan olmur, çünki dəryazın ağzını görmürlər. ətirlərini dəryaz aparmışdır. Mənim cavanlıq şıltaqlığımı öldürmüşlər, səsimin keçmişinə qulaq asıram. Və Çapayın üzündə baxışlarını saxladı, itirəcəyindənmi qorxurdu: – Həyat işığa can atmalıdı. – Baxışlarını çəkdi, sahilin daş hasarına qonan, küləkdən yellənən qağayılara nəzərlərini yönəltdi, bunu biixtiyar eləmişdi. – Xəzər qağayıları çox inadkar və dözülməz olurlar. Baxın, külək onları qoparmaq zorundadır, ancaq uçmurlar.

Çapay o qağayıları indi gördü və Xumara xanımın fikrini başı ilə təsdiq elədi.

– Qağayılarda həm də fövqəl hiyləgərlik olur. – Çapay gülümsündü.

Xumara xanım hələ coşqun hisslərilə mübarizədə idi və içində boğurdu – murova gəlmiş pişik kimi. İtirdiyi gücünün axtarışında idi, tapmaq istəyirdi. Hələki hissləri şəffaf şan balı kimi şirindir, şubart dəvə südündən hazırlanmış Kumıs kimi meyxoşdur...

## 11.

Ata bir azca aralıda qısılmış qadına sərbəst baxmaqda çətinlik çəkirdi, yavaşımış, az sonra kəsmiş yağışın gilələri həyətdəki ala-tala otların qoxusunu yayırdı, cökə, ardıc, söyüd ağaclarının yarpaqlarından süzülürdü. Gün cırtdadı və nəm iyi Ataya xoş gəldi. Qadın danışırdı, sual versələr cavab verərdi. Qarışıq saçları yaylığın altında tam örtülməmişdi, üzündə məyusluq vardı. Duruşundan, susmağından təngə gələnə oxşayırdı, amma özünü o yerə qoymurdu. Yanındakı, nisbətən cavan qadın onu dümsüklədi:

– Qonaq a deyilsən? – İrad tutdu. – Kəndin o başından basa-basa gəlmisən, əl-ayaq ver. Ata əmini tanımazsan, çoxdan çıxıb kənddən, ildə, ayda gələr-gəlməz, neynəsin, iş-güc adamıdır. – Məzəmmət hissiylə bu sözləri dedi, bir qədər də peşiman oldu,

axı yaşca ondan kiçikdi. Kənd havasında çətindi ayırd etmək. İstəyirdi tutqun əhvalını qovsun. – Amma bir məktəbdə oxumusan, eləmi? Sinif fərqiniz olar zənnimcə.

– İki sinif, – pıçıldadı. – O, şöhrətli idi məktəbdə, bizlərə nümunə göstərirdilər onu. Bir növbədə oxuyurduq, xeyli bir gedirdik qızlarla, yamanca yumor danışardı. – Sözləri sanki bunlar idi və daha danışmayacaqdı. Bir "nəsihəti" – bunu deyib astadan güldü: – "Ağrı və xətər verən şeylərdən qorunun, qaçın". – Baxışlarını Ataya dikdi, o, deyəsən suala cavab verirdi, bundan istifadə edib ondan gözlərini çəkməmişdi: Bir gün iş elə gətirdi kənd yolunda ikisi gedirdi, dərsə gəlməyən rəfiqələrin sayəsində. – Yaman tələsirsən, Gülzadə, sənə sözüm olacaq. – Ata idi.

Qızı ildırım vursaydı bu cür diksinməzdi, bir küncə çəkilərdi, ildırım ötsün. Diksindi və bunu Ata hiss edib, özü də şaşırdı. Gülzadənin qulaqlarında sanki zəncirlərin cingiltisi dalğalanırdı. Yanaqlarının hənirtisi barmaqlarını qarsıdırdı, üzü aşağı uzanan yola baxdı ki, evlərinə nə qədər qaldığını müəyyənləşdirə bilsin. Ata isə qızın üzündə titrəyən zolaqları görürdü, hətta peşimanladı ki, məktubu verərdi, belə mənzərə yaranmazdı, amma iş işdən ötmüşdü.

Çəpərqırağı əkilmiş nar ağacları meyvələrini saxlamışdı, payıza çatan nar da vardı, hələ bu fəslə qalmış ötüb keçdilər, bu həyət məktəbli yoldaşıgilindi. Bu gün onu görmüşdü, topu qovurdu. Həyətə boylandı – bu da bir bəhanədir. Ata üçün. Özündən qeyri-ixtiyari həyətə baxdı, göy-göyərti əkilmiş bağçada evin xanımı əyilib-qalxır, vəzərimi, soğanmı, keşnişmi – başlarından əlilə qırpırdı.

Bu həyəti ötdülər, Gülüzadənin evləri görünürdü. Ata sifətini köynəyinin qolçağı ilə sildi və əlini çantasına atdı, ağ qəşəng kiçik açıqcanı götürdü. Gülüzadə bu dəfə diksinmədi, qorxdu, fəhmlə Atanın nə edəcəyini duydu, aralanmaq istədi. Gizlətmir, bu hərəkəti etmədi. Ata fürsəti amana vermədi, güclə eşidiləcək səslə:

– Al bunu, məktubdur, – deyib aralandı. – Cavabına tələsmə.

– Ata əmi hələ kənddə qalacaq, məzuniyyətdədi. – Qadın təxmin elədi. – Məktəbdə görüşünü də planlaşdırıblar.

Onu da, özünü də səslədilər. Qadın yanbızlarını basa-basa uzaqlaşdı. O isə bu çağırışı istəmirdi.

## Dan işığı
## 1.

Mahnı və rəqs ansamblı səfərdən qayıtmışdı. Bir neçə məkanda rəqslərin “solosu” yaxşı qarşılandı. Aytaca da pay düşdü, amma darıxırdı, özünü tənha hiss eləyirdi, atasının sağlığı yerində olmurdu, öz-özünə xoflanırdı bəzən. Bir üstünlüyü onda idi, səhnəyə qalxanda unudurdu qəm-qüssəni, əvvəlki dalğınlığa və düşgünlüyə qalib gəlirdi. Belə psixoloji üstünlüyü rəqs müəlliməsi aşılamışdı: “Aytac, – demişdi. – İndi dərdsiz insan yoxdur, eləyə qalsa gərək yaşamayasan. Özünü tamaşaçılara qurban verməlisən əgər sənətində ucalmaq niyyətin varsa”. Atası da təxminən buna bənzər nəsihət ötürmüşdü qızına: “Sən öz düşüncələrinin axınını başa düşməyə çalış, hələlik fikirlərin öz-özünə axır” – sözləri deyib qurtaranda atası ah çəkdi, tüklü sinəsində əllərini üst-üstə qoydu və ayağa qalxdı: “Qızım, meşədə ağacları qıranda çör-çöpün qeydinə qalmamalıyıq”.

– Aytac. – Bu səs Aytacın fikrini qırdı, diksindi. Qanrıldı. Yusif Qasımov idi, uğur onun kefini açmışdı. – “Heyvagülü”n tamaşaçıların gülünü əllərində dondurmuşdu, tərpənmirdilər gətirib sənə versinlər. Əməlli-başlı donmuşdular yerlərində, tərpənmirdilər. – Siqaretinə son qullabı vurub külqabıda

söndürdü. – Səninçin ayrıca repertuar hazırlayaq, xüsusi “nömrən” olmalıdır.

Aytac xəyaldan ayrılsa da, hələlik keçmişilə əlləşirdi, bu sənəti seçməkdə, həvəsi sönməməkdə – mənbəni axtarırdı: Özüməm mənbəyim. – Pıçıldadı, Yusif Qasımov eşitmədi, çünki kişi rəqqaslar onu dövrəyə almışdı.

Yusif Qasımov Aytaca diqqətsiz – sezdirmədən göz gəzdirdi davranışına. O, sənətinə qapılmışdı, kişi tayfası ilə maraqlanmırdı, Bakıda da bu qırımda idi və ürəyindən  keçmişdi, özünə sığışdırmırdı, xəcalət çəkirdi: “İncəsənət aləmidir”, – deyə hər kəsi ümumiləşdirmək yaxşı fikir deyil. Aytac gözəlliyinə, istedadına vasitə gözü ilə baxmır. Olub bu yaşlarda oyunlardan çıxıbdır, ərə gedibdir, qoltuğuna bir uşaq aldı, üz döndərib, bəhanəsi: “xasiyyətimiz tutmadı, ayrıldıq” olub, qəzetçiyə bildirib, özünə haqq qazandırıb.

– Yusif Qasımov bu düşüncələrinə haqq qazandırırdı. Amma məlum olur onların yalan-palanları. Aytac sevməyə bilməz, burada nə qəbahət... Amma arabir görürəm ki, qızın üzündə ciddi, qəti ifadəni məhzun bir kölgə əvəzləyir, əla sənətə sahib olmaq üçün sevgi gərəkdir cavan qızlara, boş-boşuna əylənmək yox – ürəklərində yatmış, yeniyetməliyindən unudulmuş arzusunu oyatmalıdı. Bu şansı əldən buraxan qəşəng səhnə xanımları qısqanc olurlar,

sonralar iblis vəsvəsəsi hakim kəsilir, hətta amansız vəsvəsələrlə dolur. Mənasını bilməyən sirli axınlar yol tapır onların qəlb evinə və əllərilə deyil, ayaqları ilə kişilər açır bu qapını. Əgər şax və güclü kişidirsə".

Yusuf Qasımov kiçicik bağda oturdu, bura teatrın addımlığında idi, iqlimə və torpağa bəzək kolları, ağaclar əkilmişdi. Bu ağaclar – bağçanın sərhədini ayırırdı, zərif güllərin, zəif çiçəklərin quyruqları idi – kölgəsi arasından xırda-xırda dairəciklər şəklində gün işığının parıltısı düşürdü, ləçəklərin, yarpaqların ətrinə qarışırdı. Rəqs edəndə Aytaca fikir vermişdi. Rəqsdən sonra isə dincəlmək istəyən bir qadının sevincini yaşayırdı, bunu üzünün ifadəsindən hiss edirdi. Yusif Qasımov Aytac barədə qənaətini ürəyində belə ifadə elədi: Onun qəlbi, ürəyi, bir sözlə, davranışı auraya, hətta daha geniş gedişata zidd olan başqa bir məişətin çətin başa gələn hərəkətlərini əvəz edirdi, əxlaqi aləmdən – çirkli ruh aləmindən dəhşətə gəlir və bu labirintdən çıxmağı bacarır, gücü çatır.

Yusif Qasımovu çağırdılar, şam yeməyinin vaxtıydı. O, nahar üstündə dedi ki, yır-yığış üçün bir gün vaxtımız var, çənli səhərdə uçuruq Bakıya. Bu sözlər Yusif Qasımovun, eləcə də ansambl üzvlərinin tutulduğu qəribliyin, Vətənə uçmaq əhval-ruhiyyəsinin ifadəsiydi...

Çapaya tənhalıq daş kimi ağır gəlirdi, gücü çatmırdı qaldıra. Kollektiv üçün darıxmışdı. Bir yandan da gizlətmir – Xumara xanım onun cavan ehtirasını qıcıqlandırması idi – onunla bağlılıq gələcəkdə nəyi vəd edirdi: bir vaxt – uğursuz sevgisində qadınları rəzil, amansız simasında görürdü, ümumiyyətlə, məhəbbət aləmində mənasızlıq axtarırdı, belə çıxırdı o, qızların sevgisindən qorxur, bu yalnız qısqanclıqdan irəli gəlmirdi, evləndiyi qız sonradan "buynuz" çıxarırdı? Bəli, Çapay bu sualdan qorxurdu. Xumara xanım ki ərsizdir, boşanmışdır. Bu qadında dəvə dəlisovluğu yoxdur, sakitdir – qəribə nahamvar hisslərin tuğyanına baxmayaraq. Ansamblın onunla qalan bəzi qadın üzvləri Çapayın xiffət elədiyinə özlərini inandırdılar, bu rəydə olanlara Çapay daha arıq və qəmginli təsir oyadırdı. – Qoy beləcə düşünsünlər – Çapay özünü o yerə qoymadı, nikbin əhval yaratdı özündə. Xumara xanım onun üçün belə bir təsir yaratmışdır ki: onun istəyini – söz anlayan qadındır, bəzən baxanda onun bulaq suyu kimi işıldayan gözləri var, şişkin dodaqları danışanda səyriyir, onunla söhbətində qəribə təbəssümlə gülümsünür, nəsə demək istəyəndə fikrini gizlətmir. Xumara xanım özünü ona bağışlamaqla, özünü yoran həyatı ilə vidalaşmaq istəyir, gecələr ağır ölü yuxusundan bezikir. O, gözəl rəqqasə olsa da hissini itirir, yorulur. Bəli, Xumara xanımda kədərli qadın mərhəməti və

yumşaq nəvazişi duyulur. Son söhbətində göz yaşları solğun dodaqlarında gilələnmişdi, intizar atəşi üzünü qarsıtmışdı. Çapayı təəccübləndirən bir məsələ – elə də təcrübəsi yoxdur axı. – Xumara xanımın və həyatına daxil olan bir-iki qadının heç nədən, ya hisslərini "boşaldan"dan sonra göz yaşları, kipriklərinin gözlərini qapaması – pis görünmürlər belə dəqiqələrdə, amma vaxt uzanmamalıdı. Sevgidən, uğursuz məhəbbətdən söz salanda gözlərinin məchul nöqtəyə zilləmələri, fikrə dalmaları. Çapaya o təsir bağışlamışdı, belə vərdiş yalnız rəqqasələrə xasdır, onlar rəqsdə ehtiraslarını cilovlayıb, bədənlərinə kəmər kimi keçirirlər – bu qənaətinə üzü gülmüşdü, haradasa özünü haqlı saymış: – Qadın güclü və dözümlü varlıqdır. Belədə nə üçün ağlamağa üstünlük verirlər – sualı özünə tuşlayır. Yəqin ki, əzabdandır, vücudlarında saxlayır, sonra tab gətirmir o qadın. Yanaqları göz yaşlarından islanır və büllur su dənələri işığa bələnir. Bir qadın belə əsaslandırmışdı ki, qadının göz yaşları əlindədir, hər an ağlaya bilər. O, demişdi cavabında ki, bu əlamət qadının duyğusallığı ilə bağlıdı, incə düşünür, əzabları az deyil. O qadın kişi məhəbbəti üçün həsrət çəkər, canını yandırar, yataq üçün risqə gedər. Hətta həzin musiqi onun bütün içini sıxar, nə su varsa, göz yaşlarına döndərər. O qadın beləcə göz yaşları içində Çapayı tərk elədi, buna sevindi.

Xumara xanımın məsələyə münasibəti fərqlidi indi də. – Çapay bu cür düşünmüşdü. O, şifahi söhbətlərində bəzən dərinə varırdı, hətta danışanda özünü ağlamaqdan çəkindirirdi. – Amma, Çapay, – Xumara xanım demişdi: – Hər qadını ürəkdən ağlatmaq asan olmur, buna kişi naildirsə, deməli, ağladan kişi onun ürəyinə çatıbdır, amma o ürəyin dəyərini bilməmiş olar ki, ağladan gözünü belə qırpmadan iynələrini batırır o xanımın vücuduna, oynadılmış hisslərinə. Kişi təsirindən az qalır nəfəsi təngisin, kişi həsrəti ağrıdır, onu ağladır. – Xumara xanım baxışlarını Çapaya dikib deyir: – Qadın "ağlamayacam" qərarını vermək istəyir, lakin... Susur, Çapayı bir kişi nəzərində canlandırır və həqiqətən yanılmadığına sevinir. Ağrısı isə... Göz yaşları kipriklərini aldadır, yanaqlarını öpməyə tələsir. Kişi həsrəti o qadın üçün bir yaradır ki, sağaltmaq imkanından məhrumdur, sağaltmaq səlahiyyətini Allah-Təala kişiyə bəxş etmişdir. Beləcə, qadının taleyində o kişi yoxsa, qaysaqlanacaq yara, bunun üçün göz yaşlarına girov gedər qadın.

Xumara xanım danışır:

– Bilməlisən ki, ağlayanda qadın – yetkinləşir, hər damla qadın edər, hər bir damla onu keçmişinə aparar, hər damla taleyinə süzülər.

Xumara xanım Çapayın gözlərinə baxmaqdan mübhəm zövq alır, ancaq heç vaxt bunu büruzə ver-

mir, bu hissi qadın sirri hesab edir, əliylə barmaqlarını ustufca sıxır. – Olub, qadının göz yaşlarını görən kişi deyir ki, niyə ağlayırsan, o kişi sənin göz yaşlarına dəyməz! Haqlı deyil, nəsihət verən nə bilir o qadın nə üçün ağlayır. Əgər o dəqiqələrdə həmin qadın ağlamazsa ürəyi partlar. O dəqiqələrdə içindəki göz yaşları zəhər gücünə malik olur, mütləq bayıra çıxmalıdı, mütləq! Bununla ruhunu canında saxlayır, çıxmağa qoymur! Qadınlar özlərinə sarılmağı öyrənirlər, sanki ehtiraslarının çəkilməsindən qorxurlar, itirərlər, bəs onda necə? Belə olmalıdır, yoxsa qadın əyri yollara vurar vücudunu!

Çapay əlavə elədi ki, ruh yolunu azanda, doğru yolu tapmaqda acizləşir, yeni-yeni acılar yaranır hisslərində. – Əlini Xumara xanımın ovcundan çıxardı. – Bunu qadınlar bilirmi? Bilər əlbəttə! Əvvəl-axır öyrənirlər, özlərinə sarınırlar. Məncə, çox ağlayan qadınlar çox şeydən boyun qaçırırlar, imtina eləməkdən çəkinmirlər, hər bir göz yaşının bir damlası qadını yetkinləşdirir.

Xumara xanım əlavə elədi ki, yetkinləşdikcə qadın inandıqları sevgi gerçəyi onun gözlərində balacalaşır, kiçiləndə isə dəyərini itirir. Amma bu “kiçilmə” sayəsində daxili aləmlərində yeni qadın obrazı yaradırlar. Bu obraz qürurludur, güclüdür, məğlubedilməz olur kişilər üçün. Bağlandığı kişilər isə sevmək istədikləri qadınlara iynə batırmaqdan, on-

ların göz yaşlarından zövq almaqdan fərəhlənirlər. Mən düşündüm və haqlıyam ki, ağlayan, göz yaşını kişinin üzərinə tökən qadınlar qalibdirlər, yetkinləşmişlər, özlərini dərk etmişlər! Çün. – Xumara xanım güldü astadan:

– Aldanmışlar sevginin olmadığına inanmışlardı.

Özlüyündə xeyli düşünməyə vaxt ayırıram, xüsusən, oxucularıma eşitdiklərimi, müşahidələrimi götür-qoy edirəm və soruşuram da: Bəs qadınları "kiçildən" – rəqqasə Xumara xanımın ifadəsilə yanaşsam – kişilərdimi? Sözsüz! Amma bu məxluqun vücudunda, düşüncəsində, şüuraltında nələr baş verir ki, kişilərin ehtiraslarına tabe olurlar və bu, əsasən incəsənət xanımlarının həyatına düşür. Tam razılaşmıramsa... Məhz qadını kişidən fərqləndirən hansı nüanslardır? Romanı oxuyan yalnız əsərin aşıladığı bədii zövqləmi qurtarır, yoxsa haradasa öyrənməli bir nüans tapmalıyıq; qalanı oxucunun öz işidir. Yəni qadını ehtirasında, davranışında, həssaslığında və ilaxırda "günahlandırmağa" dəyərmi – bütün bu dəyərləri dəyərsizləşdirməyə nə ehtiyac?

Qadın aləminin kişi dünyasından seçim edən alimlər var ki, həkim – psixoloqların öhtəsinə düşmüşdür. Qadın incəliyi qədər də həssasdı, ürəyi küsəyəndi, bir sözdən qırılandı. Stresdən uzaqlaşmağı bacarmır, "qırıq qəlb xəstəliyi"nə tutulurlar. Ona görə ki, qadınların ürək damarlarının müalicəsi kişi-

lərinkinə nisbətən daha çətin başa gəlir. Onlar hətta qoxuya, iyə qarşı son dərəcə həssas olurlar. Kişilərlə nisbətdə irəli getmişlər. Burunlarındakı qoxunu hissetmə hüceyrələri qadınların payına daha çox düşmüşdür. Ona görə də qadın ətir dükanlarından özlərini ayrı təsəvvür etmirlər. Onlar kişi qoxusunu duymaqda kişilərə uduzurlar. Bu təyinatı da: qadın cinsi yaşam dövründə üç mərhələdə qoxu verirlər: Körpə – uşaqlıq, yeniyetmə – gənclik və qocalıq – ahıl yaşlarında. Qadınlar var kişinin siqaret – tütün qoxusundan ləzzət duyur, kişilər isə... Kişilər bir şeydən qaçırlar, xoşlarına gəlmir: qadınlar hadisələri, hətta xırda əhvalatları yaddaşlarında uzun müddət saxlayırlar, kişisilə münasibəti öləziyəndə başlarına qaxırlar bütün detallarına qədər. Kişilər bu xüsusiyyəti onların "çox danışmaları" ilə bağlayır: danışa-danışa sözləri tükənərsə – çətin məsələdi – keçmişi dərhal ortaya atırlar. Bu məqamlarda qadınlar kişilərə nisbətən çox gop etməkdə təxminən 2,5 qat daha çox sözlərdən yararlanırlar. Bu səbəbdən: cəmiyyətə daha tez uyğunlaşırlar, dil tapırlar, ünsiyyətə qoşulurlar, buradaca həssas və baz kişilərin güdazına gedirlər!

Xatırlayırsızsa Yusif Qasımov Çapayı üstüörtülü olsa da onu "bazlıq"da suçlamışdı, hətta Ayataca qısqanmışdı. Bu "kişi ovçuluğu" daha çox yaradıcı kişilərin payına düşüb, tarixi faktdır. Onların həyatı,

obrazları, məktubları sübut olaraq "danışırlar", "sirri" açır. Söz-sənət titanları sanki sevginin düsturunu tapmışlar, tərifində özlərinə güvənmişlər. Bu yolda büdrəyən kişilər olub ki, sevgidən zövq almaq istərkən canlarını və sərvətlərini itirmişlər: bu, bir yana – intihara əl atmışlar. Hər "ikisi" biabırcasına müəllifini tapmışdır: Aleksandr Puşkin, Antuan de Sent – Ekzuper, F.Kafka, E.Hemenquey, Emil Zolya...

## 2.

Aytacın uğurları Bakı şəhərində səs-küy yaradırdı, beynəlxalq mövzuya və mahiyyətə malik şou – konsertlər hələ geniş ayaq açmamışdı televiziya ekranlarına. Amma istifadə edən işbaz aparıcılar, jurnalistlər yavaş-yavaş məharətlərini göstərirdilər. Telerəhbərlərə bu, sərfdi, qazanc mənbəyinin bir vasitəsi, yolu idi. Bədən fiqurasını, dolu ayaqlarını, üzüklü barmaqlarını nümayiş etdirən oxuyanlara fürsət düşmüşdü. Ciblərini dolduran dayaqlarına arxalanan, tədricən varlananlar isə belə xanımlara və qızlara həris iştahla baxır, amansız ov eşqinə düşürlər. Əvvəllər zövqə, istəyə meyilli aktrisalar, xanəndələr, aparıcılar qazanmaq barədə düşünməyi üçüncü plana keçirirdilər və adlarının hallanmasından çəkinirdilər, ərlərindən qorxurdular... Adlarını ləkələməyə risk eləmirdilər. Bunlar ötən əsrin son iki-üç

on illiyinə aiddi. İndi bunların ardınca sənətə gələnlər üçün ar-abırı itirmək birinci planı adlamışdı, təki cibində pulu və maşını altında olsun: Özünün altı olmasa da. Bəs özü harada olmalı idi? – Sualın cavabı üçün darıxmırdılar... İndi oxuyanlar ekrana çıxıb, tərcümeyi-hallarını sehirli nağıla döndərir və agah edirlər ki: "Mənim ailə həyatım uğursuz alındı, bir-birimizi anlamadıq. Günah onda idi". "O, hər gün içib evə gəlirdi, döyürdü məni (narın göz yaşını brilyant üzüklü qırmızıya boyanmış dırnaqlı barmaqları ilə silir. Operator ekranda böyüdür, bəlkə də haqq qazandırır. Bəlkə də bu ssenaridi, danışılmış oyundu)". "Ayrıldım, qızımı götürüb evdən çıxdım. Onu böyüdürəm". Və ilaxır. Bunlar hiyləgərcəsinə qurulmuş dəlillərdi. Belə xanəndələrin müştəri gözlülərin əqli qabiliyyəti dəlillərini əsaslandırmağa kifayət eləmir, rəşə parçaları kimi ekrana səpələnir. Qəribəsi bu idi danışır, vaysınmır belə, sanki bu, həyatın diqtəsidi və bütün qadınlar bu aqibəti gözləyir. Bəs nəyi gözləmir?

Aytac bir kişiylə (adını hələ bildirmirəm – müəllifə bəllidir) söhbətində pərişan olmuşdu, bəlkə də tək olmasaydı başı atası, anasıyla söhbətə qarışardı, onlar kəndə getmişdilər, anası qayıdacaqdı: – Qadının, xüsusilə, incəsənətin girdabına düşən cavanın ərgənlik çağlarında uçurumun dibindən çıxması müşkül işdir, ora Məlikməmmədin quyusundan da

sehirlidir, qaranlıqdır, beləri orada həyatının hansı zamanındasa işıqlı bir şey sorağında olurlar, o mühitin yetişcəyinə inanırlar və axtarırlar. Elə düşünürlər bu mühitdə, cəh-cəlallı məkanda “bir gün ağlayacaqlar” – yox, elə deyil. Amma əbəsdir təşəbbüsləri, heç nə – səadətli gün tapmayacaqlar, sonra o quyudan çıxmağa kəndir axtaracaqlar. Və ruhdan düşüb divə pənah gətirməli olacaqlar. Gec deyilmi?

– Nəticənizə inanıram. – Aytac müticəsinə cavab verdi.

Kişi boğmalı stəkana süzülmüş çaydan yarıyacan içdi!

– Səni qorxutmaq istəmirəm, buna ehtiyac görmürəm, ağıllı qızlar hərçənd, çox tez tora düşürlər, çox bilmişlikdən, görmüşük. Onların ağlı mövcud mühiti çox qabaqlayır, irəli gedir. Qadında haradasa bir kallıq da olmalıdır, bahəm, qeyri – yetkinlik əlaməti qızların amalı uğrunda mətanətlə qurban getmək arzusu və bu yaşlarda ona məxsus xüsusiyyətləri məqsədi naminə yaşamaq ehtirasıdır.

Kişi qara nazik çantasını açıb kitabını stolun üstünə qoydu, nəlbəkili stəkanı da onun üstünə.

Aytac bu kitabla tanış olmamağın nigarançılığını keçirməli oldu, istəməyə üzü gəlmədi: “Lazım bilsə mənə təklif edər” – ürəyindən keçirdi. Və özünü yorğun hiss elədi, ancaq müsahibindən ayrılmağı düşünmürdü. Kişi isə bu əzginliyi duymurdu.

– Sən öz həyat – sənət yolunu tapmısan, deyilmi? – Aytac başı ilə təsdiq elədi. – Son dərəcə ağır və mürəkkəb yoldur, daha başqa yolu görməzsən. – Aytac yenə başı ilə təsdiq elədi. – Öz səadətin üçün gecikmək olmaz, incəsənət xanımlarına qəti yaramaz yubanmaq.

Kişi bu sözləri deyəndə Aytacın gözlərindən gözünü çəkmirdi. Qızda əsəbi bir şənlik oxunurdu, qımışanda dodaqları yana qaçırdı.

Aytac iztirab duyulan yorğun səslə dilləndi:

– Mən hələ o dediyiniz quyudan kənarda dayanmışam. – Aytac fikrində gecikmək istəmədi və hiss elədi bu adam müsahibinə çox suallar verməyi xoşlayır. – Mən həm o məchul kişilərin davranış tərzindən xəbərsizəm, ola bilsin yaxınlaşsam bezikərəm, qorxaram, iyrənərəm hətta. – Aytac biixtiyar qulaq asır, sözlərini ərik meyvəsi kimi ikiyə ayırır, çərdəyini tullayırdı.

– Sənətin sənin özündən aşağıda getməlidir sona qədər. – Kişi stəkanda qalan çayı içdi, qəndin şirə tozları da dodaqlarından getməmişdi. – Belə olanda sənətin ürəkləndirəcəkdir, keçirdiyin mənəvi sarsıntılarını təmizləyəcəkdir, əminəm sözlərimə. Belə sarsıntını dəf edə bilməyən sənətçilər, elə rəqqasələr də yarı yolda şöhrətin zirvəsinə əli uzana qalıblar. Halbuki, onların ayaqları yerdə, əlləri göydə olubdur.

Aytac “bir dəqiqə” deyib stəkana çay süzdü.

– Amma onlardan çox ibrət götürmək olar, qəbahət sayılmır. – Aytac etirafını gizlətmədi, sakit tonla dedi:

– Əla rəqs etməyi öyrədə bilməz, gərək özün öyrənəsən.

Kişi sözdən sonra çiyinlərini sıxdı, üzündəki həyəcan nədənsə xəbər verirdi. Yaşına məxsus dalğınlıq onun bu günündən yox, dünənindən soraq gətirirdi. Həzin çalınan musiqinin ritminə uyğun ayaqlarını döşəməyə vurur, üzündəki qırışları sıxır, gözlərini qırpırdı, qətiyyətlə dedi:

– Şayət, sən də onlara öz fikrini deməlisən, öz istəyindən qaçmamalısan. Qarşılıqlı anlaşma rəqsdə də lazımdır, mütləq, təlqin deyil.

Siqaret qutusu bayaqdan masanın üstündə idi, bir-iki dənəsi çəkilmişdi. Aytac indicə gördü və kişinin bayaqdan siqareti ona görə çəkmədiyinin peşimançılığını çəkdi, daha bir söz demədi. Kişi siqaret qutusundan birini çıxarıb qoxuladı – siqaretçilərə məxsus adətdir və Aytacdan üzrxahlıq elədi.

Aytac başı ilə razı olduğunu bildirdi:

– Qarşılıqlı öyrənmə. – Kişi bu fikri təkrar etdi:

– Sənətdə bilik almaq zəruri məsələdir. Sənə təlqini məsləhət görmürəm, xoşum yoxdur, istedadlı, vurğun adamlar üçündür, belələri sənəti ilə xeyir verir xalqına, tamaşaçısına, pərəstişkarına. Demək is-

təyirəm ki, əsl istedadlılar, yaradıcı olanlar, savadı kəm olmayanlar yüksəlirlər. Hətta rəsmilər onlara əl çalır.

Kişi deyəsən ikibaşlı fikir söyləmişdi. – Aytac bu nəticəyə gəldi: “Olmaya bu adamın da qəlbi rəzalət içindədir, gizlədir?”

Aytac münasibət almaq üçün sakitcə dinləyirdi. Kişi bildiyini güzəştsiz jestlərlə də söyləyirdi.

– Heyif ki, həyatda beləməri elə də çox deyil. – Fikrinin davamını gətirdi. – Əsl yaradıcı adamlar hansı sənət növündə olursa özündən sonra bu dünyada yaşayırlar, onlardan bir şey qalır.

Aytac onu da kəsdirdi ki, bu adam öz fikrini daha inandırıcı və həvəslə sonacan çatdırmağı bacarır, beləsi dərin elmə sahib olmasa da, təvazökar olurlar.

Kişi getmişdi, iş otağında divana dirsəklənmişdi, gənc rəqqasə ilə uzun söhbətinin təsirindən çıxmamışdı, sevinc içində idi. Qızın gözlərindəki ağıl və dərinlik ifadə edən baxışları, nəzakət və iltifatının təcəssümü qəlbində oyanan mərhəmət və yaşamaq hissini gücləndirmişdi.

Pəncərədən içəri axan işıq divarlardakı naxışları çeşidləyirdi. O, ona daim əzab verən tənhalıqdan qorxmuşdu və nədən idi bu? Sevdiyi bir qadının siması neçə illərdir onu təqib edir, dəhşətə gəlir ki, nə səbəbdən ərindən ayrılmış bu qadın onun məhəbbətini rədd etmişdir. Belə qadınlar nə üçün bu sevginin

doğru-düzgünlüyünə inanmırlar? Həyatın belə qısalığına təəssüflənmirlər? O qadını neçə il əvvəl gördüyünü xatırladı. Və peşimanladı ki, kaş ona rast gəlməyəydi. Kaş! Qadın xüsusi düzəlmiş əl arabasında özü yaşda bir qara saçlı, geniş alınlı, iri gözlü bir kişini dəniz sahilinə doğru aparırdı. Bu adam tez-tez arxaya çevrilir, nəsə ya soruşur, nəsə danışır, hər ikisi gülürdü. Bu mənzərə, görüş, dialoq nədən xəbər verirdi: ruhi – cismani fəaliyyətdənmi? Bu gözəllik idi, sevgi aləmi idimi? Yaşamağa dəyərmi? Suallar çox nahaqdır, onlar bir-birini sevirlər, əsası odur qadın onu sevir. Qadın beləcə şəhərə çıxır, əl arabasını itələyib harayasa gedirlər. Budur, sevgi, məhəbbət!

O, cəmiyyət içərisindədir, hörməti-izzəti öz yerində. Lakin keçirdiyi dalğın həyatdan heç kəsin xəbəri yoxdur və olmayacaqdır. O qadın bəlkə birinci ərindən boşanıb onu sevmədiyi üçün. Bəlkə bu kişi naminə ərindən ayrılıb. Olsun ki, bu adam sağlam imiş, sonradan hansı səbəbdən şikəst olub, zahiri sağlamlığını itirmişdir. Sevdiyi qadın isə sadiqliyini qəzaya verməmişdir. Sevgisi almaz möhkəmliyi almışdır. Qadının üz-gözündən həyat qaynarlığı, özünü təzələnmiş kimi hiss edirdi. O, labüd həqiqəti görmüşdü və danmaq istəmədi...

Çapayın əli Aytacdan üzülürdü, atdığı tilov boşa gəlirdi – buna əmin oldu. Xumara xanım isə öz hiss-

lərində qalırdı. Çapaya yönümünü danmırdı. Xumara xanım zahirən büruzə verməsə də bərk nartahat idi: rəqs ansamblına qəbul olunan sarışın saçlı – zatən qara saçlı imiş – cavan qızı gözaltılamışdı, arabir mığırlaşırdı. Xumara xanımın çəkinmə yeri bədii rəhbərin zabitəsiydi. O, öz istəyinə bel bağlamaqda şübhəliydi. Çapay hər vaxt onun əlindən sürüşərdi, çünki aralarında ancaq "soyuq diplomatiya" hökm sürürdü. Vəssalam!

Yeni gəlmiş rəqqasənin birinci təəcübləndirdiyi şey onun adı idi: Rəqsanə! Demək "rəqs" sözündən əmələ gəlmişdir, valideynləri fəhmən duymuşlar ki, bu qızcığaz gələcəkdə rəqqasə olacaqdır və oldu da! Çapay isə bu təzə qızda zövqünə aid çox şeyləri "seçmişdi". Onu onun məharətli oyunundan daha çox fiqurası maraqlandırmışdı. Bir inadı da baş vermişdi: Aytaca rəqib o, yetişirdi. Meydanda olacaqlar, məharətlərini nümayiş etdirəcəklər. Lakin ayyarımda münasib məqam yetişməmişdi, istərdi onu mənzilinə dəvət etsin, ikilikdə geniş ürək söhbəti eləsin, "dişinə" vursun, bir şərtlə, ehtiyatını uduzdurmasın. Sonuncu təhlükəli ola bilər. Gün gəldi bir oyun havasında, həzin rəqsdə partnyor oldular. Daha təcrübəli Çapay hərəkətdə ikən gözləri ilə onu yeyirdi, o isə öz rəqsindən başqa heç nə hiss eləmirdi, amma element vardı partnyoruna baxmaya bilməzdi, onun gözlərinə baxmalı və daha enerjili hərəkəti-

ni davam etdirməliydi. Rəqsanə Çapayın mahir rəqqas olduğuna əmin idi və daha çox tərəf müqabil olmasını arzulayırdı. Bədii rəhbər də onların meydanda bir-birini necə anladıqlarına sevinirdi, xüsusilə, özü quruluş verdiyi rəqslərdə.

Çapay rəqsdə daxilində gizli atəşin qığılcımlarını duyur, gərgin elemnetlərin icrasında sıxıntı içində gülümsəyirdi, qıza qarşı yaşadığı hissinə mübhəm hərarətiydi.

Rəqsanə Çapayla maraqlanmaya bilməzdi, bu hissiyat onda haçan yaranmışdı, axı o, uşaqlıqdan şıltaq qız olmamışdı, lateyer danışmamışdı, sinifdə ondan söz qoparmaq müşgül idi: "Səni bu xasiyyətlə kim alacaq?" – sualını verib gülüşürdülər. Amma sonralar – yavaş-yavaş ipə-sapa yatdı, deyib-güldü, şənləndi. İncəsənət məktəbində oxuyanda eyni lap açıldı. Rəqsə vurulanda bədənində bir titrəyiş, oyanış həvəsi əmələ gəlməyə başladı, xasiyyətinə təsir elədi. Bir müəlliməsinin dediyi "İncəsənət dünyası tamamilə başqa şey aşılayır qadın tayfasında. Fikri-zikri bir ritmi qulağı alanda az qalır yerindəcə fırlansın" – nə qədər düzgün imiş.

Rəqsanənin ürəyi açılmışdı ansamblda, qadınlara hələlik açılmamışdı, ürəyi tutanı yox idi. Kişilərdən Çapayı "seçmişdi", bir səbəb ola bilsin ki onunla tərəf müqabili olması idi? Amma heç də səbəbə oxşamırdı, dilavərliyi, mütaliyəsi, sənətdə mahirliyi

də səbəb idi. Suala tam birmənalı cavab verməyi düşünmürdü. Çapay subaylığından sui-istifadə etmirdi və bu da Rəqsanənin ürəyincə idi. Bəs nəydi onu Çapaya yaxınlaşdıran? Bu natamam suala da dəqiq cavab vermək istəmirdi. Öz daxilində hər iki sualın cavabı hazır idi...

Rəqsanə daha çox qadın psixologiyası barədə düşünməyi xoşlayırdı, oxuduğu kitablardan da gəlmə həvəs idi, bir də real həyat. Oxumuşdu ki, qadın məxluqatının müsbət qütb sahəsi kişilərdir, mənfisi isə özləridir. Bu ideyanı əvvəlcə fərziyyə qismində qəbul elədi. Sonra başqa bir mənbədə oxumuşdu ki, qadın "qarşılıqlı dairə" yaratmaqda acizdir, qadın mənfi "emosiya dairəsinə" düşərsə... bu sözü dilindən qovdu. Məgər bu etikanı gözləmək mahiyyəti dəyişdirir? Rəqs, hərəkət – coşqunluq deməkdir, ehtirasın ayılması deməkdir, bu isə ərə getməyən qızı darıxdırır, intim oyunun illuziyasını yaradır. Oxumuşdu ki, seks rəqqasənin fikrilə, yəni necə hərəkətdə olmaq, hansı zərif eləmətləri göstərmək, erogen zonanı titrətmək və sairə birləşməlidir, yəni energisini özündən alasan. Tərəf müqabilin də bu hissi keçirirsə üst-üstə düşür və bir-birini tamamlayır. Enerji zamanı rəqsdə yorğunluq çəkilir, əksinə, güclənirsən. Bu məqamlarda rəqqas kişinin rolu güclü olur rəqqasənin üstündə və bədənindəki enerjisini rəqqasə qadına ötürür. Rəqqasədə qadınlıq hissiyyatı lazı-

mi dozada varsa, rəqqasə qız oynaya-oynaya kişinin ruhundan qidalanır, dirçəlir. İntimlik – şəhvanilik bədənin üzvlərində: ayaqda, beldə, yanaqlarda və sairdə rəqsə çağırır. Amma xanım rəqqasələr iradəsini yumşaltmamalıdır, özbaşına buraxmamalıdır, nəzarətdən çıxarsa...

Rəqsanə bunları xəyalından keçirəndə Çapayla son dəfə – hələlik əlbəttə – rəqsini xatıradı və bir dəfə ona demişdi ki, rəqqasə oynayanda pozada dayanmaq ən kövrək dramatik məqamlardır, poza qurula bilirsə – fəhmən rəqqas tərəfindən yarana da bilir. Kişi təması, hansı ki, bilərəkdən ustufca tutur, qollarını yaxınlaşdırır, baxışları ilişir və sairə özgə bir fantom yaranır. Bu zaman rəqqasənin addım səsləri "ritmik obraz" yaradır, ahəngi tamamalayır.

Çapay sakitcə məşqdən çıxmışdı, elə də yorulmamışdı, rəqs paltarını dəyişmişdi. Birtaylı pəncərədən bağçaya tamaşa edirdi, ağaclar soyunmuşdu və solmuşdu, çılpaq bədənindən utanırdı, quşlar da yaxın durmurdu. Bəzi budaqlarda yarpaqlar yaylıq kəsikləri kimi yellənirdi, bu məğlubiyyət işarəsiydi, payız küləyinə təslim ovqatı idi. Amma burada, bu ab-havada həm məğlubiyyət, həm də qalibiyyət vardı və hər iki tərəf sevinirdi: yarpaqların cəsədləri torpağa qarışacaqdı, budaqlar ağırlıqdan qurtarıb qış yuxusuna qalacaqdı. Payız isə öz andına sadiqliyilə öyünəcəkdi.

Rəqsanədə, onun canında hər iki qabiliyyət birbirilə yola gedirdi, bəzən isə onu yaşamağa, kişi təmasına çəkirdi və necə ki Çapayın öz xəyalına qapıldığını görüb, onun əlindən tutdu – bu hərəkətin məğlubmu, qalib olduğunun fərqinə varmadı və: – Darıxmırsanmı, burada, – deyib üzünü Çapaya döndərdi.

– Mən darıxmıram – astadan pıçıldadı, ona görə yox ki, ehtiyat elədi, sadəcə özündən asılı olmamışdı.

– Gedək bir guşəyə, gedək! – Təntənəli səsləndi və Çapay çaşbaş, şaşqın halda Rəqsanəyə tərəf döndü.

– Evə getmək istəyirdim, – cavab verdi. – Yorulmuşam mən də. Yeknəsəklikdən... – Sözünü tamamladı...

Rəqsanə gedə-gedə:

– Gedək, hara məsləhətdirsə, – amiranə dilləndi. – Gedək!

Artıq onlar bağçanın solundan keçən yolda idilər. Çapayın beyni dumanlandı beş-on dəqiqə içində, ürəyi döyündü və gözünə heç nə görünmədi Rəqsanədən savayı: "Haraya və nə üçün getməliydi?" – suala cavab tapmağın yeri deyildi, burada risq axtarmaqdan da. O, məhz bu saatlarda – dəqiqələrdə Rəqsanə ilə dünyanın hansı qütbünə dəvət alarsa hazırdı getsin, təki, bu mühitdən aralansın sabaha qədər. Arzulamışdı, amma o anlar uzaqda idi nəzərində, bəlkə də mümkünsüz idi, niyə gizlətməlidir!

Rəqsanə ağır yerişliydi, ayaqları bədənin formasını təmzinləyirdi, sapındırmırdı. Azca gimnastika ilə məşğul olmuşdu və rəqslərdə öz işini görürdü.

Çapay mərhəm iş yoldaşı kimi sərbəst gedirdi, Rəqsanə elə bil həmişə bu küçələrdə yerimişdi. Bərk susamışdı, bu vaxt Çapaydan xahiş elədi ayaq saxlasın, ürəyi su istəyir, bir şüşə "Badamlı"nı yarıyacan içdilər. Rəqsanə:

– Səfərimiz haradır? – Yarı zarafat, yarı ciddi soruşdu. – Çoxmu qalıb o məchul məkana? – Sual Çapaya xoş gəldi.

– Çatırıq, – cavab verdi. – Mənalı bildirdi!

– Anladım! – Rəqsanə başqa əlavə heç nə soruşmadı və hisslərinin nəzarətini itirmirdi. Səksəkəli qəlbi sızlamırdı, yorğunluqdan sönükmüş gözləri irəli baxır, onu təzə duyğuların qeyri – sabitliyi aparırdı. Solğun rəngli işıq ləkələri qarşı binanın yan divarında yapılıb qalmışdı. Subay kişi mənzilinə gedirsə  və bu, labüd idi – onun bakirə hisslərinə ləkə düşməzdimi? O, etiraz etmədən qadınsız evə ayaq basmırdımı? Axı, hələ onun içində məhv olmamış bir həyat çırpınırdı – buna iradəsi çatırdı. Vücudunda nə boşluq vardı, nə də heysizlik, əksinə, coşqunluq. Çapayla – yad kişiylə yox – şux və zərif münasibətlərə çəkirdi. Amma bədəni istilənirdi. Çapay ani ona baxanda Rəqsanənin sifəti cücü sancmış kimi qızarmışdı.

Çapay üfüqə boylanır, susur, arabir onun əllərindən yapışır, istiliyini bədəninə ötürürdü. Bir azdan qan rəngli fəcr sönəcəkdi.

Ehmal addımlarla bloka girdilər. Lift birinci mərtəbədəydi. Çapay lal-dinməz düyməni basdı, qırmızı işıq yandı.

Mənzil ikiotaqlı idi, orta səviyyəli təmirdən çıxmışdı, hökumətdən alınmışdı, atasının pulu ilə başa gəlmişdi. Üstünlüyü onda idi – bina ağacların əhatəsində tikilmişdi: irili-xırdalı ağacları kəsmişdilər, üç bloklu bina üçün yararlı hala salınmışdı. Xəbər tutulmasa idi – olan-qalan yaşıllıq da qurban gedəcəkdi.

Rəqsanə ilk dəqiqələrdən özünü sərbəst aparırdı, bu, Çapayı həm də təəccübləndirməkdə idi: qızı heç qucaqlaya bilmirdi, sehr hesab edirdi.

– Rahat hesab elə özünü. – Çapay dilləndi və ev çəkələyini Rəqsanəyə göstərdi ki, geyinsin. – Hamamdan yarımışıq, həmişə isti suyumuz olur. – Əlavə etdi. – Yuyun, mən hazırlığımı görüm. Əvvəlcə çaylayaq. Soyuducuda hazır yemək var. Dediyini də elədi, tədarükünü gördü.

Rəqsanə televizorla başını qatır, köhnə dəbli kitab mərtəbəsində hansısa kitabı axtarırdı: "Oxuyan adamdır, ona görə də hamıdan çox məlumatlıdır" – fikirləşdi və "Qadın nə istəyir?" kitabını gördü. Sırasından çıxartdı, ikiyanlı kresloda oturdu.

Vazada güllər təzəcə sulanmışdı, iyi çəkilməmişdi. Yanında malaxit külqabı bomboş idi, siqaret külü dağılmamışdı.

Rəqsanə divardan asılmış vuruş – döyüş səhnəsinə həsr olunmuş rəngli tabloya diqqətini yönəltdi. Müəllifilə maraqlandı, oxudusa tanımadı. Məharətlə çəkilmişdi. Sonra Çapay məlumat verdi ki, çox gənc rəssam idi, bu tipli şəkillər onun mövzusu idi. Tələbə ikən sərgisində olmuşdur, atası da sənətkardır. “Seyfəddinoğlu” imzası ilə tanınmışdır. “Qarışıq dövrdə” itgin düşmüşdür.

Rəqsanə kitabın müəllifi ilə nədənsə maraqlanmadı, yəqin ki, mövzu onu qıcıqlandırmamışdır, xoşuna gəlməmişdir: “Necə qadın nə istəyir? Bu necə sualdır?” Və astadan güldü, ancaq kitabı vərəqləyirdi.

Təəssüratdan ayılanda stolu hazır vəziyyətdə gördü:

– Sənin başqa məharətin də var imiş! – Təntənə ilə deyib, yerindən qalxdı, kitabı qatlayıb kresloda, gül vazasına söykədi.

... Araya çökən sükutu Çapayın əlində tutduğu bakalın titrəməsi pozdu, Rəqsanə bakalı təklifsiz dodaqlarına aparmışdı: – İncəsənət adamlarına məxsus orijinallıqdır, onların öz aləmləri – fikrini tamamlamasa da ürəyindən keçirdi, geciksə də dedi: – İcazənlə – quru səsləndi, – bakalımızı toxunduraq. – Bakalı Rəqsanənin dodaqlarına apardı. Rəqsanə:

– Üçək, – dedi. – Şərabdan bir çimdik sıçrayıb dodaqlarına süzüldü, dodaqları göynədi.

Çapay bu halı gördü, bir damcısı açıq sinəsinə “ekvatoruna” axdı və bu soyuq təmasdan bədəni ürpəşdi, əda ilə sol çiynini çəkdi.

Çapayın əli bu anlarda Rəqsanənin belində həyansız donub qalmışdı, gözəl üzü şəffaflaşırdı, amma. Özünü xəsis sahibkar nəzərində duyurdu. – Rəqsanənin isə dodaqlarının ucu titrəyirdi. Sifətini ovuşdurdu, sadə biclik belə hiss olunmurdu. Rəqsanə ağzını büzüb gülümsəmək istədi, çiyinlərini dartdı, köynəyinin yaxalığını əlində büzüşdürdü.

Çapay isə gözlərinin təbəssümü ilə Rəqsanəni ruhlandırırdı. Və Çapay Rəqsanənin pörtmüş üzündə, allanmış yanaqlarında təbəssümü sezir, özündən asılı olmadan gülümsəyirdi. Rəqsanə düşünürdü ki, qadın özünü xoşbəxt hiss edəndə, özü barədə ağıllı fikirləşəndə niyə uduzur?

Rəqsanə köynəyinin yaxalığını əlində büzüşdürdü və başını silkələdi, nəsə demək istəyirdi, dili ağzında oynadı, çarəsi öskürməyə qaldı, gözlərini qəribə şəkildə qıydı, ələ keçmiş quş kimi ürəyi çırpındı, amma bu çığırtıda kimsə haray verməyəcəkdi. Səsi itəcəkdi.

Rəqsanə qəribə ovqatla gözlərini qıymışdı, bir üstünlüyü onda idi, o, fələyin iradəsilə bu mənzilə gəlməmişdi, ola bilsin çapalayacaqdı, “Həyatımı ha-

çansa özümə danışacağam, qadağalara baxmayaraq öz həyatımdan zövq alacağam”.

Rəqsanə yorucu səbrində ləyaqətini gizlətmirdi, diqqətdən kənar olaraq onun narahat, bəlkə də qorxunc risqi bu gündən başlayırdı: “Həyatımı haçansa özümə nağıl edəcəyəm. Nağılda şəxsi hisslərimi təsvir edəcəyəm, Çapayı bəyənmişəm!”

– İcazənizlə bakallarımızı toxunduraq. – Çapayın bu təklifi fikrini qırdı, ikiyə böldü: “Tikələri bir-birinə bağlamaq olacaqmı? Hələ ki, hər birimiz ayrı-ayrı sahildəyik”. – Rəqsanə fikrini bu sözlərlə tamamlayacaqdı.

Bakaldan ehtiyatlanıb onu stolun üstünə qoydu, özündən asılı olmamışdı və Çapayın titrəyən qolundan tutdu, yüngülcə sıxdı. Rəqsanənin ovcuna büküdüyü ipək kimi yumşaq barmaqları hərəkətə gəldi, sinəsinə sarı uzandı. O, təmkinliydi, qadınlara qarşı zahirən laqeyd idi və bu üsulu ona uğur gətirmişdi. Rəqsanənin bu indiki halı qızın şüurunun keyləşdiyindən xəbər vermirdi. O, başını Çapaya tərəf əydi, açıqca öpülmək həvəsində olduğunu ifadə edirdi. Çapayın baxışları yarpaqqurdu kimi açıq sinəsində ilişirdi, amma ikrah doğurmurdu.

Artıq acı ehtirasla Çapaya baxırdı, Çapay üçün hələlik sərhədi qorumaq xofu hakimdi və bu görüşün şirinliyini dadmaq istəyirdi. Lakin daxilində qadınlara qarşı əxlaq səbatlığı qüvvədən düşməmişdi.

Cavan gələcəyi irəlidə görünən Rəqsanənin taleyinə müdaxilə etmək hissi baş qaldırmamışdı. Amma ehtirasının oyanması, əlində çapalayan yaralı quşun boğazını üzüb qanını tökməsi əzabını da yaşamaqda idi.

– Çapay. – Rəqsanə yaralanmış səslə pıçıldadı. – Mənim qorxum yoxdur, səndən də? – Üzüm salxımından bir-iki dənəni qoparıb ağzına apardı, dişlədi, şirəsi dodaqlarını islatdı. – Hər giləsinin içində günəş istisi var, elə mənim də. – Güldü, ona elə gəldi bu fikri Çapay heç yerə yozmayacaq. Çünki həqiqətdir.

– Mənim içimdə də o günəş payından yox deyil. Və işləməli məhraba ilə dodaqlarını sildi. İztirab duyğusunu boğurdu. Geniş sinəsini qabağa verdi, saçlarını arxaya atdı: – Bu saçlar məni bezdirib, – gileyləndi, – Bircə rəqsdə gərəyimə çatır.

Rəqsanənin gözləri daha parlaq işıq saçırdı.

Çapay Rəqsanənin ətli, təbii dodaqlarında təbəssümü görürdü, qurumamışdı, üzündə mənəvi həyatın ötəriliyi sezilirdi: "Niyə belə olmalıdı axı. Bu qız əzəldən təminatlı və gözəl olmuş axı. Sərbəstliyi?!" – Fikrindən keçdi və kiçik bakala "şampan" şərabından əlavə etdi: "Onun görünüşündən gümrahlıq yağır, bu sənət adamları üçün vacib şərtdir". – Fikrindən keçdi və bakalını qaldırdı:

– Gəlişin münasibətilə. Geciksəm də. – Rəqsanənin bakalına ustufca toxundurdu.

Rəqsanənin üzünün ifadəsində ciddi heç nə yox idi və çox sərbəst idi. Boynunda bükülmüş boyunbağıdan ayrılmış yaxalığını düzəltdi: “Qadın olub hərəkətində sıxıntı və zavallı görünüş alıb. Halbuki, qadının xoş siması ona ruhi qida bağışlayır. Bu əlamətlər Rəqsanədə yox deyil. Xoşbəxtliyidirmi?” Bu sualı özünə verdi və Rəqsanənin ovcuna sıxıdığı bakalı özü masa üstünə qoydu, cazibədar rəqqasəni indicə öpmək arzusunu gizlətmədi, qız da bu istəyə tabe oldu. Çapayın arzusu qızın mübhəm qəlbini yumuşaltmaq idi və bu məqamı qaçırmamışdı. Rəqsanə isə Çapaya susamış gözlərlə göz yetirirdi.

– Çapay. – Rəqsanə astaca səsləndi. – Məndə həmişə çılğın ümidlər, cilovsuz arzular olmuşdur, özümü anlayandan. Mən qadın olaramsa. – Susdu, – kotletdən bir çimdik çəngəllə qopardı. – Mən ərdə olaramsa cilovsuz zinətlərin dalısınca getmərəm. İstərəm ərim mənim üzərimdə tam hökmranlığını saxlasın, ehtiyatla davranmasın. Axı o, kişidir!

Rəqsanənin etirafında təbii ahəng vardı və Çapay onun belinə əlini yetirdi, məxmər kəmər kimi sıxdı, eşitdiyi “oxxayy” oldu! – Səadət nəşəsinin iyi necə olur? – Qəfil bu sualı pıçıldadı. – Fövqalədə sərvəti fəth edən kişi gərək alovlanmasın. – Qəşəng əda ilə barmağını qatladı. – Ehtirasın qəddar qüdrə-

ti! Eh! Nələr keçir ürəyimdən! – Məftunluq! Mənim qorxduğum bu sonuncu hissdir! – Ayağa qalxdı, bir-iki addım atıb divana əyləşdi. Açıq torlu pəncərədən hava onun sinəsini – boğazını oxşadı. – Məftunluq xüsusilə qız tayfasını yatağa aparır. – Asta səslə deyib divardakı döyüş səhnəsini əks etdirən tabloya baxdı, köks ötürdü.

– Deyirsən gənc rəssam itgin düşmüşdür, hə? – Sualedici baxışlarını şəkildən ayırdı.

Çapay yerindən durub divanda Rəqsanə ilə yanaşı oturdu. Rəqsanə bunu gözləyirdi, hətta Çapayın onun qolundan tutub divanda oturmasını təklif edəcəkdi. Onun vücudu bu təmasa hazır idi. Və o, rəqqasənin busqalterinin düyməsini arxadan açdı, ağ qoşa taylar ovcunda yazıqlaşdı. Sanki qar – sazaqdan donmuş qanadları ocağa tutdular. Burnuna apardı və stolun oturacağına tulladı. Buskalterin qanadları yığıldı, bir-iki saniyə can üstə qaldı, Rəqsanə bunu görmədi.

– Mənim həyatım məndən qorxmursa niyə tərəddüd etməliyəm? – Kənarda qoyulmuş güzgüyə baxdı. – Mən bakirəliyimi istəməyən sağlam oğlandan özümü... – Yenə fikrini tamamlamadı.

Ayağa durdu, ritmik havanı evin boş yerində bir hovur süzdu:

– Oynamasam bağrım çatlar, bədənim heç kimə lazım olmaz – güzgüyə yaxınlaşdı, rəqsin elementlə-

rini icra elədi. Çapay çaşqın halda rəqsə tamaşa edir, bu məişət rəqsində gizli incəliklər görürdü.

– Rəqs qadının ehtirasından qidalanır. – Çapay yerindən qalxmamışdı. – Onun davranışını tamamlayır. – Bütün rəqslərdə erotik çalarlar var.

Rəqsanə başı ilə təsdiq elədi və bir rəqs havasını mızıldadı, əlini yanaqlarına apardı, bir neçə addım süzdü.

Çapay daha heç nə haqda düşünmək istəmirdi, yenicə yandırdığı siqareti qeyri-adi külqabıda əzdi.

Rəqqasənin qaşları çatılır, gözlərindən çılğın ehtiras qığılcımları vücudunda səyriyirdi və bu ehtiras, hissiyyat azca toxdamışdısa, sinəsinə qonmuş qara xal çiçəyin ləçəyindən asılı qalmışdı. Bu ətirli ləçək titrəyirdi, yox olurdu. Biçimli qolları havada qanadını donduran quş kimiydi, bədəninin hərarətilə müvazinətini saxlayırdı. Birdən qoşa qanad peyda oldu, deyəsən ovçu gülləsi tutmuşdu, hər iki qanadını sındırmışdı. Bu qoşa qanad Rəqsanə simasında zərif vücudu hərəkətə gətirmişdi. Xəfif titrəyən mehin gücünə zor göstərməkdə acizdi.

Rəqsanə özünü sakitcə – belə də yozmaq olmazdı – Çapayın üstünə atdı və kişi bədənini alışdırmağa tabı çatdı. Vahimələndi, əlini köksündə gəzdirdi.

Çapay da vahimələndi, bayaq külqabıya basdığı siqaretdən tüstü iynə ucunda dağılırdı: "Siqaret kül-

qabıdadı” – öz-özünə pıçıldadı. – “Bəlkə rəqqasənin özüdü yanan. Yazıq deyilmi? Başları qarışıb, xəbərsiz yanar, külə dönər. Yanarasa nə üçün susur, kömək istəmir?” Suallar, suallar...

Bu anlarda Rəqsanənin çəkisi yaz kəpənəyinə uduzardı.

– Özünü ələ al. – Çapay ona tərəf çevrildi. – Soyuq kişi deyiləm. – Emosiyasını özündən qovdu. – Sənin risqin nə dərəcədə realdır?

Rəqsanə əslində sualı eşitmədi. Çapay qızı qucağında çarpayıya apardı – necə də yüngüldür və kəpənəklə müqayisədə yanılmamışdı. – Cəld qolları arasına aldı. Rəqsanə heç nə duymurdu, sorulan dodaqlarını – yenicə yağmış qar xışıltısını eşitmirdi. Çapay isə şüura tabeçiliyini əldən vermirdi, hər şeyin ölçüsünü beyni kompyuter dəqiqliyilə hesablayırdı.

Rəqsanə tilovdan canına qurtarmağa çalışan balıq kimi qıvrılır, çapalayır, nəyəsə nail olmadığını azmaz duyurdu. Çapay Rəqsanənin saçlarını qarışdırır, soyuq canından çıxmayan iplik kimi ovuşdururdu.

– Canımı qurtar əzabdan. – Çiçəyə qonmağa taqəti çatmayan bal arısı kimi mızıldadı və sıçrayıb sol yana düşdü.

Cavab vermədi. Rəqsanə isə aldanmış bal arısı sayağı ağ mələfəyə göz yetirdi və Çapayın sinəsinə üzünü yapışdırdı:

– Əsl kişi imişsən, əsl! Və hönkürdü. – Sadəlövh rəqqasəni ömürlük ləkələmək istəmədin, ehtirasımı satın alıb dənizə buraxdın. İndi mən qızıl balığam.

– Sən qadın rolundan imtina elədin, yataqda özünü anladın, bəlkə də biixtiyar idi. – Qurumuş dodaqlarında Rəqsanənin isti və yaş barmaqlarını duydu.

Siqareti bir-iki qullabdan sonra boşalmışdı, közərtisi otağın rənginə bulaşmışdı. Külqabıdan götürüb yandırdı, həvəssiz qullab vurdu.

– Qızlar, son zirvəyə çatmaq cəhdinə meyilli olmamalıdır. Adi təmas, təbəssüm qız vücudu üçün kifayət edir.

Bakallara şərab süzdü, bir dilim portağaldan Rəqsanənin ağzına apardı. – Aç ağzını. – Pıçıldadı və dilimi onun dodaqlarına toxundurdu. Rəqsanənin dodaqlarına sərinlik çiləndi, rahatlandı, başını əydi, dodaqları aralandı – iki quşcuğazın haçandan yem intizarını çəkdikləri kimi.

Rəqsanə Çapayın siqaret qoxusuna bələnmiş şampan ətrini daddı, xoşallandı. İlk dəfə kişi aramatını acgözlüklə hiss elədi. Çapay dilinin ucuyla Rəq-

sanənin dodağını islatdı: çiçəyə qonmuş və şirəsini aparmış kəpənək can üstə idi...

Rəqsanə divanda yayxandı, Çapayın kürəyini ovuşdurdu. Çapay yaşından irəli gələn səxavətliyini gözləmişdi...

İş elə alındı güzgüylə üzbəüz dayandılar. Qız Çapayın cüssəsinə acgözlüklə baxırdı. Çapay cavan rəqqasənin ilk azad təmasının belə xoşluğunu ağlına gətirməmişdi və bu ovqatı təsadüfün başlanğıcı sanırdı. Mümkündü. Hətta görkəmli adamların qızlarla bağlı məcaralarını indiki ilə müqayisə eləmək istədi: "O, hələ ki mənim səlahiyyətimdədi: bu, həm təsadüf, həm də zərurətdir" – ürəyindən gəldi.

İkinci "şampan"ı götürdü. Barmağını şüşənin başını bağlayan gümüşü məftilə keçirəndə Rəqsanəyə baxdı ki, razısanmı? Rəqsaninsə süzgün baxışları hakimiyyətindən çıxmışdı, bədəninin əsirliyinə düşmüşdü. Çapayın barmaqlarında açılan nazik məftil tıxacı əsirlikdən qurtardı və sürətlə uçub tavana dəyib döşəmədə fırlandı.

Bakalı ovcunda saxlayan Rəqsanənin "sağlığ"a həvəsi qalmamışdı. Çapay bu hissi oxudu, yavaşca bakalına toxundurdu. Rəqsanə içdi, göz qapağını araladı. Bir çimdik işıq onun göz dairəsinə doldu, dalğalandı və söndü. Çapay bu çəkisiz işığı andaca görmüşdü.

– Mən istəyirəm. – Rəqsanə iki sözü ehtiyatsız dedi və digər sözlər qatarından ayrıldı.

Çapayın keylənmiş dodaqları, səfini itirmiş kəlmələri hədəfini tutmamış qırma soyuqluğu ilə dağılmışdı.

Şərabın təsiri Rəqsanəni halsızlaşdırmışdı, Çapay bunu hiss eləyib, artıq hərəkətlərini cilovlamışdı

Mövzunu dəyişdirmək qərarına gəldi.

– İncəsənət adamı bədii kitabları oxumağı xoşlayır, – deyib, Rəqsanəni işıq torunda ilğıma qoşulan bədəninə yumşaq baxış yetirdi. – Maraqlı yazardı Məmləkətimizdə, adını deməyə ehtiyac yoxdur. Bir romanında kişi – qadın ünsiyyətinin təbii, incə ilğımlarını təsvir eləmişdir. – Yerində qurcalandı, portağalın nazik dilimini dişlədi, suyunu uddu. – O kitabı gətirirəm.

– Əla olar, oxuyaram. – Rəqsanə ayağa qalxdı, pəncərəyə tərəf getdi. Çapay da ayağa durdu, köynəyini çiyninə keçirdi.

Rəqsanə yataq paltarında idi. Əllərini yanlarına apardı, dolu baldırlarını ritmə uyğun hərəkətə gətirdi. İkinci cəhdində əllərini nazik belinə toxundurdu, yüz səksən dərəcədə əyildi, boynu sinəsindən huşsuz süzülən saçlarının arasında göründü.

Çapay donub qalmışdı, dizlərini taxta çəkiclə döyəcləyirdilər, hər zərbədən Rəqsanə dövrə vurur,

ehtirasının başına fırlanırdı: "Rəqsanə başdan-ayağa şərdir" sözləri ürəyində səsləndirdi:

– Bu günlük bəs edər. Yalnız bu günlük! – Rəqsanəni divana qoydu, saçları sinəsində qıvrıldı, zəhəri çıxarılmış ilandı: "Oyatma yatmış ilanı".

Rəqsanə paltarını geyinmişdi. Çapay onun əlindən tutub qapıya tərəf getdilər. Hər ikisi otağı, hələ yığılmamış çarpayını süzdü. Və hər ikisi gülümsündü...

**– 0 –**

Aytac atasına yoluxandan sonra kişinin halı dəyişdi, qızdırması tutdu, bir-iki gündən sonra vəziyyəti düzəldi.

Pis cəhəti o idi, kişi əsəbləşir, ruhdan düşür, şəhər üçün darıxırdı. Qızı yalnız təsəlli verirdi ki, ata, darıxma, kəndin ən yaxşı vaxtıdır, öz doğma elin – obandı. Bizdən arxayın ol, işlərim yaxşı gedir, ekrana çıxanda sənə zəng çalaram baxarsan.

Ata rejimini elə qurmuşdu, kəndin az adam gedən yolu ilə çayqırağına yollanır, uşaqlarla dilxoşluq edir, qarmaqlardan birini alıb, baxtına çaya tulazlayırdı. Bəzən sözü düz çıxırdı, çəki balığı – qarınqulu sazan ilişirdi. Ata da fərəhlə sudan çıxarırdı. Meşəyə getməyi planlaşdıranda tüfəng götürürdü: bu isə onun cavanlığına qaytarırdı. Tüfəngin yaşı əllini öt-

müşdü, ona bağışlamışdılar. Ata tüfəngli olanda uşaqların gözünə görünmürdü, istəmirdi uşaqlar silahlı adama baxsınlar.

Yol saralmış meşədə gözdən yayınırdı. Palıd, çinar və əzgil ağaclarının daha çoxluğu sahədə günəş işığı yarpaqlardan qızıl sırğa kimi asılırdı.

Ataya bu mənzərə də, fəsil də bəlli idi. Sərin və xəfif külək oynayır, otların başını sığallayırdı. Əlini döşünün qabağında saxlar, nə haqdasa fikirləşərdi: gah qəmli halda gülümsünərdi. Təbii ki, keçmişdə olanlar cavanlığı ilə, dostları ilə, ov sərgüzəştləriylə bağlı idi. Hələ sönməmişdi, yaşayırdı qəlbində. Baxmayaraq kəndə onun xəstəliyi gətirmişdi, sağlam deyildi, amma ilk sevgisini unutmamışdı.

O illər Ataya şairanə keçmiş kimi görünürdü. Gülzadəyə sevgisini bildirməmişdi, necə cəsarət göstərdiyini dərindən düşünməmişdi. Ata kənddən şəhərə təhsil dalınca gedəndə qızın baxışlarını xatırlayır, qarşısında yeni dünyanın açıldığına inanırdı. İllər keçəndən sonra bu dünyada elə vacib işlər var ki, mənasızlığına şübhəsi qalmırdı və nə qədər suallar çıxırdı. Yeni yazarlar – köhnələr ya əldən düşmüşdülər, ya da qələmi yerə qoymuşdular – köhnə palan içi tökürdülər bir qismi, ölüləri "dar ağacına" dartırdılar, həqiqəti deyənlər isə: insan xislətinin alçaq hərəkətləri barədə, yoxdan varlananların oxuyan qızlara, ərli qadınlara maşınlar hədiyyə vermələrini

üzə çıxaran bəzi qələm adamlarını can-başla oxuyurdu. Ömrün qısalığı belə ikən bəzi vəzifəli rəsmilər nə üçün qeyri-insani davranırlar? Onlar özlərinə nə üçün sual vermirlər ki? Bəs belələrini xalqın başında otuzduranlar, barı, belə sualları özlərinə versinlər!

Az sonralar daha dəhşətə gəlmişdi, görürdü necə tutublarsa elə də gedirlər. Amma ruhi fəaliyyətində başqa qaranlıq yerləri axtarmaqdan vaz keçirdi, daha haqlı və günahkar axtarmağın zamanı keçməkdə idi. Ona isə sevgi aləmi qalacaqdı, qızına qayğısı və məhəbbəti lazım idi. Bu, qarşılıqlı idi: Aytac qorxu və zəiflik ifadə edən üzünə baxmaqdan doymurdu, düşünürdü ki, insan ölümü daha sənin, yaxud bu dünyanın deyil, sirli aləmin vətəndaşıdır. İndi yalnız ona dua edə bilərsən, təsəlli tapa bilərsən. Bu fikirlərdən Aytac dəhşətə gəlirdi. Atasının üzünü son dəfə ona yoluxanda görmüşdü, yenə o mehribanlıq, sakitlik, gülümsəyən arıq sifəti...

Ata çayı keçib bu qurumuş kiçik təpənin üstündə oturdu, dizlərini sinəsinə sıxdı, tüfəngini yanına ayaqda qoydu. Boz dərili bir dovşan ayaqlarını qoşalaşdırıb, göyün qübbəsində süzən qartalı izləyirdi. Dovşanın nə yol seçəcəyindən daha çox yırtıcı quşun caynağına ilişəcəyini düşünürdü: – Beləsini vurmağa dəyər, – kiməsə söyləyirdi elə bil. – Təbiətdə ən məsum və qorxaq heyvanlar, – izahatını verir.

Amma yenə bu yırtıcıya güzəştə gedəcəyini fikrindən keçirirdi...

Ata yerini dəyişdi, orda da qərar tutmadı, gəzmək istəyirdi, kiminləsə rastlaşmaq həvəsində idi. Əlbəttə, bir-birilərini tanıyacaqdılar.

Aşağı budaqları kəsilmiş ağacın altında ocaq qalanmışdı, qara his basmış daşlar qarsımışdı. Yaş çör-çöplər iri budaqların böyür-başında külə dönmüşdü.

Ata ayaq saxladı, qollarını sinəsinə dayaqladı və qəmgin-qəmgin düşünməyə başladı: İndi onun bu günü özünə ağır gəlirdi, yerli-yersiz-lazımsız olduğunu beynində inandırmağa çalışırdı, özünü əsəbi hiss edirdi. Yeniyetmə vaxtı dostları ilə buralara gəlirdilər, evdən hər birisi nəsə süfrəyə büküb naharda ocaq qalayıb oturar, iştahla yeyər, kimin hansı qızdan xoşu gəldiyini bir sirr kimi açardılar... İndi yaş bir yana – xəstəlik onu yorur, ruhdan salır, hətta ölüm barədə düşünür, daha bu fikir ona qorxunc görünmürdü. Bəlkə ilk dəfəydi belə real və kəskin hal keçirməmişdi. Xüsusilə, bu ölümün qızı Aytaca necə təsir edəcəyindən dəhşətə gəlirdi. Ata ruhuna, ürəyinə ölüm hökmünün yol tapacağına əminlik olaraq dəhşətli şəkildə təsəvvüründə canlandırırdı. Bu təsəvvür dərinləşdikcə əzab keçirir, həyatda yaxşı nə görübsə yaddaşından silir, gözləri qarşısında kölgəsiz, ağ bir işıq əmələ gəlir. Bu işıq sehirli varlıq kimi ona görünür. Yaşadığı ömrə hisli şüşə arxasından

baxmışdı, indi çox süni idi, bu həyatı şüşəsiz görmək istəyirdi, ölüm barədə aydın fikrə gəlmək iddiasına da düşürdü:

– Nədir, nə imiş bu həyat? Məni məftun edən işlər, uğurlar, sapmalar, sevgi – məhəbbət bunlara hisli şüşə arxasından baxırmışam. Bunlar məmimçün necə də ecazkar, lazımlı, təxirəsalınmaz imiş. Bunlarda dərin məna axtarmışam. Açılan gündüz ağ rəngində necə də sadə imiş, həqiqətənmi beləymiş, yoxsa məişət vərdişiymiş.

Ata bu dəqiqələrində itirdiyi yeniyetməlik sevgisini düşünür və "düzəlişlərini" edirdi: "Yox, elə deyilmiş, ömürlük məhəbbət imiş. Fərqinə varmamışam Gülzadənin. Bu qız özümdən xəbərsiz qəlbimə daxil olubmuş, ruhumda yaşayırmış. Mən onu hisslərimə inanmadan sevirmişəmmiş. Sevgimə etibar etməmişəmmiş. Belə olsa da o necə..." – Ata qarsımış qoşa daşları yenidən gözdən keçirirdi: "Soyuyublar, istifadə edib sahibsiz buraxıb gediblər. Meşədə tənha qalıblar, ocaq lap çoxdan sönüb, ancaq bu daşlar bir-birindən ayrılmamışlar, yansalar da, daş ömrünü yaşasalar da gərəksiz əşyadılar".

Məclisdə Gülzadəyə diqqət yetirmişdi, necə də dəyişilmişdir, qadınlıq həddini almışdı, əvvəl tanımadım, O, deyəsən tanımışdı, bədənim titrəyirdi, mütləq yanaşacaqdım ona. Axı, məclisdə bizi tanıyan bir adam yox idi. Mən indi ideal sevginin möv-

cudluğuna inandım, mən bu sevginin varlığını müdafiə etməliyidim, bacarmadım. Sevgini bu qədər sadə təsəvver etmişəm, halbuki, düşündüyüm qiyafədə deyilmiş.

Ata qızı haqqında məhz bu yerdə, ocaq başında – əlbəttə, sönmüş, yanmış qoşa daşlara baxa-baxa fikirləşməsini də təbii hesab elədi, pıçıldadı, ürəyində saxlamadı: – O, rəqqasiliyi seçdi, nə səbəbdən, həvəsdən, yoxsa istəkdən? İkincidən! O, indi məşhurlaşmaqdadır, rəsmi konsertlərdə iştirakçıya dönüb, adı siyahıda gedir. Rəsmilər ona tamaşa edirlər, hamısı ona sənət nümayişçisi qismində baxırmı? İnanmağım çətindir, çox hadisələrin şahidi olmuşam, birisi ortaya atılacaq, guya sevdiyini bəyan edəcək, gecə-gündüz onun eşqi ilə nəfəs aldığını – iyrənc yalanını gizlədəcək və nəhayət, onu talaşa kimi tullyacaq. Qorxum bunadır. Olmaya Aytac bu sevgiyə inanacaq? Halbuki, Allah-Təala onu sınağa çəkmək istəmişdir, ayıq olmağa çağırmışdır. Belə sınağa nə ehtiyac! Qızın taleyi bir dəfə sınağa çəkilir, bu sınaqda uduzdun! – Ata söznü burada saxladı, ardını tamamlamağa cəsarəti çatmadı, qara-qura fikirlərindən çəkindi. – Ata yenə özünə, ölümünə qayıtdı: – Sabah, birigün bu həyatda yoxam, aparıb torpağa basdıracaqlar, üstümü örtəcəklər və unudulacağam, uzağı, bu nəsil xatırlayacaq, qızımın uşaqları mənim nəvələrim. Bəs sonra? Məndən sonra da həyat da-

vam edəcək, sevəcəklər və aldadacaqlar! Kişilər bunu sevirlər, qadını yox, onun gözəlliyini, ədasını sevirlər, necə zövq almağı sevirlər.

Ata ocaqdan uzaqlaşdı, ağacların boy-buxununa, yarpaqlarına baxır, yuvaların başında uçan quşları seyr edirdi. Quşlar oxuyurdu, bülbüllə qaratoyuq səsləri batırırdı. Uzaqda mixəyi rəngli dovşan qabaq ayaqlarını havada qoşalaşdırıb oynayırdı, qorxu hiss etmirdi, güman ki, onu görmürdü. – Ata belə zənn eləmişdi. Bu dəmdə başqa bir dovşan göründü və cütləşdilər, bayaqkı dovşan "rəqsin"dən qaldı. – Hə, doğrudur, məndən sonra həyat sönməyəcək, bu meşəyə gəlib-gedəcəklər, bu ocaq olmasın, başqa ocaqlar, tonqallar qalayacaqlar, bu yuvaların yerində başqa quşlar öz yuvalarını tikəcəklər, bala çıxaracaqlar. Və bu pessimist pıçıltılarda ikən kürəyi sancdı, bədəni soyudu, oturduğu kötükdən ayağa qalxdı, bir az sıxıldı, üzü çaya doğru getdi.

Uşaqlar dəcəllik edir, çox balıq tutanlar məharətlərini gözə soxur, atılıb-düşürdülər.

Ata onlara yaxınlaşmaq istəmirdi, həm acımışdı, həm də yorulmuşdu. Tüfənginin də hələ çaxmağını dəyişməmişdi. Evə boş getmək istəmirdi, onu həmişə kənddə olanda "dolu" görürdülər. O vaxt Aytac balaca idi, mütləq vurduğu quşlardan birini diri gətirirdi, hansı ki qanadı qırılan idi, quşa qulluq

edib sağaldırdı. İndi Aytac yox idi, böyümüşdü, Bakıda yaşayırdı, məşhur rəqqasə olmuşdu.

Uzaqdan tüfəng atıldı, qurşağa qədər qalxan otluqdan pərakəndə halda bildirçinlər havaya qalxdı. Ovçunun vurub-vurmadığını görmədi, amma üç bildirçin bir-birindən xəbərsiz onun üstünə istiqamət almışdı. Yaxınlaşanda barıt iyini alıb yana çevrildi ortadakı. Anı ötürmək olmazdı. Ata atəşlə tüfəngin hər bir gözü ilə quşları yerə – otluğa saldı.

Bu vaxt: “Əhsən, ovçu!” nidasını eşitdi. Qanrıldı, otuz-otuz beş yaşlarında oğlan idi, ona tərəf gəlirdi. Tanımadı, cavandı. Bildirçinlərdən sonuncusu onun qabağına enmişdi, qanadlarını şappıldadırdı. Əvvəlki isə daş kimi düşmüşdü.

Tanımadığı ovçu bildirçinin başını sığallayır, yazığı gəlirdi. Halbuki, özü vursaydı başqa tövrlə yanaşardı.

Ovçu Ataya – ilk dəfə gördüyü kişiyə salam verdi, əlini uzatmadı. Səbəbi qana bulaşmışdı. O, fəhmən kəndçisi olduğunu zənn eləmişdi, amma yanılmışdı. Ovçu çantasını sol çiynindən sıyırdı, yerə qoydu.

– Naharı ötürmüşəm, – deyib o yan-bu yana boylandı, oturmaq üçün münasib yer seçirdi. Ata zənnində yanılmamışdı. Ürəyindən oldu ki, çantasında olanından nahar edərlər, haçandan çöldə yemir – bunun öz ləzzəti olur.

Ovçu dilavər adama oxşamırdı, eşitmək istəyirdi.

– Əmi, – dedi. – Mən ocaq çatım, bildirçin kababına qonaq eləyim sizi və çantadan iki bildirçin çıxartdı. – Çöldə quş kababının ayrıca ləzzəti olur. Hiss edirəm şəhərdən qonaq gəlmisiz. – Bu dəfə zənni onu aldatmamışdı.

– Bəli, ancaq bu kənddənəm, – deyib susdu.

Ovçu söhbətə ip atmadı. Ata diqqətlə baxırdı. Onun tərləmiş alnında papağının izi görünürdü, yorğunluğunu boğurdu. Sakit gözləri vardı, qırxılmış bığ yerində tər tumurcuqlamışdı.

O, vaxtı fövtə verməmək üçün tələsirdi.

Beş-on addımlığındakı ağacın altına yığışdılar.

His basmış iki daşı yanaşı qoydu və yulğun kollarından, qurumuş çör-çöpdən ocaq qaladı. Eyni çevikliklə iki quşun tüklərini yoldu, gözü açılmış bulaq suyundan dolçasını doldurdu, bildirçinləri tər-təmiz suya çəkdi. Ocaq alışmışdı, köz düşürdü.

Qəribədir, ovçu araya söz qatmırdı, fikri qonaq üçün nahar süfrəsi açmaqdı. Başqa ərzaq şeylərini düzdü qalın parçadan olan süfrəyə.

Ata heyrətlənmişdi: cavan ovçunun ehtiyatlığına; üç stəkanlıq termosa qədər götürmüşdü. Ata çayları süzdü, çörəyi süfrənin başına qoydu, sonra da duzu. Yulğun budağında bişən kababın iyi Atanın burnuna dəyir, o illəri xatırladırdı.

Süfrə arxasında sözə Ata başladı, sualı oldu, kimlərdəndir. Cavabında ha ora-bura yozdusa, atasını tanımadı.

– Mən kənddən erkən çıxmışam atanı görməmiş deyiləm, amma üzdən yadımda qalmayıb. – Ovçunun üzündəki sabitlik yaxşı nəsildən olduğuna işarə idi. – Düşündü.

Ovçu da şəhərli qonağı süzürdü, mülahizələrini ürəyindən keçirirdi: "Alicənabdır, rəftarı ilahi mərhəmətdən soraq verir. Heyif ki, nasazlığı". – Ardını tamamlamadı: "Kənd havası məlhəmdir hər cür xəstəyə, bu kənddə, bu meşədə müalicə olunacaqsan, əmi, ovçuluq isə başqa aləmdir" – düşündü.

Ata fikrə dalmışdı, ovçu qab-qacağı suya çəkir, süfrədə qalan ərzaqları səliqə ilə kağıza bükürdü: "Ölümün caynaqları heç nəyə güzəştə getmir, insanın ruhunu qabaqcadan gözaltılayır, canı titrədir. Necə ki o adam nə vaxtsa bir budağı qoparanda həmin ağac titrəyir. Bir gülü budağından ayıranda dərhal solur, ətrini itirir. Xəstə gözlərini yumur, vahimələnir. Gecə düşcək bu işıqlı meşəyə, kabuslar, cinlər gözlənilməz nəsnələri yada salacaq. Otlar, kol-koslar mürgü vuracaq. Meşə vəhşilərin səsi gecəni başına götürəcək. Bu ocağın külü qalacaq, bizimsə ayaq izlərimiz".

– Əmi, nə fikirləşirsiz? – Ovçu sadə mahiyyətli sualla Atanın xəyalını qırdı. – Mən çobanların yata-

ğına getməliyəm. – İzahat verdi. – Biz üç ayı orada keçiririk. Əmi, insanın iradəsinin gücü qabağında hər şey aciz qalır. – Qalın papağını başına keçirdi, qulağınacan sıxdı. – Bir gün sizi qonaq aparardım yatağımıza. Sizin ilə maraqlı olardı. Dağ keçisi ovuna aparardım. Bax, bu tüfənglə neçə təkənin buynuzunu sındırmışam. Hə, əmi, mən tərpənim. Bir azdan meşə cığırları güclə seçiləcək.

Ata cavan ovçunun gözlərində məsum uşaq ifadəsini sezirdi: oynaq, ağıllı, sağlam təsəvvürü.

Atanı şəfqətli təəssürat bürümüşdü. Ondakı həssas nəzakət və anadangəlmə ədab-ərkan.

Ata xudafizləşdi, meşə cığırına düşdü, axşam günəşinin çəhrayı rəngi onu müşayət edirdi...

**– 0 –**

Çapayın Rəqsanə ilə lokal görüşündə bir problem ortaya çıxmamışdı və onun xiffətini etməyə dəyməzdi. Qızın da möhkəm sözü etibara zəmanət verirdi. Lakin başqa bir problem Xumara xanımla şifahi məcalaraları idi. O, bəzən aman düşəndə şıltaqlanır, gəzintiyə çağırır, hətta məktub yazmaqdan çəkinmirdi. Və xahişi bu idi, cırıb yandırmasın məktubları, orada onun sevgi, vurulmaq atəşi həkk olunmuşdur, vaxt yetişər, məni acı-acı xatırlarsan. Çapay cavab yazmaq həvəsinə düşmüşdü, ancaq özünə gül-

müşdü ki, biz bir yerdə deyilik məgər? Bir ansambılda çalışmırıq bəyəm? Mən günahkar deyiləm, sadəcə, ona meylimi eyhamlarla ifadə etmişdim, o da...

İndi o qalır, günahlarını təmizə çəksin? O ki Xumara xanımın yatağına girməmişdir, aralarında ciddi əlaqələr baş verməmişdir. Amma Çapay bu fikrini özündə tənqidə tutdu ki, nə olsun ərsiz qadındır, nə ortaya atıbsa özündən başlamışdır. Xumara xanım hansı addım atdığını bilməmiş deyil. Ərli olduğu illərdə nə səbəbdən dünyaya uşaq gətirməmişdir, hansı qadın halal, qanuni ərindən uşaq doğmaq istəməz?! Çapay eşitmişdi ki, Yusif Qasımov ona şırmanır, mümkün işdir. – Çapay qərara gəldi: "Arvadı – filanı hazırda yoxdur, vaxtilə sevib aldığı qız olub. İndi qadını Amerikada oğlunun yanında yaşayır. Oğlu məşhur kibernetikdir, saytlarda barəsində tərifli sözlər yazılmışdır".

Amma Çapay Xumara xanımın Yusif bəyə münasibətindən xəbəri yoxdur, ona görə də qarasına pis söz deməyi özünə rəva görməmişdir, aralarında səmimiyyət durur.

Çapay dəqiqləşdirməkdə idi ki, Xumara xanımla ailə həyatına rəsmi qoşulmaq mümkünsüz olardı, kiçik bir kollektivdə haqlı söz-söhbət yaradardı, Rəqsanə ilə izdivaca girmək nə vəd edərdi: azadlığını itirmək qorxusu, qəşəng, görümlü qızın əsrarən-

giz mahiyyəti önündə biixtiyar təslim olmaq vahiməsi. Ancaq Rəqsanə onu başqalarından – ətrafında layiqli oğlan az deyildi – uca tuturdu, bu da onun nəcabətindən irəli gəlirdi, danışığı, gülüşü yerində olurdu, məharətinə söz ola bilməzdi. O görüşdən sonra peşimançılığını etiraf eləmişdi, lakin səbəbini açıb-ağartmamışdı.

Çapay Rəqsanə barədə başqa ehtimallar da irəli sürürdü. Bu yaşa qədər o, sevməyə bilməzdi, təbii hissdir: məktəbli sevgisindən başlayır, instiktiv hissdir. Təyinatını isə birbaşa buraya vermişlər və ilk gözü tutan isə mən oldum. – Bu lovğalığı qürurla xatırladı. Bir sözlə, Çapay qərara gəldi ki, Rəqsanə ilə belə tərəddüdlü və həqiqi fikirlərə həməlik qayıtmasın. Ortada Xumara xanım vardır və onu unutmaq fikrindən vaz keçməlidir, bunu bacaracaqmı?!

Aytac nədəndi – ayırd etməkdə çətinlik çəkirdi – kişini tapıb söhbət etmək qərarında qaldı və eyhamca güldü ki: “Nə kişi kişi salmışam ortaya, yaşı otuz yeddi ancaq olar” və onda iltifat edən təbəssüm yarandı; bəzi suallarla bağlı söhbət etmək həvəsi oyandı. O (daha “kişi” sözünü lüğətindən çıxarmalı oldu), müsahibini anlamağı bacarır, buna qabildir, xüsusilə, qadın olsun. Cəmi bir dəfə söhbət etmişdir, qəlbində nəsə doğmuşdur, işığa çıxmaq istəmişdir; bu, romantik ehtiras idimi, yoxsa şairanə duyğu idimi? “Sən yaxşı adamsan – teatra gələndə heç kimin

sifətində narazılıq yaranmır, sənlə danışmaq duyğusu keçir ürəklərdən. Sən düzgün mühakimə yürüdürsən, sözlərin yalana oxşamır, səni başa düşə bilirəm, daha söz tapmaqda acizəm. Biz rəqqasələr meydanda söz tapırıq, amma təhlil etməyə vaxtımız çatmır, tamaşaçılardan qorxuruq". – Aytac bu cür düşünürdü və ilk, hələlik son söhbəti təsəvvürünə gətirdi: Onun gözlərinin parıltısını fəlsəfəsi ilə görmürdü, kiprikləri qoymurdu bu işıq ona sirayət eləsin. Lakin hiss olunurdu.

O, onun daxili enerjisini, ürək səmimiliyini, ruhunu sevir, onu da düşünə bilərdi ki, bu sevginin sonu nə ola bilər? Aytacın görünüşü qəşəng, cazibədardır, belə qızların taleyi həmişə gətirirmi? Aytac hər şeyi ağır hissiyyatla nəzərdən keçirməyi xoşluyurdu. Parlaq xülyalardan xali deyildi, taleyinə qarşı dərin ehtiramla bərabər, anladığı şübhələr də ondan uzaq deyildi. Bu hiss nə vaxtacan davam edərdi; yaşı tələsir. Çapayın isə sevgi duyğusu yoxdur və onu sevmək barədə xəyalında nə vardısa silmişdi.

Aytac O adam barədə müqayisə aparmaq, yaxud seçim etmək məqsədilə düşünməmişdi. O, bu sənətdə zirvəyə çatmaq istəyirdi, rəqabət aparmaq niyyətində idi. Lakin O azadlıqsevər qəlbindən danışırdı, mühakiməsindən cavab gözləyirdi.

Kişinin teatra gəlməsi nədənsə beş-on gün çəkdi və ən çox nigarançılığı Aytac yaşadı. O, teatrda darı-

xırdı, Çapaydan çalışırdı aralı olsun, təzəcə dəbə minən Rəqsanə "qapalı örtükdən" çıxmışdı. Bəzən özünü təmkinlə və kirmişcə aparır, Çapayı görəndə həyəcanını gizlədə bilmir, ürəyindən keçəni ona danışmaq istəyirdi. O, bəzən nəticə də çıxarırdı: "Kim ki rəqibinə qarşı qəzəbli və hayıf almaq istərsə o adama qalib çıxır və daxili hisslə fiziki qüvvə birləşir. Təsadüflərin nəticəsi hesablanmır". Aytac ona qarşı laqeyd idi, Xumara xanımda körpü yenə Çapayın üstündə qalırdı. Çapayın qadınlara münasibəti çox anlaşmaz görünürdü. Qadınlarla söhbətdə, bir çay stolu arxasında oturanda çəkincən təsiri sirayət edirdi və qadını özünə cəlb etmək məharətini gizlətmirdi. Lakin təhlükə qarşısında duyduğu gərginlik onun ehtiyat "silahı"dı.

Çapay Rəqsanə ilə istilik yaradanda evlənmək barədə həm də fikirləşməli oldu – təbii qənaətdir, lakin evlənmək məsələsinin üstündən elə-belə hoppanmaq yaramaz. Onun yaşıdlarının uşaqları məktəbə gedir. Evlənməyə isə pis baxmırdı, zəruri qanun hesab edirdi və qəti fikri belə idi: "Evlənən adamın ilk uğuru ondan başlayır ki, cinsi həyatının uğursuzluğunu aradan qaldırmalı olur, sonra əxlaqi həyat üçün imkan qazanır". Çapay evlənmək işinin başqa tərəfini düşünəndə sərt ovqat keçirirdi və qorxurdu: "Ər və arvad pozğun həyatda yaşayırlar, bir-birinə bu işdə mane olmurlar, faciəsi ondadır, doğulan uşa-

ğa qarşı laqeyd hiss keçirirlər, buraxırlar özbaşına – get, nə istərsən et”.

Yumşaq əl onun xəyalını qırdı, gəlib onun yanında sakit-sakit dayanan kişi idi (müəllif indi adını daha gizlində saxlamağa ehtiyac görmədi); Ağa Rəhimdi:

– Çox pəjmürdəsən, Çapay bəy! – Təntənə ilə müraciət elədi. – Penseni alnına qaldırdı (Çapay birinci dəfəydi onu eynəkdə görürdü). Çapay onun haqqında həmişə fikirdə olmuşdu, zənnicə Ağa Rəhimin mənəvi qüvvəsi heç vaxt qeyri-şüuru məqsədə yönəlmir, mühakiməsində məmnunluq duyulur, sözlərində ardıcıllıq pozulmur. Olur, işi alınmır, bir tamaşanın, rəqsin quruluşunu tənqid edir, ona hücumlar başlayır, cavab verməyə çalışmır: “Sözümü demişəm, özü bilər, onun xeyrinə yazmışam” – deyir və heç bir intriqaya girmir. Olur, nüfuzlu sənət adamları birləşib – belə demək mümkünsə – Ağa Rəhimə hücuma başlayırlar, belə vaxtlarda da o, mənəvi qüvvəsinin məğlub olduğunun dəhşətini yaşamır, ona görə ki, elə zaman yetişib, hər bir süni uğuru göylərə qaldırırlar, elmi alverxanalara çevirilər, fəxri adlar, ordenlər, elmi və təhsil vəzifələri növbələşdirilir. Demokratiyamızın uğuru belə başlamışdır Ağa Rəhim üçün: – Bu dəhşət gücü çatmayan bir möcüzədir, başqa nə ad vermək olar! Hakim dairənin qaranlıq qonmuş ağlı bu cür işləyir!

Ağa Rəhim gözucu gələn-gedənləri süzür, Aytacı görmək istəyirdi. Elə vaxtıdı, uzun məşq qurtarmışdı, solo rəqslər də tamama yetmişdi. Bakının insanlı küçələrində Mahnı və rəqs ansamblının üç gün dalbadal konserti gedəcəkdi: afişalar vurulmuşdu. Solo rəqsdə Aytacın şəkli diqqəti cəlb edirdi. Ağa Rəhim ayaq saxlar, bu istedadlı qızın daha da məşhurlaşmasını gözlərdi və inanırdı buna.

Uzaqdan çoxdan tanıdığı, artıq təqaüdə çıxmış rəqqas kişi gəlirdi, otuz il sərasər səhnədən çıxmadı, sənətini sevdi, ötən il "yola" saldılar, özünün dediyi kimi: "Qəbirstanlığa". – Məmləkətdə yazılmamış qanundur bu münasibət, əlləş-vuruş, bir "fəxri fərman", üç yüz manat və yağlı sözlər, yavan münasibət. Get cuzi pensiya pulu ilə yaşa, müstəqil Azərbaycan sənətçisi! – Ağa Rəhimin xəyalından bu həqiqətlər sönməmiş rəqqas ona çatdı, isti görüşdülər, çox ayaq saxlamadı və uzaqlaşdı.

Ağa Rəhimin yaddaşında onun bozarmış sifəti, çuxura düşmüş gözləri qaldı...

## 3.

Aytac Ağa Rəhimlə söhbət üçün təklif elədi ki, evlərində görüşsün, anasına barəsində danışmışdır. Etiraz olmadı, çünki cavan qızla belə bir münasib yer lazım idi.

Maraqlı sual Ağa Rəhimin fikrində dolaşırdı: – Sənət əbədi peşə ola bilməz, əgər onda istedad, vərdiş və bacarıq vardırsa – sözü həqiqətdir. Bir gün istedadı Allah necə veribsə əlindən alar, vərdiş unudular, yerini başqa nəsə alar, bacarıq da qocalar, taqətdən düşər və ilaxır o şəxsi tərk edər. Aytacın məharətinə söz ola bilməz və xalq onu sevir. Amma sənət adamı daxilən, ruhən zəngin olmağa borcludur, əxlaqını qorumalıdır; belədə o, İlahiyə daha da yaxınlaşır. Bizim təhsil bu əzəmi borc üçün köklənmişdir, yalnız savadlanmaq üçün qurulmuşdur. Amma təhsili danmağa ehtiyac yoxdur, onu dəyişdirmək münasibdir.

Ağa Rəhim Aytacla ilk söhbətində bu məsələlərə ötəri toxunmuşdu və hiss eləmişdi bu qızda öyrənməyə dərin maraq və ehtiyac var. O, yalnız sənəti ətrafında fırlanır, rəqs onun üçün hər şeydir. Hətta Aytac onu dinləyəndə öz qüsurlarını görür, çox şeyi itirdiyini anlamağa çalışır. Bunu təqdir hesab elədi və söhbətini belə istiqamətə yönəltməyi qərara aldı.

Onlar atasının iş otağında oturmuşdular. Pəncərəsi küçəyə baxırdı, böyüyüb qol-qanad atmış yaşıllığa açılırdı. Ağaclar yayın istisindən payıza düşdüyündən fəslə hazır deyildi, yarpaqlarını silkələməyi unutmuşdu. Balkon isə küçəyə idi və atasının sevdiyi yer idi.

– Atam kənddədir səhhətilə əlaqədar – izahat verdi – Ağa Rəhim xəbər almışdı. – Babatdı, əlaqəmiz kəsilmir.

– Allah şəfasını versin. – Ağa Rəhim əlini sinəsinə qoydu və ayağa qalxıb oturdu. – Torpaq çəkir, gərək mütəmadi baş çəkəsən.

Aytac həmişə insan xisləti haqqında düşünməyi xoşlayırdı, az yaşında çox məsələlərlə üzləşmişdi. Paxıl və pis adamların hərəkətini görmüşdü. Sənət adamlarına, xüsusilə qız – qadınlara şəhvət hissiylə qiymət verildiyini də. Ona ağır təsir edən o idi, oxuyandır, rəqqasədir, aktrisadır – tez ələ gələn bir məxluqdular. Onları pulla daha tez ələ almaq mümkündür. Aytacın əlində belə faktlar az deyildi, dərinə gedərsə bu kollektivdə də tapmaq çətinlik yaratmazdı.

Belə "sarı simə" toxunanda Ağa Rəhim başını buladı, sifətində istehzalı ifadə oyandı, boğazı xırıldadı, öskürdü. Ağa Rəhim siqaret çəkirdi, portsiqaretini stolun üstünə qoymuşdu, qapağını açıb birini götürdü, qoxulayıb portsiqarın üstünə qoydu. Solğun çiçəkli divarı süzdü və siqareti götürdü, əlini halqalayıb papirosu iylədi.

– Çəkin. – Aytac yerindən hərəkət elədi və bir də bu sözü təkrarladı. – Çəkin, pəncərə açıqdır, hava otağı təmizləyir.

Ağa Rəhim özünü eşitməzliyə vurdu. Aytacın ürəyindən keçən sualın üstünə gəldi:

– İnsan taleyin buyurduğu kimi yaşamağı sevirsə o, üç yönümü unutmamalıdır. – Armudu stəkanda buxarlanan çayı içmək istədi, dodaqlarını yandırdı, stəkanı nəlbəkisinə qoydu. – Birinci növbədə İnsan özünü yaşatmalıdır, bunun üçün Allah-Təala ona ağıl, zəka vermişdir. Bu sərvət heç bir canlı məxluqatda olmamış, yoxdur. Bundan yaxşı istifadə əvəzinə, İnsan səadət, xoşbəxtlik yerinə səfalətə vurulur. Bu isə həmişə özünü doğrultmur, fəlakətə aparır. Deməli, ağlı vəhlə tərbiyə etməzlər. İlahi bəyanların nəzarətilə tərbiyə olunmayan, zənginləşməyən ağıl at kimidir, onun belində hədəfə, o məkana çatmaq müşküldür. Qarşına uçurum, dərə-təpə çıxır.

Ağa Rəhim çayın soyuduğunu ovcunda stəkanı tutmaqla dəqiqləşdirdi. – Hə, ata lazım gəlir ki, noxta vurasan, cilovunu yığasan. – İkinci, İnsan işin ədalətli görünməsinə, haqqa tapınmasına ümidini itirməməlidir, inamını da. İnam dinimiz baxımından qəlbə görə təsdiq, dillə danışmaqdır, yəni inamın əsl təsəlli məkanı ağıl deyil, bütünlükdə hisslərimizin, emosiyalarımızın mənbəyi olan dünyasıdır. İnsan sevgi aləminə də bu pəncərədən baxır. Lakin şərt var, Aytac xanım, ağlı unutmayasan, o emosiyadan daha çox həqiqətə, haqqa yön alır. Haqq işi, ədalət işi ağılla qəbul edilirsə, qəlbdə təsdiq olunur, ürəyə yatmayan gözəllik də kənara atılır.

Aytac boşalmış stəkanı götürüb təzələdi. Anası müxtəlif çeşidli meyvələri stola qoyub getdi.

Ağa Rəhim özündə sıraladığı şərtlərdən üçüncüsün: "İnsan yeni fikir eşitməyə borcludur" kəlamını xatırlatdı: – Kainat qədimlərdən insan nəsillərinə bəllidir və biz "Yeddi qat" sözünü eşitmişik. "Yeddi Qat Səma" deyirik. Allah-Təala Ayeyi-Kərimlərdə Yeddi Qat Səmadan bəhs edir: "Yeddi göyü bir-birinin üstündə yaradan Odur, ey İnsan! Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq tapmazsan, görməzsən. Bir gözünlə Səmaya bax, orada bir yarıq görə bilərsənmi? Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada axtardığını tapmayıb zəif, yorğun düşərək, yenə də sənə tərəf qayıdacaqdır. And olsun ki, biz dünya səmasını, yerə yaxın olan göyü ulduzlarla, qəndillərlə bəzədik". – Ağa Rəhimin güclü hafizəsini Aytac daha aydın şəkildə gördü və ilk dəfə söhbətə müdaxilə etdi:

– İnsan belə halda Allahın göndərdiyi nemətləri idrak edərsə qəlbində, ürəyində məhəbbət fidanları cücərər, təzələnər, səviyyəsi artar. Axirəti, onun şərəfini, əbədi olduğunu, bu Dünyanın bir sınaq məkanı olduğunu, həm də faniliyini düşünəndə Axirət dünyasına inamın artır. O halda İnsan Dünyanın dəyərini başa düşür.

Aytac utandı “nağılından” və almadan birini bıçaqla soymağa başladı. Ağa Rəhim bunu görüb gülümsündü:

–Bıçaq vurma almaya, – dedi. – Onun şirəsi qabığındadır. Mən özümçün deyirəm ki, qabıqla yeyirəm, təki, tərtəmiz olsun.

Aytac fikrini dəyişdi, soyulmuş almanı öz qabağına qoydu və Ağa Rəhim üçün alma götürmədi.

– Bütün bu missiyaların məntiqində Azadlıq dayanmırmı? – sualı Ağa Rəhimin xoşuna gəldi:

– Yeni nəslə bu aşınmalıdır, əks halda yeni nəsil bu həqiqətdən uzaqlaşır, cəmiyyətdə mövcudluğunu itirir. Yeni pöhrə atan uşaqlarda “azad düşüncə” tərzi öldürülürsə – Ağa Rəhim almadan uzun və qüvvətli barmaqları ilə qoparıb ağzına apardı. Gözləri yol çəkirdi.

Aytac son həftələrdə irfani və nəsihətvari kitablara meylini salmışdı, atasının sağlamlığının pisləşməsi onu sarsıtmışdı.

**– 0 –**

İşdən gələndə qapını anası açdı. Bikefdi, əlləri titrəyirdi. Paltarını tələsik dəyişib atası uzanan otağa girdi, birbaşa yaxınlaşıb əyildi və alnından öpdü (bu, onun uşaqlıqdan qalma vərdişi idi, atası həmişə bu şəkildə qızını öpürdü – bu gün də) və nəbzini yoxladı. Atası kürəyini balışa söykəyib dik oturmuşdu.

Əllərini nazik payız yorğanının üstünə qoymuşdu. Barmaqları nazilmişdi, dırnaqları azca uzanmışdı. Gözünü açıq qapıya – balkona zilləmişdi. Dodaqlarının qanı çıxmışdı, bozarmışdı, solğun parıltılar üzündə elə bil hərəkətsizdi, donub qalmışdı. Gözləri ağarırdı.

Əlini və alnını öpəndə atası yastığı boynunun altından götürdü və sola dönüb çarpayının ortasında oturdu, bir qədər cana gəldi. Aytac heç vədə atasının nə oturuşunda, nə də yerişində qocalıq əlamətini hiss etməmişdi, addımlarını çevik atmışdı, ətrafına layeyd qalmamışdı. Anası gəlib yanında əyləşdi, həkimin məsləhət bildiyi yemək üçün nə lazımsa hazırlamışdı.

– İşlərin qaydasındadırmı, qızım? – Atası soruşdu və cavabına sanki onunla məsləhətləşib hazırlaşmışdı.

– Narahatçılığa əsas yoxdur, – cavab verdi. – Narahatçılığım sən tərəfdəndir, ata.

Atasının sifəti açıldı, alnına tökülmüş saçlarını yuxarıya qaldırdı və qarşısında şaxlaşaraq duran arvadını süzdü.

– İşində ol, mənimki belədir, sağalıram, düşürəm. Kənddə hər şey öz yerini tapar Allahın köməyilə.

Sözlər ana-balanı sevindirdi.

Bu xəstəliyin durumu beləydi, bir tərzdə dayanmır, o da öyrəncəklidi.

Kənd məsələsi Aytacın əslində ürəyincə deyildi, atasından ayrı nəfəs almaq ona zülm gətirirdi, amma bu, zəruri idi, payızın bir aydan az olmamaqla bacısıgildə, ata yurdunda azad, sərbəst nəfəs almalıdır, meşəyə, çayqırağı sahələrə istərsə çıxmalıdır. Kənd südündən, qatığından yeməlidir. Aytac diqqətini yayındırmadan atasını süzür, hələki yaxşı, babat olduğuna sevinirdi. Atasının nitqi aydın idi, sözləri yerində idi və mühakiməsi də həmçinin.

O gecə qaranlıq və rütubətliydi, yağışın səsi həzindi, yarpaqlar cavab olaraq xışıldayırdı. Bu gecə də ağır səhər yuxusu Atanı köhnə vərdişdən ayıra bilməmişdi...

Aytac qarşısındakı Ağa Rəhimi unutmuşdu ki, onlar dialoqa qoşulubdur, maraqlı mühakimələrini eşidir:

– Mən akademik təhsilin əleyhinə olmamışam. – Ağa Rəhim sükutu pozdu. – Təki məktəbli yeniyetmə – gənc dərslərilə məhdudlaşmasın, öz ağlının gücünü müəyyənləşdirməyi bacarsın, "hərtərəfli" bilik sahibi olmaq üçün proqramlara yıxılmasın. Oxuyan bilməlidir ki, gücünün dairəsi nədir və nəyə qadirdir. Bir müddətdən sonra əqli imkanlarının hansı düşüncə tərzinə gücü çatdığını öyrənə bilsin. Faydası ilə "artıq" şeylərin ona lazım olmadığını müəyyənləşdirmiş olar.

– Belə anladım ki, İnsan, ümumiyyətlə, öz ağlının ölçülərini dəqiq hesablamadan sonra həmin ölçüdə paltar biçdirər və həvəslə geyinər.

Ağa Rəhimə belə mühakimə çıxarmaq xoş oldu və bu qızla söhbətdən məmnun qaldığına sevindi.

– Aytac. – Balkonda siqaret çəkib yüngülləşmişdi. – Ağa Rəhim fikrini diriltdi. – Soruşursan ki, Avropa haqqında şəxsi qənaətim necədir. Avropalılar əsrlərlə Şərq elminin və təhsilinin dalısınca sürünmüşlər, amma Şərqin dəyərlərindən elə məharətlə yararlandılar, gəl görəsən! Amma otuzuncu illərdən bizim milli ziyalılarımız. – Ağa Rəhim duruxdu, dilinə gələni gizlətmədi. – Onlara "milli" ad vermək günah olardı, qorxdular, rus təhsil ideologiyasına dördəlli əl qaldırdılar, milli təhsil ənənələrimizi açıq-aşkar pislədilər. Bu alçaqcasına yaltaqlıq idi. Mən təhsil görmüş, ərəb, fars, rus dilini bilən Ağa Rəhim nə Avropaya, nə də Qərbə nifrət etmirəm, mən milli və milliliyi özündə əks etdirən maarifə sadiq adamam. Sivilizasiya yaxşı görüntüdür, ancaq milli mədəniyyətin bir qolu olan təhsili tapdalamasın. Nə az, nə çox – iyirmi ilə yaxındır "inteqrasiya" adından alverə başlamışlar. Sivilizasiyada şöhrət, tərəqqi, daha nələr yoxdur, ancaq qan qoxusu da var!

– Sivilizasiyaya bu dərəcədə alüdəçilik? Sözlərin altında nə qədər çeynənmiş ifadələr səslənir. Mə-

nimlə razılaşarsan: qayda-qanun, ədalət-haqq, azadlıq-anarxiya...

Ağa Rəhim Aytacın fikrinə daxilən heyran kəsilir, ancaq büruzə vermirdi, özünü soyuq kimi göstərirdi.

– Gəncləri məst edən sözləri də var a! Onların başı altına yumşaq balış qoyurlar, təhsil almaq üçün xarici ölkələrə yola salırlar, qayıdıb gələnlərin üzünə də baxmırlar, ya yerlilərinə, qohum-əqrəbələrinə, ya da vəzifədə ikən qohum olanların övladlarına gün ağlayırlar!

Ağa Rəhim balkona çıxdı, bərk darıxmışdı, siqaret yandırdı, boğazını arıtladı və içəri qayıtdı.

– Xeylisi isə Vətənə qayıtmır, Aytac xanım, ordakı həyat tərzini buradakı yaşamaq əzabına dəyişmir.

– Gəzməyə yad ölkə, ölməyə doğma yurd, – deyib babalarımız. – Aytac özünə inamla dedi. – Xaricdə olarkən səhnədə ayaqlarım elə bil kilidlənir.

– Düz demirsən. Biz elə camaatıq, dərddən ölsək də çapalamırıq, çırpınmırıq. – Ağa Rəhim düşündü. – Arı balı şirindir, hələlik dadını bilmirik. – İkibaşlı pıçıldadı.

Ağa Rəhim Aytaca baxır, onun gözlərindəki parıltını görə bilirdi. Dodaqları, yanaqları torun narın şəbəkələri arxasından ağappaq ağarırdı. Qızın sifəti-

nin görümündə, danışığının agəngində indiyə qədər diqqət etmədiyi bir küskünlük vardı.

– Getdikcə səni yaxşı tanımağa başlayıram, – deyib almadan qalın dilimi yedi. Ağa Rəhim ürəyində dolandırdı ki, bu qıza hakim olmaq? O, dərin mühakiməsilə qadın olmağı bacararmı? Vura əri özü kimi ola! – Güldü, lakin Aytac bu gülüşün səbəbini nə bildi, nə də soruşdu.

Ağa Rəhim Aytacın ona qulaq asmasını arzulayırdı.

– Bu dünya belə gedərsə, mənimçin daha darıxdırıcı görünəcəkdir. – Sözləri aydın tələffüz elədi və köynəyinin üst düyməsinin birini açdı, sinəsinə sərin hava doldu. – Kresloların arxası təsadüfi adamlarla dolur, amma boşalmır,  dalmaq üçün məşq edirlər. Qorxuram bir gün gələr səni sümüyünə düşməyən havada oynatsınlar!

Söz Aytacı tutdu, xeyli baxışlarını bir nöqtədə saxladı, gözləri yaşarmışdı.

– O gündən qorxuram, – dedi. – Allah məni o gündən qorusun! Qarşında duran qız kübar ailədən çıxmamışdır, ev tərbiyəsi almışam. Onlar məni zavallı hesab edirlər. Sözlərimə təəccüblə yanaşmayın. Amma atamdan mənə elə qüdrət keçmiş ki, ağılı olmayanlar cəsarət göstərməzlər. Onlar üçün yelbeyin xanımlar lazımdır.

Aytacın səsi avazıdı, Ağa Rəhim başını qaldırıb Aytaca nəzər yetirir, heyranlığını nədənsə büruzə vermək istəmirdi.

Araya qısa sükut çökdü, bu da Ağa Rəhimin üçüncü papirosu çəkməsilə bağlıydı – balkona çıxırdı.

– Biz yanaşma, ünsiyyət vərdişlərinə lazımi qədər yiyələnməmişik. Mədəniyyət yalnız savad, bəlağətli danışmaq deyil, incəsənətin fəlsəfəsinə yiyələnmək də vacibdir, poeziyanı və gözəllik hissini duymağın özü mədəniyyətin bir tərkibidir. Məhəbbəti də mədəniyyət birləşdirir.

– Hə, sən deyəndir. – Aytac razılaşdı. – O, əmindi, bu sənətdə varsa, gözəlliyi diqqət çəkirsə nəyisə qurban verməlidir? – Sual da, təsdiq də deyildi qənaəti. – Bəs bu qurban, fəda ona nə qazandıracaqdır. Aytac hələlik bu həyatın görünən tərəfini düşünə bilirdi: insanlar yaxşı yaşamalıdır, onlara təzyiq olmamalıdır, aldanmamalıdır. Sərvət nəfsi, var-dövlət hərisliyi, ifrat dəbdəbəli həyat, daha nələr – yaşamaq ehtirasının bir saatına dəyməz. Həyatın dəyərini heç nəylə müqayisə etməyə dəyməz. Şəxsi səadətə nail olmadan bunları arzulamağa dəyməz. Mən hələlik tamam başqa bir aləmlə vuruşuram. Bu mübarizənin təməlində sənətimi tutmuşam.

Ağa Rəhimi də təxminən belə bir nəsnələr düşündürürdü. – Yaşım çatıb, ötür həddini, oxudum, öyrəndim, bəs sonrası? Amma lazımlı bir həqiqəti

özüm üçün aydınlaşdırmaqda acizəm. Lap cavanlıqda atdığım addım özünü doğrultmadı. Bundan sonra həyatımı risqə qoya bilərəmmi? Ağıllı qadınla evlənməyin də dumanlı çalarları olur. Elə isə şəxsi həyatımı qurban verməyə dəyərmi? Bu, əsla fərəh gətirən xoşbəxtlik ola bilməz.

Ağa Rəhim üçün Aytacla söhbət etmək xoşdur, həm də düşündürücüdür, onun özü də sadəlövhdür, bütün hisslərini atasına yönəltmişdir, əlbəttə, gərəkli məhəbbətdir, amma hər şey deyil bu həyatda. Məni narahatçılığa gətirən dünyanın mənasızlığıdır, işlərin səhmana qoyulmamasıdır. Şəxsi maraqların da puçluğu bu mənasızlıqdan gəlir, insanlar bir-birinə inanmırlar, nə üçün belədir?

Ağa Rəhim Aytacla xeyli vaxt keçmiş söhbətinin bütün təfsilatını yadında saxlaya bilməmişdi, amma onun təmizliyinə heç bir şübhəsi yoxdur. Bu qız sənətini ideallaşdırmaqla məşğuldur. Dəniz uzaqdan baxana boz ləkə kimi görünür, amma dənizin özü bir həyatdır, idarə edilir, ətrafı onu tənha qoymur, altındakıları gizlədir. Ağa Rəhim üçün dəniz günəş şüaları altında parıldayır, xırda balıqları yerindən oynadır, bu isə qağayılara fürsət verir ki, ac qalmasınlar, qarınlarını doldursunlar. Külək ləpələri hirslə sahildən beş-on metr aralıya tullayır, geri çəkiləndə meduzalar, mamırlar sərili qalır, onlar ölürlər, dəniz onlara himayədarlıq göstərmir. Bax,

cəmiyyət də belə yaşayır, bir qrup təbəqələrin nə gəldi, haradan tapdı – qarınlarını doldurur, başqa bir elit təbəqənin altında gizlətdiyi sərvətə qonaq edir. – Ağa Rəhim bü cür mühakimələrində həyəcanlanır, əsəb tutması baş verir. Bu o dəqiqələri, saatları idi. – O, stula çökdü, başını divara söykədi, göz qapaqlarını salladı, qüssədən çiyinləri titrədi.

Ağa Rəhim bu Dünyanın sonsuz təkmilləşmə imkanına malik olduğunu başa düşür və bu fikrini sağlam ağlının məhsulu hesab edir. Düzlüyü və qətiyyətilə qərarını verir, ürəyinə dammış qorxuya laqeyd qalmır.

Onun ürəyi döyünürdü, sanki nəfəsi azlıq edirdi və evə qayıtmaq istədi – sahil bağında tənha oturmuşdu, özünü ələ almalı, uzanmalı idi, gələcək onu gözləyirdi, bu yaşında üstündən qələm çəkməli deyildi, bir dəfə özünü burulğana atmışdı, dadını görmüşdü, daha o burulğana baxmağa ehtiyac yoxdur. Onu mənzilində kim qarşılayacaqdı? Bəlkə qayıtsın o günlərə? Yox, bunu bacarmayacaqdı, onun üçün bu, ölüm kimi bir cəza olardı! O, heçliyin qoynuna atılmaqdan həmişə qorxmuşdu.

Ağa Rəhim son görüşlərdən birini xatırladı:

– Axı, mənə deyərdin ki, səni “sevirəm yox” “sənə vurulmuşam” söylərdin. İndi tünd xasiyyətimə – bu, təklik deyil, təbiətimdir – dözümsüzlük göstərirsən. – Ahəstə səslə dedi. – Özündən əbəs ye-

rə çıxırsan, bunun mənim üçün fərqi yoxdur, yollarımızı ayırmaq daha səmimi olar.

– Bax, bu  son məqamlarında tündməcazlığını əlindən buraxırsan. Belə çıxır biz bir-birimizdən çiyrənmişik.

– Elədir! İki öküzün başı bir qazanda qaynamır, sən və mən ifrat mühakiməçi! İnsan çox şeydən çiyrənə bilər, ancaq kişi və qadın üçün bu, olmamalıdır, ən yaxşısı dərinə getmədən vidalaşmaq. Mən haqlı olduğuma inanıram. – Sözləri soyuq istehza ilə dedi və özündə xəfif sıxıntı duydu, bu, qorxuya bənzəmirdi.

Belə ər və arvad ayrılığı isti-isti xiffət doğurmur, necə ki, üstündən aylar, illər keçir, həyacan doğurur. Halbuki, gəmi sahildən aralanmışdır, kənar sərnişinlər əl yellədir. Ağa Rəhim ayrılıqdan sonra bu məsələ üstünə dəfələrlə qayıtmışdı, keçmiş arvadına qarşı laqeyd olmamışdı. Hətta yuxuda qadını demişdi ki, o mübahisədə nə üçün mənə yaxın gəlmədin. Mən sənin arvadın olmamışammı? Cavabında: – Çünki, çünki sən inadını yeridirdin. – Bu sözlərdən sonra qadının üzü qızarmışdı, kinli bir hiss boğazını göynədirdi: – Biz ümid yeri nə üçün qoymadıq hə? Mən bacarmazdım, sən isə bunu etməyə borclu idin. Mən sənə bakirəliyimi bağışlamışdım, barı onun xətrinə səhvimin üstündən keçməliydin! İndi mən qərib ölkədə sənin və özümün uşağını bö-

yüdürəm. Görünür, sən də öz hakimliyini mənim üzərimdə sınaqdan keçirmək istəmisən, bunu uğurla başa çatdırdın. Bu inada necə ad qoyardın? Yollarımız ayrılmışdır. Mən o gecəni unutmuşam, əzabları sonradan yaşadım. Amma oğlum tez-tez atasını soruşurdu. İndi böyüyüb, nadir hallarda xəbər alır.

Ağa Rəhim yuxuda qadınının son sözünü xatırladı: "Mən sənin üçün kiməm, sən mənim üçün kimsən? Biz daha bir-birimizi başa düşə bilmirik. Amma sən yeni ailəyə qovuşanda necə?" Və quş kimi uçdu. Mənzil yenə soyuq idi, elə bil evin özünü soyuducuya qoymuşdular. Boğazı qəhrindən xırıldadı, hərəkətsiz gözlərini tavana zillədi və mənasız gülümsündü. Özüylə danışırdı, özünü günahkar sayırdı. Səsi uyuşdurduğu ahənglə çıxır, dodaqları səyriyirdi, səbəbi onun əzablı mübarizədə təslim olması idi? Sifətindən yüksək dərəcədə çatmış gərginlik oxunurdu, hərarətli təbəssüm vardı, yaşla dolmuş gözləri yol çəkirdi...

Ağa Rəhimin təsəvvürüncə qadın bir ömür yoldaşı kimidir, əgər qadın kişinin arvadı ola bilmirsə o, qadın deyil, sadəcə varlıqdır.

**4.**

Xumara xanım bir-iki ay əvvəl özünü xoşbəxt hiss etməsə də, sərbəst, azad xülyasında idi və ona

elə gəlirdi həyatını yoluna qoyur, daha doğrusu, gənc Çapayın diqqətinə düşmüşdür. Ən çox sevdiyi də ona mane olmamaq, acı sözlərə qonaq etməmək, hisslərinə məhdudiyyət qoymamaq idi. Xarici ölkələrə qastrol səfərlərinin təəssüratını qəlbində yaşadırdı, rəqslərindən ağızdolusu danışırdı. Gecələr üçüncü mərtəbədən balkona çıxır, alçaq taburetkada oturur, xoşladığı qara tumdan çırtlaya-çırtlaya küçələrə, onların müvəqqəti sakinlərinə tamaşa edir, hətta duymadığı yeni sevinc hissi onu qoynuna alır, dalğın ürəkli qadın olur. Bəzən yorulur, hərəkətsiz gözlərilə adamları süzür. Gecənin bir vaxtı xüsusi maşınlar dayanır, arxadan qəşəng geyimli xanımlar, hətta 18-20 yaşlı qızlar düşür, əl çantalarını açıb-bağlayır, nəyə görəsə yoxlayır və bloka doğru tələsir: – Hardasa vaxtını keçirir arxayın-arxayın, amma mənzilə gələndə tələsirlər, görünür ya evində uşaq qoyub, ya da ərinin onu gözlədiyinin intizarı üçün belə edir. – Xumara xanım ürəyindən keçirir. – Çılpaq ətli qolundan dişləyən gecə mığmığasını qovdu, qolbaqların boş qalmış yeri qaşındı. – Milçəyin zövqünə bax ey! – Güldü əməlli-başlı və nalçanın altını üstünə çevirdi, sövqü-təbii elədi bunu.

Ətli-canlı qoca bir qadın kişisindən bir-iki addım geridə qalmışdı, ərinə çatmaq istəyirdi. – Cavanlığında, ey qadın, əksinə idi, o, sənə çatmağa cəhd edirdi. Və ürəkdən güldü. Amma xanımlara

məxsus ədası var a! – Arxadan saçını sığalladı, baldırlarını uzadıb qoşalaşdırdı.

Ay hələ bütövləşməmişdi, ulduzlardan çəkinirdi. İşıq Xumara xanımın köynəyinin altından irəli dartınan dik döşlərinə düşürdü. Və paxıllığını gizlətmədən özünü danlayırdı ki, indi onun tənhalığı ilə barışan vaxtı deyil, çarpayıda ərinin "mükafatları"-na qurban gedən saatlarıdı. Məhrumdur, sevgili və heyranlıq duyğuları ölməkdədir. Daxilində anlaya bilmədiyi ehtiras hissiyyatı baş qaldırmışdı, kişi sevgisini etiraf etməyi bacarmamışdı. Çapay isə onu anlamağı özünə rəva görmədi, güman o, mənim dul qadın olmağımdan və onun üçün qeyri-qanuni uşaq doğmağımdan ehtiyat etdi.

Xumara xanımın son qərarı təxminən bu ovqatda idi və ayağa qalxdı. Həyəcandan, təlaşdan pörtmüşdü. Çarpayısına uzandı, döşlərini örtən büzməli ağ paltarını könülsüz geyindi.

Xumara xanımın nəfəsi töyşüyür, "ah" nidası ilə fışqırır, gözlərini qaldırıb istehza ilə gülümsünür, əllərini sinəsinə sıxır, tez yuxuya getməyi arzu edirdi. Çün, daxili əzab dolu xəyal onu qıdıqlayır, məzələnir, naməlum bir kişi ondan şəhvət tamahını ayırmır, dəhşət əlaməti silkələyir. Və Xumara xanım çarpayıdan düşdü, örtdüyü pəncərəni içəri açdı. Tratuara söykənən, binanın tikilməsindən əvvəl əkilmiş, ucaqlmış qovaq ağacının atlas yarpaqları bu

Ayın işığında (daha da nurlanmışdı) çapalayır, bu işıqdan qorunmaq istəyir. Bir-birini bu gecədə qucaqlayan budaqlar isə yuxuya getmiş, arabir yarpaqların öpüş səsinə oyanır. Təravətli sərin meh axır, çıxmağa yer axtarır.

Xumara xanım vaxtilə ərində bu qayğını görmək ümidilə yaşamışdı, geniş üfüqlər qarşısında açılmışdı və ərini sevmək hissini özündə aşılamaqda idi. Bu gün isə o xəyal yalqız həyatını izləməkdə idi. Elə bu mənzildə, bu mərtəbədə başı üstündə duran nəhayətsiz göy qübbəsi, bu aylı gecə, parlaq ulduzlar ona təzyiq göstərən qüvvəyə çevrilirdi, əsrarəngiz heç nə yox idi. Həyatının beləcə davam etməsi onu heyrətə gətirmişdi, darıxdırmışdı, baxmayaraq ev həminkidir, qəndillər parlaq nur çiləyir, televizor daha çox vəhşi heyvanların bir-birinə sədaqətini göstərir, balalarına nəvazişlərini nümayiş etdirir. Belə çıxır ki, elə bu otaqda yaşa dolacaq, qocalacaq, ürkək qarıya çevriləcək, mənəvi əzab onu buraxmayacaq. Fərəhsiz illərini yaşamağa məcbur olacaqdır. Halbuki, bir zaman qəlbi şad ümidlərlə dolu idi, nazlı qadın idi. Və o:

– Hələki fiziki dəyişikliyim yoxdur, – deyib yatağına girdi.

Səhər vaxtından əvvəl oyandı, yatmağı qərara almışdı, işə gec çıxacaqdı, hazırlıq üçün məşqlər nahardan sonrayacan yığılmışdı. Bədii rəhbəri Mədə-

niyyət nazirliyinə iclasa çağırmışdılar. Bu məqamlarda, yerində qurcalanır, ağappaq nazik yorğandan sol qılçasını çıxarıb, partlaşıq saçlarının əksini güzgüdə "ovlayırdı". Köynəkdən dartınan sıx döşləri yumşalmışdı, yanmış kəpənək qanadları kimi titrəyir, solmuş çiçək ləçəklərini yelpizləyirdi.

Zəng fasilə ilə iki dəfə səsləndi. Ərindi telefona getsin, üçüncüdə ayaqlarını çarpayıdan sallayıb əlini uzatdı, dəstək ovcunda idi, "alo", "alo", "alo" – üç dəfə səsləndi, kişi səsiydi. Qulağında bir neçə saniyə saxladı. Səs kal olduğu üçün tanımadı.

– Xumara. – Xanımsız. – Yuxudan elədim, eləmi? – Xumara xanım. – Səhvini düzəltdi. – Kişinin dili hisə bulaşmışdı, kəkələyirdi. Axşamdan açıq qalmış laylı pəncərədən səhər küləyi çığıran uşaq səsini çıxarırdı, bu da sözlərin aydınlığını pozurdu.

Xumara xanım bükmə stulda əyləşdi. Telefondan çıxan səs qovuşmuş mərmi kimi döşəməyə dəyirdi. Yuxulu qulaqları ilə qulaq asırdı. O adam idi. Cəmi-cümlətanı üç dəfə telefonda danışmışdı, görüşləri isə bir dəfə baş tutmuşdu. Dodaqları qəfil zəngdən büzüldü. O adam ilk söhbətindən hələ görünür ki, münasibətləri davam edərsə, qəlb aləmində həqiqi, qüdrətli və əbədi varlığı ölməyə qoymayacaqdır. Həyatın cazibəsinə uyub bir qadın olaraq onu yoldan çıxarmaq niyyətinə düşməmişdir ki, az sonra yaş əski kimi onu kənara tullasın. Hələki için-

dəki hisslərini zibillə doldurmamışdır, özünə və rəqslərinə vurulduğu qadını ruhunda, canında yığılan duyğularını heçə endirmək məqsədi yoxdur.

Təcrübə başqa nüansları da diqtə edir və alışdırır, saysız insan istəkləri əmələ gəlir və bu, fasiləsiz öz ovunu axtarır, amma bu, hansı yazılmamış qanunlarla idarə olunur – öyrədilir. Kişi ehtirasları xüsusilə, ağırlığı öz üzərinə alır. Və... suallar doğulur: "Mən nə üçün qadını aldatmalıyam, ötəri ehtirasım naminəmi?" Suala cavabı Xumara xanım gecə yatağında ikən axtarıb tapmışdı: Kişilər belə işlərindən dəhşətə gəlmişdi, onları Allah-Təala kişi yaratmışdır, bəzi şeylər onlara ayıb sayılmır. Sirli qüvvələr onları təmizə çıxarır. – Xumara xanım O adama yaxınlığının bütün ağırlığını öz üzərində hiss edirsə və onun varlığına inanırsa, bir kişi olaraq gözəlliyi, atdığı addımın mənasını başa düşərsə, mənəvi həyatının ağır keçməsinə şərait yaradarsa, onun tutduğu bu işlər həqiqətə zidd çıxmaz, qadın istəyinə haqq qazandırar. Dünyanın bütün kişiləri və qadınları yaxınlıqdan üz çevirməmişlər. Kişilərdir qadınları eşqə düçar edənlər, amma hər iki tərəf nə üçün istədiklərini anlamalıdı. Xumara xanım hər halda lazım olan çox şeyi başa düşmədən, xəyalına inamından ərə getmişdi, çox-çox çətinliklərə tab gətirmişdi, dözmüşdü ki, ona arvad olmuşdu. Boşanma Xumara xanımda kişilərə qarşı nifrət də yaratmışdı: onları ko-

bud, səliqəsiz, hissiz, öz mənafelərini güdən cins kimi qiymətləndirmişdi. Ərli ikən bir dəfə bir oğlanla söhbət etmişdi, tamaşaçı idi və bir dəstə gül hədiyyə vermişdi. Oğlanın cəngavər görümü, səmimi gözləri ona xoş təsir bağışlamışdı, bir daha onunla rastlaşmamışdı. Son qismətinə düşəcək isə Çapay idi...

Xumara xanım əzəldən elə də sədalövh deyildi: insanın nəyə qadir olduğunu, kainatın qübbəsində nələr baş verdiyini, kişilərin lazım gələndə kələkbaza çevrildiyini dərk edirdi. O, Çapayla görüşlərində, yalnız söhbətlərində başqa bir Xumara olurdu, xanımsız – filansız. O, münasibətlər aləmində hərlənir, qəlbinin hərarətini ona vermək vədini gizlətmir, gözəllik hisslərini ona qurban edəcəyinə, əminlik hasil edəcəyinə belə hazırdır – pıçıldayırdı. Amma sonra peşimançılığını çəkməli oldu ki, bu hərəkətlər yalnış imiş... Xumara xanım üçün təhlükə ötmüşdü və O adam qarşısına çıxmışdır: bu qarşılaşma hələlik böyüməmişdir, hadisəyə dönməmişdir. Axı ən zəif hadisələr ən güclü hadisələrə səbəb yaradır. Axı yırtıcı heyvan öz yarasını yalamaqla sağaldır. Axı nəhəng ağacların düyməl əri açılanda soyuq küləklər əsir. Qəribəsi odur, aşiqlər buna inanmaq istəmirlər.

Telefonda ciddi mübahisə yox idi və ilk görüşün mövzusu olan söhbətin izahı gedirdi: bir tərəf yozurdu – o biri tərəf həqiqəti söyləyirdi. Amma cansıxıcı ovqat yaranmamışdı. O adam istəmirdi soyuq və çı-

xılmaz, ümidsiz və qətiyyətli mənzərə alınsın. O adamın nə yaşı azdı, nə də təcrübəsi, kifayət qədər surətpərəstlik hissi qazanmışdı. Belə situasiyalarda faydalı, xeyirli şeylər barədə mühakimə aparırdı, ən yüksək əxlaq sahiblərinin əsərlərini oxumuşdu, "dərs"lər alımışdı. O adamın hamar başı, soyuq gözləri, qarmaq burnu vardı. Üzünün sol yanı azacıq şişmişdi, ağzı yana baxırdı. Görüşə gələndə sifəti bozarmışdı, gözləri ağarırdı, tələsdiyindən yanını basa-basa gəlirdi, sanki uça-uça vurduğu quşu itirəcəyindən qorxurdu. Səsi yuxudan kal oyanmış adamın bariton səsini andırırdı. Xumara xanımın bu şəxs haqqında ilk təəssüratı belə oldu: – Yaxşı insandır!

## 5.

Aytac, eləcə də başqa cavan rəqqasələr püxtələşir, səhnələrə ayaq açır, yad ölkələrdə milli və ümumi qəbul olunmuş rəqsləri nümayiş etdirirlər. Bu, onların özəl həyatlarından sosial həyata qovuşmasıdır; sənətlərini o zirvəyə qaldırmalı ki, sabah arenanı tərk edəndə peşimançılıqla üzləşməsinlər, əhval-ruhiyyənin "sabahını"n peşimançılığını çəkməsinlər. Səbəblər çoxdu, məsələn: rəsmi titula layiq görülmək, madiyyatca təmin olunmaq, gözəlliyindən bəzi əlamətləri saxlamaq, ailə qurmaqla itirməmək. Sonuncu son ruhi dayaqdır.

Sənətdə: dahi rəqqas ustadı, təkrarsız Əlibaba Abdullayev və Əminə Dilbazi irsindən bəhrələnmək. Nəhayət, sələflərindən dəyərləri “yığan” Yusif Qasımovun bir üstünlüyü onda oldu – təqdir edildi – rəqslərin nəzəri nüanslarının şərhilə bərabər, xüsusilə, rəqqasələrin ovqatını qorumağı, bədən sisteminin ahəngini saxlamağı və toylara ifrat ayaq açıb şabaşa uymamağı ön plana çəkmişdi. Və belə “öyüdlər” havadan asılı olmurdu.

Əvvəllər Xumara xanım bədii rəhbərin quruluşuna və hazırlığına diqqət kəsilmirdi, az-çox təcrübə görmüşdü, ustadlar da həmçinin. Gizlətmir: o, qibtə də yaşamışdı, kişilərlə məzələnmişdi – ip atsalar da boşa çıxmışdı – toylarda kişi qarşısında nazlanmışdı. Pullar qazanmışdı, ərə getmişdi və oxuculara bəlli olduğu üçün vaxt ayırmağa ehtiyac qalmamışdı.

Gənc Aytacla Rəqsanəyə – onlar çox istedadlı qızlardır, yad oğlanın evinə gəlin getməmişlər, əlbəttə, bu tale yolu onları səbirsizliklə gözləyirdi.

Bu iki rəqqasənin başı bəlkə də qovğalarla üzləşəcək – bunu həyat göstərər. Bədbəxtliyi də, xoşbəxtliyi də Allah-Təala göndərir, insanın borcu isə hər iki “göndərişi” necə qarşılamaqdır. Rəqsanənin yeniyetməliyindən yadında qalan bir şey yoxdur, hətta bir qıza iki-üç oğlan – şagird “müştəri” çıxanda onun gözləri yolda qalırdı, hirslənirdi və dişləm-dişləm olurdu dili. O, yaşına uyğun gözəl, seçilən mək-

təbli idi, amma dəlisov oğlanlarla oynayırdı, yeri gələndə çöl arısı kimi sancırdı. Dərs vaxtına qalmış, orta küçəyə baxan evlərindən həyətə düşür, qızıl söyüddən hörülmüş çəpərə söykənir və sinif yoldaşlarını gözləyirdi. Nədənsə ağacların tökülən yarpaqlarına sükutla baxmağı xoşlayırdı... Anası Rəqqasəni əzizlərdi və düşünərdi ki, qızım böyüyür, özünü dəyişdirir, oxumağın dalınca gedir. Lakin ana ağlına gətirə bilmirdi ki, bu mürəkkəb həyat da qızı aldadacaq, yaxud aldanacaq. Analar ikinci barədə heç zaman fikirləşmək istəməmişlər. Ana onu kəsdirdi: "Qızım sevdiyinə qovuşsun, oğlana nifrət eləməsin..."

İşə bax texnikumda oxuyanda ona bir oğlan sevgisini bəyan elədi. Rəqsanəyə namünasib bir gənc: Arıq uzun, kobud, kürəklərinin sümüyü pencəkdən çölə dartınan. Pırpızlı saçlarına daraq batmaz – baxan – bu görüşə şübhə eləmişdi.

Rəqsanə ilk dəfə belə halla qarşılaşdı və cəsarətə gəlib oğlanı məktəbin həyətindən qovdu, bu işdə rəfiqələri də həyan çıxdılar, oğlanı rədd etmək tək onun işi deyildi... Amma oğlandan tələsik yazılmış (qovulanın səhərisi başqa birisiylə göndərmişdi) məktub yadigar qaldı.

Hazırda Rəqsanə Mani dövrünü yaşayır: hərəkətlidir, özünü xoşbəxt hiss edir, bəzən bənizi solur. Ruhdan düşmür, həyatına nikbincəsinə davamlıdır. Çapayın "güzəştindən" sonra özünə qayıtmış, daha

çox mütaliəyə vaxt ayırır, hadisələri intellektual zövqdən duymağa çalışır, hətta ətrafına bu hissi aşılamaq istəyir.

Məşhur bir rəqqasənin tərcümeyi-halında oxumuşdu ki, az yatırmış – özünü gümrah hiss etmək üçün. Sənətdə öz yerini tutandan sonra rəqsdən, onun sehrindən soyumamalı, daima təsəvvüründə canlandırmalıdır, yəni "layihələr"i düşünməlidir, qazandığı pullardan israfçılıqla xərcləməməlidir. Bu yerdə Rəqsanə Çapayla məsləhətləşdi ki, onun ayağını toy-şənliklərinə açsın və ilk uğuru alındı, hər kişinin qabağında belini sındırır, sinəsində qızıl medalyonu bütöv Ay kimi titrəyirdi. Həyasız məstixumar kişilər göy əskinazları oraya dürtdü, o isə dərhal başqa stola adlayırdı.

Çapay vurğuladı ki, tamaşaçılarla ünsiyyət yaratmaq zəruridir, amma yaranan şayələrdən qəti ruhdan düşməyəsən, çünki bizim telekanalda "qızışdırmağa" aparıcılar son dərəcə peşəkardılar...

Bu gün Rəqsanə şahzadəlik dövrünü yaşayır, bədənində yorğunluq, süstlük duymur, kişiyə ehtirası azalmır, rəqs etməyə tənbəllik göstərmir. Boğuq və qəzəbli çığırtılardan qaçır, hönkürtüyə oxşar qəmgin səs eşitmək istəmir. Bəzən ovulmuş qızılgülün qoxusunu ürəyi istəyir, çarpayısından yovşan qoxusu gələndə daha tez yuxuya gedir...

Aytacı sənətində elə nöqtələr düşündürürdü: rəqs hərəkətləri onun duyğularını tamamlasın, bir sözlə, rəqs incəsənət əsəridir, onun hər bir səhifəsi elə oxunmalı ki, rəqqasə məğlub olmamalıdır, amma elə rəqs var – şəhvanilik enerjisi almalısan. Tərəf – müqabilin kişi olarsa o, sənin üçün güzgü rolunu oynayır, baxıb özünə heyranlığını oxutdurmalısan – bu, ruhu vəziyyətin bir əlamətidir. Lakin şəhvani aqressivliyə yol vermək olmaz, görmə dünyası kifayət edir.

**Aytacın təəssüratından:** – Mən – özüm yaşda kişiylə rəqsə başladıq, o, kollektivə yenicə gəlmişdi, boyu məndən təxminən 10-15 santimetr ucada dayanırdı. Əvvəlcədən bilirdim onunla çıxacam səhnəyə, məlumatım isə yox idi, bu işimi çətinləşdirə bilərdi.

Söhbət edirdik, o, bir işçi kimi danışır, suallarımı cavablandırırdı. Belə atüstü dialoqumuz etik səviyyədə gedirdi, o isə utanır, pörtürdü. Ona dedim ki, alış mənə, biz eyni rəqsdə oynayası olsaq məni sevdiyini yaşamağı bacarmalısan. O, güldü və “Mən kimsəni sevməmişəm, sizi necə?” – Üzünü kənara çevirdi.

– Unutma, rəqsdə tərəflər bir-birinə məhəbbəti və mərhəməti büruzə verməzlərsə, alınmaz, – dedim. – O məqamlarda hər iki rəqqas gözəl və məchul dünyanı sevir.

– Mən başqalarının fikirləri əsasında hərəkət etməyi xoşlamıram, amma eləsi tapılır özgəsinin düşüncələrindən "ağıl oyun"u kimi istifadə edir.

O, görünür, sərt münasibətimi duyub fikrini yumşaltmağa çalışdı, "ancaq qadın hissi vasitəsilə özünü sevdirə bilsə, razılaşaram" – astadan dedi. Gözlərinin həlqəsi işıldadı və yorğun gözlərini qapadı, kiprikləri çapaladı bir neçə saniyə. O, çiçək kimi açılmış, dolğun və sağlam gənc kimi yaxşı müsahib olacağına qabaqcadan zəmanıt verə bilərdi mənim aləmimdə.

– Məsələ "özgəsində", yaxud "başqasında" deyil, sən həyatda öyrənə bilməyəcəyin nüansları axtarıb tapmalısan, – pıçıldadım, onun gözlərində şübhə ifadəsi donub qalmışdı. İkrah hissi çəkilmişdi.

– Rəqs edəlim, Aytac xanım, baxarıq, hər halda qısa söhbətimiz faydasız olmadı. Olmayan şeyi görməmək mümkünsüzdür.

Onun son sözləri məni yerimdən oynatdı, əsəblərimi cilovladım. Və bağça tərəfə açılan pəncərənin qabağında durdum. Ağaclar günəşin işığını kəsmişdi, gün vurnuxurdu. Mən onu fikirləşir və qərarımı verirdim ki, bu cür duyğusal hallar, özünü sərbəst, bir qədər də eqaist hiss etmək əhvalı impulsiv davranış yaradır, səbəb olur, ilk rəqsdə mən bu halı hiss edərəmsə, ondan rəqqas alınmayacaq. Görünür, bədii özfəaliyyətdə, toylarda atılıb-düşüb, elə təsəvvür

yaranıb əla rəqqas çıxar. Və bir gün. Tərəf – müqabili oldum...

Sonra ikilikdə rəqsimizi bədii rəhbərlə müzakirə etdik, fikrimi mənfiyə əsaslandırdım:

– Səninlə heç cürə uyuşmağı bacarmadım. Mən “Məhəbbət rəqsi”ndə səni sevdiyim, narın göz yaşımı təlqin etdirmək üstə köklənmişdim. Sən özün üçün əl-qol atırdın. – Sonuncu sözüm kəskin çıxdı.

Bədii rəhbər, hansı ki, quruluşu özü vermişdi. Narazılığı dərhal oxunurdu.

– Cavan oğlan. – Səsində etiraz ahəngi vardı. – Bu rəqsdə bir məqam var, nə üçün onu tutmadın, məşqlərdə sənə çatdırmışdım: oğlandan müsbət reaksiya görməyən məşuq o hala çatır, sanki özünü intihar edəcək, son cavabını gözləyir aşiqindən. Sən bu məqamlarda tərəf – müqabilinə sevincli, ümidli duyğuları bəxş etməlisən, onu kədərdən, qəzəbdən xilas etməlisən.

Aytac üstündən üç il keçmiş həmin mənzərəni xatırladı, əvvəl iztirabı ilə üzləşdi, sonra özünə haqq qazandırdı.

Cavan rəqqas öz ərizəsilə işdən azad olunmuşdu.

Aytac hey gözü ilə axtarırdı, bəlkə rastlaşar, harada işlədiyini öyrənər...

Aytacın bütün rəqsləri uğurlu alınmamışdı, sənətin psixologiyası belə olur: büdrəmələr və uğurlar, qabarmalar və çəkilmələr. Dəniz də, Okean da belə

xasiyyətlidir. Tamaşaçılar vəcdə gəlir, hay-küy salır, sonra susurlar.

**Aytacın təəssüratından:** – Əvvəlcə, məşqqabağı quruluş rəhbərilə hesablamışdıq, rəqsin fəlsəfəsində riyazi dəqiqlik dayanırdı. Gözləmədiyim halda öyrəşdiyim rəqqasla çıxdım. O adam "yelbeyin" təsir oyadırdı, amma usta idi, olur bəzən, sən də reaksiya doğurmayacaq – düşünürsən, ancaq başqa mənzərə alınır: Oğlan rəqsdə büdrəməmək üçün özünə dartırdı, az sonra boşalırdı, ona görə ki, diqqəti rəqqasədən yayınırdı. Beləsi sonra sənlə oturub "mırt" vurmaq üçün yarayır. Nə desə yaxşıdır: "Əla rəqs edirsən" – "xamın" qiymətidir. "Həqiqətən, peşəkar rəqqasə olmaq başqa şeydir. Bir cavan rəqqas heç vaxt oynayanda özünü "düzəldə" bilmədi. Mən ehtirasımı ortaya qoymuşdum, o isə yəqin ki..."

Həmkarım dilləndi: – O oğlanı deyirsən, o, heç kimi görmək istəmirdi rəqsdə, başı yerində idi, amma ayaqları yox. – Yaxşıca güldü. – Amma fəndlərin yerini bilirdi, ancaq ustad deyildi.

Aytac hələ təəssüratdan ayılmaq istəmirdi, o isə nə düşündüyünü özündə "qərarlaşdırmamışdı". – Bu dəmdə qız necə də məharətlə oynayırdı! Ansambl "Mirzeyi"ni çalırdı, solğun və təravətsiz səs çıxarırdı. Rəqqasə dueti "oyun" çıxarırdı, çırpınırdılar. Rəqqasələr foksuz-filansız ləkəsiz yer axtarırdılar. Vay foksdan çıxan məmurlara!

Qız oğlandan ayrılcaq – rəqsdə bu məqam bir neçə dəfə təkrarlanırdı – atılıb-düşürdü, artıq hərəkətdi: yanbızları əsirdi, baxanlar hayıl-mayıl olmaya bilməzdi. Oğlan tamaşaçılar ayaq üstə rəqqasəni alqışlara tutur, ayrılmaq istəmirdilər.

Digər rəqqasə qız pis oynamırdı. Sözümün bir canı odur ki, rəqqasənin bədəni skripka kimi canlı şeydir – onu çalan kişi tərəf – müqabilindir, o da mahir musiqiçi olmalıdır. Amma kişiləri də ciddi günahlandırmağa dəymir: rəqqasənin barmaqlarından tutur, əlinə gələn sanki ölüvay bir şeydir, istisi-filəni yoxdur, yaxşı kişi həmin rəqqasənin nə etmək istədiyini əsla anlamır. Rəqqasə xanım soyuq olmamalıdır, daş kimi dalısınca sürüməməlidir. Baxın Əminə xanımın, Roza xanımın, Afaq xanımın, Məryəm xanımın rəqslərinə, kişi rəqqasın nə duxu onlara yavuq gəlməsin, özündən asılı olmadan, əllər havada, ayaqlar barmaq üstə, bədən titrəyir “sevdiyi qız üçün, ona yaxınlaşıb söhbət etmək ürəyindən keçir! Şərqdə oynamaq, yəni rəqs etmək başqa nüanslarla bağlıdır, gənclər bilsin, tarixinə varsın. Şərqdə, yəni bizdə rəqqaslar səhnədə məhəbbətə həm cismani, həm də ruhi ünsiyyət kimi yanaşırlar, mövcud vəziyyətini unudur, ona görə də kişilərimiz əlli yaşında da şux qalırlar, pedaqoqluq eləyirlər 60-70 sinində. Təəssüf ki, elə cavanlığında səhnəyə böyük istedadla gələn kişi şöhrət azarına tutulur, içkiyə qurşanır

və sairə. Beləsi çoxdur. Mənə qalarsa Şərqi daha çox üstün sayıram. – Bu sözlərdən sonra Aytaca sual oldu ki, nəyi nəzərdə tutursuz? Cavabında dedi ki, intimliyi, şəhvaniliyi. Bu əlamətlərdir qadın və kişi oyunlarını canlandıran. Belə məsələlərdə çinlilər və hindlilər daha irəli çıxmışlar.

– Təkcə çinlilərmi? – İkinci sual yarandı.

– Mən özümüzü də o sırada görürəm. Xüsusilə, ruhi ünsiyyət!

Daha üçüncü sual ortaya atıldı, daha kəskin.

Aytac bu sualı gözləmirdi, lakin filosoflardan xəbərdardır, ustadı deyirmiş ki, rəqs sənəti atdanıb-düşmək deyil. Mən hələ də onun fəlsəfəsini mənimsəməyə bilməmişəm. Rəqqasələrə vaxtilə, əsrlərcə qabaq kahinlərin, hersoqların, fironların güclü meyl etməsi təsadüfi deyil. İngiltərədə Kraliça Viktorinanın dövründə, yəni hakimiyyətində sərt əxlaq qaydaları varmış, tarixçilər "viktoriançı" adlandırmışdılar. O, rəqsdə də bəzi qadağalar qoyubmuş: intim – şəhvanilik elementlərinə qəti yol vermək olmazmış. Daha rəqsdə nə qalır? – Ustadım üzünü bizə tutdu. – Siz deyin. Mən bir qadın olaraq bədənimi cismani yox, ruhi cəhətdən tərəf – müqabilimə bağlamasam, eləcə də kişi tərəfim – tamaşaçıya qalan nə olar? Atdanıb-düşmək? Toylarda bu hərəkəti kimdir etməyən?

Sonralar “viktoriançı”lar əxlaqçılar yetirdilər, daha sərt normalara üstünlük verdilər, bu isə, ifadəm üçün çox-çox üzr istəyirəm: fahişəliyə gətirdi!

Mən özümü saxlamağı bacarmadım, oxucuma bir filosofdan (adını unutmuşam, gör neçə illər keçibdir), iqtibasdan yadımda qalan sözləri dedim: “Fahişəlik olmasaydı nə bizim ailələrimiz müqəddəs sayılardı, nə də xanımlarımızla qızlarımız məsum olardı”. Ustadımız yerindən dik atıldı:

– Ay qız, sən nə çox bilmişsən! Bu, hamımız üçün dərs olmalıdır. Rəqqasə qızlara, xanımlara da “müştəri” bollucadır. – Sözlərindən sonra fikrə getdi və: – Mənim də başım çəkibdir, – dedi. – O adam bir il dalımca süründü, mən onu rədd etdim.

Ustadım elə bil mənim müdaxiləmi gözləyirmiş.

– Mənim qorxduğum budur.

Xüsusilə, qəşəng, mütənasib bədənli, yetkin baldırlı rəqqasələri yoldan tez çıxarırlar.

Aytac iqtibas gətirdi, mən psixoloq Freydin fikrini çatdırıram, dahi alim yazmışdır ki, bizim şüurumuz bizim düşüncələrimizi sıxışdırır, buna görə də onlar bizim altşüurumuzda özlərinə yer eləyib qorunurlar. Çox heyif ki.

Ustadımızın halı dəyişilmişdi. Mən özümü danladım, nə lazım idi mövzunu qüvvətləndirim.

– Çox təəssüf ki, “qədim peşə” sahibləri cəmiyyətin altşüurunda qorunub saxlanılır.

Aytac verilən sualın üstündən keçmədi və cavan rəqqasın əxlaqını az-çox təsəvvüründə canlandırdı müsbətə:

– Fahişəlik göydən düşməmişdir, başlanğıcda belə qadınlar çoxtanrılıq məbədinin kahinləri olmuş, o dövrlərdə onlara böyük qayğı bəsləmişlər. Maraqlısı o imiş ki, belə qadınlar kişilərin istəklərini ödəməklə bunu tanrıya xidmət kimi sanmışlar. Kişilər isə kahin qadınlarla yaxınlığı özlərinə başucalığı hesab etmişlər.

Aytacın boğazı qurumuşdu, mövzunu bəyənmişdi, cəmiyyətdə bu sənətin xanımlarının adları imkanlı və vəzifəli kişilərin ünvanında hallanır.

O, üzünü oğlana tutdu, "sözün varsa çəkinmə" demək istədi, oğlan dərhal anladı:

– Deyəsən çox danışıram. – Gülümsündü. – Keyrin Meyonun çox nadir tapılan kitabı çapdan çıxmışdır XX əsrdə, "Ana Hindistan" adı ilə. Belə pis adətin, vərdişin yaşaması, bu ölkəni günahlandıran peşənin mövcudluğunu göstərir. XXI əsrdə bəzi ölkələrdə azalmaqdadır. Bu gün qadınların bu bəd, iyrənc peşədən başqa yollarla da özləri üçün iş tapırlar, dolanacaq mənbəyi hesab edirlər. Məgər onlar kişidən zövq alırlar?

Sual qapalı qaldı.

## 6.

Dan yeri ağarmaqda idi, hava aydınlaşırdı, ulduzlar o başdan “qovulmuşdu”, meşəqırağı açıq və daz yerlərdə çobanların axşamdan qaladıqları tonqalların sönməkdə olan işartısı gözə dəyirdi. Bir azdan buludların altından günəş boylanacaqdı, şəfəqləri otların, iynəyarpaqlı ağacların şehli yarpaqlarını qurudacaqdı.

Mal-qaralar çayqırağı kəndlərdən çölə buraxılır, qoyun-quzular itlərin müşayətilə öz otlaq yerlərinə tələsir.

Günəş qalxmışdı, çəhrayı-sarı şüalarını səpələməkdə idi və bu mənzərəni meşə tamamlayırdı. Meşə üfüqdə bir xətt kimi görünürdü. Duman çöksə də günəş şüaları onu əridirdi.

Meşə sakit və sərindi, budaqlarından qopmuş yarpaqlar torpaq üstə vurxunurdu, cır və çürümüş meyvə axtaran quşlar eşələnirdi.

Uzaqdan çəkmələrinin dabanlarını qarnına sıxan bir adam hirslə dəhmərlədi, at yerindən sıçradı və başını havaya qaldırıb fınxırdı. Kişinin başı və çiyinlərinə qısılmış peysəri göründü.

Ata orada gümrahlaşmışdı, hətta Bakıya qayıtmağı qərarı vermişdi, amma həyat yoldaşı yanında iki həftəyəcən qaldı, öz təkidilə: “Aytacı tək qoyma” – iradəsilə yola saldı.

Kənd həkimi günaşırı onu yoluxurdu, nə lazımsa edirdi: “Evdə oturmaq sizi ağırlaşdırır” – məsləhət görürüdü. – Ata əmi, siz elə yaşayıb işləmisiniz... Biz həkimlərin də nəzəri və praktik işlərimiz var. Yaşamaq o göydəki Tanrının arzusudur, O ilahi gözəgörünməz varlığa heyran olmalıyıq. Yaşamaqla Ölüm mübhəm düyünlərin və açılmaların əbədi fırlanmasıdır. Yeyin atlı çaparlar da haradasa dayanır. İnsan iradəsi qarşısında hər şey acizdir, budaqlar möhkəm olsa yarpaqlar torpağa tələsməzlər.

Ata bu “öyüd”dən – ürəyində belə adlandırmışdı – sonra təbəssümlə dilləndi:

– Saralmış yarpağa budağın gücü çatmır, mütləq yerə – əbədi məskəninə qayıtmalıdır. Siz cavanlar! – Köks ötürdü və balkona çıxdı, həkim də onun dalısınca. – Sabah başmaq seyrinə çıxmağı planlaşdırmışam, həkim.

Otaqdan bacısının səsi eşidildi:

– Çay süfrəsinə gəlin. – Onları çağırırdı.

Qayıtdılar, bacısı fərəhlə məlumat verdi:

– Axşam. Mahnı və Rəqs Ansamlının konserti olacaq, Aytacı görə bilərik.

– Nə yaxşı! – Ata çayı yarımqaynar içdi, limonu unutmuşdu. Bir dilimini həkimin stəkanına saldı. – Hələ gec deyil, – astadan dedi.

O biri otaqda səssiz və yüngül addımlar döşəmədə gəzirdi, diqqətdən yayınmadı.

– Bacıoğlumdur güman. – Ata sevindi və oturduğu yerdən uşağı səslədi. – Tapdınmı?

Bacıoğlu içəri girib kənardan salam verdi və əlindəki karton qutunu yerə qoydu:

– Gizlizləridi, – dedi. – Sonuncuya çatdım. – Hələlik, bəs edər...

Dan yeri sökülmüşdü. Təpə çaydan çox aralı deyildi. Ata istədi əvvəlcə təpənin yamacında dirsəklənib otursun. Səs telləri xarablaşmışdı, amma cır çıxmırdı, uyğunsuzluq yox idi. Daxili aləmində baş verənlər, gəncliyinin arxada qaldığının həqiqətinin ağrısı son illərdə insanlığın amansızlıqla üzləşməsi və laqeydlik, ətrafa çökmüş həzinlik onda ümidsizlik oyatmışdı. Üzündə süstlük vardı, gözləri boşalmışdı, ağlamamışdı, amma qurumuşdu. Bulud topları havadan asılı qalmışdı. Yaşadığı hər bir günün öz tale yükünü daşımışdı – məcbur olmuşdu. Çünki duyğulara yad deyildi, fərəhli hisslər hay-küylə ötmüşdü. Bu palıdlı, qarağaclı, fıstıqlı, qovaqlı, şamlı meşədə, onun azad və səs-küylü qoynunda ov eləmişdi, hövsələsiz coşqun gənclik həyatını yaşamışdı. Köhnə duyğuların sabitliyi sönüb getmişdi. Son aylarda onun içində məhv olmuş, sona tələsən bir həyat çırpınırdı.

Ayağa durub tüfəngi çiyninə keçirdi. Göydə, çay suyunun qaçıb gölməçələr əmələ gətirdiyi qamışlıqda su cüllütləri, qaşqaldaqlar, kiçik ördəklər

məskən salmışdı. Onların başı üstündə, göyün üzündə cəmdək yeyən çalağan uçurdu. Bu iri qanadlı quşun diri quşlarla işi yox idi, təbiət də onu beləcə yaratmışdı. Diqqətlə baxır, nəsə fikirləşirdi, bəlkə də ölmüş canlını rahat buraxmayan bu yırtıcını atəşə tutmaq istəyirdi. Tüfəngi ayaqda idi, çalağan xeyli yuxarı qalxmışdı, nişan aldı, gözü qarşısında solğun işıq ləkələri oynadı və fikrindən döndü. İlk dəfə həyat istəyilə dolu gözlərinin parıltısının söndüyünü hiss elədi, ürəyi inkar hissiylə doldu və pıçıldadı: – Budaqsız ağacların kölgəsi olmaz.

Ata o günü – çobanla rastlaşdığı vaxtı xatırladı, yeri bələdləşmişdi, ağır addımlarla, amma ov həvəsiylə gedirdi. Bildirçin, turac, qırqovul qəfil partlayıb havaya qalxır və canını qurtarırdı. Ata belə çətin məqamlarda məharətlə atırdı. Bu dəqiqələrdə turac beş-on addımlığından “pırrr”la qanadlarını şappıldatdı və süzdü. Ata atdı, amma... Turac nöqtəyə döndü, gözdən itdi: – Nə yaxşı güllə dəymədi. – Bərkdən çıxdı səsi. Və tüfəngi yana saldı. – Mən həvəs ucundan səni öldürəcəkdim, sənsə yaşamaq istəyirsən. Bu da biz insanların mərhəməti.

Səsi titrəyirdi. Dodaqlarında gərgin təbəssüm donmuşdu.

Qəfil ayaq saxladı, o yer ocağı sönmüş, daşları hisdən qaralmış xırdaca məkan idi. Elə bil o gündən bura ayaq dəyməmişdi. Çömbəlib daşı qucaqladı,

tüfəngin lüləsilə çör-çöpü qurdaladı. İri bərk yulğun budaqları, qurumuş ağaclar yanıb külə dönmüşdü. O gündən qalan nə idi? Susmuş füsünkarlıq onu kövrəltmişdi, amma iradəsinə qalib deyildi. O, bir də, bir neçə dəfə doğma yerinə baş çəkəcəkdi, çobanların qonağı da olacaqdı.

Ocağın kənarlarında qonur xəzan yarpaqları sarı ölü yarpaqlara qoşulmuşdu.

Ata geri qayıdırdı. Meşənin lətafətli mənzərəsi bir haşiyə kimi sakit məhəbbətə bənzəyirdi.

Ata darıxdı, nahar yaxınlaşırdı. Bacısına yarpız dovğası bişirməyi tapşırmışdı. Həyətə girəndə özündə yüngüllük hiss elədi, elə bil meşədə gəzməmişdi, gümrah əhvalı ilə paltarını dəyişdi, yuyundu və aynabəndli artırmada oturdu. Mobil telefonu ilə Aytaca zəng atdı. Xatırladı ki, bu saatlarda onlar məşqdə olurlar. Məşq qurtarmışdı: Bədii rəhbər əsasən Xumara xanım, Aytac və Rəqsanə üçlüyündə məşğul idi neçə gündü. Yeni rəqs vardı, özü quruluş vermişdi – rəsmi tədbirdən sonra bir rəqs nömrəsi oynayacaqdılar. Rəqsə kişi obrazı daxil edilməmişdi. Alınırdı, Yusif Qasımov razı qalırdı məşqdən sonra. Və bağa gedirdi birbaşa.

Rəqsanənin kefi yuxarı idi, sözlü adam həyəcanını gizlətmirdi. Məşqin tez başa çatmasının intizarını çəkirdi. Bu hissi Xumara xanım duydu və ərklə, özünə inamla dedi:

– Rəqsanə, sözlüsən, ancaq ürək eləmirsən nədənsə!

Rəqsanə tutuldu, alnında tər tumurcuqlandı: geriyə yer yox idi və Xumara xanımın sözlərinə etibarən güldü. Sinəsində medalyondan bir qırıq işıq süzüldü, qabarmış döşlərini koftasının yaxalığı ilə örtdü. İri çanta – sumka gəzdirirdi, açdı, bir çəngə müxtəlif keşidli konfetləri stolun üstünə qoydu:

– Yeni xəbər münasibətilədir! – Dilləndi. – Şənbə günü nişan qoydular. – Üzünü Aytaca çevirdi. – Sənə də qismət olsun. – Sözlər tam səmimiyyətilə səsləndi. – Qəlbimdə həmişə himayə axtarmışdım. – Sözlərinə təbii ahəng verdi. – Yaxın münasibətləri də olur, dözmək lazımdır, atəşin məftunluq bekara cəhdmiş, qəlbi ölümə aparırmış, dağınıq həyat isə...

Xumara xanım Rəqsanə danışdıqca daha diqqətlə qulaq asır, bu qızdan belə ibrətli fikirləri ağlına belə gətirməmişdi: Çapayla bağlı süni “sərgüzəştlərə” – nə yaxşı dərinə getməmişdir – ürəyindən keçdi – uyması, bu işin haralara dirənməsini təsəvvür elədi, qəlbində qaynaşan fikirlər yığını dağılır, gənclik qismətinə düşən ilk duyğulu təəssüratı. Rəqsanə sanki bu iki-üç gündə yenidən açılmışdı, təbəssümü ürək oxşayırdı, yaxıcı ehtirasdan əsər hiss olunmurdu – axır o, Çapayla da arabir anlaşırdı – demək, nişanlısı dəyanətli, ağılllı oğlandır ki, ilk şərtlərindən öz sözünü bildirmişdir, qadınını əlində saxla-

maq bacarığı varmış, belə olanda onlarda ərinə inam birəbeş artır. Adətən, qızlar romantik xasiyyətdə böyüyürlər, oğlanlardan ehtiras umurlar, eləcə də zərif kobudluq. Rəqqasə oynayanda bu xüsusiyyətini büruzə verirdi: donunu topuq sümüyündən yuxarı qaldırır, əndamını silkələyir, rəqqas kişini "hövsələdən" çıxarır. – Çapay bir dəfə bunu ona söyləmişdi. Bəli, bəxti ona az hədiyyəsini göndərdi vaxtında O, qaldıqca kişilərə qarşı ərköyünləşəcəkdi. Xumara xanım bu fikrini də Rəqsanəyə yapdı, amma dərhal bu rəyini başından qovdu və yüngülləşdi: "Xoşbəxt olsun!" – Ürəyindən keçirib ayaq üstə qalxdı: – Siz oturun, mənim işim var, – deyib konfetdən birini də götürdü.

Aytac susurdu. Atasının halını xəyalından keçirdi, son telefon danışığında arxayınlıq yaranmışdı. Hətta meşə gəzintisindən qayıtdığını, bibisinin yarpız dovğasını bişirdiyini gülə-gülə ona çatdırmışdı.

Aytac özü barədə düşünməyi sevmirdi, bu dəfə elə bu masa arxasında Rəqsanəyə qulaq asa-asa özünə "hesabat" verməyinə təəccübləndi də: "Nəyə məhz bu gün? Rəqsanənin xoşbəxtliyə açılan yoludur" – ürəyində səsləndi və tənqiddən də yayınmadı: "Mənim qəlbimdə aydın şüurla əvəzlənməyən tutqun, əsəbi anlam baş qaldırır: məni məngənədə sıxırlar sanki, kişilərlə söhbətimdə, ünsiyyətimdə. Ağa Rəhimi xatırladı – sərt davranıram, özümü filo-

sof kimi aparıram. Qızlar üçün belə müdriklik nəyə gərəkdir, tam azadlıqdan istifadə etmək cığırlarını itirirəm. Gedib filosoflara çıxıram. Həyatı tənhalıqda keçən, hətta dağlara, qayalara çəkilən azmı müdriklər olmuş? Məhəbbət üçün valehedici dövr ötərsə". – Susdu, ürəyilə söhbətində: "Ağır can yükünü götürməyə hazır olmalısan elə mənim yaşımda. Yeri gələndə parlaq, işıldayan zənginlik haqqında da düşünmək lazım gəlir". – Bu qənaət Aytacda ümidsizlikdən yaranmamışdı, tale qismətinə inanmışdı. Bəzən Aytac romantik xəyalı ilə özünün gözəllik sevgisini yaradır, nəhəng ağ şüa ilə səmanı işıqlandırır. Gizlətmir, Ağa Rəhimlə görüş üçün məcrasından çıxmaqda çətinlik çəkir. Və inanır ki, O, həyasız, axmaq qadının dalısınca sürünməmişdir, səadət həsrəti güclüdür, özünə qarşı lirik işgəncələri də var və ona tab gətirir. Həyat tələbkar, narahat insanları özündən kənarlaşdırır, çirkinliyini gizlətmir bu oyununda.

Aytac nə düşünürsə, nədən narazıdırsa – həyat özü göstərmək məcburiyyətində qalacaqdır, amma o, mürgüləyən hisslərə bələnmiş bir gəncdir – yeniyetməliyindən istəyərək ayrılmışdır ki, sənətdə tez parlasın, istedadını nümayiş etdirsin və şöhrət tacını başına qoysunlar – həyati məsələlərdə ciddi düşünməyə çox qabildir ki, süst və aldadıcı kişi əlləri bu qıza toxunmamışdır, çünki daima təşviş keçirmişdir taleyi üçün. O, bunlara həm də ona görə yiyələnmiş-

di ki, təbiəti sevirdi – atadan gəlmə gen yaddaşı da rol oynamışdı. – Atası ovdan, çöl gəzintisindən qayıdanda şirin sözlərlə nağılını danışır: qoyun səsi, meşəqırağı talalar və vadilər, səmada süzən qartallar. Aylı gecələrin romantikası. Ay ağacların üzərində parlaq qalxan kimi asılır, yüngül buludlar üzür. Ulduzlu gecədə yağan qar elə ulduzlar kimi parıldayır, hava gümrahlaşır. – Payızı çox sevən atasının səsini eşidir: – Payızda külək tüstü burumlarını, toz buludlarını yuxulu uşaqsayağı qovur ki, özünə gəlsin. Soyuq yağış altında çopurlaşan, islanan çöllər, otlar payıza təslim olan ağaclar qəmli həyatlarını yaşayırlar.

Aytac atası ilə sanki söhbətindən doymamışdı, ayağa qalxdı, məşqə tələsirdi, ürəyində danışmaya bilməzdi: “Ata, özünə fikir ver, sən bizə lazımsan. Ata, sənsiz biz kimik? Sən iradəli olmusan, iradənin gücü qarşısında ölüm də aciz qalır”.

Xumara xanım Rəqsanəni bir daha təbrik etdi və dağılışdılar.

Qız tayfası bir fərd olaraq açılmış, lakin oxunmamış kitabdır və hansı janrda yarandığı qeyri-bəllidir. Bir neçə növ xarakter qız var – özünü yeniyetmə ikən yüngül aparır, oğlanlarla açıq-saçıq danışır, suallara özü cavab verir. Qız var başıaşağıdır, əfəl təsiri oyadır, anası ağrı ilə özündən soruşur: “Bu necə ər evində baş çıxaracaq. Qayınanası, baldızları

onu uşaq kimi hara gəldi buyuracaqlar". Qız var gözü orda-burda olur, özünə ər seçir – axtarmır, harada aş var, orada başdır. Möhkəm ailə quracağı şübhəli görünür.

Bəs Rəqsanəni hansı kateqoriyaya daxil etməli? Sual qəlizdir və müəllif öz qəhrəmanına ümidsiz yanaşmır, dəlillər axtarır. Müqayisələr də çox şeyi diktə edir, deyək ki, əgər 100 il öncə qadınlar həyatı illərində 40-50 yaşlarında menustrasiya dövrünü yaşayırdısa, qalan hisslərini ya hamiləlikdə keçirir, yaxud uşağını əmizdirirdi: bu gün menustrasiya müddəti on dəfə artıbdır. Qız var onların nə etdiklərini başa düşmək müşküldür, qız da var onların əlini ovcunda saxlayanda sanki quru ağac budağıdır, ölüvay nəsə bir şeydir, yaxud əlini buraxmır, bu dəqiqə götürülüb harayasa qaçıracaqsan.

Əlbəttə, qaçan kişilər də olur...

Rəqsanənin xasiyyəti Çapayla münasibətlər yaratmaq istəyində deyilmiş və Çapay bunu yaxşı qarşılamamışdı. Rəqsanə istedadlı rəqqasə olsa da, "başıaşağı" qiymətini ala bilmişdi, Xumar xanımın qısqanclığına səbəb olmuşdu...

Nişanlısı Rəqsanənin bəzi keyfiyyətlərini öyrənmişdi: nəzakətliyini – gələcək ailənin məhəng daşı hesab eləmişdi, kobudluğu isə sevgini çeynəyən çığırqan saymışdı. Nişanlısı savadlı Rəqsanəyə xatırlatmışdı əxlaqçı Ziyəddin Göyüşovun sözlərini ki,

nəzakətlilik qəlbin elə xüsusiyyətidir. Sınmış ürəyin qapısını yox, qapı arxasında bitmiş gül-çiçəyi görməyə şərait yaradır: – Rəqsanə, – demişdi, – yazıçı Oliver Holms, o, melanxolik azarına tutulmuşdu, amma bunu dözümlülüyü hesabına ailəsinin digər üzvlərindən gizlətmişdi və bu cür əsaslandırmışdı ki, mənə əzab verən hallara görə başqalarının əziyyət çəkməsini istəməzdim.

Rəqsanə dinləyirdi, sahil sakitlikdi, qağayılar da bu səssizliyi pozmaq meylinə düşməmişdi. Rəqsanə skamyaya baş əyən, ləçəkləri tökülməkdə olan yasəmən budağını üzdü və burnuna apardı. Oğlanın qarşısında susmağı, yəni "sən nə desən düzdür, sən məndən daha artıq oxumusan, mən ancaq rəqslərlə oturub-dururam" fikrilə razılaşmaq istəmirdi. Və haqlı idi. – Yasəmən budağını barmaqları arasında fırlatdı; ürəyindən keçdi ki, adi insan, xüsusilə, kahin tənha dahidən daha xoşbəxtdir və dedi:

– Rus ədibi İvan Turgenevi oxuyuram, oxumuşdum. Yazıçının sözləri belədir ki, əgər bilsəydim haradasa mənim günorta yeməyimə gecikməyimdən narahat olan qadın var – mən öz istedadımdan və kitablarımdan məmnuniyyətlə əl çəkərdim.

Oğlan susur, tanış olduğu bu qadın daxili zənginliyinə şübhə etməyi qərara alırdı. Və onu da acı-acı düşünürdü ki, xanəndələrdi, rəqqasələrdi, aktrisalardı nə üçün ümumi rəy yaxşı deyil. Hər halda sə-

bəbsiz olmaz, ancaq qadınlar heç vaxt anlamayacaqlar nə üçün kişilər öz işlərinə, peşələrinə səy göstərdikləri qədər ailə həyatını yoluna qoymaq üçün çalışmırlar, heç bir kişi öz nigahında uğur qazanmaq barədə fikirləşmir.

Rəqsanə təbii ki, nişanlısının xəyalındanmı, ürəyindənmi keçirdiyini duya bilməzdi, amma söhbətin ötəri belə olsa nəzakətdən, ailə xoşbəxtliyinin sütununu təşkil edən bəzi xüsusiyyətlərdən söz düşməsi labüd haldır və sözlərini davam etdirdi:

– Hər bir kişi bilməyə borcludur ki, əgər qadınıyla nəzakət daxilində hərəkət edərsə, arvadı əri üçün nə lazımsa edər, imkan daxilində əlbəttə. Kişilər həyat yoldaşına bildirsə ki sən bu paltarda necə də gözəlsən, qəşəngsən, gör qadın özünü hansı zirvədə hiss edər, ən dəbdə olan modaya da dəyişməz!

Hə, deyəcəyimi oxumuşam, mənim fikrim deyil: kişiyə bəllidir ki, xanımının gözlərindən öpüb uzun müddət "onu yarasa kimi kor qoya bilər", dodaqlarından ehtiraslı öpüş qoparsa, balıq kimi lal da edər. Nişanlısı həyəcanlanmışdı, yavaş-yavaş pörtürdü, gözləri itaət ifadə edirdi, nazik bığları dodaqları üstündə itib-batırdı hər danışanda. Möhkəm əzələlərinin ehtiramlı titrəyişi sağlamlığına dəlalət edirdi.

Dəniz yenə sakitliyində idi və bu sükutda bir nəslih vardı.

– İki şəxs bir-birinə həqiqi sevgilərini yaşamışsa səadət onları daban-dabana izləyəcək. Rəqsanə. – Nişanlısının kövrək səsi onun bədənini uçurdurdu, onun sabitliyi sakit havada hamar göl səthini andırdı. Belə həlim sözlərin hərarətindən, qətiyyətindən Rəqsanə həm həyəcanlandı, həm də çəkindi. Və nişanlısı ixtiyarsız onun üzünə baxdı: iri gözlər, cizgili dodaqlar, gur saçlar, mütənasib bədən. O, möhkəm, sarsılmaz sevgidən özgə nə düşünərdi. Təki, ortada xəstəlik azar-bezar olmasın, bunlar olanda.

Haradan beyninə gəldi bu? Eləcə də Rəqsanədə o hiss yarandı, təki, sağlam olsunlar, belə olanda ömür Allah verən müddətə qədər davam edir, bir-birindən bezikmirlər, usanmırlar. Bu barədə nə qədər oxumuşdur, yazıçılar, rəssamlar, bəstəkarlar talelərindən şikayətlənmişlər, gizlətməmişlər.

– Rəqsanə. – Astadan dedi nişanlısı. – Bu faktı söyləyim, sənin üçün də maraqlı olar, axı müdriklər demişlər ki, şəri xatırlatmasan xeyir gəlməz.

Rəqsanəni maraq aldı və nişanlısının əlindən tutdu, gözlərini ona zillədi. Nişanlısı onun yığılmış alnının və çatılmış qaşları altında gözlərindəki baxışların təsirində idi:

– Böyük ingilis yazıçısı Virciniya Vulfun ərinə ünvanlandığı məktubu olmuşdur. Qəlbinin ağrısından vərəqlərə süzülmüşdür, duyğulu qələmə alınmışdır. Sonralar bunu "vida məktubu" kimi tarixləş-

dirmişlər: "Əzizim, əminəm ki, mən təzədən dəli oluram. Hiss edirəm ki, bu dəfə öhtəsindən gələ bilməyəcəm. Bu dəfə düzəlməyəcəyəm. Mən səslər eşitməyə başlayıram. Fikrimi bir yerə cəmləyə bilmirəm. Buna görə də doğru olduğuna inandığım çıxış yolunu seçmişəm. Səninlə, şübhəsiz ki, xoşbəxt olardım. Sən mənimçin arzulayacağım hər şey oldun. Düşünmürəm ki, hansısa iki insan bizim barədə olduğumuz qədər xoşbəxt ola bilər. Amma qorxunc xəstəliyim bizim xoşbəxtliyimizi əlimizdən aldı. Mənim mübarizə aparmağa gücüm qalmayıb. Bilirəm ki, həyatını məhv edəcəm. Sən mənsiz bacararsan, bilirəm. Görürsən, heç düzgün sözləri seçib yaza da bilmirəm. Mən oxuya bilmirəm. Sadəcə istəyirəm biləsən ki, həyatım boyu yaşadığım bütün xoşbəxtliklər üçün sənə borcluyam. Sən mənə qarşı çox dözümlü və inanılmaz dərəcədə mərhəmətli olubsan. Bunu hamı bilir. Məni xilas edəcək biri olsaydı, O, mütləq sən olardın. Amma artıq gecdir.

Hamı gedib. Sənin məhəbbətinə olan inamımdan başqa heç nəyim qalmayıb. Həyatını daha artıq məhv edə bilmərəm. Mən bu fikirdəyəm ki, bu dünyada bizim ikimizin birlikdə olduğu qədər kimsə xoşbəxt olmayıb..."

Rəqsanə sənətinə həvəsini səngitməmişdi, daha da ruhlanmışdı: nişanlısı baxtından "yaxşı" çıxmışdı, liderliyi xoşlamayandı. Rəqsanə isə əksinə, ilk

günlərdən Mənəvi diqtə etmişdi. Amma içində ona qarşı həsəd hissi oyatmağı xoşlamışdı, bir vaxt xəyalıydı, indi həyata keçirilirdi. Aytaca "üstüörtülü" anlatmışdı ki, Mən xoşbəxtəm, vaxtında ərə gedirəm. Xumara xanıma isə "Çapayı mənə qısqanırdın, amma" – fikrindən keçirmişdi. Çapay üçün də daxilində "pay" saxlamışdı: "Məni bəyənmədin, elə bilirdin özümü sənə sırıyacağam".

Rəqsanənin daxili hissiyyatı kiməsə gözlənilməz görünürdü, amma elə deyilmiş. O, nişanlısını ələ almışdı, o da ixtiyarını şüurlu olaraq Rəqsanəyə vermişdi. Ona görə yox ki başı üstündə deyildi, qəşəngliyin qarşısında aciz qalmışdı, çıxmağa iradəsi çatmırdı. Nişanlısı üçün bütün fədakarlığa hazırdır. Lakin bu məsələlər üçün əsla təəssüflənmirdi də, heyfslənmirdi də. Rəqsanənin ləyaqətli və mehriban, sənətini qurban verməyən qadın olacağına inanırdı, şübhə yeri qalmırdı, ona sağlam uşaqlar doğacağına şübhəsi də yox idi. Rəqsanə sənətində qabağa getmək arzusunda idi və şöhrətlənəcəkdi, ona görə ki, onun canında ehtiras, ruhunda coşğunluq tükənməzdi.

– Mən sənin üçün hər cür şərait yaradaram – söz vermişdi, dönməməyə and içmişdi.

Rəqsanə nişanlısının qarşısında ürəkdən bildirmişdi:

– Mən sənə xəyanət etmək haqqında düşünmək istəməzdim: ictimaiyyət hələ də pis rəyindən dönməmişdir.

O, varlığında olmayan xəyanət hissini xatırlatmağa borclu idi. Və özünə, nəfsinə inanırdı.

Nişanlısı bu kəlmələri eşitcək qürurlandı, qızın saçlarını oxşadı, qəlbində bütün qadınların ünvanına söylənilmiş böhtanları yalana çıxartdı.

Tirək işıq fəcri sıçrayırdı, bədənini isti qızışmalar almışdı, canını titrətmişdi.

Stolun dalında dartındı və razılıq hissiylə gülümsündü. Rəqsanə islaq tüklü yanaqlarını bir-birinə sıxmışdı. Bu anlarda anasız çocuq – hiss olunurdu – onlara yavuqlaşdı, gözlərində tutqun ümid parlayırdı. Rəqsanə çəlimsiz uşağın saçını sığallayırdı, onun üzü divar kimi ağarmışdı, elə bil o, nəyisə axtarır, kimisə gözləyirdi, insanların laqeydliyindən qorxurdu...

## 7.

Ağa Rəhim gecəni narahat yatdı. Əlinə keçən kitabı yarıyacan oxudu, saat birə işləyirdi. Televizor kanalları hələ şou-konsertdən yorulmamışdı. Kanal rəhbəri sanki torpağın vətəndaşı deyildi və ulu məkanın xeyli hissəsini itirməmişdir. Qarabağı belə vicdandan kal vəzifəli məmurları sanki toy-bayramla "gəlin" köçürmüşlər...

Divanda mürgü tutmuşdu onu, ayılanda səhərə yaxın idi, üşüdüyündən gözlərini açmışdı, daha yuxusu çəkilmişdi. Tənhalığı darıxdırırdı onu, ailədən ayrılmaq, bir uşağını yetim qoymaq – baxmayaraq özünü günahsız, haqlı sayırdı – hər halda yad ölkədə o, atasız böyüyürdü. Bu vəziyyət onun ürəyini sıxırdı, həqiqəti sevən insan kimi uşağının taleyi üçün narahat idi, qadını barədə də düşünürdü, hərçənd rəsmi şəkildə ayrılmışdı. Ona evlənməyi məsləhət görür, münasib qızları, xanımları nişan verirdilər. Höləki, imtina eləmişdir. Öz zəif və qüvvətli cəhətlərini bilirdi, itirdiyini anlayırdı: yaşı otuz yeddi ətrafında idi və bunu az hesab etmirdi: əlbəttə, çox da deyildi. Taleyinə çıxan qaranlıq hissin anlaşılmazlığı da ortada idi. Gələcəyinin üstünü zülmət aldığını, həyatının sarsıldığını düşünəndə özündə olmurdu. Bəzən özünü məzəmmətləyirdi, lakin xarakterinin humanistliyi qarşısında təsəlli olurdu, açığı, evlənməyə risq etmirdi. Hətta bu barədə məzəmmət olunur, ona "qorxaq" ayaması yapışdırılmışdı: "Mən doğrudanmı qorxağam? Bəlkə qadın dəyişkənliyidir bu? İkinci dəfə..." – Susurdu və: "Məzəmmətdən, danlaqdan keçibdir, iş görmək, kimisə sevmək lazımdır" – fikirləşirdi... "Aytac mənə layiq ola bilər, mənə dərin inamını hiss edirəm. Amma..." – Susurdu və: "Çox mühakiməlidir, çox şeyi analiz eləyir, nəticələr çıxarır və inanır". Aytacın görünüşünü,

mühakimələrini, sənətə ciddi bağlılığını xəyalında canlandırdı, riqqət və şəfqətin mövcudluğunu bir daha yəqinləşdirdi: "Aytacla iztirab çəkməyə dəyər. Onu aldatmaq isə..." – Sakit nəfəs aldı, masa üstündə spiçka ilə qoşalaşan portsiqarı gözü aldı və bir siqaret götürüb yandırdı. – Bu vaxtı mən papiros çəkməmişəm həyatımda. İndi ürəyim istədi. – Pıçıltı ilə, elə bil kiminsə eşitməməsi üçün demişdi. Və yenə divanda oturdu, tənhalığı ilə barışdı: "Aytacla evlənmək? Ağla gələn şeydir, lakin onun haqqında mühakimə aparmaq?"

Ağa Rəhim: "Onu aldatmaq? Hisslərimdə yarana biləcək dəyişilikləri ondan gizlətmək vicdan qarşısında xəyanət olardı".

– Balkona çıxdı, şəhər yatmışdı, küçələrdə yüngül minik maşınları işıqları ilə tələsirdi. Üşüdü, otağa qayıtdı: "O, haçansa bir qızı sevdiyimi bildiyindən nə düşünər mənim barəmdə? Sevmişəm onu, evlənmişəm, bir övladım dünyaya gəlibdir. Bu xatırlamadan sonra evlənməyə razılıq verərmi? O, həddən artıq mühakiməlidir. Görüşümdən aldığım təəssüratımda qənaətim belədi: "İki baş bir qazanda qaynamaz". – Siqaretin qoxusu burnunu qıcıqlandırmışdı... Qızdırmalı adam kimi əsnədi, bədənini üşütmə aldı, susadı: "Mən onu sevə bilərəmmi?!..."

Səhəri beləcə açdı, verəcəyi qərar yetişməmişdi, uzaqlara gedib çıxırdı, amma onunla görüşmək zərurətini istisna eləmirdi.

Ağa Rəhimin qəlbində tərəddüdləri bir qərarda toplandı, bu gün, hansı saatdasa keçmiş arvadına məktub yazmalıdır, özünün də günahını gizlətməməlidir, bir şərtlə, barışmaq fikrinə düşməməlidir, ürəyindən keçirsə başından çıxartsın. Övladı isə onun üçün doğma olaraq qalır, cavan qadın kimi yenidən ailə qurar. Bir şərtlə, razılıq verir mənəviyyatı ilə: Övladım atalığının himayəsində yaşamamalıdır. Qisas məqsədilə bu iyrənc addımı atırsa bütün həyatını puç edib, ona fiziki zərbə vurmaqda heyfslənməz.

Ağa Rəhim evdən çıxanda hava mülayimləşmişdi. Qışın gəlişi: Bakıda bu, daha aydın duyulur və ilk xəbərdarlıq buludları Xəzərə göndərir. Qağayılar inqilabi vərəqələrsayağı səpələnir sahilə; ağaclar, bu vahimədən yarpaqlar əsir, saralır və ayrılır.

Ağa Rəhim özündə dözülməz boşluq hiss elədi, həyatına bir zərbə vuruldu, soyuq axın onu bu burulğana itələdi, amma ayıqlıq göstərdi, burulğanın kənarında müvazinətini saxladı. Qasırğa başlarsa, güclü təkan onu burulğana salacaqdı, axı qasırğa iti fırlanır, suyun dibini ovub üzə çıxarır. O, əvvəl qərara gəldi ki, ölkədən uzaqlaşsın, başı sakit olsun, hərçənd, bu, ölü və lal ölkə də ola bilər, bəs o zaman

necə? Yox, bunu əxlaqına zidd addım hesab elədi və xəyalı ilə barışmadı Bir də Bakıda işləri pis getmir, humanitar məşğuliyyətin sahibiydi, dolanışığı da həmçinin. Övladı adından əlbəttə – qadınına demişdi telefonda ki, hər ayda pul göndərməyə hazırdır, imtina etməsin, ata borcudur. Lakin ana kəskin cavabında dedi ki, mən hələ sağam, onun həyatı üçün yaşayıram.

Ağa Rəhim telefon söhbətini eləməmişdi, şüurlu hərəkətin diqtəsiydi. Lakin ailə pozuntusu onu nikbinliyə aparmırdı: yeni qızla evlənər, təzə həyat yaşayar və ilaxır; indiki vəziyyətdə, təminatda "boş xırıltı"dan ötdü...

Başqası yanında hisslərini etiraf etməyə cəsarət göstərmirdi, bu isə onun qulaqlarında cingildəyirdi, bəzən xoş səsləri batırırdı. Onu da bilirdi ki, varlığında çox nəsnələr dolaşıb, bir-birinə qarışıbdır, fikirlərinin sərkələfini itirmişdir. O, ayrılanda ayrılığın nagahani fırtına kimi qopub onu yaxaladığını xatırlayır, boğulurdu, ümidsiz bir sevinc ürəyində sızlayırdı. O, övladını itirirdi, haçansa atasının simasını xatırlaya biləcəyi yetgin insanın etirafına imza atırdı. Qərar verilmişdi, dəyişmək onun xarakterində yox idi. Qərarı dənizdə lövbər salmış gəmi kimi möhkəm dayanmışdı, dalğalar ancaq onu yırğalaya bilərdi. İradəsi onun hökmünə tabe idi və hər an əmrini yerinə yetirməyə hazırdır. İradəsi çoxdan bəri

ona aşılamışdı: – İki dəfə sevmək mümkünsüz cəhddir! Bəs isinişmək necə?

– Cavab səslənirdi qulaqlarında: Dul qadına isinişmək olar, bakirə qıza isə... Bu, aldatmaq olardı, sonu boşluq! Həqiqətin səsiydi. Ağa Rəhim qayibanə pıçıltıya haqq qazandırır, ixtiyarsız təsdiq edirdi: – Kişi ürəyinə, canına başqa bir həyat daxil olmağa cəsarət göstərirsə, içəri buraxmamaq? Günah olmazmı? Yenidən qayıdan xoşbəxtlik deyilmi? Ümumiyyətlə, səadət vardırmı, onu axtarmağa dəyərmi?

– Aytac. – Ağa Rəhim astadan dilləndi. – Səadət, xoşbəxtlik sözləri bir-birini tamamlayır. Sən də vurğuladın. Mənaları "tale", "bərəkət", "müvəffəqiyyət" bildirir, yəni Allah-Təala bəndəsinə "bərəkət" göndərir bir ehsan timsalında səadətə qovuşsun. Bu yanaşma öz yerində, "səadət" sözü dünyavi və axirət səadəti zəminində də səslənir: xeyirxah həyat yoldaşı, rahat mənzil, habelə yaxşı qonşu, məncə, insana qapı açır ki, verilən ömrü yaşa, ancaq təkcə öz xoşbəxtliyin üçün yox.

Aytac sakitcə oturub dinləyirdi, eşitdiyini çözməyə çalışırdı və çox uzaqlara gedəcəyinə inanırdı. Həzrət Peyğəmbər buyurmuşdur ki, xoşbəxt adamlara səadət qazandıran əməllər, bədbəxtliyi seçənlərə isə bədbəxt edən işlər aşılanmalıdır. Demək, əxlaqın mayası – qayəsi səadətdir. Antik filosoflar bu haqda ayrı-ayrı mühakimələr söyləmişlər. Sokrat

həyatın məqsədini xoşbəxtlikdə axtarmışdır ki, dünyadan ləzzət, nəşə almalısan, bunu bacarmalısan. Əks halda, bu nemətlər öz yerini qəmə-qüssəyə ötürəcəkdir.

Bəzən isə insan özünü dərk edən yaşında da azad iradəsini itirir, özünü ələ almaq hissindən uzaqlaşır. Nəticə nə olur: bir-iki addımlığındakı xoşbəxtliyi anlamaq istəmir, yaxud bilərəkdən başa düşmür.

Aytac eşidirdi, daha dərinliyi ifadə edən kəlamların yolunu gözləyirdi. Ağa Rəhimlə ikinci görüşün vaxtı uzanmışdı, hərçənd, vaxt vədəsi yox idi, bir dəfə çıxışlarına baxmaq üçün filarmoniyaya gəlmişdi. Ağa Rəhim bu görüşə də səliqəli geyimdə gəldi, ona diqqətlə baxmamışdı, xarakterinə yaraşan əlamət deyildi. İndi ona bir az dayanaqlı nəzər yetirdi: Onun saçları alnının qabaq tərəfindən seyrəlmişdi, bunu Aytac biliyi, mütaliyəsilə bağladı. Qarşısındakı qəzetin kənarları dilik-dilik idi və yarımçıq qeydlər aparmışdı.

Aytac Əlisa Nicatdan, istedadlı yazıçıdan və filosofdan müntəzəm oxuyurdu, onun kitabları əl-əl gəzirdi. Bunun bir səbəbi də atası ilə yoldaşlığı idi, tez-tez görüşürdülər. Evə avtoqraflı kitablarını gətirirdi, oxumağını məsləhət görürdü. Bir kitabında Epikürlə Zenonun (onlar eramızdan əvvəl IV və III əsrlərdə yaşamışdılar) dialoqunu vermişdir. Xatırladı: Xoşbəxtlik insanı ən yaxşı təmin edən vəziyyət-

dir, yəni bədəninin sağlamlığıdır, ruhunun sakitliyidir. Bu, o adamın təbii ehtiyaclarını ödəmək, fiziki iztirablarını aradan qaldırmaq, ruhi həyəcanlarını yox etmək sayəsində qazanılır. Aytac xatırladı ki, Əlisa Nicat atasına belə bir məsləhət görmüşdür və: "Ata, bunlara əməl etməyə çalış, səndə qorxu doğuracaq xəstəlik yoxdur. Cəmiyyətin sosial süni bəlalarıdır – hamımız buna tutulmuşuq. Bir qədər bu mühitdən ayrıl, doğulduğun məkana yolunu sal, beynin, ruhun təzələnsin". Aytac bu illuziyalardan ayrıldı və dialoqa qayıtdı:

– Ruhun həzzi bədənin, canın həzzindən çox yüksəkdir, mənəvi iztirab fiziki iztirabdan çox əziyyətlidir. Məncə, ən yüksək nemət bilikdir. Bilik əldə etməklə o adam mənən sərvət qazanır.

Ağa Rəhim gülümsündü, başını tərpətdi, Aytac haqqında onda yaranan təsəvvürünü bir daha canlandırdı, bəlkə də fikrinə düzəlişlərini verəcəkdi: "O, mənəviyyatını mənəvi aləmində bir vaxt görməmişdir, yüngül sevinclər və rəqs sənətinə alüdəçilik bəsləmişdir, ehtiraslı pərəstişkar olmuşdur, bu gün o mühitin acısını, onun gənclik xəzinəsinə uzanan əlləri görür, bu caynaqlı barmaqlar onu hər an yatağa sürükləməyə hazırdır, nə qədər ki əlində deyil, dəridən-qabıqdan çıxar, necə ki, ağuşundadır – qoxulayır və itələyir, hətta başqasının qucağına atır. Bu, onların şakəridir, Allah eləməsin o, pis mühitə dü-

şərsə yeni dostlar peyda olacaq, papiros dartacaq, şərab hortdadacaq, onu əyyaş xanımlar tapacaqdır. – Bu, sözə çevrilib fikri ifadə etmirdi, Ağa Rəhimin ürəyində yaraya dönməkdə idi.– Zenon üçün həyatın amalı xoşbəxtlikdir, bir şərtlə ki azadlıq olsun; həm sevincdən, həm də kədərdən – ehtiraslar da unudulmasın.

Aytac söhbətə müdaxilə etdi və söhbətdə heç vaxt özünü acizanə kənara çəkməmişdi, təbiətinə yad idi.

– Öz qazandığın səadəti əlindən uçurtmayasan, xoşbəxtliyini qaçırtmayasan. Bir də bu hissi kim əlindən ala bilər, özün buraxmasan. Mən rəqqasəyəm, çətinliklərlə gəlib çıxmışam, nə az-nə çox – yeddi ildir ayaqlarımla, qollarımla – bədənimlə vuruşuram, bəzi həzzdən, nəşədən imtina edirəm ki, formamı saxlayım, tamaşaçılar mənim üçün gəlirlər. Amma elə kişilər çıxır ortaya.

Məni, mənim kimi incəsənət xanımlarını tamaşaçıların əlindən qoparmağa çalışırlar. – Aytac nəfəs aldı, əsəblərini sakitləşdirmək naminə. Yaş qarağat meyvəsi kimi gözlərini Ağa Rəhimə tuşladı, onun baxışları isə üzündə toxdadı. Aytac ağlamsınaraq qızardı və zərif əllərini sinəsində çarpazladı. – Günahkar yalnız kişilərmi?!

– Yox! – Ağa Rəhim qəfil cavablandırdı: – Müsəlman filosofu Yaqub əl-Kindinin fikridir, demiş-

dir ki, “xoşbəxtliyə qovuşmaqdan ötrü keçici həvəsin əvəzinə ağıla, zehinə uyğun hərəkət etməli, yaşamalıdır”. Bəzi qadınlarda ağıl instiktiv vasitədir. Zenon üzünü Epikürə tutub deyir ki, səndə ağıl vasitədir, ehtirasımı sönməyə məcbur edirəm ki, ağlımla nəşələnim.

Aytac düşünməli oldu: ehtirasları vaxtında cavablalamamaq fəlakətin yoludur, birbaşa burulğana özünü tullamaqdır. Ağıl azad olarsa, özbaşına buraxılarsa yolundan azar, bu məsələdə mən mühafizəkaram. O adam nəşələnə bilər – onun bədəni olmasın, deməli, onun ruhu yoxdur. Bu yanaşma ziddiyyətlidir, Ağa Rəhim. Aytac zəif səslə dilləndi. Yalnız ağılla da uzağa getmək olmur, emosiya, coşğunluq ruhu yerindən oynadır. Mən rəqslərimdə uğurum üçün belə hisslərə də arxayın oluram. Lakin oyundan sonra sanki heç nəyi səhnədə yaşamamışam, ağlıma tabeçilik edirəm. O dəfə məni müdrik kimi qələmə verdin, sağ olun, amma bir qız olaraq müdrikləşmək istəməzdim. Qəlb sakitliyi, ürək rahatlığı kifayət edir. Həyatın sevincindən əl götürürsən ki Ölümü sakit qarşılayasan? Ölümü necə əvvəldən qarşılamaq olar – anlamıram. – Belə iddialar sünidir, yalan ifadələrdir, onun kabus sifəti görünürsə...

## – 0 –

Atanın halı dəyişdi, meşədən qayıdanda. Möhkəm yorulduğundan hərarəti qalxmışdı. Bacısı kənd həkimini çağırdı. Yoxladı və diqanozu belə oldu ki, soyuqlamısan, piyada gəzmisən, tərləmisən, yerdə oturmusan. Qorxulu bir şey görünmür.

Ata həkimin atasını tanımışdı, təxminən bir nəslin uşaqları olmuşlar, sinif fərqləri olmuşdur. Çox xatirələrə qayıtmadılar, kişi hallanır, iztirablanır, bu da təsirini göstərir. Həkim yarı ciddi, yarı zarafat dedi:

– Şəhər üçün çox darıxırsan! Doyunca gəz-dolan, Bakı qaçmır!

Ata həkimi yumşaq baxışı ilə süzdü, nəzərlərini saxladı:

– Yorulmadım, əksinə, daha da qıvraqlandım. O düzdür ki, torpaq nəm idi. – Ata özünə haqq qazandırmaq istədi, bacısı həkimə inanan idi, “qadağa” qoyardı.

– O dəfə meşədə bir çobanla tanış olmuşdum, quş ətindən kababa qonaq eləmişdi məni. Ürəyimdə dolanırdı ki, təkrar görüm. Nə bilim, bədən gücdən düşməsin, oğul. Oralara canımdakı həyat aparmışdı məni. Çoxdan uyumuş ruhum oyanmışdı yuxudan. Allah bilir haçan güzarım düşəcək.

Bacısı bu sözləri mətbəxdən eşidirdi. Qardaşı daima onu yoluxmuşdu, çətin güzaran vaxtlarında əl tutmuşdu: “Qardaşıma qıyma, ey Uca Tanrı”. – Əlini qaldırıb dua elədi: “Bircə qızının toyunu ona qismət elə, nəvə alsın qucağına”. – Bacı yalvarışı idi. Aytac gələndə atasını gümrah görsün, yoxsa aparacaq. Mən atamın, anamın iyini ondan alıram.

– Mətbəxdən artırma otağa qapı vardı, samovar qaynatmışdı. Keçib çay dəmlədi, bişirdiyi ərik mürəbbəsini seçdi. Qardaşı xoşlayan meyvə idi.

Ata:

– Mən bir də ona görə torpağıma baş çəkməyə gəlmişəm, günahlarımı yuyum. O qədər quş yuvalarını uçurmuşuq, daşatanla yaralamışıq. Yamyaşıl moruq kollarına od vurmuşuq. Bunlar günahlarımdır öz payımla. Yaşımın bu çağında etirafın özü təmizlənmədi içərində.

– Mürəbbədən stəkanına tökdü və həkimə də işarə elədi ki, soyutmasın çayını.

– Oğul, Ölüm haqdır. Bir şərtlə, o dünyaya tərtəmiz gedəsən. Sizə bir rəvayət söyləyim. – Ata saatına baxdı. – Vaxtını almıram ki, həkim? – Çayından azca içib nəlbəkisinə qoydu.

– Yox, Ata əmi. – Həkim stulu bir qədər də stola yaxınlaşdırdı.

– Rəvayətə görə, Musa peyğəmbər zamanında bir şəxs nə az-nə çox, otuz il ibadət etmişdi. Onu gü-

nəşdən bir parça bulud kölgəsi qoruyurdu. Bir gün o bulud gəlmədi, həmin abid günün istisində qalmalı oldu. O, anasından bunun səbəbini xəbər aldı. Anası dedi:

– Oğul, bəlkə bir günah işlətmisən?

Abid:

– Yox, ana, günah işlətməmişəm, – cavab verdi.

Anası:

– Göy qübbəsinə, gül-çiçəklərə baxmadınmı? Onları görəndə, Allahdan əzəmətini, qüdrətini idrak edəndə qəflətə düşmədinmi?

Abid:

– Bəli, ətrafımdakı xarüqələrdə gözəllikləri gördüyüm halda təfəkkürdə qüsur etdim. – Etirafını gizlətmədi.

Anası pərişan halda dilləndi:

– Bundan böyük günah olarmı, bala? Dərhal tövbə elə.

Bəli, buna görə ağlı başında olan bir möminin vacib olan təfəkkürə heç vaxt laqeyd qalmaması lazımdır. Bəli, insan Allahın əməlindəki xarüqələdəkiləri nə qədər çox öyrənər, onların üzərində nə qədər çox idrak edərsə, onun cəlalı və əzəməti haqqındakı mükafatı, yəni Haqqa yaxınlığı da həmin ölçüdə artar.

Həkim gedəndən sonra Ata yarımçıq qalmış irfani kitabı "Dialoqlar"ı oxumağa başladı. O, son bir

neçə ildə belə məzmunlu əsərləri mütaliyə edir, bəzən qeydlər aparırdı. Özünə sual verirdi: "Nədən, İnsanın son ömür taleyi çox düşündürür məni? Hər bir üləmanın Ölüm haqqında öz mülahizəsi var. Məgər, Ölüm birmənalı həqiqət deyilmi? Onun başqa üzü də olur? Ölüm nə üçün insan iqtidardan qalanda daha çox fəallaşır. Əlbəttə, cavanları da aparır, uşaqlara da əl atır, bu halda Ölümə Şeytan xislətində baxıram. Belə vəziyyətdə Ölümü necə sakit qarşılamaq olar? Mən sözü ortaya atmağı xoşlamıram, amma bu gün doğma elatımı ayaqlarımla gəzəndə, məni kənd adamları darıxmağa qoymayanda, qızımın uğurlarını görəndə sakit və şən ömür sürmək istəyirəm. Belədə deyirəm ki, Ölümün mənə dəxli yoxdur. İnsan yaşayırsa Ölüm ehtiyatlanır".

Ata otaqda gəzindi, bacısı bazara getmişdi. Köhnə kitab rəfi dururdu o vaxtın kitabları ilə. Kənardan baxdı, çarpayıda dirsəkləndi: – Nə vaxt ki, Ölüm baş verir – İnsan yox olur. Mən bədəncə, ruhca sağlamamsa xoşbəxtəm, həyatın mənası bu əhvaldan başlayır, xəstə adam yaxşı və ciddi məsələlər haqqında düşünə bilmir, beyin bunu çatdırmaqda çətinlik çəkir. Xəstə adamda təəssüf ki, sağlamlara qarşı qısqanclıq əmələ gəlir. Demək, həyatın mənasını cismani xoşbəxtlikdə axtaraq ki, mənəvi səadətə çataq. Hansısa filosofda oxumuşdum ki, həzz həyatın təxirəsalınmaz məqsədidir, ona görə ki, bütün ne-

mətlərin tabe olduğu ən yüksək nemətdir. Nəşəli həyat bədəncə sağlamlıqdan, mənəvi sakitlikdən başqa bir şeydir. Çalışmalıdır İnsan: iztirab gətirən hər cür qorxu və narahatçılıqdan uzaqlaşsın. Amma...

Ata əlindəki kitabı gözdən keçirəndən sonra kitab rəfində öz cərgəsinə qoydu. – Amma sakit, dünya ciddiyyətlərinə, başqa adamların bəd əməllərinə qəzəblənməyən, laqeyd qalan adam kimə gərək olar? İnsan nəbabat möcüzələrilə özünü müqayisə etməlidir, demək istəmirəm biz torpaqdan doğulmuşuq, bu hökmlə razılaşmıram. Bu, o deməkdirmi buna görə insanın son yeri torpaqdır. Eləyə qalsa balıqlar da canlıdır, onlar suda ölür və suyun qoynunda dəfn olunur. Amma nəbabətdə elə passiv canlılar əmələ gəlir – insan özünü o nəsnədə görməli, aqibətini təsəvvürünə gətirməlidir. Bitkilər aləmi də insan kimi doğulur, yaşayır, qocalır və ölür. Yaxud, insan da bitkilər kimi ömür yaşayır: Bir toxum torpağa düşüb, rütubəti ona təsir edir, o da inkişafda olur. Və tədricən üst və alt cisimləri çatlayır. Üst cismdən torpağın üzərində böyüyəcək olan ağac çıxarkən, alt cisimdən torpağın üzərində dərinliklərinə doğru yayılan köklər uzanır: bu isə həyatverici bir əməldir, işdir. Ona görə ki, bu toxumun təbiəti tək, xaricdən gələn təsirlər də tək olduğu halda bir tərəfdən havada yüksələn bir maddəyə, digər tərəfdən torpağa girən bərk maddə çıxır. Tək bir təbiətdən bir-birinə

zidd iki şeyin doğması heyrətvericidir. Bundan başa düşülür ki, hər işində, əməlində hikmət sahibi bir Yaradıcının – fərdin iradəsi olur... Sonra bu toxumdan bitən ağacın bir qismi odun, bir qismi yarpaq olur. Başqa bir qismi çiçək olub təbəssümə çevrilir, gül – çiçək halına gəlir. Bu meyvə cürbəcürə təbiətə, dada malik olub insan orqanizminə fayda verir, insan ondan qidalanır. Bitkilər süni dərmanlardan qat-qat insan üçün xeyirlidir: dadı, qoxusu, rəngi... Bəzisi şəffafdır, bədənə qüvvət verir. Bəzisi dirildir insanı, canını ölməyə qoymur. Bəzisi canı təmizləyir, fərəh və canlılıq gətirir, sakitləşdirir. Bəzisi isə...

Ata dilinə gələn bu sözü ifadə etmək istəmədi, sonra fikrini dəyişdi:

– Eləsi var zəhərdir, öldürür.

Ata ölümə inanırdı və onu gözləyirdi, amma...

Mətbəxə keçdi, çaydanı qaz plitəsinin üstünə qoydu, susamışdı. Siqareti azaltmışdı, zərərini və zəhərini necə illərdir dadmaqda idi. Siqareti götürüb balkona çıxdı, yandırdı, qayıtdı. Bu neçə gündə kəndin yaşayış tərzinə bələd olmuşdu: göydən enməmişdi, ata-baba yurdu deyildimi. Kənddə iş yerləri yox dərəcəsində idi, ətrafda emal zavodu yaradılmamışdı, ancaq köhnəni söküb-dağıtmaqla məşğul olmuşdular. Camaatın yaşayış mənbəyi mal-qara, bostan-tərvəz, mer-meyvə idi. Hələ ali məktəbdə filosoflar, iqtisadçılar, tarixçilər xoşbəxt gələcəkdən da-

nışırdılar. Sevdiyi həqiqəti gizlətməyən fəlsəfə müəllimi narazılığını gizlətmirdi, klassik filosoflara söykənirdi və bununla özünü sığorta edirdi: – Filan filosof yazmışdır ki. Əgər aclıq və yoxsulluq üzündən sənin bədənində qida maddələri yoxdursa, o halda sənin başında da, hisslərində də, ürəyində də əxlaq üçün qida yoxdur. Ehtiyac qanun tanımır. – Ata güldü, o illəri gözü önünə gətirmişdi: – Müəllimimizə qəribə suallar verirdik, o da qalırdı iki suyun arasında, zarafata salırdı ki, məni bu auditoriyadan aparmaqmı istəyirsiniz? Bir ağızdan deyirdik ki, məgər biz ölmüşük? O isə barmaqlarını dodaqlarına aparırdı: – Susss!

Bu dəm qapı açıldı, bacısının səsi gəldi, kömək üçün ona sarı gəldi.

– Yüküm ağır deyil, qaqaş.. – Çaysız qalmısan, hə? – Narahatlıqla dilləndi.

– Yox, qızdırıb içmişəm. – Sakitcə cavab verdi. Və divanda dirsəkləndi...

Gülzadə qadın xislətinə xas – fiziki cəhətdən yaşlı görünürdü. Evlənmişdi və üç uşaq anası idi, nəvə də qismətinə düşmüşdü. Atanın kənddə olması, bacısıgildə qalması onun səhhətilə bağlı idi və bu xəbəri eşitmişdi. Təəssüflənmişdi:

O, sağlam şagird və tələbəydi. Məzunlarla görüşlər olanda ona söz verilir, aydın nitqilə diqqəti özünə çəkirdi. Ata ilə aralarında gizlin sevgi yaşa-

nırdı, əlini ondan üzmə-mişdi. Ata isə arabir ona qısa məktublar yazır, bacısı vasitəsilə çatdırırdı. Şagird Gülzadə də cavabında tənbəllik eləmirdi. Lakin Ata birdən Gülzadədən so-yudu – bu "sirr" Gülzadə üçün hələ də açılmamış qalmışdır. Çox xəyala daldı, götür-qoy elədi o vaxtacan – Ata evləndi. Gülzadə sarsıldı, gizlində ağladı, ona məxsus taxta çamadanı bir axşam açdı, səliqə ilə yığdığı məktubları ocaqda yandırmaq qərarına gəldi, ancaq. İnadı onun iradəsini uddu və dediyini elədi. Sən demə, cəmi-cümlətani kitabların arasında bir məktub qalıbmış. O məktub tələbə Atanın son kağızı imiş.

Budur, qarşısındadır, amma nə yazılmışdı – unutmuşdur, oxumaq istəmədi, çətin qarşılayardı. Sevgi hissi coşqun seldən də güclü və dağıdıcı olur. Kişilər ilk məhəbbətini, sevgisini unutmağı bacarır, qadınlar isə aciz qalır, hansı yaşda olursa.

Gülzadə Atanın başına yığışan vaxt ilk sevgini indiki ağırlığında təsəvvürünə gətirməmişdi, bəlkə də alacaqdı, onu qaçırmaqla hisslərin əlindən haqlı olaraq qoparmışlar.

Ata bu həftələrdə Gülzadəyə laqeyd qalmamışdı, yadına düşmüşdü, amma o, artıq ana və nənə idi, ötən günlərə qayıtmaq yersiz olardı. Amma görmək istədi, mərhəmanı söhbətin özü bir xatirdədir. Niyyətini bacısına deyəndə o, fikrə getdi. Bacı-qardaş arasında səmimi ünsiyyət uşaqlıqdan vardı, yaş fərqi nəydi ki!

– Qaqaş, – onu əzəldən belə çağırmışdı. – Məsləhət döyül.

Ata təəccübləndi:

– Nə üçün?

– Onun üçün ki sənə həyəcanlanmaq olmaz! – Ərkyana deyib güldü. – Qaqaş, axı mən ikinizə paçtalyonluq eləmişəm! Qismətdən artıq yemək olmaz. Hər bir günah üçün mərhəmət yeri də var. – Susdu, tərləmiş alnında qıvrılmış saçalarını yığışdırdı. – Elə şeylər olur, yaxud yada düşür – ona əl vurmamaq daha yaxşıdır, oyatmamaq gərəkdir. Balığın bədəninə bıçaq toxunduqca onun pulu yüngülcə sıçrayıb aşağı düşür, o balıq isə...

Ata bacısının müdrükcəsinə deyilmiş sözlərinə təəccüblənmirdi, əzəldən bu qızda dərrakə, güclü yaddaş vardı, hətta şeiri çox sürətlə əzbərləyirdi. Bir dəfə bacısı qəribə fikir söylədi, lap gülməli alındı: "Qaqaş, neynirsən bu qədər kağız korlayırsan, məktubu bir dəfə oxu mənə, Gülzadəyə olduğu kimi söyləyim!" Doyunca gülmüşdülər.

Bacısı qaqaşa durğun gözlərilə baxırdı. Bu gözlər həm dağınıq, həm də nüfuzedicidir.

Günəş batmaqda idi, ağacların yarpaqları qızarmış, budaqlara kölgəsi düşmüşdü, işıq pəncədən otağa süzülürdü, Atanın üzündə gəzişirdi.

Üç gündən sonra Gülzadə Atanın bacısı ilə görüşdü və yalnız bu sözləri pıçıldadı: "Atanın mənə yazdığı son məktubudur, verərsən ona".

Məktubda nə yazılmışdı?

## 8.

O adamla tanışlıq Xumara xanımın varlığında, hətta zahiri əlamətində, mühakiməsində müəyyən dəyişiliklərə səbəb olmuşdu – bu cür düşünməyə dəyərdi. Özünə suallar verirdi, susurdu, qərarında çətinliklərlə üzləşirdi: ikinci dəfə ərə getmək, birinci yatağı tamamilə unutmaq, bir sözlə, başqalaşmaq. Bunları həyəcansız, ürək sakitliyilə yaşamaq. Olub-keçən xatirələri yaddaşından silib atmaq. Xumara xanımda indiyədək hiss olunmayan şirin və qüvvətli duyğular baş qaldırmışdı. Amma acı tərəddüdlər uzaqdan boylanırdı: O adamın tanış olmaqda məqsədi normal görümlü qadın rəqqasə ilə kef çəkməli, bu ömürdən qalanı kişiylə başa vurmaqmı, yoxsa həqiqi qadınına çevrilib dünyaya uşaq gətirməkmi? Əgər o adamda coşqun igidlik varsa, düşündüyü təzadlı hisslər basılar, özünün məğlubiyyətilə sevinər. Birinci izdivacda qarət olunmuş bədənini təkcə yox, varlğını ona bağışlayar.

Xumara xanım bu ürək pıçıltılarını elektrik qatarında – ata yurdundan, dənizlə nəfəs alan kəndin-

dən qayıdarkən etmişdi. Vaqon sıxlıq idi, qatar hər dayananda adamlar bir-birinə dəyirdi, mürgü vuranlar ayılırdı, yuxu görənlər – adətən, yorğun adamlar belə olur – sıxıntı əzablı hadisələri itirdikləri üçün kədərlənir, bir-birinə tıxnaşmışdılar. Bir arıq kişi rəngi qaçmış halda, titrəyə-titrəyə ensiz ara dəhlizində əlini uzadır, dilənirdi. Onun uzun günlüklü kir basmış şapkasına atılan dəmir qəpiklər bir-birinə dəyib cingildəyirdi. Hər bir metal səsi ürəyinə toxunub, bədənini gizildədirdi. O, əvvəlcə bir manat atmaq istədi, amma qadından belə hədiyyə – hansı ki kişilərdən bəzisi qəpik-quruş atırdılar – rəva görmədi özünə.

Xumara xanımı bu mənzərə dəhşətə gətirmirdi, Bakı onsuz da başdan-ayağa sığorta edilmiş dilənçilərin ixtiyarında idi. O, O adamla bağlı düşüncələrinin davamı üçün qəti fikirlərə haqq qazandırmalı, ya da rədd etməliydi: – Bu iztirab tez gəlib keçərdi. – Xumara xanımın ürəyindən keçdi: “Məndən asılı olan şeydir. Bəs sonra nə ola bilər, hansı addımı atmaq olar? Cavabım o adamı qane edərmi? Ciddi atacağım addımı necə qarşılayar? Mənim son qərarım onun üçün təhlükəli görünməzmi: təkcə onun üçün yox, əsas mən özüməm, sirk həlqələrində oynayan isə Xumaradır, xanımsız!”

Yadına tələbə ikən Bakı sirkinə getdiyi bir gün düşdü və indi dəhşət bürüdü onu: Cavan qız elektrik

işığında sirk qübbəsi altında yellənir, bu, trapesiyadır – o vaxtlar belə adlanırdı – üstündə dayanmışdır. Qızın ayaqları yanında, ayağında zərli triko olan, sarışın saçlı, saçları işıldayan başqa bir kişi diz büküklərilə trapesiyanın dəmir qolundan yapışıb, üzü başıaşağı sallamışdı. O, sallanmış əllərini hipnoz edən akrobat baxışı ilə qıza baxır, eyni anlarda əl çalır. Qız qüvvətli və rəmsiz əllərə tərəf aşağıya tullanmaq üçün cəld hərəkət edir. Bu mənzərədən Xumara "ah" çəkdi, dəhşətli qorxu ilə köks ötürdü, bədəni əsdi – unudulmaz görüntü, ürəyi elə bil dondu, döyüntüsü kəsildi. Qız nazik ipdən möhkəmcə yapışdı. Aşağı sallanan əllər qalxdı, akrobatın gözləri daha da gərginləşdi. Onun üzünə sirayət etmiş əsəblərini sezdi. Aşağıda ayaq altındakı boşluq dibsiz görünürdü, oraya düşərsə, sonu nə olar?

Paravozun fit səsi xəyalını qırdı, artmaqda olan uğultu, təkərlərin qoşa relsləri döyəcləməsi. Stansiyada dayandı, müxtəlif sifətlər göründü. Dəmir arabalı hamballar yox idi, hər kəs özü yükünü aparırdı...

Xumara xanım adamaların arasında O adamı axtarırdı, onu Bakı vağzalında qarşılayacaqdı. Görüş heyrətləndirmədi Xumaranı. Bir-birinə gülümsəyib salam verdilər. Hər ikisi rahat nəfəs alır, pilləkanlarla üzüaşağı açıq meydana doğru gedirdilər. O adamın ürəyindən o keçirdi: "Mən yaxşı, mədəni qadınla tanış olmuşam, hər şeyə dərhal cavab vermək is-

təmir və ona səmimi nəzərlə baxır. Gülümsəyir, gözləri indiyə kimi özünə itaət eləmir. Biixtiyar mübhəm bir riqqətlə ürəyi çırpındı, hələ tam tanımadığı xanımın üzündə sakit ifadə oxunurdu, özü isə qənaətini qəlbində təkrarlayırdı: “Axtardığım bu qadın imiş?! Yolunu gözlədiyim tanınmış rəqqasə? Ömrümün sonuna qədər onunla yaşamaq mümkün olacaqmı, tale başqa ruhi və fiziki fəsadlar göndərməyəcəkmi? Mən inanıram, sənə bel bağlayıram”. Xumara xanımın: “Biz hara gedirik?” – sualı olmasaydı O adam hələ düşünəcəkdi.

– Yol gəlmisiz, vaqon silkələyib səni. – Cavab mücərrəd idi.

Xumara xanımın həyəcanı getmişdi, sakitləşmişdi, cavabı təlaş doğurmamışdı, indicə O adamı kənar kişi yerindən ayırdı, ehtiyatlanmadı.

– İstərdim dəniz kənarında sakit kafeyə gedək. Axı biz hələ oturmamışıq!

Xumara xanımın biləyindən tutub sahilə gedən yolu keçdilər. Bura maşınların sıx hərəkət etdiyi yol idi. İntizamsız cavan pijonlara çox arxalanmaq risq olardı.

Sahildə O adam Xumara xanımın qoluna girdi və Simvolik neft vışkasına tərəf yol aldılar...

Kafe ikinci mərtəbədə daha rahat şəraitdə idi, rəngbərəng və ətir saçan bəzək kolları ilə dövrələnmişdi. Təmiz hava buranı bolluca tuturdu. O, Xuma-

ra xanımdan çəkinmək, rola girmək istəmirdi, xasiyyətində yox idi, amma qadının qəşəngliyi və cavanlığı qarşısında gözləri dörd olmuşdu. Heç vaxt onun dodaqlarında bədxah təbəssüm görünməmişdi, könülsüz danışmamışdı, hiddətlənməz, karıxmazdı. Xüsusilə, yad qadınlarla birlikdə olanda. O, Xumara xanıma baxanda baxışlarını saxlayanda gizli təlaşı özündən uzaqlaşdıra bilmədi, bacarmadı: Xumara xanım da ona xüsusi bir ifadəylə nəzər yetirir, varlığında necə təsir oyatdığının sirrini xəbər alırdı. Sualedici baxışları Xumara xanımı bir daha düşünmək israrında qoyurdu. Ortada gərginlik yox idi.

Dənizə baxan stolda heç kəs oturmamışdı. Buna baxmışdılar – İki nəfər: qadın və cavan oğlan orada oturdular. Xumara xanım qadının geyiminə, qulaqlarında edam olunan birlyant sırğalarına, döşlərinin keşiyində duran bərqli medalyona gülməli olsa da qiymət qoydu və qeyri-şüurlu gülümsədi: "Bir ailənin bir illik büdcəsini gəzdirir" – pıçıldadı ürəyində. Və astadan dedi:

– Qadının paltarına baxdınmı? – Xumara xanım sual verib O adamın üzündə baxışlarını saxladı. – Cavan adam onun oğlu yerində deyilmi? – İkinci sualını verdi. Və diqqəti yayındırdı. Qadın özünü cavan qız yerində aparırdı, çəkinib eləmirdi.

O adam belə mənzərələrlə çox rastlaşmışdı və ona adi göründü: "Kişisini itirən kübar xanımlardır,

indi son şanslarını fövtə vermirlər”. – Ürəyindən sözlərin üslubunu dəyişdi:

– Xumara xanım, başqa çarə olmayanda belə gəncləri tora salırlar. Yəqin onun əri pul qazanmaqdan bezibdir. – Sözləri məntiqsiz alındı və özü hiss elədi. – Vaxtilə çapıb-talayıblar, indi arvadları qisas alırlar. – Meyvədən almanı dilimlədi, Xumara xanıma çəngəlin ucunda uzatdı.

– Yeyin, ətirlidir.

– O qadının gözləri cavan qalıb. – Xumara xanımın baxışları “cütlükdən” ayrılmamışdı. – Ayaqları balerina ayaqları kimidir.

– Gözləri işığını və cazibəsini saxlayıbsa, cavanla yol getməyə dəyər. – Bu sözlər Xumara xanımı tutdu və tanış olduğu kişi haqqında təsəvvürlərinin hələ səthi olduğuna inandı.

O adam öz bakalına şərab süzürdü, Xumara qəti imtina eləmişdi. Xumara xanım alma dilimlərinin şirəsini sorurdu. Ona elə göründü Xumara xanımın sualedici nəzərlərini özündə hiss edir. Lakin Xumara xanımın diqqəti qadında idi.

O adam anlayırdı ki, məhəbbət haqqında danışmaq hələ yersizdir, bu tezlikdə sevgidən söz salmaq düşüklük əlamətidir. Və şərabı qurtum-qurtum içirdi, söhbətinin məhəbbət üstünə gəlməsindən qorxurdu: “Şərabı təkcə ona görə içmirlər, meyxoşdur, ya

da şirindir, içəndə cəsarət gəlir, ürəyini açır, ya da qəzəbləndirir”.

Onların yanından keçib qonşu stola yaxınlaşan kişi salamsız keçmədi: “Onların daimi müştərisi ola bilər” – ürəyindən keçirdi və ehtimalına şübhə yeri qalmadı.

Kübar qadın qızardılmış toyuğu çətinliklə yeyirdi, parlaq və qiymətli dişləri karına gəlmirdi. Bu mənzərəni hər ikisi görürdü – gülüş doğurmuşdu.

Külək qadının kraxmallı donunun ətəklərini qaldırdı, baldırları ombasınacan göründü və bu Xumara xanımın bir rəqqasə olaraq diqqətindən yayınmadı. Cavan oğlan görünür şərabdan bir-iki bakal içmişdi ki yerində dingildəyir, qadının çil basmış əlini ovcunda sıxır, yan-yörəsinə baxmadan dodaqlarını qadının üzünə sarı uzadırdı. Nəsə pıçıldayırdı. Bu sözlərdən bir cümləni Xumara xanım eşidə bildi: “Sənin moruğa bənzər gözlərinə heyranam”.

Qadın cavanı daddığı ləzzətlərin girovuna çevirmişdi, buna xroniki şəhvət eqoizminin “dəliliyi” deyirlər, əks halda, bu yaşlı – cavanlığında dünyanın ən ali nemətindən yarımayan qadınları kəsafət basar, daha sürətlə əldən düşərlər, belələri dolu gözlərinin yaşını saxlamağı bacarmırlar, gecikmiş şəhvət duyğularından əziyyət çəkirlər. Belə kübar qadınların yaşı 50-60 olanda belə, özlərini idealist təsəvvür

edirlər və hələ qocalmaq fikirləri olmadıqlarına cavanları inandırırlar.

Bu günün, bu əsrin cavanları haqq-hesablarında çaşmaqda davam edirlər, əvvəlki zəhmət, əlləşib-vuruşmaq ki, evə çörək aparsınlar – o dövr keçmişdir, qoca ataları kimi yaşamağa dəyməz, belə iş bizim üçün təhlükəlidir, təhqiramizdir. Biz sərbəst yaşamalıyıq, qadınların əhatəsində olmalıyıq. Qızlar bizə sərf etmir, onlara əl toxuncaq fantastik şeylər istəyirlər.

Belə qadınlar ehtirasa uyduqda səmimi olurlar, qürurları yalan danışmağa maneçilik törədir, daha çox şıltaqlığı xoşlayırlar. Cavanların zəif damarlarını daha tez tuturlar, mərhəmətli və səxavətli görünürlər, özləri üçün gərəkli olanı başqalarından əsirgəyirlər.

– Sən belə qadınla, yaxud qadınlarla rastlaşmısanmı? – Sualı Xumara xanım gözləmirdi. – Bizim elitar dairələrdə onların hökmü yeriyir.

– Düzü, maraqlanmamışam. – Xumara xanım cavabından razı qalmadı və əlavə etdi. – Rastlaşdığım olmuşdur, ancaq beləsindən yox. Onu deyirdim ki, cavan adamlara qarşı biganə deyillər.

– Haqlısan, Xumara xanım. Belə xasiyyəti sonralar qazanmırlar, məgər xasiyyət 180 dərəcədə dəyişir? Beşikdə necə vardısa. Kişisi zəifdir, qadını güclüdür, yekrəng həyatları ilə barışmaq istəmirlər,

çətindir onlar üçün. Onlar nəvaziş, hərarət, ehtiras üçün – bunlara müqavimət göstərməkdə aciz olurlar.

Xumara xanım tutuldu bir dul qadın kimi və ehtiras onu da dəfələrlə kişi ağuşuna tullamaq istəmişdi. Amma müqavimət göstərməyi bacarmışdı, gücü çatmışdı. Hələ bir dəfə uşaq dayəsinin yanına qaçan kimi Çapayın hüzurunda olmaq istəmişdi. Gözünə görünən o oldu ki boşluq, məchulluq, tənhalıq. Bu "üçlük" onunla nəticələnəcəkdi – sağlam hissləri, ana olmaq instikti, kişi yatağına halal girməyini yandıracaqdı. Necə sevməyi başa düşmək lazımdır, sonra necə yaşamaq tərzini. Budur, arzuladığı möcüzə ilə qabaq-qənşər oturmuşdur, ancaq onun ürəyindən nələr keçir – bilinməzdir. Məgər o da tənha və əlacsızdır. O ki kişidir, azad və qüvvətli cinsə məxsusdur, istədiyi qadınla evlənər və xoşbəxt yaşayar. – Xumara xanım cəsarət göstərib, əlini onun sol əlinin üstündə saxladı, çəkinmədi, ancaq bənizi avazımışdı, qüssəli təbəssümlə gülümsədi, o da qəmli gözlərilə Xumara xanımı süzdü və:

– Burada çoxmu oturacağıq? – dedi.

Ayağa durdular (haqq-hesabı çürütmüşdü), Xumara xanımın qolundan ustufca tutub yüngülcə qaldırdı. Hər ikisi bu görüşü "qəribə görüş" adlandırmışdı, bir-birinə güzəştli söhbətlər etmişdilər, təşviş doğurmamışdı və bu görüşün "sirri" açılmalı idi.

Heç biri şübhə eləmirdi, ona görə ki, bu sirr yalanla bəzədilməməlidir.

Xumara xanım aydın gözlərilə ona baxır, baxışlarını çəkmirdi, sanki nə istədiyindən bu kişi xəbərsizdir, amma ağıllı və mehriban insana oxşadırdı.

O, danışmadan yeriyir, gülümsəyirdi. Xumara xanımın əlini yavaşca sıxıdı, o isə bu nəvazişə cavab vermədi, yoluna davam edirdi. Bu görüş doğrudanmı iki nəfərin ürəklərini biri-birinə etibar edəcəklərinə zəmanət verəcəkdi.

Sükut başlamışdı aralarında. Xumara xanım gözlərini ondan çəkməmişdi.

Sahildə payız havası dolaşırdı, üfüqə tələsən günəş daha yaxşı isindirirdi: təmiz hava bakirəydi, gözqamaşdırıcı şəfəqlər gümrah insan əhvalını, yaranan dolaşıqlıq və ümidsizlik ovqatını əridirdi.

## 9.

Ata tez-tez azarlayırdı, bəzən havası çatmırdı, keçmişini yada salıb kədərlənirdi, uzaq düşmüş dostlarını görmək üçün burnunun ucu göynəyirdi. Amma o, fikrini dağıtmağın iki yolunu seçmişdi: təbiətin qoynuna çıxmaq və kitab oxumaq. Məsləhətlər də ikiydi: çox gəzmək olmaz, yorulub əldən düşərsən və "filosoflaşıb" dünyanın ziqzaqlarını, ziddiyyətlərini, haqqın tapdalandığını idrak edib

ruhdan düşərsən. Bəs hansı yolu seçməli idi – yaşasın, həyat gözəldir, üstündə gəzmək daha gözəldir, fikrə, düşüncəyə gələndə İnsanı heyvandan ayıran onun ali şüurudur, onu işlətməyəndə o adam daxilən heyvanlaşır. Deməli, məsləhətlər bir-birini basır, ortada isə İnsan qalır ağırlığı ilə.

Ata kənddə, ata yurdunda rahat idi, hətta Aytac kəndə gələn xüsusi "taksi"lərin sürücülərilə ərzaq göndərirdi. Məsləhət görülən sulardan da. Bibisi telefonda narazılığını desə də xeyri yox idi. Bacısının yeganə ağrısı xaricə – oğlunun yanına gedəndə qaqaşının baxımsızlığı xiffəti idi, amma bunun çıxış yolu vardı: "Arvadı gəlib qalar yanında. Aytac daha uşaq deyil a! Bəli, Allah onun qapısını açacaq!" – Düşünürdü. Bacısı kənd məktəbinin direktorundan razılıq edirdi: "Atanı məktəbə çağırdılar, şagirdlərlə onun görüşü yüksək səviyyədə keçdi. Müxtəlif vəzifələrdə ləyaqətlə işlədiyini, bir əlinin doğma kəndinin üzərində olduğunu da xatırladılar". – Ürəyindən keçirirdi.

Görüş ona ruh vermişdi, özünü gümrah hiss etmişdi. Nə edəsən ki, səhhəti yerində deyil, Allah bilən məsləhətdir. – Düşündü və qaqaşın ovdan qayıdacağı vaxtı xatırladı.

Ata həm birinci, həm də ikinci məsləhəti diqqətində saxlamaqda idi: hərəkət etmək və həyatı – kainatı anlamaq.

Kitab rəfinə yaxınlaşdı: üçüncü cərgədə ən çox oxuduğu kitabları yerləşdirmişdi. Platon "üçlüyün-dən başlamış Əlisa Nicat "üçlüyü"nə qədər, xüsusilə Əlisa Nicatın tarixi romanları və esselərini yorulan vaxtı oxuyurdu: fəlsəfi traktatlarını səhhətinin normal saatlarında vərəqləyirdi. Ataya aydındır ki, bədən – ruh sağlam olmayanda insan süstləşir, beyni kilidlənir, dərinə varmaqda acizləşir. İndi şənbə günü əhvalı hələlik yaxşıdır. Dünən Aytacın solo rəqsinin təkrarına baxmışdı, yeni-yeni çalarlar tapmışdı.

Ata otaqda tək qalmışdı. Bacısı sənədlərlə neçə gün idi məşğul idi, lakin:

– Biz görəsən süründürməçilikdən xilas ola biləcəyikmi? – Sualı verəndə özünə – qaşları yığıldı, gözlərində nigaran ifadələr oyandı. – İnsanlar həyatın həyəcanından və təşvişindən canlarını qurtara bilmirlər. – O, yatan adamlar kimi dodaqlarını çeynədi. Və Əlisa Nicatın son kitabı "Qəmli proqnoz"unu vərəqləməyə başladı: Kainatda iki qüvvə mövcuddur, ətalət və hərəkət. Bu qüvvələr materiya ilə kütlə arasındadır. Bəs mənbəyi haradan gəlir? – Suala cavab elmi idi: "Proton" adlı hissəcik "elektron" hissəciyi dartır, özünə çəkir, cəzb edir. Elektron da mərkəzdənqaçma və ətalət qüvvəsilə qaçır. Qüvvələr isə bərabərdir, ona görə də elektron daima proton ətrafında fırlanmağa məcburdur: yəni bu hərəkət uzaqlaşma ilə şərtlənir. Uzaqlaşanda işıq saçır elek-

tron, onda cərəyan var. Protondan aralı hissəcik də mövcuddur ki, "neytron" adlanır fizikada. Bu hissəcik prosesə iştirakçı olmadığından "neyron" adlanır, yəni neytraldır.

Ata azca yoruldu və kresloda oturdu (Aytac şəhərdəki kreslonu göndərmişdi. Atası buna adət eləmişdi, qəzeti, kitabı rahatca oxuyurdu, çayı buxarlanırdı). Həyətə açılan qapıdan bağça görünürdü, qızılgüllər ləçəklərini payızın cənginə verməmişdi, heyva ağacları meyvəsini tam yetişdirməmişdi – gec yetişirdi, qışacan ağacdan qopmur. – Köks dolusu nəfəs aldı. – Təbiətin qanunları da var: bir ağaca, bir bağçaya, bir meşəyə... öyrəşən quşlar ayrılmırlar məkanından. – Ata lap keçmişə qayıtdı, uşaqlığına. Qaratoyuqlar və cüt sağsağanlar bağlarının həmişəlik sakini idilər, illər keçsə də onların nəsli, ayaqları bağdan çəkilmədi. Bu quşlar vətən hesab elədikləri yurdu unutmadılar. Budur, qaratoyuqlar gah tut, gah da gilənar ağaclarına qonur, atılıb-düşür, balalarına bələdçi olurlar. Sağsağanlar səhər "xəbərlərini" çatdırırlar.

Ata bir siqaret yandırmışdı, yarıyacan çəkmişdi. Kreslonu sürüyüb balkona çıxartdı. Sonra kiçik çayniki gətirib rahatladı və armudu stəkana çay süzdü:
– Bizim planetdə yaşayan İnsan məxluqatıdır ki, onun adına Həyat yazılmışdır, bir-birindən ayrılmazdır. Başqa planetlərdə ulduzlar çoxdur, amma

həyat yoxdur. Bu canlı məxluq İnsan daima hərəkət edir, iş görür, düşünür. Onun – İnsan məxluqunun ali şüuru – beyni işləyir. Davranışını təbiətə uyğunlaşdırmışdır. Hakimiyyətə yiyələnmişdir, ağalıq iddiasına min illərdir düşmüşlər. Bu məxluq həm də minlərlə xəstəliklərə məruz qalır – beyinlərə qədər sağalmayan fəsadlar baş verir. Hətta İnsan mövcudatı nitroqliserin partlayışı dərəcəsinə çatır. İnsan hakimiyyətindən istifadə etməklə sərbəst qazanc, dağıtmaq, əraziyə sahib olmaq kimi qeyri-humanist yollardan çəkinmirlər. – Ata son vaxtlar oxuduğu, eşitdiyi xəbərlərdən sarsılırdı, xüsusilə, müsəlmanlara qarşı xristian naqisliyi. Belə anti insani oyunu ulu diyarımız Qarabağın da başına gətirmişlər.

Ata yerindən qalxdı, kreslonun oturacağının cırıltısına qaratoyuqlar uçub kənarda yerə endilər. Və papirosun qalanını bir-iki qullabla tüstüyə çevirib üfürdü. Atanı narahat edən, az-çox müxtəlif dairələrdə işlədiyi və müşahidə etdiyi yeni nəslin bir qrup rəsmilərinin riyakarlığı, tuğyan edən acgözlük, pozğunluq, mənəviyyatsızlıq, hətta qəddarlığın baş alıb getməsiydi. Təbiəti təbiətindən çıxarırlar, inşaatçı – maqnatlar goreşən rolunu məharətlə oynayırlar, havadarları isə məharətli rəqsə görə əl çalırlar.

Ata fikrinə nikbinlik verməyə çalışır, artırmada var-gəl edir, bacısından nigaran qalırdı. Yorulurdu. Düşüncələri bəyaz yuxu kimi səssizcə uzaqlaşdı və:

– Özünüz, öz xassiyyətindəki ətaləti rədd elədi, pıçıldadı: – Budaq sınsa eyb etməz, təki ağacın gövdəsi sınmasın.

Ata filosofluq etmək fikrinə düşməmişdir, lakin həyatın özü filosofluğu pıçıldamışdır: Mövcud mühit? Onu idarə edən təbəqə bilməmiş olmaz ki, İnsanı enerji qatı-aura əhatə edir, bu isə kosmik enerjinin əks olunmuş formasıdır və hər bir adam aurasının öz şəkli, sıxlığı və rənginə malikdir. Di gəl, makro mühitdə – cəmiyyətdə terminlər dolaşır: "Dərddən bozarmaq", "Hirsindən bozarmaq", "Qorxudan ağarmaq" heç də ürək açan mənzərə deyil. Niyə axı, azad və müstəqil həyatımızda dərdin üstünə dərd kimi gəlməlidir, qorxudan rəngimiz ağarmalıdır, əsəblərimizlə oynamalıdılar. Bəlkə insanları bu mövcudat rəqqas gününə salıb ki, oynasın, o çağa ki başını itirsin! Görünür, pərdə arxasında mütəxəssislər var – insanları rəngdən-rəngə salmaq layihələri hazırlığındadılar, psixi-emosional vəziyyətlərdə mühitin rəngini dəyişirlər, fərqləndiririrlər: elitar-kübar aura və aşağı – əli üzülən təbəqə.

Ata çaydan bir-iki qurtum içdi, iti gözlərində vahiməyə bənzər ifadə vardı, gülümsəmək istəyirdi, əsəbləri yumşalsın. Və özünə sual elədi: – Aura – fiziki mənada görünürmü? – Gözlərini yumdu, şagird zamanına uçdu xəyalı. – Əbəs deyildi: O vaxt çayın qırağında – çox sulu axırdı – oturmuşdu, dostları hə-

lə gəlməmişdi. Çayın axarına doğru güləyən quşlar (onlar qağayı cinsindən olub balacadılar) uçur, sanki “gülürlər”, birdən cüt güləyəni əhatə edən parlaq yaşıl rəng gördü. Dumana oxşatdı, amma elə parlaq şua idi rəngində. Ata belə yozdu ki, o parlaq şua auradır, insanın fikirləri onun aurasının rənginə təsir göstərir. O vaxt yaşıl idi – axı yeniyetməlikdən gəncliyə gedirdi, hər şey hərəkətdə idi, pis emosiyalar olsa da, indiki həddinə çatmamışdı. İndi tünd rəng alıb aura – mühit, çünki intiqam, paxıllıq hissi, zinətkarlıq, cibgirlik, yerlibazlıq baş alıb gedir.

Auradan yazanlar – Ata bəzi mənbələri xatırlaya bildi – vurğulayırlar ki, bu anlayışda “meh”, “külək” ab-havası vardır və insanın ilk nəfəsilə əmələ gəlir, son nəfəsilə bitir, bədənin, vücudun – varlığın kosmik energisilə qarşılıqlı əlaqəsidir. Bununla o, insanın vəziyyətini müəyyən edir; görünür, belə üstünlük ali təbəqənin kainatla, kosmosla kontaktında əngəllər yaratmaq qabiliyyətini də qabardır. Adi insanların, “aşağı” təbəqənin aurasının rəngi və arzusu danılmazdır – əlçalan sosioloqlar, iqtisadçılar, şeir bül-büllüləri inkarı ilə məşğuldur. Məsələn, daxilən, ruhən güclü olan insanların aurasının həcmi, sıxlığı daha çoxdur, hamardır, rəngləri tamdır. Üçkünc aura isə o insanlarda olur – hamını müdafiə edir, yaxud, müdafiə altında olan adamları da.

Maraqlı faktla rastlaşdı Ata: aurada oxlar görünərsə, deməli, o şəxs gərginlik halını yaşayır, steress içindədir, hey vurnuxur. – Mən onlarla üzbəüz vəziyyətindəyəm. – Ata qərara gəldi və ayağa durub məhcərə dirsəkləndi: – Bu gün fərəh gətirmir, ziyalılar sınır, əzilir, heç cürə imkan vermirlər cəmiyyətdəki auranı təmizləsinlər, nə təklif irəli sürülürsə kənara atılır. “Acı illər” deyərdim, bu illər acı bağırsaq kimi uzanır, qəssabların qollarına dolanır ki, açılmasın.

Qaratoyuqların səsi lap yaxından gəldi. Ata o ağaca boylandı. Cüt quşlar haradasa mədələrinə nəsə ötürmüşdülər, qırmızı dimdiklərini nazik budaqda təmizləyirdilər. Sağsağanlar görünmürlər, görünür “təzə xəbər” olmadığı üçün xəbər dalınca uçmuşdular.

Ata üşüdü və içəri otağa keçdi. Televizor bayaqdan açıqdı, ekranlar “dolur”, “boşalır”dı. Təsadüfən bir verilişdə ana və qız uşağı nümayiş etdirilirdi. Məşhur aparıcı tamaşaçılardan, ümumən xalqımızdan, onun imkanlı balalarından yardım diləyirdi: “Uşağın müalicəsi xaricdədir, maddi imkanı isə yoxdur”.

– Bu nə təhsildir, 20-25 ildə bir-iki düzəməlli həkim – cərrah yetişdirə bilmir, halbuki, yeganə Tibb Universitetinə ən yüksək tituullu professorlar, akademiklər, rektorlar “təyin edilir” şəxsi iradə ilə. Olmazmı müəllim kollektivi özü seçsin? Azərbay-

canın valyutası xarici dövlətlərin büdcəsinə, həkimlərin ciblərinə axır. Ata qeyzlənmişdi: – İnsanın sağlamlığının mühafizəsi də korrupsiyalaşmışdır. Səbəbi?

Ata istənilən səbəblər tapırdı, vaxtilə bu "dairəni" yaxından görmüşdü. – Haradan peydə olunurlar? Beləsi ruhsuz, ruhdan məhrum canlılardır. Qəribə deyil mənim aləmimdə. İnsanlar heyvanat aləmindən niyə ibrət götürmək istəmir, bir neçə gün ömrü olan kəpənək təbiətə, insana gözəllik paylayır. Allah-Təala canlılara elə xüsusiyyətlər vermiş ki, oxşar qidalarla bəslənsələr də fərqli məhsullar yetişdirirlər: Yaşıl tum yarpağını mal-qara yeyir, ondan ət, süd, yun hasil olur. Kiçik ipəkqurdu həmin yarpaqdan ipək emal edir. Maral qidalansa ondan müşk qoxusu əldə olunur. Arının çiçək tozlarından bal düzəltməsi və ilaxır şeylər var – insan iqtidarı xaricindədir. Eləcə də adi ot olaraq görünən cürbəcür çiçəklərilə torpaqdan çıxardılan rənglər, qoxular, canlılıq nişanəsi, yaşıl yarpaqları hansı kimyagər əldə edə bilər. – Ata düşüncələrində mühakimə elədiyi faktların mövcudluğunu Ruhla bağlayırdı və "ruhsuz" mövcudat yoxdur. Ruh Allah-Təalanın rəmzi ifadəsidir, laməkandır, amma Dünya Ruhda yerləşir. Bəzən Ruh sığınacaqda deyilsə, Ruh dünya ruhunda yerləşir. – Ata oxumuşdu ki, İnsan düşünən Ruhdur, onun əsas mahiyyətini şərtləndirən budur: öz ma-

hiyyətini bilmək – mütləq ruhu – Allah-Təalanı dərk etməkdir. Belə məntiq özünü doğruldur, cari cəmiyyətimizi bir qrup öz şəxsi iradəsilə fırladır ki, İnsan – bütöv toplumda dərk etmək hissindən uzaqlaşsın, kütlə halına endirilsin. Axirət dünyasına inanmasın, "hər şey bu dünyadadır" ideyasını mənimsəsin, "biz idarə etmək üçün doğulmuşuq" fəlsəfəsini aşılasın. – Ata kitab rəfindən Nəsiminin şeir kitabını götürüb vərəqlədi. Nəzərdə tutduğu şeiri axtarırdı. – Nəsimi inamında Allah özünü dərk edən Ruhun saflığında təcəssüm edir və bu mənada şair saflaşan ruhu ləkəsiz güzgüyə oxşadır: "Güzgünü iri tutun, güzgüdə Allahı görün" – deyir.

Ruhun özünüidrakı sonsuz ilahi eşqdən zühur edir, bu eşq vəhdət aşiqinin can evini abad edir:

***Aşiqin memarı heçdir, yanar anın batininki,***
***Bu evi heçdən yapılmış, sənsən əhli etibar!***

Ata darıxdı, otaqda var-gəl eləyir, qərar tuta bilmirdi, balkona da çıxdı, iş o yerə çatdı toyuqlar və sağsağanlar üçün də qəribsədi.

– Deməli. – Ata siqaretini yandırmışdı, amma qullab vurmamışdı, sövqtəbii eləmişdi. – Məni bu evdə darıxmamağa qoymayan səbəb bacımdır, onun bu illərdə kənddə baş verən əhvalatları söyləməsidir, anamın iyini ondan almağımdır.

O, bir neçə həftədə özünü xoşbəxt hiss eləmişdi, əzablardan uzaqlaşmışdı, meşəni, çayqırağını gəzib-dolanmasına uşaqların necə balıq tutmalarına tamaşa da etməsi səbəb yaratmışdı. – Deməli, həyat mən düşündüyümdən də gözəldir. İndiki yaşımdan da səadətliymiş: Dərsdən ac gəlib süfrədə iştahla nahara oturması, şənbə günü həyətdə hamama oxşar daxmada anasının onu çimizdirməsi, atasının kolxozdan yorğun olsa da gülümsər sifətlə gəlməsi, oğlunu və qızını qucağına alıb öpməsi, "dərslərinizdən nə aldız?" sualına cavab gözləməsi. Mən elə bilirdim həmişəlik uşaq qalıb, ata-anamın əzizləməsindən fərəh duyacağam. Onlar üçün həmişəlik uşaq qalacağam. Həmişəlik a! – Ata güldü keçmiş uşaq sadəlövlüyünə. – Kaş elə düşündüyüm olardı, heç nə düşünməyəydim. Bunun üçün özünü daima xoşbəxt hesab edərdi. İndi bunlar ötən keçmiş deyil, hazırda bir səhnə olaraq təsəvvürümdə canlanır. İnsanı sevmək, ona ürəyinin yanğısını vermək lazımdır. Hətta sənə kin bəsləyənlərdən tezliklə intiqam almaqda tələsməyə ehtiyac yoxdur. Sevgi Allahdan göndərilən nemətdir. Nə qədər yaşasam da sevgini qoruyacam. – Ata bu yerdə sözlərini davam etdirmədi və unutduğu siqaretdən qullab vurdu, azca gecikseydi sönəcəkdi. – Bir yeniyetməlik sevgimi qorumağı bacarmadım, ağlım kəsmədi ki. Xoşbəxtəm ailə qurmaq-

da, amma o sevgim qəlbimdən silinib getməyəcək. Hm. Belə.

Atanı otağın cansıxıcı səssizliyi sıxdı. Burada o, işləmiş, künc-bucağa qaçmış, ansının dizlərindən tutub, əmcəyinə əl atıb əmmək istəmiş, məqsədinə çatmamışdır. Bacısını bu otaqda həm əyləndirmiş, həm də savaşmışdı bir oyuncaq üstündə. Bu otaqdan məktəbə getmişdir. – Ata o illərə döndükcə sanki dədə-baba yurdunu da innən sonra itirəcəkdi. Atası deyirdi ki, oğul, yurdunu tərk edəndə o məkana heç kəs köçmür, elin adətidir. O yurd dağılar, xarabalığa dönər. – Atanın fikrindən canı ağrıyırdı, ancaq unudurdu, qoy dəqiqəlik olsun, saatlıq olsun. Atası daha yoxdur bu dünyada. Atanı ağrıdan bir səbəb Allahın ona oğul payı verməməsiydi, yeganə qızı Aytacdan yerlə göy arası razıdır, şan-şöhrəti öz yerində. Hətta ata-bala söhbətlərin birində "Nə üçün oğlan doğulmamışam?" demişdi. Bu sözdən qəlbi ağrımışdı: "Ata, oğlan olsaydım oğul-uşaq atası olardım, sənin yurduna sahib çıxardım" – düşüncəsində bu "ideyanı" gizlətməmişdi. "Daha şəhərdə yaşamağın bir mənası, həvəsi qalmamışdır" fikrini də qızına demişdi: "Bəs karyeran, bu zirvə üçün illərini qoydun, daşlı-kəsəkli yollar adladın, bala. Yıxıldın sənətin qarşısında, amma iradən əlini buraxmadı. Bu addımını kollektivin necə qarşılayar, nəyi düşünərlər?". Aytacın cavabı belə oldu: "Nə deyərlər desinlər, ata.

Haqlı da olsalar, Ata yurdunu tək qoyum? Bibim bu gün sabah gedir”.

İnsanların bir qismi tutduqları işin dəhşətlərini hiss etmir, sirli qüvvə ilə adamlara yalan vədlər verir, anlaşılmaz hisslə idarə edir, əzirlər. İnsanların təbii iradəsilə yox, cəmiyyəti idarə edən qüvvənin iradəsilə baş verən bu dəhşətli işi hey davam etdirirlər. Cəmiyyəti yaxşı olardı kəmsavadlar, dilitantlar yox, aqil filosoflar idarə etsinlər, oxumuşuq ki, bəşəriyyətin saysız insan istəklərindən meydana gələn hərəkəti də fasiləsiz şəkildə baş verir: bu hərəkətin qanunlarını öyrənmək tarixin işidir. Lakin insanın haqlı istəkləri fasiləsiz hərəkət qanunlarını öyrənmək üçün ağıl, düşüncə arası kəsilən vahidlərə yol verir. Tarixin şahidliyi var ki o, bir padşahın, imperetorun, prezidentin fəaliyyətini insanların istəklərininin və haqlı tələblərinin məcmusu heç zaman bir tarixi şəxiyyətin fəaliyyətində ifadəsini tapmır.

Ata divanda uzanmışdı, fikirlərindən kənarlaşmaq istəyirdi, həyət darvazası açıldı. Gələn bacısı olmalı idi. O, bir qadınla söhbət edərək gəlirdi.

## 10.

Xumara xanım O adamla ilk tanışlığından razı qalmışdı: dul qadın və sənətçi olaraq həm söz-söhbət kəsilərdi, həm də ərli qadın olaraq “ana” adını

taleyi ona çox görməzdi. Bu hisslər müqəddəs arzu idi: bizim giley etmək, ucuzluğa getmək, adi, lazımsız faktı şişirtmək vərdişimizdən gəlirdi. Digər tərəfdən, Xumara xanım qadın formasını, şuxluğunu saxlamışdı, hələ də gözü onda olanlar ətrafında dolaşırdı.

Çapayın əlindən üzüləndən sonra bir müddət ruhdan düşmüşdü, ərə getmək zoruna təkid etməsə də, yaşamağa üstünlük vermək istəyində idi: uşaq məsələsində isə ixtiyarat Çapayın əlində olacaqdı, amma bu qısa vaxtda Xumara xanım qüssəli həzz duyduğunu gizlətmirdi: qeyri-rəsmi oğlanla gəzib-dolaşmaq arzuolunmaz sayılırdı.

Bir gün şəhvət ehtirası ilə parlayan gözləri soyudu. Əvvəllər ehtiras yanğısının şəfəqlərini duyurdu və haçansa püsgürəcəyinə inanırdı, qəlbində məmnunluq duyurdu, bu alovun xırdaca şəfəqləri ona kifayət edərdi.

Xumara xanım otağında bu xəyalla düşünürdü. O, yumşaq və ağ pəncəsini döşəməyə qoydu, nədənsə şam işığında oturmaq istədi, mətbəxdən gətirib stolun üstünə qoydu, yandırdı. Oturduğu ətrafa ağ-sarımtıl rəng çilədi, divana şöləsi çatırdı. Xeyli keçdi, şam əriyir, göbələk şəklinə düşürdü, girdə işığı Xumaranın açıq sinəsində çırpınırdı. Əllərini döş nahiyyəsində gəzdirdi, barmaqları səyridi, bir-birinə dolaşdı, bədəni gizildədi. İşıq düşən gözləri qıyıldı,

bənövşəyi rəngdə boğuldu. Açıq gözlükdən axan xəfif külək köynəyinin içinə dolub dalğalandı və indicə gülümsədi.

Xumara xanım gözlüyü örtdü, qapını azca araladı. Qolsuz gecə bluzunu əyninə keçirdi, daha qəşəng göründü, ağ bədəni titrəyirdi, sinəsi döşlərini sıxmış kimi görsənir, üzündəki yorğunluq çəkilir, olsa-olsa kişi nəvazişinə və şıltaqlığına ehtiyacın ağrısı idi. Tutqun təbəssüm də bu ehtimalı təsdiq edirdi.

O adamın zəngindən narahat idi, uzun-uzadı danışır, onun üçün "dünyanın o başına getməyə" hazır olduğunu söyləyir. Belə vədin birində Xumara xanım "o dünyanın o başına ehtiyac yoxdur, elə bu başı bizə kifayətdir" deməsilə bu söz birləşməsinə yekun vuruldu.

O adamın gözdən düşməsinə səbəb nəydi ki, çox coşğunluqla və sürətlə başlanan tanışlıq soyudu: O adam Xumara xanımın razılığı – tanışlıq üçün etiraz etməmişdi – sonra atüstü görüşə çıxmışdı, konsertlərə gəlmişdi. Və imkanlı olduğunu başqa incə yolla andırmışdı: ayrı yerdə iki otaqlı mənzili və daha əlavə yüngül minik maşını varıdır. Xumara xanım cavabında demişdi ki, bunlara nə ehtiyac? Oğlunu evləndirəndə lazımdır – bədahətən dediyi bu sözdən kişi tutuldu, rəngi qaçdı, oturduğu stulda qımıldandı: "Haradan bildi, kim dedi, həssas, "pramoy" qadındı" fikrindən vahiməłəndi. Xumara xanıma özü-

nü xeyirxah (bəlkə də “sözünün ağası”), istədiyi qadına sadiq adam kimi təqdim etmişdi. “Əgər bizim tanışlığımız ər-arvad statusu alarsa bu məsuliyyətin keşiyində duracağam. Təki, sənin kimi mələyim olsun – sözlərindən Xumara xanım heyrətləndi və: “Çox irəli düşünürsən, çayı atdanmamış” – susmuşdu. O isə belə cavabı gözləməmişdi, əksinə, daha bir proqnozu eşitdi: “Hələ özünün kimliyindən söz açmırsan, onu bildim ki, imkanlı, orta təbəqəli məmursan. Ola bilməz ki ailən olmasın, qadınsız, uşaqsız bu yaşa çatmısan”. – Güllə atılmışdı, hədəf uzaqda deyildi boşa çıxsın. – Xumara xanım onun gözlərinin içinə nəzər yetirir, hansı hala düşəcəyinin gizlin mənasının şahidi olmaq istəyirdi: “Deyirlər özü yıxılan ağlamaz, ağlamadım, başqası yoxsa necə, ağlamamaq mümkünmü?” – Beynində dolandı bu və daha özgə şübhələr. O adam belə söhbəti nə gözləyirdi, nə də hazır idi yayındırıcı cavab versin. Gözləyirdi və ümidliydi, Xumara xanım onunla görüşüb, bir dəfə nahar ediblər, telefon danışıqları “konfliktsiz” olmuşdur, ona qarşı doğma, diqqətli, yardımçı niyyətindədir, bu tanışlığa onun özü sevinəcək, təklifinə qarşı ürəyi yumşalacaq, sevimli Xumarası olacaq. Rəqqasə olaraq maddi vəziyyətindən gileylənəcək, az məvacibdən hətta konsert verməkdə acizliyindən şikayətlənəcəkdir. O isə gülə-gülə: “Bunlar ciddi məsələ deyil, əzizim” – söyləyəcək, “layihəni

ver mənə, başqa qayğı haqda fikrə düşmə" deyib, əlavə mənzilinə (sözləri ürəkli pıçıldamışdı) dəvət edəcəkdir.

Hər bir insanın öz işində öz fəaliyyətini, durumunu yaxşı hesab etməsi vacib şərtdir. İnsanın vəziyyəti necə olsa da, öz həyatı barədə özündə elə bir təsəvvür yaratmalıdır fon ona yaxşı görünsün. O da bir adət halını alıb, hər bir sənət – peşə sahibi: oğru, talançı, sənətçi, hətta "qədim peşə sahibləri" nəyə qulluq etdiklərini bilirlər, amma utanmırlar. Onların taleyi – günahlarının, səhvlərinin ucbatından xəcalət çəkmirlər, başqalarında elə bir təəssürat oyatmağa çalışırlar ki, hörmətə layiq məxluqdular. İnsanlar instiktiv olaraq elə mühitdə dolaşırlar orada onların həyatı, mövqeləri haqqında pis rəy də yaranır. Oxuyanlar və rəqs edənlər o dərəcədə açıq-saçıq görünürlər sənətləri kölgədə qalır, bədənləri gözə soxulur. Buna səbəb yaradan bir də odur, biz belə dairədən kənarda dayanırıq. Lakin var-dövlətləri, sərvətləri və vəzifələrilə öyünürlər, hətta zorakılıqları ilə fəxr duyurlar. Sənət aləmində də onların əxlaqına bəsit yanaşan hökmlülər mövcuddur.

Xumara xanım öz həyatı, öz vəziyyəti haqqında daima düşünən qadındır, sənətinin müvəqqəti ömrə malik olduğu ilk addımlarından yəqinləşdirmişdir: – Nə qədər cavansan, çeviksən, bədənin yırğalanır, əllərin havada oynayır, ayaqlarının gücü çatır dəbdə-

sən. Sonra unudulursan. Formada ikən kişilərin: pulluların, vəzifəlilərin və cavan comərdlərin diqtəsində olursan, onların arzuları səni ələ keçirmək, dərib qoxulamaq və kənara atmaqdır. Heç bir kişi mətbəx iyi verən arvadına dəyişmir səni. Onların istəkləri yalnız bu olur: rəqslərdən həzin zövq almaq, cazibəli bədəni oynatmaq.

Xumara xanım hələ neçə il qabaq qəşəng üzlü, elastik bədənli, dolu baldırlı qadın olduğuna görə, belə kişilərin arzularını ödəyə bilərdi, bütün maddi tələblərini yerinə yetirənlərlə, lakin bu yolu tutmadı. O, təsdiqləyirdi ki, bütün kişilər qadına, xüsusilə, incəsənət xanımlarına möhtacdılar. Ona ehtiyac duyan kişiləri isə görmək istəmirdi, saymırdı. Ona aşiqlik edən kişiləri aldatmaq, pulla satın almaq, könülsüz bədənə yiyələnmək və ilaxır üsullarla şəhvət hisslərini gözlərində qoyurdu. İndi şəhvət düşgünü bir nəsil yetişir. Ömründə bir qadının əlini sıxmayan kişiləri başqa nüanslar ayıldır.

O adamı Xumara xanım bu kateqoriyadan hesab etmişdi, qadın barəsindəki dünyagörüşünü pis qiymətləndirməkdə tələsməmişdi. O və onun kimilər qadın barəsində olan anlayışlarını dəyişməyi bacarırlarmı?!

**– 0 –**

Ağa Rəhimin səsi xeyli vaxtdı eşidilmirdi, bəlkə də darıxan Aytac idi – səbəbini "dərinliklərdə" axtarmaq niyyəti yox idi, onun mühakimələrinə dərin ehtiyacı vardı. Əslinə qalanda Ağa Rəhimin özü özünə sığışdırmırdı, "cəmiyyətdə bəxti gətirməyənlər"dən hesab edirdi. Axı o, heç zaman eqoist, nihilist və arvad düşgünü olmamışdı. Bir vaxt bu dünya onu sevirdi, o da həmçinin, çünki gənc idi, aləmi əsrarəngiz rəngdə görürdü. Həyatın sirlərinə vaqif kimi öyünürdü. Bu həyatda sadə olmadığını, düşündüyü həyat şəraitinin mürəkkəb olduğunu yəqinləşdirmişdi. O vaxt təbiətin möcüzələrinə inanırdı, qəlbində sevgi üçün yer qalmışdı, o baş yerdə sevəcəyi bir qız oturacaqdı və oturdu da. Lakin təbiət yox, taleyi öz möcüzəsini göstərdi. Halbuki, qadınlar onun təsəvvüründə mələklərlə bir uçurlar, xoşbəxtliyin çiyninə qonurlar. Qadınlar qeyri-adi gözəlliyə malik göyərçinlərdi, həmişə cüt uçur, bir yuva qurur, bala çıxarırlar. Elə düşündüyü kimi də oldu: evləndi, övladı oldu, daha nə lazım olacaqdı? Suala indi cavab verməkdə yanılmayacaqdı: o vaxt özünə inanırdı, yanılmadığına şəkk eləmirdi, başqasının sözlərinə isə inanmaq istəmirdi: qadın məxluqu öz sirrini qorumağı bacaran xislətdir, ona görə özünə inanmaqdan əl çək – belə yanaşmaq çətindir, uduza bilərsən. Və bu özünəinam fəlakətlə nəticələndi: o, atıldı...

Ağa Rəhim öz sevgisi uğrunda mübarizə aparmağa qərar vermişdi, ailəsi dağılmasın, lakin əks tərəfdən aparılan mübarizə daha güclü çıxdı: "Ən yaxşısı sən filosofluq elə, sən heç vaxt qadınını duya bilməmisən. Axı mən qadınam, kişi sığalına möhtacam. Bəs sevəndə bu duyğunu düşünməmişdinmi? Uşaq dünyaya gətirmək hələ sevgidən doğulan deyil" – iddiasında qaldı.

Ağa Rəhim bu dəfə filosofluğunu qadın (bəlkə də elə öz qadını?) xasiyyəti üzərinə yönəltdi, buna dərin mühakiməsi haqq qazandırırdı. Hekayət sentimentallığından çıxsa da, dinləməyə borcluyuq və oxuculara çatdırmalıyıq. Tarixən belə olmuşdur, kişilər bu mübarizədə uduzmuşlar, onlar haqlı olsa da borclu çıxarılmışlar. Nə isə: Zahirən sadə və səmimi varlıqdır onlar, amma sirrini əldən vermirlər. Bunu bildiyimiz halda deyirik ki, qadın sirr saxlamağı bacarmır! Bu fikir sözə çevrilib mənim də dilimdən çıxıbdır, sərt pıçıldamışam ki, qadın çılpaq həqiqətilə bəşəriyyətdə məkrli, iradəsiz, ruhsuz məxluqdur. O, əxlaq dərsindən "2" alan şagirdə bənzəyir. Əsəbi demişəm, eləmi? Bəs dahi Tolstoyu nə vadar etmişdi ki, cavan qadınından üz döndərsin, evdən çıxsın, vağzalda gecələsin və sətəlcəm olsun. Mən isə bir ara onu fikirləşmişdim ki, qadına kənardan baxmaq xoş olardı. Kişilər enlikürək olur, deməli, onlar sağlamlığa üstünlük verir. Qadınlarda isə ombalar iri-

dir, oturmaq üçün böyük yançaqları vardır. Elə buna görə evdə qalmaları məsləhətdir. Bu, inan mənə – sancma deyil, düşündüyümdür.

Ağa Rəhimə kənardan baxsa idin, ürəyindən nə keçərdi? Çətin nəsə deyə bilərəm, onu uydura bilərəm ki, Ağa Rəhim yenə məsələni kişilərin xeyrinə həll edər, onun kəlamı var ki, təbiətin qanunu belədir: qadın kişinin hakimiyyəti altında yaşamalıdır. əgər belə düşünürsə Ağa Rəhim: incə məxluqun titrədici ünvanına "atmağa" dəyər.

Oxucunu yormamaq xatirinə mənim mühakiməmdə bəzi nüanslar mövcuddur, bir halda Ağa Rəhimin mülahizələrindən yan keçmirəm: Kişilər qadınsız yaşaya bilməzlər, yaşasalar bu həyat çürük qoz qabığına yerləşə bilər. Amma onlar dillərini dinc buraxmır, kənardan baxıb köks ötürürlər. Mən qadının nadir varlığına ehtiyatla yanaşıram – məndən asılı deyil, dilimdən qaçan sözləri tutarlar, onda necə? Təklif edirəm ki, kişilərin də dilinə "açar" salınsın! Qadın hisslərinə açar salmağa nail olan kişilər məşhər ayağına çəkilsin! O da var ki, kişilərin dilində hisslərə aid nə varsa qeyri-müəyyən səslənir, kişilərin parlaq ünsiyyət üslubu bəllidir. Əsrlərlə kişilər tərəf – müqabili ilə dumanlı və tutqun emosiyalarla yox, məsafəyə riayət etməklə, aydın sözlərlə özlərini daha sakit aparırlar, bununla onlar anlaşılmazlıq yaradırlar. – Çox ucuzluğa gedən olur bu ya-

zıçılar, yaxşısı Ağa Rəhimin – filosofun – mühakiməni xoşlayanların ortaya çıxarıla bilən fikirlərinə ip ataq: “Kişi hər şeyi anlayan varlıqdır, qadınsa dərk olunmaq arzusunda olan şıltaq təbiətə malikdir” – israrında qalır. – Bu, şıltaqlıq, qəlbyaxınlığı sevdiyi, xoşladığı kişinin məftunetmə həvəsindən irəli gəlir. Mənim fikrim deyil (Ağa Rəhim gülümsəyir), yazılıb ki, qadınlar kişiləri mühasirəyə alıb, qəlblərini ovlamağı sevirlər, onlar üzərində daima kiminsə sahib olmağını istəyirlər.

Ağa Rəhimin ürəyi hələ boşalmamışdı, bu sözlər haradan cücərirdi və tez yetişirdi, öz həyat tarixçəsindənmi? Yenə onun əvəzində dəqiq nəsə demək çətindir, amma mən öz fikrimi gizlətmirəm: – Kişilər qadınlarla münasibət məsələsində çoxmu düşünürlər, yoxsa qadınlar? Deyərdim, bu məsələdə ehtiyatlı olmaq gərəkdir. Cavabımda risq eləmək istəmirəm, məşhur rus yazıçısı, ölənəcən əli Ümbülbanidən uzalı qalan İvan Buninin ehtiyatsızlıqla dediyi sözləri yada saldım: “Qadınlar adama oxşayan və adamlarla yanaşı yaşayan varlıqdır”.

Təxminən belə əqidə ilə Ağa Rəhim Aytacla söhbətə başladı, amma etik mədəniyyəti gözlədi, çünki bu qızda ağıllı, təmkinli, gözütox, atasevər xasiyyətlər bəlliydi. Bir də Aytac onunla danışmaq arzusunu gözləmirdi. Öncə, çox-çox məlumatlı adamdır:

– Aytac. – Ağa Rəhim stulda yerini rahatladı. – Mənə inanın, qadınlar təsəlli alır ki, onları yada salan kişilərdir, eləsi var risqə gedir. Rəssam Van Qoq böyük sənətkara qiymət vermək istəyəndə onu qadınla müqayisə edirmiş, maraqlı deyilmi? "O əsl qadın kimi dünyaya gəlib, yaşayıb-yaradıb, iztirab çəkib, nifrət edib, o cür də dünyadan köçüb" – vurğulayırmış.

Aytac qımışdı, ağarmış üzündə zərif cizgiləri titrədi:

– Qadın məxluqu haqqında danışırıq, müqayisə də ciddidir, onu təsdiqləyə bilərəm ki, xəfif "daxili sual" çıxar ortaya: Həmişə qadın olaraq qalmaq necə?

Sualı Ağa Rəhim sözgəlişi qarşılamadı və xeyli fikrə getdi, istədi bir siqaret yandırsın, vaz keçdi, təzəcə çəkmişdi. Aytacın sualına bir qədər elmi cavab vermək istədi:

– Dünya biologiya, sosiologiya elmlərində maraqlı mübahisələr gedir, qəribədir, bu işə ən görkəmli alimlər, mütəxəssislər qoşulub. Bir cəfəngiyyat isə kişi və qadın cinslərinin düşüncə, davranış tərzi, həyat ideologiyasına münasibətdir. Bu məsələ aktualdır. Biz adət etmişik, pıçıldayırıq ki, qadınlarsız həyat yoxdur, qadın kişinin azadlığıdır, qadın eşq timsalıdır. Bu söhbəti başlayanda az qala ruhdan düşürəm. Bəzi alimlər hətta pissimist olurlar, riyazi qabi-

liyyətlərini müqayisəyə gətirirlər. Bir qədər də gülməli səslənə bilər: Qadın beyin hüceyrələrində kədər, kişinin başındakı boz maddə isə qıcıqlandırıcı oyanış edir, qafatası həcmcə böyükdür, təbii ki, dərindən düşünürlər.

Aytac bu dəfə güldü, diqqətlə müsahibinin üzünə baxdı:

– Ona görədir qadınların dalısınca sürünürlər? – Gözlərinin altından kişiyə baxdı. Üstü basmalı kəlağayısının düyünün açdı, rahat nəfəs aldı. –Ələ keçirib uzaqlaşırlar. İfadəmçin bağışlayın. Başqa müşahidələr var: Qadın yarımkürələri daima harmoniyadadır, bu isə üstünlük deməkdir. Qadın və kişi davranışlarında özünəməxsusluğu gizlətməyə ehtiyac yoxdur. Bu isə qadınlarda bədəninin düşdüyü mühitdən, fiziki inkişafdan asılıdır.

– Anlayıram səni. Unutmayaq ki, qadın özü ağırlığında ziddiyyətlərlə zəngindir; bəli, müdrikdir, amma onda axmaqlıq, sadiqlik, amma hiyləgərdir, ədalətlidir, amma. – Bu sözü dilindən çıxarsa da cavabında susdu. Və handan-hana davam elədi. – Bəli, paradokslara baxmayaraq qadın öz istedadından, bacarığından lazımınca və lazılmi məqamlarda yararlanmır. Aytac başı ilə təsdiq elədi.

– Bəli, müasir təhsil görmüş qadınlar “müqayisələr və həqiqətlər” labirintində düzgün cavab verməkdən yayınırlar. Unutmayaq. Qadın kişinin gücü,

cəsurluğu, işgüzarlığı, həssaslığı, mehribançılığı kimi cəhətlərini alqışlayır da! Qüvvətli və zərif xarakterimizə gələndə. – Bu dəfə Aytac susdu, bir kəlmə sözü demək istəmədi, bəlkə də utandı, amma Ağa Rəhim yarı ciddi, yarı təbəssümlə dedi:

– Transseksuallıq arzusu. Bəli!

Aytac fikrini bitirmək istədi:

– Yəni qadın həm ana, həm də ata olmalıdır. Qadın öncə kişidən fərqli şəkildə tərəfdaş kimi psixoterapevt yardım göstərməlidir.

– Unutmayaq onu da, kişilər qadınlara nisbətən tez qocalır! Yox ki sərtdilər, ömrün yolu tez başa çatır, unutmayın ki, dünyanın, günün əzabı, intizarı – qayğıları kişilərin əsəblərində toxdayır, amma sakitləşmir. Bernad Şounun fikrini çatdırım ki, Aytac xanım, özümüzün ovqatı sakitləşsin: "Həyatda qadınlar kişilərdən ona görə çox yaşayırlar ki, onların arvadları yoxdur". – Yaxşıca güldü. Aytac da ona qoşuldu.

Hər iki qısa söhbətin məzmununda nəyin dayandığını müəllif bilir, məlumatlıdır. Qadınların ağlını və emosional əhvalını daima diqqətində saxlamışdır: Ərinin beynində futbol haqqında proqnoz, yaxud, təəssurat dolaşırsa, qadın rəfiqəsilə dünənki söhbətinin davamı barədə fikirləşir, onlarda güclü hissiyyatı inkar etmək olmaz. Səhərki söhbətini başa çatdırarkən bir daha natiqlik məharətini nümayiş et-

dirirlər. Onlarda güclü hissin olması şübhəsizdir və buna inanmaq üçün təcrübəyə ehtiyac qalmır. Qadınlarda hisslərə cavab verən beyin zonası kişilərə nisbətən səkkiz dəfə böyükdür, psixi düşgünlükdən iki dəfə artıq iztirab yaşayır. incəliyi və həssaslığı ilə seçilən qadınlar həyatın, eləcə də ərinin anlaşılmazlığına çətin tab gətirirlər...

Mülahizə oxucum üçün qeyri-lakonik təsir oyada bilər, inkar etmək fikrində deyiləm, amma bədii əsər əhvalı "köklənmək", "könül açmaq", "xəyala qapılmaq"dan ibarət olmur: düşündürmək, mühakimə aparmaq, nəticə çıxarmaq üçün oxunmalıdır və tələsməsin bədi – estetik zövq almaq üçün: Qadın anadangəlmə gözəl ola bilər, təbiətin bəxş etdiyi bu gözəlliyi qorumağa borcludur. Gözəl doğulmamaq da mümkündür. Bu zaman xarici görkəmə diqqət yetirməklə qadın qəşəng təsiri yaradır: İncə gülüş, ağ dəri, bədənin harmonik xətləri, baldırların mütənasibliyi, ipək saçlar gözəllik vermirmi? Gözəllik kimi əvəzsiz xəzinədən qadın imtina edərmi? Gözəllik ilahi yaradıcılığın məhsulu deyilmi? Böyük Ömər Xəyyam gözəlliyə biganə qalmamışdır, demiş ki, gözəllik yaradıcılığın izidir, sifət – üz yaradıcılığın fikri paltarıdır. Əvvəlki həyatında onun qulu tərəfindən edilən təmizliyə və xeyirxahlığa görə ona verilmiş mükafatın nümunəsidir.

Qadın gözəlliyinin, hüsnünün mövcudluğu təkcə ona görə deyil–kişilərin ehtirasında yaşasın, xeyr.

Qadın cazibədarlığı, ahəngdarlığı eşqi, sevgini tamamlayır.

## 11.

Vaxt keçirdi illərin hesabına. Bu kişilər üçün qəbahət sayılır, o mənada – subaylığın daşını atmalıdır, bir qızı sevib almalıdır, Allahın verdiyi övlad payına atalıq eləməlidir, qadının hisslərini ödəməlidir, gözüdağınıqlığa gətirib çıxarmamalıdır.

Gənclik, qaynar, sözəbaxmayan davranış əfəlləşir və sərt məcraya düşür. Çapay gözümüzün qabağında Aytacla evlənmək qərarını seçmişdi – alınmadı. Xumara xanımla qeyri-qanuni yaşamaq şansını şüurlu şəkildə itirdi – haqlı idi... O, sənətində uğur qazanmışdı, kollektivdə nüfuzu vardı, bədii rəhbər onun şəxsiyyətinə hörmətlə yanaşırdı, bunun səbəbləri yox deyildi. Bir dəfə ikilikdə ona işarə yox, birbaşa gileylənmişdi ki, Çapay, haçanacan subay gəzib – dolanacaqsan. Sənə nə olub, tərtəmiz tərcümeyi-hala maliksən və gülümsünmüşdü: – Romantikliyin, gəzəyənliyin daşını at. Sonra gec olar, enerji tükənir. Tənhalaşmaq ağır dərddir. Çapay bu öyüddən sonra hərçənd fikirləşirdi və həqiqəti görürdü, lakin... Və bir gün o, evində tək idi, gündəlik qəzetlərə baxırdı, təzə sentimental roman almışdı, vaxt edə

bilmirdi oxusun. Nəhayət, imkan tapdı, vərəqlədi ovqatı ilə. Romanın adı Çapayı xüsusi maraqlandırdı: "Aylı gecə və yeddi gün" idi. Xəyalını topladı, müəllifin imzası tanış gəldi ona, bir neçə hekayəsini və bir povestini haçansa oxuyub feyziyab olmuşdu, cəsarətli yazıçı kimi yaddaşında yer tutmuşdu.

Saat nahara doğru işləyirdi. Vaxt yetərincə idi, mətbəxdə nanəli çay hazırladı, soyuducuda soyuq yeməyi daimiydı, içkisi də həmçinin. Çapay divanda belini söykəyib oxuyurdu və masaya yaxın yerdə çayı buxarlanırdı.

Maraqlı o idi müəllif birinci şəxsin dilindən danışırdı, bu üslubu xoşlayırdı. Çapay: O, özünü ona kökləyirdi. – O "Mən" elə onun özüdür, özünün başına gələnləri qələmə almışdır: – Yazıçı məharəti buna deyərlər, yoxsa! – Əlini uzadıb stəkanı götürdü, daddı, hələ soyumamışdı. Roman belə başlamamışdı ki, Mən oxucularıma xatirələrdən səhifələri vərəqləyəcəyəm, olub-keçənləri yaddaşımın yarpaqlarından qoparmayacam və bu kövrək ömrümün notları kimi səslənər. Sadəcə, erotik ruhun əbədiyaşar qiymətini saxlamaq, qadınlı günlərin və illərin təmkinli ovqatını qorumaq lazımdı. Çalışmışam oyundaşlar yüksək hisslə, təmkinlə üzbəüz otursunlar, otağın ab-havasını yaratsınlar. Kənardan ağappaq yatağın necə nəfəs almasına etinasız olmasınlar... Unutmayın ki, nə vaxtsa bir kabus xirtdəyimiz-

dən yapışacaq, qeyri-namalum dünyaya sürüyəcək – sorğusuz-sualsız. Amma qorxmaq lazım gəlmir, əksinə, yaşamağa sığınmaq, qocalığa qarşı sərt olmaq. – Çapay çayının soyuduğunu zənn edib stəkanı ovcunda sıxdı, buza dönmüşdü, yarıyacan hordatdı. – Məhəbbətli gecələr, şəhvətli hədiyyələr intim oyunun körpüsüdür. Zərif və dəymədüşər körpü o qədər də sakit axarın üstündən keçmir, müsafir özünə güvənməsin ki, rahatca adlayacaq, qanrılıb sahilə boylanacaq. Unutmasın ki, Qadın ilkin nəvazişdən sonra çox şeyi əxz edəcək. Kişi və Qadın ünsiyyəti şəhvətli ovqat bağışlamalıdı...

Çapay əlini stəkana uzatmamışdı, belə də o, ikinci stəkanı nuş edirdi, kitabı isə əldən qoymaq istəmirdi və zəngli stol saatına baxdı: zərbələr eyni məkana tələsirdi.

Ayağa qalxıb tələsik mətbəxə getdi, kiçik tor gözlüyü açdı, hava dəyişsin. Soyuq kotleti və salat – filanı götürüb kiçik süfrə hazırladı. Müəllif "müqəddiməsindən" sonra... Fəsil "Beşinci gün" adlanırdı: Ayın doğması, ətrafında muncuqların buludlardan tənbəl-tənbəl uzaqlaşdığı gecə. Pəncərənin açıq qalması, sərin və işıqlı gecədən süzülən hava Oyundaşların ruhuna çilənir. Çapayın ayaq səsi Aylı gecəni özünə tuşlayır. Hava onların üzündə, sinəsində, saçında gecələməliydi. Təcrübəli kişi, zərif qadın şəhvətli ovqatını Ayın hərəkətilə ahəng qurmalıdı. Pal-

tarına, gecə köynəkcəsinə süzülən Ayın işığı qadının bədəninə axmalıydı. Dərhal olmasa da, az sonra seziləcək. Çünki şəhvətli ağuşlar, zərif quş cırmaqlaşmaları, ehtiraslı öpüşlər çələngi Ayla pəncərədən süzülən işığa bələnir. **Birinci gün** çarpayıya qovuşmağa dəyməz. O vaxta qədər – qadının dodaqlarında qatarından ayrılan bir quşun naləsi eşidiləcək: – Ay buludlarda gizlənib, əzizim, bizə tamaşa eləmək istəmir. – Pıçıldayır. Qadın bu kəlamlarını ehtirasına büküb kişiyə göndərir. Və bu pıçıltı onun saçlarında itir, ha vurxunur ki... Və bu an İntim oyunun iştirakçılarına məxməri gecə bəxş eləyir. Şair Libonun misraları ilə:

***Gecə lal, Ay qəlbi, ulduzlar şam-şam,***
***Bardağı qoymuşam bir çiçəkliyə.***
***Yenə də şərabı yalnız vururam,***
***Yenə sığınmışam bu təkliyə.***
***Bu gözəl saatda, bu gözəl dəmdə***
***Mən ayı çağırdım – məclisi açdıq.***
***Çağırdı, çağırdım öz kölgəmi də...***
***Beləcə üç olduq, belə toplandıq.***
***Nəyimə gərəkdir, soruşam, biləm,***
***Ay şərab içməyi bacarır, ya yox.***
***Ya da ki, bu məni izləyən kölgəm.***
***Ömründə bir dəfə vurubmu az-çox***
***Gecəni üçlükdə yaxşı keçirdik.***

***Ayıqlıq yaraşdı şən halımıza.***
***Elə ki, dəm olduq – ayrılıb getdik,***
***Yollandıq hərəmiz öz yolumuza.***

Kitabı divanda – yanında idi, meh həmin vərəqi çevirirdi. Saat işləyirdi, deyəsən o da nahar üçün tələsirdi. İstədi şərab şüşəsini süfrəyə qoysun, lazım görmədi: roman ondan ayrılardı. Haqlıydı!

**İkinci gün**: Qadın və kişi Ay üçün, aylı gecə üçün intizara düşürlər. Hər şey yataq və yatağın əşyalarından tutmuş çarpayıya qədər – hər şeyi nəzərdən keçirir. Pəncərəni açır, gecənin sərin havası "hakimiyyəti" ələ almalıdı. Çarpayı açılmalı, Oyundaşını qısqanmalıdı. Belə düşünməyin, pərğü yataq cansızdır, soyuqdur, dilsiz-ağızsızdır – yataq öncə qadının ağappaq, titrək bədəninə yapışır, sarılır və qızıl ilan kimi qadının vücudunun istisini özünə çəkir. Bu şümal, ilğım bədən soyuyur, qadın isə əsəbi halda nazik yorğanı baldırları arasında "boğur". Qadın yatağa qədər üst-başını sahmana salmamış üzbəüz oturmalıdı. Bir şərtlə: qayğılardan uzaq. Kişi hökmlü, iş-gücün ona təsirini hiss etdirməməlidi. Bu əhval qadına, onun başlanacaq Oyununa müsbət təsir göstərir və çalışmalıdı Kişi onun sinəsində yazıqcasına, acizanə qıvrılan, sızlayan saçlarının, yançaqlarının, əllərinin ricasını oxusun. Və qadını oxşasın: əlləri dinc durmasın...

Çapay qəfil acdığını duydu, nahardan ötmüşdü. Ay öz yerində deyildi, açıq pəncərədən ağacların yarpaqlarının xışıltısını eşidirdi. Quşların səsi yuxuya getmişdi, özləri isə sərvaxtdı. Kiçik bakala şərab süzdü, al-qan rəngində idi, sanki bakala bıçaq vurmuşdu kimsə, qanı dalğalanırdı. Belə sərbəst buraxmaq qəsd olardı... Özünə gəldi, gözləri işıqlandı. Üçüncü bakal onu qəribə və maraqlı yuxuya aparırdı. Çapay öz xüsusiyyətinə bələddi: nəyi arzularsa dolayısı yolla olsa da qadınla "görüşürdü", bəlkə də bu, onun tənhalığından irəli gəlirdi: üçüncü Aylı gecə və **Üçüncü gün**: – Telefon səsləndi, yerindən qalxıb dəstəyi götürdü. Obaşdan gələn qadın səsiydi, amma sakit deyildi, sentimental avazdı:

– Darıxdım, onun üçün... – Susdu və telefonda uğultu yarandı. – Sənin üçün qəribsədim! Sən isə... – Susdu və telefona tam sükut çökdü. – Qadın olmaq necə də əzab imiş! Qızlar ona görə xoşbəxt olur ona kişi nəfəsi dəymir, bədənində kişi əllərinin izi qalmır. Mən sənətimdə zirvəyə qalxdım, amma qadın olaraq sıfırla yanaşı dayandım. Həyatda son idealımı tapmışdım, o da...

Çapay danışmır, həm də təəccüblənirdi.

– Kim idi həmin idealın? – Çapayı maraq götürdü, ilk dəfə ona qısqandı. – Bilmək olarmı?

Obaşdan səs kəsildi, çox çəkmədi, texniki nasazlıq idi. – Əlbəttə, kişi olar. Hm. Hə, bir dəfə da-

lınca bir kişi gəlmişdi, xatırladım. Sən ona qoşulub getdin. Bəli, o kişi idealın üçün layiqdi, bu cür qərar vermişdim.

– Yox, səhvdəsən. Yox, yanılmısan, hər dəfə dul qadın ideal seçmir, ona görə yox ki qorxar, ideal da sənin şirəni sorub doyar, başqa çiçək sorağına düşər. Mən hələ ki qorxuram.

Çapay yerini dəyişdi, kreslonun sol bucağına keçdi.

– Əbəs yerə. İslanmışın... – Məsələni tamamlamadı, bilmədən dilindən qopmuşdu, təhqir kimi nəticə çıxardı. – Sən elə qadınsan, islansan belə, bədənin tez quruyar, bircə cuzi rəqs eləməyin kifayətdir. Nə etməli, hər kəs özünün bəxtini yaşayır.

– Hə, elədi, bəs sən niyə əlinə düşmüş bəxtini uçurdun? Bayıra baxıram cüt göyərçinlər bir budaqda mürgü vururlar, ani səsdən gözlərini açırlar. Mən... – Susdu. Səsi azca xırıldadı, ehtirasın diqtəsiydi. Çapay fəhmən bunu belə yozdu.

– Məndən asılı olmadı. Sənin hisslərinə ömürlük uduza bilərdim. Etirafımdır bu. – Çapay bir söz demədən stolun üstünə qoyduğu kitabı götürdü və kresloda oturdu. – Maraqlı əsər oxuyuram. – Mövzunu dəyişmək istədi, adətiydi, iradəsi tab gətirməyəndə bu yola əl atır.

– Nədir adı o kitabın? – Soruşdu. – Tarixdən danışır, Fransanın krallıq dövründən, görürəm ki, bu

ölkədə kralları həmişə fahişələr idarə edir, – cavab verdi, səsin tonu dəyişdi:

– Fahişələr və fahişəlik barədə belə danışmağa nə ehtiyac. Onsuz da qadına baxanda yanıycan gətirdiyi iki uşağından bir-birinə oxşarı yoxdu.

– Siz deyən olsun, amma mən ehtiyatla yanaşmışam. Ona görə ki, onlar ağılsız olurlar yataqda, sonra uçan ağılları qayıdır öz yerinə. Belə məsələlərdə qadınlar öz iztirabları barədə daha aydın fikirləşirlər və inam qazanırlar, anlaşılmazlığa yol vermirlər. Qadınlar Oyundan sonra hisslərinin səsini başa düşmək qabiliyyətini itirirlər, bu isə kişiləri anlaşılmazlıqla üzbəüz qoyur. Xanım, qadınları öyrənmək onları öyrətməkdən asandır.

– Özünü dolaşdırma. – Səs sakitləşmişdi. – Kişilərin incə siyasəti qadınları daima dolaşdırmışdır. Sən məni o gün nahaq yerə dolaşdırmadın. – Telefonda gülüş səsi cingildədi. – Bu şıltaqlığım xoşladığım kişini məftunetmə həvəsimdən irəli gəlmişdi. Məncə, aktyor, rejissor Şellinin sözləridir ki o, deyirdi: “Qadınlar kişiləri mühasirəyə alıb, qəlblərini ovlamağı sevirlər”.

– Demək, mən mühasirədən çıxmalı olmuşam. Bircə sözüm o olar ki, qadın həmişə qadın olaraq qalsın, amma dul olaraq yox! Bu qənaətimi cavabsız qoymaq istərdim.

Zəngə Çapay ayıldı, divanda onu mürgü almışdı. Kitabı çevirdi, sonra kresloya qoydu. Bircə kəlmə dedi: “Yazıq qadın” və oxumağa davam elədi.

**Dördüncü gün**: İstədim O, yatağa uzansın, haradasa müqavimət göstərsin. Belə halda qadın özünü ləzzət almağa hazırlayır. Kişi tərəfindən oxşanılmasına, itirdiyi ehtirasın yenidən oyanmasına şərait yaradır və Oyuna tələsmir, bir növ orqazmı unudur. Xüsusilə, qadını arxadan ağuşunda bəsləmək nəşəlidi. Qolları sağını və solunu sıxır, yancaqları qabarır, ayaqları barmağının ucuna qədər gizildəyir. Balışda isinən üzü, burnuna dəyən yatağın qoxusu. Bu anlarda ən kövrək, təsvirəgəlməz melodrama qadınla Oyunun fəlsəfəsini duymaqdır. Bu fantaziya deyil, məharət baş tutarsa, qadın özünü soyuqdan xilas edər, bununla məzhəkə bitər, bacarıq çətinləşərsə.

Çapay gözucu vərəqə nəzər saldı, bir şeir yazılmışdı, tanımadığı şairin imzası qoyulmuşdu. Oxudu:

***Bu gecə, bu gecə,***
***Yuxusuzam, kədərliyəm, dəliyəm.***
***Üzümdə uzaq sevgililərin***
***Sərin aydınlığı.***
***Bu gecə ölməməliyəm,***
***Təzələyər hisslərimi vaxtla, əməllərimlə.***
***Silahlı bakirə qızlar saymazyana***
***soyunub ey...***
***İnsanlığım ağrıyar ta məcarlarda.***

Xeyli düşünməli oldu, bir şair tanışına zəng elədi və çox keçmədi cavab aldı: Fazil Hüsnü Dağlarca. Müsəlman əsilli şair.

Çapay kreslodan durub balkona çıxdı. Gecənin necə də gözəl görünən saatları idi. Aya arxayın olub ulduzları diksindirmədi, gözləri açıq yatmışdılar. Küçələrdən əl-ayaq yığışmışdı, maşınlar əyləcsiz hərəkətdə idi. Siqaretə yenidən başlamışdı, birini yandırdı, iştahla qullab vurdu, az qaldı sinəsi yansın – vərdişi itirmişdi axı. Rahatlandı, yerində yox, yenə divanda söykəndi balışa.

**Beşinci gün:** Yəqin imkan tapıb pəncərə qabağında qoşalaşmısız. – Bu cümlə onu təəccübləndirməsə də qərib təsadüf bildi, sadəcə. Çapay tək-tənha idi, dil yoldaşı bəlkə yox idi. Bədirlənmiş Ay hələ yorulmamışdı, amma səhərin fəcrini duyurdu rəngilə və bir də quşların səsini eşidirdi. Bakirə Ay heç vədə səhərə təslim olmur, otağa dan üzünün saf havası axır, axşamkı əyləncələr güman Zirvə oynuna çatmayır. Çarpayı da qadın – kişi ağuşunda xumarlanır, gecənin əhvalına zidd çıxır. Günün özü dediyin qədər də münasib deyil: qayğılar... hələ qüvvəsindədir. Bu gün, bu gecə isə... Səhər yatağa axacaq yarımişığı ilə. Belə dəqiqələrdə öpüş münasibdir. Kişi qadının yanaqlarına göndərdiyi busənin yerini "yoxlayır" sığal çəkən əllərilə. Qadın isə bakirə əlini sinəsinə aparır, döşləri inadkar uşaq tərsliyilə saçla-

rında gizlənmişdir. Yataqda yarımyuxulu qadın üzünü gizlədir, yuxunun ilğımında onun yanaqları islanır və səpələnən saçları yanaqlarına sərilir. O, əvvəlcə qoxuladı, tamını daddı, sonra ehtirasla yuxudan oyatdı. Pəncərədən Aylı gecəyə ilişdi baxışları. Aylı gecədə şəhvət əhvalı olur axı!..

**Altıncı gün:** Kişilər yalnız qadının ətli və mütəhərrik bədənindən xoşlanır? Dəvətində bu hissini söyləməməliydi. Yalnız çağrılan qadınlar üçün təhqir olmazdımı? Qadın oyundaşı ilə görüşürsə, sövqitəbii özünü oyuna hazırlayır və bu təbiəti üçün öyünürmü? Kişi elə vücuddur ki... Meşədəki bütün gözəlliklər ac-yalavac pələngi əsla maraqlandırmır, bu aclıq onu qovub dağa-daşa salacaq, ovunu axtarıb tapmağı düşünəcək... Kişilərin gözlərində xəfif gizlənən qadın həsrəti oxunur və qadın öz cavabını hazırlayır. – Gecəmizdir, – deyir və ürəyindən keçənin əyləncəsini xəyalında əyaniləşdirir. – Tələsmə. – Pıçıldayır və qadının yalnız bədənindən ləzzət umacağını düşünür, oyunun vərdişini unutmamağa çalışır. – Bu dəfə bu Aylı gecədə bədənim sənindir, mənim ruhumdan çıxaracaqdır. Başını sinəmə qoy, köksüm odlansın, istəsən alışdır, bu gecədə kül olmaq necə də səadətdir!

Bu sözlərdən sonra O, ovcu ilə sinəsini ovxalayır, taqətdən düşmüş saçlarını qoxulayır, sonra o biri ovcu ilə tumarlayır. Və qoşalaşdırır ovuclarını.

– Sən qəddarsan, – deyir. – Sözündən xoşlanmır, şəhvətinin cavabı kimi başa düşür. – Sənin bədənin mənimçin bu dəqiqə buzdur, cansızdır, kəpənək hərarəti belə yoxdur.

Hıçqırır, səsi içində parça-parça dağılır. – İçimə şüşə qırıntıları haradan düşdü? Qoymayacağam onları çıxarasan.

– Bu qədər qəzəblənmisən? – Hiss elədim mənim də vücudumda nəsə var, ancaq şüşə qırıntılarına oxşamır. Üstünə su səpilmiş ağacın közüdür. Vücudum ona görə soyuqdur, – dedim. – Məni tənha qoymusan, tutursan daş-qalağa. İstəyirsən vəhşi pələngə qurban gedim? Quzum, sən vəhşiləşəndə necə də? Quşcuğaz səndən güclü olur.

Aylı gecədə onun camalına baxırdım. Piyalə gözlərini qoruyan kiprikləri ağappaq bulud damcılarından islanmışdı, baxışları yolunu kəsmişdi. Bu dəqiqələrimdə istərdim baxışlarını aldadım. Amma qadın düşündüyümdən uzaqdı, bunu o anlarda duydum – gecə köynəyindən sürüşən ağappaq ətli qolları bumbuzdu, sanki buzlar qırılıb parçalanır, ağ duman əriyir.

– Sabahacan qollarım beləcə üşüyəcək. Olmaya inanmırsan? – Dodaqlarını eyhamca dişlədi. – Bax, yeri qalmadı. – Üzünü yana çevirdi, sən də dişlə, onda inanarsan. Hə, beləcə, anladım səni. Gözləmədən hıçqırdı, üşənib əllərimlə gözlərini sığalladım. Yaş

barmaqlarım arasından süzülüb döşəmədə kiləşlənirdi.

– Sən bu anlarında necə də məlahətlisən. Sən o güzcüdə yenidən doğulursan. Məkanın haradır. Bir həyatsevər şairdən – Vahid Əzizdən misraları eşit. Misralarda özünü axtar:

***Otağım.***
***Mən və düşüncələrim***
***dolu otağam.***
***Pəncərəmdə gecənin ulduzları –***
***Yanan işıq otağıma daşıyır***
***sənsizliyi***
***Mən səni gecədə itirmişdim,***
***Sən gecədən ulduzlarla.***
***Ulduzlar ancaq gecələr görünür,***
***Şam gecələr yanır.***
***Səhər çiçəklər baxacaq dünyaya***
***Şeh gözlərilə.***
***Yaralılar gecə qovuşur***
***Ağrıdan, istidən.***
***Gecə tapılır, yuxuda tapılır***
***İtmiş ümid.***
***Mən səni gecə itirmişəm –***
***Sən gecədəsən.***
***Qoy işığı söndürüm,***
***Qaranlıq saçların kimi***

***dağılsın yatağıma.***
***İşıq ulduz kimi***
***axsın otağımdan.***
***Biz axan ulduzun yerinə dolaq***
***Qovuşan maviliklər kimi.***

**Yeddinci gün:** Aylı gecə qadın və kişi cütlüyü. İşıqlı otaq, qamətli görkəm. Bədəninə toxunanda səsi boğulan, bədəni titrəyən bir möcüzə.

– Susursan, olmaya üşüyürsən? – Qadın sualı idi. – Səsi qırıldı, sanki çiçəyin ləçəyinə qonan kəpənəyi yırtıcı dimdiyində apardı. Çiçək silkələndi, ətri səpələndi. Qadın hələlik kişiyə laqeyddi, ağappaq barmaqları ilə sellənən saçlarını geriyə dağıtdı, çiyinləri bu ağırlığa dözmədi, titrədi. Koftasını yuxarıya qaldırmaq istədi, deyəsən gücü çatmadı, kişiyə bu cür göründü. Yox, yanılmışdı. Ağappaq koftadan ətir saçırdı. Bunu qadın hiss eləmişdi. Kofta onun uzun boğazında ilişdi, döşlərində sıxıldı. Kişi koftaya toxunmağa cəsarət etmirdi. Amma ... Kofta ovçu əlindən canını qurtaran quş kimi tövşüyürdü. Yox, yaralanmışdır quşcuğaz, canını qurtarmışdı.

Qadın kişiyə sarı qanrıldı, stulda oturdu, qoşa ayaqlarını azca araladı, donu bir-iki barmaq yuxarıya dartındı. Döşörtüyü hələ titrəyirdi. Qadın əllərini arxaya apardı ki, döşörtüyünün düymələrini açsın, bacarmadı, barmaqları “ölmüşdü”. – Qoy belə qal-

sın, – dedi və stuldan durdu. Kişiyə tərəf çevrildi və susdu. Kişi gözlərini Aylı gecədən çəkmirdi. Ay yavaş-yavaş baş götürüb uzaqlaşırdı, ulduzları yerbəyer eləmişdi. Sısqa bulud qırıntıları Ayın arxasında sürünürdü. Kişini xəyaldan qadının səsi ayırdı:

– Qəhərlənmə, üzünü mənim ay bədənimə çevir.

Kişi bu sözləri eşidirdi, amma gözlərini Aylı gecədən çəkmirdi. Qadın döşlərini sıxdı, elə bil arı dodaqları ilə sol qolunu sancdı, bədəninin uçunduğunu duydu, dəli bir "Ah" çəkib üzüquylu çarpayıya yıxıldı və hönkürdü.

Aylı gecədə Ay öz işində idi. Xəbərsizdi bir çarpayıda bir qadınla bir kişi əks tərəfində uzanmışlar.

"***Gündüzü gül dolu – yarım,***
***Ay gecəsi ulu yarım.***
***Dodağın təbəssümü,***
***Eşqimin noğul yarım.***
***Gül bu gecə gül ilə***
***Uyuyaq gülə-gülə.***

***Telin dəstədi, güldü,***
***Çiynin üstədi, güldü.***
***İstədim ki, iyləyim***
***Ləçəkləri töküldü.***
***Nə zərifdi, gül belə?***
***Töküldü gülə-gülə.***

***Bal nəğmədən bal alıb,***
***Gecə şəkər, bal alıb.***
***Baxışın gözlərindən***
***Ürəyə yol salıb.***
***Ürəyim bu yol ilə***
***Yüyürür gülə-gülə?!***

– Hə, bu axşam Otellosayağı dua eləmisənmi? Qadına gözucu baxdı, yorğun sifətini sığalladı. – Bu Aylı gecədə... Sən cəlladdın, yoxsa Mən? – Sual yersiz idi və Qadın məkrli mənaya yozdu. Pəncərəyə sarı addımladı. Sərin gecə mehi üzünü qıdıqladı. Qayıdıb çarpayının ayağında oturdu. Otaqda işıq payızlaşmışdı, yarpaq-yarpaq səpələnirdi. Bir yarpaq kişinin alnına düşmüşdü. Rollar düzgün bölünmüşdü.

Qadın ayağa duranda çarpayının bir tərəfi cırıldadı, ağ örtüyün yeri bomboş göründü. Əliylə toxundu, hərarətliydi.

Qadın divanda qolarını başı arxasında daraqlamışdı.

– Siqaret çəkirsən? – dedi və ömründə ilk dəfə papiros sümürmək arzusu oyandı. – Çəkmə. – Astadan dilləndi.

Kişi qadına baxırdı, saçları göbəyinə qədər tökülmüşdü, yarpaq-yarpaq sinəsinə dağılmışdı, xal-xal qaralırdı.

Qadın divandan qalxdı. Şamı yandırdı, o biri işığı söndürdü. Otağa həzin – saralmış işıq axdı. Qadının bədəni Ay işığında közərirdi, qığılcımları kəpənəksayağı uçuşurdu, pərvanələr hələ xəbər tutmamışdı. Pəncərədən Aylı gecə kədərli mahnısına başlamışdı...

– Bu Aylı gecə mənimçin ölü doğulub. – Qadın dedi. – Divanda dikəldi, ayaqlarını cütlədi.

Kişi qadının şirəli dodaqlarından öpdü. Qadın az qala huşunu itirəcəkdi, özünü xilas eləmək barədə düşündü və susdaldı. Xəyalı dirilmişdi: onu duyurdu ki, harasa axıb gedir. Soyuq çay suyu onu boğmaq qəsdindədi. Çay deyildi, yuxu da deyildi. Aylı gecənin ilğımı idi.

Aylı gecə baxırdı. Gözləri Ayın özünü axtarırdı, istəyirdi Ayın ulduzlardan oğurladığı işığı bəbəklərinə doldursun. Qadın hiss elədi ki, Ay dayanıb pəncərənin qənşərində, işığını içəriyə səpələmək istəyir.

Qadın gözlərini yummağa çalışdı. Ayın işığını çəkmək istəyirdi baxışlarına. Huşunu qovub, başını balışa qoydu. Bədəninə isti və sürətli nəsə axdı, bədənindən sızıltı keçdi. Burnunu yovşan otunun qoxusu qıdıqladı. Yadına düşdü ki, anası onu çöldə, yovşanlı həyətli evdə dünyaya gətirmişdi. Qəribə idi, yovşan ətri haradan gəlirdi, yoxsa xülya idi?!

***“Bu gecə mənə qonaq ol –***
***Bu gecə.***
***Hər şeydən uzaq,***
***Bir-birimizə dayanaraq***
***İçin-için pıçıldayaq sevgimizdən.***
***Bu gecə ulduzları***
***Oğurlayacaqdılar bizdən***
***dan yeri söküləndə.***
***Gecə göy üzünün***
***rəngi qapqara.***
***Gecə nur səpdi ay işığı***
***tozlu-torpaqlı yollara.***
***Gecə...***
***Kiminsə yol çəkən***
***Gözləri tək...”***

Qadın bilixtiyar Ölüm barədə düşündü. Ölməyini arzuladı, bədənini cana gətirən enerjisi tükənmişdi.

Başını qaldırdı, üzünü Aylı gecəyə çevirdi, yovşan otunun rayihəsini bir də arzuladı. Bu sonuncu istək əbəs idi.

Aylı gecə yavaşca axıb uzaqlaşırdı, onun yolu uzaqdı, səhərə gedirdi.

Aylı gecə qadınla kişini Yeddinci gün idi müşayət edirdi...

Qadın Aylı gecədən qopmaq istəmirdi, amma qorxu canını almışdı, indicə Çapayın yuxuya getmə-

yindən sakitləşmişdi; ərinə xəyanətinin aydınlığını dərk edib çarpayıdan düşdü, yuxusu ərşəyə çəkilmişdi.

– Yatıb qalaram. Çapayın ürəyincə olar, sübhdən çıxaq buradan, qonşular tez oyanır. Səhər məni mənzilimdə görsünlər. Və elə də oldu. Yuxulu oturdu sükan arxasında...

## 12.

Ata arvadını yola salandan sonra bir neçə gün bir yerdə qərar tutmurdu, bacısı dilə tutsa da Aytacın yanına getməyi yubatmaq istəmirdi:

– Qızcığaz təkdir, – deyir, onun işdən yorğun gəldiyini, istirahət edəcəyini xatırladırdı. – Ağırdır işləri, hər həftə konsertdə olurlar, özünü televiziya verilişlərinə çağırırlar. – Bu sözləri fəxrlə bildirirdi. Ata isə arvadına haqq qazandırırdı və "uşaqdan muğayat ol" – tapşırığını elə yumşaq, yalvarıcı tələffüz edirdi, kənar adam uzaqdan söhbət getdiyinə şübhə yeri qoymazdı.

Maraqlı o idi, Aytac da atasına təxminən belə yanaşırdı, xəstə hallığından narahat olub deyirdi:

– Ana, mənimçin darıxma, ərinin qulluğunda özün dayan, gülümsündü. – Sən onun yanında olanda kişi özünü qüvvətli sayır, neçə ildə görmüşəm.

Ana qürrələndi bu sözlərdən və illərin çiyinlərində gətirmişdi, hər kaprizinə dözmüşdü. Həyatdır, xəstəlik sözə baxmır, gəlir. Allah özü bilən məsləhətdir. – Ürəyində təkcə yox, dilində göyərirdi sözləri:

– Kişi bu iləcən yaxşıydı, hər şey yerindəydi. Bu il – qüssələnirdi. – Allah, sən özün qoru onu. Sonra mən neynərəm, atasız?

Ana yola bir saat qalmış Aytaca zəng atdı, harada qarşılaşacağını anlatdı.

Ata həyətə düşdü birlikdə. Kənar şəhərdə üç gündən bir gedib-qayıdan xüsusi maşınla yola salacaqdı, bir gün qabaq sifarişini vermişdi.

Həyət-baca tərtəmiz idi, atasının, özünün əkdiyi ağaclar ucalmışdı, budaqları sağa-sola əl atmışdı. Qoca tut isə hələ də quşalrın qida mənbəyi idi. İndi soyumuşdu, yarpaqlarını küləyin ağzına vermişdi. Ayaq saxladı, ətrafına boylandı, özündən bilixtiyar toy gününü xatırladı.

– Ana, – astadan dedi. – Yadındamı? – Sualdan sonra ara verdi sözlərinə və arvadına baxdı, onun ağaran saçlarına, azca uzanmış üzündən nəzərini çəkmədi, qəmli baxıb gözünü qıydı, qaşqabağını salıb taxta oturacaqda əyləşdi. Gənclik gücünü bu yerdə tapmaq istəyirdi, xatirələri tərpətmək istəmirdi, daxilindəki hissiyyatı oyatmaq istəmirdi. O, bu evə gəlin gəlmişdi, qayınanası, qayınatası, daha doğma-

ları bu həyətdə qurulmuş mağarda sevincdən bilmirdilər nə etsinlər. Nəyisə axtaran, nəyinsə yoxluğunu duyan, kiminsə bu doğma həyətdə gəzib-dolanmadığına inanan gözlərilə baxır və qəribədir ki, hisslərinin əsarətindən qurtarmağa darıxmırdı. Baxışları xoşbəxt bir əzabı ifadə edirdi, titrəyən dodaqlarını soyudurdu. Həzin xatirələr susmuş füsünkarlığa qalib gəlir, qarşılıqlı ehtiramın məhəbbət üçün kifayət etmədiyini düşünür. Danışmırdı, səsindəki səbirsizlik əlamətlərindən ehtiyatlanırdı. Ərini kəndə yola salanda boğazında düyünlənmiş göz yaşlarını udmuşdu, heç biri ər-arvad borcunu tapdalamamışdı. İndi... Bu gün çəməndə dəryazla gövdəsi kəsilmiş çiçəklər kimi ölmüşdü, ətri dəryazın tiyəsində getmişdi. İndi... Bu gün üzünün qırışları əyilib dərinləşmişdi bir neçə günün içində. İndi... Bu gün gözləri itaət ifadə edirdi. İndi... Bu gün gənclik şıltaqlığı ölmüşdü zamanın qanunları qarşısında.

Ata isə ayaq üstə idi, onu qəzəbli həyəcan neçə gündü sakit buraxmırdı və onda qeyri-ixtiyari təəssüf hissi sezilirdi. Qəlbinin dərinliyində bədbin notlar titrəyirdi, aydın olmayan dəhşət ona hakim kəsilirdi. Çılpaqlanmış ağaclara tuşlanmış baxışları donmuşdu.

Ata sevgiylə yox, düşüncə ilə evlənsə də, arvadının ləyaqətini gözləməklə dolanmışdı – bacarmışdı. Şux və zərif münasibətlər qurmuşdu, ovqatını sa-

ya salmışdı. Kiçik söz-sova şərait yaratmamağa çalışmışdı, pərxaşlığa yol açmamışdı. Yeri gələndə canını sümürən ağrını büruzə verməmişdi: xiffət edər, Aytaca diqqəti azalar. Atanın içində məhvə doğru gedən bir həyat soyuyurdu, amma köhnə duyğuların sabitliyini saxlamağa çalışırdı. Ata öz ömür yükünü daşıyırdı, amma cinsi duyğular, fəhmli hisslər onları bir-birinə çəkirdi. O, cavan qızları – "subaylıq sultanlıqdır" deyiblər – cırnatmasından zövq alırdı, gözləri gülümsəyir və bundan şad olurdu. Ağır və azğın kişi nəvazişini nümayiş etdirən adamları xoşlamırdı, şişmiş həris dodaqlardan qorxurdu – gizlətmirdi. Sanki yaratdığı sakitlik elə bil onu zəhərləyirdi, amma mahiyyətində qayğı, iztirab və nigarançılıq vardı. O, quşlardan gələn səsə qulaq verirdi.

Döşəmə yoldan toz qalxdı. Sürücü cavandı, darvazanın həndəvərində saxladı maşını, dərhal aşağıya düşdü. O, Atanın səsini eşidirdi. Arvadı ilə nə barədəsə danışırdı. Ana qadın hissiyyatı ilə ayrılmağın çətin olacağını düşündü, amma "uşaqlıq" etməməliydi, hər şeyin Allahın əlində olduğuna, Atanın səhhətinin normallaşacağına inanırdı. Ata isə özünü, görünüşünü gümrah göstərir, səsinin tonunu saxlayır, darvaza qapısını özü açmağa tələsir. Kənd yolunun, hansı ki, yaşadığı yolu birləşdirir – hər iki yanında enliyarpaqlı ağaclar, moruq kolları, sarı qumrəngli yarpaqları tökülməmiş toz ağacları bir mənzə-

rə yaradırdı. Adda-budda yoldan aralı hələ qurumamış gölməçələrdə uzun qırmızı ayaqlı cüllütlər səs-küyə etinasız idilər. Gün şığımamış mədələrini qida ilə doldururdular.

Ananın mənəvi sıxınmtıdan sifəti saralmışdı, hərəkətində zavallı görünüş sezilirdi, amma gözlərində həlimlik yox deyildi. Sürücü içəri girib Ataya yaxınlaşdı. Anaya kənardan başı ilə salam verib sakitləşdi. Durumdan anladı ki, Bakıya Ata getməyəcək, halbuki o, qabaq oturacaqda Ata ilə maraqlı yol yoldaşı olacaqdı, beynəlxalq məslələrdən məlumatlar alacaqdı: O, ehtişamlı və mürəkkəb həyat yaşamışdır, vəzifələrdə oturmuşdur, amma heç vədə kəndini unutmamışdır.

Həyat bu adamın başına öz "hədiyyələrini" yağdırmışdır, ancaq düz yolda olduğunu sübuta yetirmişdir, böhtançılar  əl çəkmişdilər. Bu ərəfədə, həyat yoldaşını yola salarkən sifətində məğrur sakitlik oxunurdu. Ana isə bi dəqiqələrdə xiffət ifadə etmirdi, hələ də, sonra da Atanın – ərinin cazibə qüvvəsini itirməyəcəkdi, həyat qüvvəsi hələ tükənməmişdi, hərçənd, məhəbbətin ən valehedici dövrü keçmişdi, məhəbbətində şaxanə səxavət axtarmışdı. Məhəbbətin həll olunmamış şübhələrindən qaçmışdı, mənəvi zənginlik dalısınca sürünməklə öyünmüşdü, onun ehtiras qüvvəsinə cavab vermişdi. Sürücü də, maşındakılar da, qapı bir qonşu da gözləyirdilər, bu yaşda-

ca ər – arvad qucaqlaşıb, ayrılacaqlar – heç bir qəbahət yoxdur. Sadəcə, hər ikisinin məmnuniyyət hissindən rəngləri tutulmuşdu. Məhəbbətin oyatdığı ümidsizlik yox idi, təbii kədər ola bilərdi. Onların qəlb quyusuna çirkli sular tökülməmişdi, gözəllik sevgisi qoymamışdı ləkələnsin!

Bu dəqiqələrdə onların – cütlərin xəyalı nəhəng ağ şüa ilə mavi səmanı və dibsiz uçurumları yarıb keçirdi...

Qısa təfərrüatına varmadan kiçicik hekayəni – əgər belədirsə – nəql edim ki: Gülzadənin qulağına çatmışdı Ata darıxır, şəhərə qayıtmalıdı. Arvadı gəlib onu aparsın, qızlarını tək qoyublar. Nəhayət, qərara gəldi, yeniyetməlik dövrünün Atası ilə görüşsün daha nə utanmağa, nə də qısqanmağa lüzum yoxdur. Üstündən illər keçib: o da, özü də evlənmişlər, uşaqları var. Amma o dövr elədir – unudulmur, özü də bir kənddə olasan. Atanı bir dəfə yeni gələndə görmüşdü, üz-üzə dayanıb kəlmə kəsməmişdilər, amma onun ürəyincə olardı. Məktəbli yoldaşlar kimi danışsınlar. Qismət olmamışdı.

Gülzadə vaxtın dəqiqliyini bilmirdi, yalnız təxmin eləmişdi. Ev işlərini qaydaya saldı, təmiz paltardan geyindi. O, əlavə ensiz yolla gəlirdi, bu yolla maşın gəlib-getmirdi. İri uşaqlar velisoped sürürlər. Həm də yol qısaldır Atagilin evini. İsti bərkiməmiş gəlməyi münasib bilmişdi, Atanın arvadına hədiyyə

almışdı, kənddə, rayonda əliboş bir-birinin evinə getmək adəti yoxdu üstəgəl, Ana qonaq qismində idi.

Gülzadə görəsən hansı hissləri keçirirdi, düşüncələrə qapılmaq mümkünsüz idi. İlk sevginin qığılcımları heç vaxt sönmür, yaddaşı isindirir. Bu, bəlli hissiyyatdır, amma nə üçün görüşə gəldiyini anlamaqda çətinlik çəkirdi, onu qətiləşdirməyə çalışırdı ki, keçmiş şagird yoldaşıdır Ata. Bir də azmaz bildiyi dərəcədə – məşhur kəndçiləriydi, məktəbdə görüşü olmuşdu. Bu düşüncələr burulğanında darvazaya çatmışdı, sakitlik idi, qüssələndi ki, artıq getmişlər. Bu dəqiqələrdə evin balkonundan Atanın bacısının səsini eşitdi, toyuq-cücələri onların "dilində" yem üçün çağırırdı. Az sonra Atanın öskürməsi Gülzadəni sakitləşdirdi:

– Hə. Evdədilər, – pıçıldadı və zəngi basdı. Bacısının: – Gəlin, evdəyik, açın qapını, – ucadan dediklərini eşitdi. Darvazanın kiçik qapısını içəri itələdi, həyətin bir hissəsi göründü. Səsə Ata həyətə düşmüşdü. Bir-iki addım atmışdı, Atanı görcək sanki sehirləndi, yuxuya getmiş, indi ona yad görünən (uşaqlıq vaxtı Atanın bacısı ilə o qədər gəlmişdi ki) qəsrə ayaq basdı, bu qəsrin müdafiəçiləri vuruşmada həlak olmuşdular. Bircə başçıları qalmışdı. Ağaclar güllələnmiş gövdələrini, sınmış budaqlarını sağaltmışdı, bircə qorxuya düşmüş quşlar yuvalarını tərk

etmişdilər. O gün diqqət yetirməmişdi – gəlib-gedənlər çoxdu, yubanmamışdı – həyət-baca da, ağaclar da qocalmışdı, quşların yeni nəsli gəlmişdi. Atanın bacısı həyatını yaşayır, günlərini fərəhlə keçirir ata yurdunda. Qəlbi sevinc dolu ümidlərlə doludu, nazlı məktəbli qız kimi özünü təsəvvür edir. Ata indi o fərəhli günləri qaytara bilməyəcək – mümkünsüz təşəbbüs olardı – bu gün yalnız sağlamlığı ilə əlləşir, gəzintiyə çıxır. Güman ki, Ata ruhi cəsarətdən əvvəlki kişidi, lakin başına gələn olaylar, büdrəmələr və yoxuşlar, öncəsi yaşının sürəti, həyatdakı süni ziddiyyətlər, intriqalar, stol davaları, sərvət talanları... onun inamını öldürməkdə davam edirdi. Və bunlardan hirslənir, bir qərar tutmurdu. Gülzadə belə düşüncələri boş-boşuna diriltmirdi. Ərinə böhtan atmış, bir vəzifəli məmur onu həbsə məhkum etmişdi, üç il azadlığını əlindən almışdılar. İnsanları, hətta yaxın adamları iki-üç dəstəyə ayırmışlar, “yerlilər” və “gəlmələr”, əzab çəkən isə birincilərdi. Kənddə isə... insanlar çalışırlar bu şərəfsiz hərəkətlərdən uzaq olsunlar, öz həyat tərzlərini dəyişməsinlər – yaşasınlar.

Birdən qənşərində Atanı görüb sarsıldı və ayağı tutuldu, nə geriyə, nə də irəliyə addım ata bilmədi, yaxşı ki tut ağacının altındakı taxta oturacaq boş idi, yaxınlaşıb əyləşdi.

Ata donub qalmışdı, tamam gözləmədiyi mənzərə alınmışdı. Qarşısında duran kim idi: ilk məhəbbətimi, yoxsa yaşa dolmuş bir qadınmı? Hər ikisi! Gülzadə həmin həddi-buluğa çatan qız idi, qamətliydi, ona məktub çatdırdığı vaxt geyindiyi qəhvəyi rəngli ayaqqabısı, qoşa qara hörüyü sanki enib-qalxır, qəşənlik saçan üzü pörtmüşdü. Baxışları soyuq deyildi, köksünə qısılmış döşləri qabarırdı. Ata belə xəyalı ilə elə bil özünü edam edəcəkdi – son görüşü idi? İndi başa düşdü ki, bu görüşdə qibtəedici heç nə yoxdur. Və tut ağacı altında  Gülzadəyə yaxınlaşdı. Bacısı: – Siz oturun, mən samavara od salım, – deyib onları tək buraxdı.

Onların söhbətini eşitmək... günah olardı... Onların hisslərini yaşamaq hələlik heç kəsin qismətinə düşməmişdi... Ancaq o şeyi yozmaq olardı: Bir zaman sevdiyi qızı uzun illərin ayrılığından sonra görmək – tanımaq da, tanımamamq da mümkün işdir, unutduğun, yaxud unutmadığın qızın sənə baxdığına, bir zaman səni sevdiyinə inanmaq, yaddaşında yenidən canlandırmaq necə? Bəs dəyişən kimdir? Sən, yoxsa O?

## 13.

O, dalğın həyatını yaşayırdı, bu tale payına düşən həm qəm idi: şad-xürrəm həyat qurasan, ata ol-

sana və... Beləsinə yuvası dağılmış qarışqa kimi yanaşırlar. Bilən bəlkə də haqq qazandırardı, bilməyən isə müəmmalı təbiətli kişi hesab edərdi. İnsanlar da dəyişir buqələmun kimi. Bu çağlarda bu müqayisəyə tez-tez rast gəlirik. Amma bu kateqoriyalıq deyildi. Bir neçə ay siqareti tullamamışdı, görənin yazığı gəlirdi: o qədər papiros sümürmüşdü, sifəti ölgün hala düşmüşdü, bəzən öz-özünə söylənirdi, hirsləndə dilini ağzında çətinliklə dolandırırdı, hətta uşaqlara məxsus qorxaq və şübhəli görünürdü. Onda utancaqlıq kompleksi vardı. Mütaliyəsi, mühakiməsi və məlumatlığı onu danışqan eləmişdi.

O, lal-kar həyatda məkan axtarmağı əbəs sayırdı, amma şirinıiyi gizlətmirdi, eləcə də məzəliyini. Özünə şübhələri vardı: “Deyirlər mən yatan zamanı sifətim eybəcər təsiri oyadır. Mən duyğularıma aldanmaq istəmirəm imkanım ovqatımda. Saralmış yarpaq ağacdan qopub, göydə fırlana-fırlana yerə düşür, insan isə bu ölmüş yarpağa can verir. Mən isə özümə can verməyi bacarmadım” – düşüncələrini yekunlaşdırırdı etirafı ilə: “Mən sevgi yarasını sağaltmağa qadir olmalıyam”. Dodaqlarının ucu titrədi, canı üşüdü, çənəsini ovuşdurdu. Və hazırladığı kofeni fincana süzdü. Bu səhər də erkən oyanmışdı, yazı-pozu işini qaydaya salmalı idi, yeni kitabının korrekturasını nəzərdən keçirməliydi. Qəribəsi o idi, kitabın adında sabit qərarı yox idi, əvvəlki xoşuna

gəlməmişdi. Xatirələriydi bir ovçu kimi. Payızın biri də özünü yetirdi və ötdü, dəqiq yaşı soruşanda o, “37” deyirdi. Bu yaşı bir vaxt “qoca” adlandırmışdı, bu gün sözünə gülürdü, adamlar var yaşını azaldır, mənsə... Güldü və kofedən içdi: – Kişilər qadınları maraqlandırmaq, əlində saxlamaq məharətinə malikdirlər, bu halla qarşılaşan qadınlar kişilərdən razı qalırlar. Romantik məqamlardan zövq alırlar, kişilərdəki ehtirası səbirsizliklə gözləyirlər. Hətta incə qabalığı belə. Bəli, onu təzadlı hisslər danışdırırdı: Qadına heyranlıq və sədaqət, qadına qəzəb və kin. Xəyalından fikirlər keçirdi: Qadın mehribandır, məlahətlidir, qadın əsəbidir, qısqancdır. Qadın sarsılmaz məxluqdur.

O, sevgili çağlarını xatırladı, görüşləri yada saldı və həqiqətən onu sevən bir qızın ona ömürlük sığınacağına qəti inanırdı. “Qəti” sözünü tez-tez təkrar edirdi. Övladı dünyaya gələndən xeyli sonra “qəti” kəlməsini eşitdirəndə arvadının üzündə iztirab, narazlığıq ifadəsini sezirdi. Olmaya o, ərindən gələn cazibə qüvvəsinə laqeyd idi, olmaq istəmirdi?

Havada həzin, sifətə sığal çəkən külək oyandı və içəri doldu. Bayırda səs-küy də qalxmışdı, binalara toxunurdu. Bakının bu saatlarda iş-güc həyatı başlayır. O, heç cürə arvadı ilə “tərs mütənasibliyi”ndən ayrıla bilmir bu neçə gündə: istədi ürəynə və beyninə toxdaqlıq versin: – Olmaya mənim ehtiras qüv-

vəm qurtarmışdır, ona olan pərəstiş baxışlarım yox olmuşdur?

Uşaqdan sonra həyatın valehedici sehri başqa səmtə axıb gedəcəkdir, yaxud gedir. Olmaya dumanlı eşq hissləri bu yaşlarda oyanır. Biz ki, qarşılıqlı münasibət əsasında evlənmişik, bəlkə kobud izdivacın (onun üçün) toqquşması ailə həyatına əl qatır, bulandırır. Olmaya ərli cavan qadınların məharətlə təlim etdiyi həyat dərsləri beləcə başlayır.

O, hiddət və təəssüflə ayağa qalxdı, var-gəl elədi və balkona keçib siqaret yandırdı. İçəri keçib pəncərəni açdı, xeyli onun qabağında durdu: Adam evlənəndə elə bil ona vəhy gəlir bir andaca, ailə həyatında nə olacaqsa görür. Sonra. – Papirosuna son qullabını vurdu. – Sonra ümumən, həyata qorxunc, həm də gülünc ittihamnamələr oxunur hər iki tərəfdən. Günahlar araşdırılana qədər iş işdən keçir. – Bu sözləri dodaqaltı mızıldadı, sanki kiminsə eşidəcəyindən yayındı.

Sönməkdə, avazımaqda olan sevginin oyatdığı ümidsizlikdən onun üzü uzanmışdı, bozarmışdı. Bu əlamətlər carəsizlik notları idimi? Olmaya ruhunu sarmış qısqanclığın ilk tufanı idi? – Yox, bərkdən dedi sözləri: – Bu taleyin mənfur üzüdür, gec-tez göstərir. Hər bir qadın qız ikən əməlisaleh ailənin övladı kimi özünü mühafizə hissini mənimsəməlidir. Anası qızına sağlam fikir, dözümlük, sədaqət

notlarını oxutdurmalıdır. Məhəbbət mehrabına səbr, fədakarlıq çiləməlidir.

O, nəhayət gəlib Aytacın üzərində mülahizələrini – belə də yozmaq olardı – istəklərini çözməyə başladı. Aytacın tərcümeyi-halı qısadır, sənəti böyükdür və özünü yaxşı mənada diqtə eləmişdir. Söhbətlərində ağıllı və təmkinlidir, mühakiməli və lirik ovqatlıdır. Mənimlə söhbətdən zövq alır, hiss edirəm. Kollektivdə adına söz çıxmayıb, bu nadir hallardan sayıla bilər. Mən bu aləmin dolayısı da olsa içindəyəm.

Pəncərənin tayını örtdü, külək bərkiyirdi. Günəşin "gecikməsi"ndən istifadə edirdi.

Divanda "sevimli" yerində əyləşdi: – Bu qızda səadət arzusu o qədər güclüdür! Onun həndəvərində vurxunan, şirə axtaran milçəyi bükülü qəzetlə vurmağa təşəbbüs elədi, milçək özünü qorudu və uzaqlaşdı. O, ismətindən, şərəfindən, onun ləkələnməsindən qorxur, ona görə ki, sarsıntı, özünümühafizə hissi qızlarda qorxu aşılayır. Ehtiyatını əldən verən qızlar da, qadınlar da kişilərin xəstə azğınlıqlarına tabe olurlar, heyif ki. Kişilər üzlərindən saxtakarlıq pərdəsini götürə bilmirlər, gizlətməyi bacarmırlar. Əks cinslər isə acizləşirlər. Həyatın özü bu çirkinlikləri ört-basdır etmir, çün, ayrıca "nəsil" yetişir bütün təminatları ilə. Çün, riyakarlıları, ikiüzlüləri sevir. – İkinci fincanı içdi: – Aytacın hiss olunur yeni-

yetməliyi qayğısız keçib kənd yerində, gəncliyindən həyat məsələlərində ciddi düşünməyə qabil olmuş ki, bu gün də həmin keyfiyyətləri qorumuşdur. Çirkli əllər bu qıza uzansa da, havadan asılı qalmışdır. O, ləyaqət və kişilik duyğularını harayasa çəkmək istəmədi, nəhayət qərara gəldi. Axı, ilk evliliyi tənəzzülə uğramışdı. İlk səbəbi güman ki, şübhələr pəncəsində əzilməli idi: bir səbəb də qayğıdan uzaq ürək – qəlb və mühakiməsiz enerjisi idi. Özünə belə haqq qazandırırdı: – Elə səadət varmı insan ondan boyun qaçırsın, bunun müqabilində əzabını yaşasın. – Etirafını ahənglə ifadə elədi: – Onu köhnə, işini görüb qurtarmış qayıq kimi sahilə atmışlar, hətta qağayılar da yaxın gəlmir, başıüstə qaqqıldaşıb istehza ilə ötüşürlər. – Bu fikrindən sonra onun gözlərində dəhşətli intizar oxundu, əlləri uçundu.

O, ruhi və cismani əzabı duydusa, mərhəmət hissi qəlbini tərpətdi.

Günəş qalxmışdı, toparlanmış buludları parçalayırdı, məkansızlıqdan səma üzündə ora-bura vurxunurdular. Nəhəng tanker – gəminin qorxunc fit səsi buludlara çatmadı, nəvazişsiz mahnısı hələ çalınmamışdı.

Mətbəxə keçib kofe çaynikini qazın üstünə qoydu, beş-on dəqiqə gözlədi. Sonra fincanla birlikdə stolun üstünə qoydu. Gözlədi – özü də fərqini kəs-

dirmədən sakit-sakit baxışlarını bayırdan çəkmədi. Qərarı nə olacaqdı?

Aytac haqqında yazılan məqalə peşəkar jurnalistin qələmindən çıxmışdı. Suallara hazırlaşmışa oxşayırdı, cavan əməkdaş idi, düzdü, gözləmirdi. Bəzi rəqslərin mahiyyətindən sual verirdi: "Mənim üçün maraqlıdır "açması" deyirdi. Aytac isə birbaşa: "İmtahanmı aparırsan məndən" – sualını çatdırdı. Və: "Mən yaşadığın əhval-ruhiyyənin ifadəsini almaq istəyirəm" – cavabını eşidirdi:

– Heç, nalayiq rəqs oynamısız? – Jurnalist birbaşa verdi sualı və sonra üzr istəməyi lüzum bildi.

Aytac bu mədəniyyətin qarşısında nə deyəcəyini düşünməyi artıq hesab etdi:

– İstəsən əgər "Citterberq"də oynayaram, – dedi. – Bir şərtlə, gərək sürətli hava çalınsın. Belə imkan varmı? Mən isə atdanıb-düşən rəqqasələrdən deyiləm. Bağışlayın, yaşınız neçədir?

– İyirmi üçdür! Hələ oynamağı öyrənmək vaxtım var, bəlkə sizdən dərs aldım. Siz Allah, belə məzələnməyi başqa yerlərə yozmayın.

– Mən söhbətdən qabaq sizə çatdırıram ki, mənə ordan-burdan suallar verməyin, məni uzaqlara dartmayın. Bilirəm, sizə o rəqslər lazımdır ki... – Aytac sözlərinə ara verdi və baxışlarını jurnalistə dikdi. – Unutmayın ki, "Kankan" rəqsini də xoşlarız. – Güldü və cavana toxundu. – Bu, quyuqazan mənasını

vermir a! Bu, nalayiq fransız rəqsidir, araya kavaler qoşulur – xanımı əyləndirən rəqqas – kişidir.

Jurnalist dialoqunda özünü qəribə və maraqlı müsahib qismində mənimsətməyi bacarırdı. Rəqsə getmişdi şagird ikən, şeir söyləməyi kifayət dərəcədə ifa edirdi, qadınlara "qarınaltı" gəlməkdən ləzzət alırdı. Aytacdan – adı gündəmdən düşməyən bu xanımdan belə bir müsahib olmağı ağlına gətirməmişdi. Yaşı nə az, nə də çox idi – diqqətdən yayındırmaq qabiliyyətində deyildi. Belə rəy jurnalistin təbiətində idi, bir az da üzlü idi, qadınlara "ilişən" idi.

Aytac mobil telefonunda özünün, öz ansambl üzvlərinin və dünya rəqqasələrinin oyunundan "seçimlər" etmişdi, yaddaşa köçürmüşdü. Jurnalisti yanaşı əyləşdirdi və diqqtini telefona yönəldi:

– Bu rəqqasəyə diqqət yetir, – xəbərdarlıq elədi.
– Mən oynamırdım, ancaq rəqs ansamblımızda gənclər vardır, istedadlıları zəngindir, atılıb-düşməyi xoşlamayanlardır, hətta kardabaletlər də.

Jurnalist sözün lüğəti mənasından xəbərsiz idi və soruşmaqdan yayınmadı:

– Aytac xanım. – Qarşısındakı çaydan azca içdi.
– Nə deməkdir bu söz?

Aytac jurnalistin üzündə şən cizgilər gördü. Ürəyində: "Eh gənclik, köç alıb tez gedirsən. Vaxtında qədrini anlamırıq" pıçıldadı:

– Dəstəylə oynayan balet artistləri heyətinə deyilir. Onlar başqa aləmin adamlarıdır. Üslubları tamamilə fərqlidir, fransızca “qranjer” deməkdir, yəni dəbdəbəli üslub. Repertuarlarında xor mahnısı yer tutur, ya da solist tərəfindən ifa olunan mahnı, bu da “antifon” adlanır.

Aytac telefonun ekranını böyütdü ki, rəqs ifaçıları aydın görünsün.

– Baxın, lentə almışam. Bu rəqqasənın yaşı azdır. Musiqi litseyini bitiribdir, özünü modernist hesab edir... Cittenberq oynayırdı, ədəb-ərkanla, atılıbdüşmür. Əlinə tərəf – müqabili toxundu – dərhal onun ardınca şütüyür. Necə ki, fırlandı – yanbızlarını elə hərlədir! Çətin əsərdir. – Baxın. – Əlini ekrana yaxınlaşdırdı Aytac. – Tamaşaçı hayıl-mayıl olmaya bilmir.

– Elə mənim burdaca ağlım başımdan çıxır. – Bu sözləri gülüşünün müşayətilə astadan dedi.

Aytac reaksiya vermədi, yoxsa cavan oğlanın üzündən tutub yumağın sonunacan gedəcəkdi, amma yanılmışdı. Jurnalist dilləndi:

– Rəqsləri dediyim kimi, hədsiz xoşlayıram, vurğunuyam. Solo ifaçı qızlarımız elə fon yaradırlar, az qalıram eşq elan edim. – İkibaşlı güldü, alnına yapışan saçını arxaya atdı, sözünün təsirini yoxlamaq istədi. Müsahibi onun maraq dairəsində idi və rəqslər haqqında səviyyəsiz söhbətlərin “boş” oldu-

ğunu bir daha təsdiqləyəsi oldu. – Hərçənd, qız tayfasından baş açmaq çətin elmdir. – Gülümsündü. – Hər rəqsdə elə qəşəng oynayırlar, sifətdən mən deyən kimi olmasalar da, az qalırsan onlarla yaxşı mənada tanışlıq yaradasan.

Aytac yerindən tərpəndi, çay stəkanını nəlbəkiyə qoydu.

– Başqa "məna" da var məgər? Axı, cavan jurnalist! Sən maraqlı həmsöhbətcilsən a! Belə rəqqasələri səhnədə görəndə yox, kənarda tanış ol ki, ağlın başında olsun, kənara qaçmasın. Hə, ağılsız kişiləri dəli edirlər! – İstehza ilə fikirlərini çatdırdı. – Mən qızlığımla dəli oluram az qala.

Jurnalist yerində qurcalandı, diqqətini ekrandan çəkdi:

– Siz hələ subaysız? Sizin yəni? – Sözünü kəsdi.

Aytac ötkəm, amma nəzakət daxilində astadan:

– Bağışlayın, - dedi

Jurnalist üzr istədi və mövzunu dəyişdirdi, dəftərçəsindəki qeyd səhifəsini aşağıdan azca qatlayıb örtdü. – Qismət olsa sizinlə görüşmək mənə xoş olardı.

Aytac bir söz demədi, dəvətnamə çıxardıb jurnalistə uzatdı və:

– Alın, öz solo konsertimə dəvət edirəm, gələn ay üçün planlaşdırılmışdır, vaxtınız olarsa, şad olardı kollektivimiz, – dedi. – Bizim bədii rəhbərimiz

belə təşəbbüsləri sevəndir, tanımış olarsız: Yusif Qasımovdur.

Jurnalist başını arxaya əyib cuzi fikirləşdi, adı-soyadını eşidibmi, barəsində oxuyubmu? Xatırladı:

– Kənardan tanıdım. Ötən həftə onun qəzetdə müsahibəsini oxudum. Təcrübəli mütəxəssisdir, məşhur Əlibaba Abdullayevin yetirməsidir. Vaxtilə qəzetin də qonağı olmuşdur.

Jurnalist məqaləsində yazacaqdı: – Aytacdan ayrılandan sonra yaxınlıqdakı bağda oturdum, bir siqaret çəkdim, özümü həm gümrah, həm də zəngin hiss edirdim. Darıxdım da, bu, qəşəng və istedadlı rəqqasənin sirayətedici zabitəsindənmi, söhbətindəki emosional çalarlarındanmı idi? Belə mənzərəni ağlıma gətirməmişdim, yoxsa təcrübəsizlikdənmi idi? Təkliyimdən darıxdım. Əgər o, təsadüfən bu bağa gəlsəydi, yaxud ötüb keçsəydi, onunla oturub sərbəst söhbət etmək arzumu gizlətməyəcəkdim. O, necə də qürurlu, özünə güvənən və gözəl idi! Gəl ki belə rəqqasələrə əclaflar, dəyyuslar tamah salırlar, əylənmək üçün adlarını ləkələyirlər. Tez də uzaqlaşırlar bir nəticə əldə etməyəndə. Həqiqətən, beləsinə meyl salan qız –rəqqasələrə acıyıram ki, o filan kişi dəyyusun yekəsidir, naqqaldır, dilitantdır, arvadbazdır. Yaxud, savadına arxayın olub lovğalanır. Qadınları onlardan boşanandan sonra guya ağılları gəlib başlarına, sağlam həyat qurmaq istəyirlər. Bəzi

qızlar isə özlərini o yerə qoymurlar, cani-dildən deyirlər ki, bəs o filankəs kişi utancaqdır, sözünə düzdür. Bəlkə... Eh, rəqqasə – xanımlar, o kişilərin nə fikirləşdiyini haradan biləsiz! Vaxtınız varmı düşünəsiz... Eh, bəzi qızlar, biri xoşunuza gəldi, vəssəlam, nə qədər əclaf, dəyyus olsa belə, əl çəkmirlər, qoxulanıb atılırlar. Bəzən ağıllı rəqqasələrdə ... Aytac sonda nə desə yaxşıdı, anlamaqda çətinlik çəkdim, dedi: “Cavan oğlanların, ağıllı kişilərin hamısı bir cürdür: Sığallanırlar, şirvanırlar, sonra da qadını tək qoyub gedirlər!!

Aytac az sonra müsahibəsini oxudu və son cümləni təsirində qaldı...

Aytac anası üçün də darıxdı, amma kənddən xoş xəbərlə gəlməsi üçün daha çox xiffət etməyə başlamışdı. Telefondan sonra gələcəyi vaxtdan arxayınlaşdı. Sırağagün kollektiv uşaq evlərinin birində: atasız (yaxud atalı), anasız (yaxud analı) balalara pulsuz-parasız konsert vermişdi, təşəbbüsü özü irəli sürmüşdü, artıq dəbə minmişdi. Qəzetlər bu barədə xəbərlər verirdi. Aytac qayıdanda qayğılarla üzbəüz dururdu: – Taleləri niyə belə fidanları ata-anasız böyüməyə məcbur edir, halbuki, elə ata və anaları var kənarda kef-damağda yaşayırlar utanmadan! Bu olaylarda o, az qala ekstaz vəziyyətə düşsün. O, Allahın mövcudatında sitayiş vaxtlarında dua edirdi bu “kimsəsizlər” tez boy atsınlar, özlərini anlasınlar.

Beləcə, körpələrə məxsus qayğılarla üzülə-üzülə yaşayırdı. O, qaşları üstə yığılan alnının dərisini açdı və ürəyilə söhbətini davam elədi, bu vaxt balkonda taxta məchərə qonmuş bir cüt göyərçin hürküb çırpındılar. – Ağa Rəhimlə söhbətinə qayıtdı, aldığı təəssüratı boşuna buraxmaq istəmədi, nədənsə ona yazığı gəldi, fikrindən daşındı:

– Yaxşı ki, övladı var ona həsrət qalsa da. Harada, hansı yaşında olsa belə, atalığında qalır. Atasının belindən gəlib, övladıdır. Vay o kəslərə. – Aytac darıxdı yamanca, belə hala düşməmişdi. Ana olmaq təşnəsi varlığını alova bürüdü, sızlatdı, taleyindən şikayətləndi, belə halı heç vədə keçirməmişdi, ona yozdu ki, yetimxanadan aldığı təəssüratın acısıdır. – Mənim günahım nədir? – Nə sual idi, nə də nəticə, amma cavab istəyirdi suala. – Atam qocalır, anam yaşa dolub, nəvə intizarındadırlar. Üzümə vurmasalar da ürəklərinə bir dərd kimi salıblar.

Möhkəmcə susadı, qaynanmış qəfədandan bir çaynik çay dəmlədi, otağa keçib əyləşdi.

Axşam çoxdan düşmüşdü, şəhər işıq dənizində çapalayırdı, əllərini gəmilərə uzadır, tutub özünü xilas eləməkdə idi. Balaca gəmilərə yaxın durmurdu işıq seli. Bu gəmilərin taleyinə tənhalıq düşmüşdü.

Aytaca təsir edən o idi – daha etiraf eləməkdən çəkinmirdi. Həyatı barədə düşünüb qərara gəlmək heç zaman qəbahət sayılmamışdır – onun saf, səda-

qətli olacaq könül qalasını hələ ki döyən yoxdur, səbəb nə? Bu suala da cavab istəyirdi. – Görünür – yox, həqiqətdir, eybəcərəm oğlanlar üçün, sərtəm kişilər üçün, vəzifəli məmurun qızı deyiləm onun üçün? Ürəyimi açdığım rəfiqəm yoxdur?

Mənə əzab verən bəs nə ola bilər: ərə getməməkmi, atamın xəstəliyimi? Yaşımın iyirmi beşi adlamasımı? Əsla! Hələ ki şansım var, atam yaşayır, yaşımın da coşqun çağıdır. Bəs nədir? Yenə bu sual qarşısında aciz qaldı. Amma peşimançılığa oxşar hansısa hissin iztirabını çəkməkdə idi.

Aytac özündən qeyri-ixtiyari uşaq barədə fikirləşməli olurdu, ana olmaq qüdsiyyətini qəlbində bir hiss kimi axtarırdı, lakin reallaşdırmağı bacarmırdı və bu hissiyyatdan az qala dəhşətə gələcəkdi. İstərdi uşağı dünyaya gəlsin, dizləri üstə lay-lay desin, ağlatma ana südü üçün...

Tam səssizlik otağa hakim kəsilmişdi, sükutu da qınamağa dəyməzdi – kişilərlə həmsöhbət olamalı idi, axı şair demişkən: “Sükutun da öz dili vardır”. Aytaca gələndə o, tənhalığı dairəsində taleyilə döyüşdədir, taleyini qınamaqdadır, haqlıdır. Bu vaxt telefon səsləndi, qorxdu, kənddən olar, otaq başına fırlandı, qəmli çığırtısı ilə qulaqlarını batırdı və özünü ələ aldı, dəstəyi qaldırdı:

– Eşidirəm. – Zərif xırıltılı səslə dilləndi. – Axşamın xeyir, Xumara xanım.

O başdan gülüş gəldi:

– Axşam deyil a! Gecəniz xeyir! – Gülüşülə adət edən Aytac ciddi reaksiya vermədi, sükutla qarşıladı. – Yəqin təksən. Atan necədir? Şükürlər! Allah özü qorusun. – Sükit. Aytac bu pauzadan istifadə edib onun əhvalını xəbər aldı, pis olmadığını eşitdi, sevindi. Lakin. Xumara xanım əvvəl xəbəri çatdırmaq istəmədi, gecə onun əhvalına xəbərin pis təsirinə şübhə eləmədiyini gizlətmədi:

– Çapay qəzaya düşüb, saat... – Susdu.

Aytacın az qaldı ürəyi ağzından çıxsın, sükuta tabı çatmadı. Xumara xanım da fasiləni uzatmadı:

– Haradansa qayıdırmış, tək deyilmiş – məlum cinsi demək istəmədi. – Qarşıda gələnlə toqquşub, günah bunlarda deyilmiş ilkin araşdırmaya görə. Hətta bu qəzada qərəzlik elemntləri olub, eşitdiyimi deyirəm.

Aytac fəhmlə proqnozu gizlətmədi:

– Yəqin qadın imiş. Kiminsə. – Dilini saxlamadı. – Xumara xanım tutdu, münasibətini bildirmədi.

– Bəlkə də. – Müəmmalı cavab verdi. – Xəstəxanada yerləşdiriblər. Yusif müəllim oradadır, xəbəri də o çatdırdı.

– Saat neçədir? – Divar saatı işləyə-işləyə fərqinə varmadan soruşdu. – Hə? On olmayıb! Bəlkə gedək?

Xumara xanım daha məlumatlı olduğunu bildirdi.

– Reanimasiyadadır, ora heç kəsi buraxmırlar, Yusif müəllimin özü də gözləyir. Hələlik, gecən xeyrə. – Xumara xanım dəstəyi qoydu.

Aytac halsız divanda oturdu və Allaha dua elədi...

Aytacın yadına qəfil düşdü, unutmuşdu ki, Ağa Rəhim konvert verdi, dedi ki, ciddi şey deyil, oxuyarsan. Cavab verməsən də olar, on günlük səfərə çıxır, iş yerindən göndərirlər. – Qayıdaram, təəssüratımı bölüşərik. Sənə olan münasibətim emosiyadan çox intellektuallığa əsaslanır, mühakimən qarşında heyranam.

Saat gecəni azalda-azalda işləyirdi. Bayırda külək səngimişdi, quşlar yatmışdı, küçələrdə gecə "taksiləri" hərəkətdə idi.

Aytac, düzü həyəcanlandı, fəhmlə nəyisə yozdu, ürəyinə də etibar eləmədi... Həyəcanla gülümsədi, alnını turşudub məktubu açdı. Sözlərin səsini bu dəfə gizlətmədi, ürəyinə pıçıldadı: "Bilirəm, qəti məndən belə təşəbbüsü gözləmirdin, biz yoldaş, dost kimi yaxınlaşdıq, mən bu təsadüfdən məmnun qalmışam. İlk dəfə. Mən dərin qadın mühakiməsinə malik sənətçi – qızla üzbəüz qalmışdım. Sən az-çox mənim həyat tarixçəmə bələdsən. O tarixçə ki artıq ölmüşdür, buna heyfslənmirəm. Nə üçün də! İndi o günlər bir tüstü olaraq qarala-qarala üzü dənizə axır. Amma bir zaman ümidlərim qüdrətli idi, yenilməz idi, gələcəyim idi.

Kişinin yeganə sərvəti bu imiş, qadını tərəfindən qiymətləndirmə! O sərvətdən yeganə övladım qaldı, o da naməlumdur, mənə çatacaq, yoxsa...

Təmtəraqlı cümlələr qələmimə gəlmir, ona görə ki, sənə edəcəyim məhəbbət bunu tələb etmir. Əgər bu şərəfə təbii istəklə nail olsam, deməli, xoşbəxtliyimin bir addımlığında dayanardım... Ah, arzuladığım o məhəbəət! Məni axtardın, tapdın və itirdin. Vallah, günahkar mən deyiləm, bəlkə də o qadın da günahsızdır. Fakt budur, mən kişiyəm, atayam, amma ər deyiləm. Sənin gözəlliyin, qismətə zəhər qatmaq arzundan uzağam, aramızda yaş fərqi də gümanımı təsdiq edir. Sən gənc oğlanla ailə həytı qura bilərsən, əgər bəxtinə nankor çıxmaya. Mən neçə vaxtdı öz həyatıma kənardan nəzər yetirirəm, hələlik boşluq görürəm.

İşıq çox uzaqdan alovlanır çıtırda-çıtırda mənə yaxınlaşır, ləngisəm gözlərimi qamaşdıracaq. Necə ki izdivacımda gözlərim gözəlliyə aşiq oldu, sarsıldı və təslim oldu, sonu da beləcə... Sənin ən böyük bir üstünlüyün ondadır – kübar mühitə nifrətdəsən, yaxına buraxmırsan, bu inadkarlığa hər sənətçi xanım bacarmır, iradəsi çatmır. Mən o mikro mühitin tam içində olmasam da kənardan görə bilirdim. Necə ki suyu bulandıranda balıqların gözü tutulur, suyun üzünə çıxır, o zaman tutmaq o qədər asan olur ki!..

Mən sənin boşalmış qəlbini işıqlandırmaq qabiliyyətini özümdə duyuram, əl-bəttə... Əlbəttə, tam zəmanət verməkdə çətinlik çəkirəm”. – Cümlədə Aytac gözlə-rini məktubdan araladı. Qələmi götürüb həmin cümlənin altından nazik xətt çəkdi: – Sənin bir hünərin elə öz fikrinə saxtakar yanaşmamağındır, – düşündü və ayağa qalxdı.

Otaq səssizlikdə uyumuşdu. Gecənin başı ulduzlara qarışmışdı, ətrafında ona dəyib-dolaşan bulud parçalarını ayaqlayıb harayasa tələsirdi. – Aytac gözaltı vərəqi süzdü və oxunuşuna davam elədi: “Taleyinin məchulluğunu burax, yeni həyatı fikirləş və ona cəhd et. Zamanın nadanlığından ehtiyatlan, o qəşəng, sevimli xanımları sonacan qovur və yorur... Zaman bal arısına daha çox hücum göstərir. Bal verən pətəyin sakinlərini əzişdirir, öldürür, ondan sonra toxdayır, bu əclaf Mühit! Bu yazdığım rəvayət deyil, müdrik adamın təəssratıdır. Əslində hamımız bu mənzərə ilə qarşılaşmışıq: Murdar əl, haram tikəyə öyrəşmiş barmaqlar pətəkdə ilişən arıları çıxarmışdı, ana arını isə öldürmüşdü. Diri yalnız keşikçi arılar qalmışdı. Qaldı talançılara – fürsət düşmüşdü onlara, pətəkdəki olan-qalan bala daraşmışdılar. Mənzərə çox kədərliydi, dözülməzdi: güllərdən, çiçəklərdən şirə toplayan arılar yüklərilə pətəyə – ana evinə gəlir və boş, yüngül, həm də qürurla uçub dağılışırdılar. Sanki pətəklər emal müəsisəsini xatırladır.

İşlək arılar toxunma qamçı kimi pətəyin dibinə enir, mum çəkirdilər, indisə bikef, qanadlarını sallayıb ümidsiz halda uçub getmək barədə düşünürdülər. Çıxana qədər nəsə pıçıldayır, yelpik kimi qanad çırpırdılar. Pətəyə baxanda qəmli mənzərə görünürdü: dərəmumu qırıntıları, arı ifrazatı və can verən arılar...” Fikir burda bitmişdi. Görünür, “üç nöqtə”nin öhdəsinə buraxmışdı açıqlamasını. Aytac bu uzun cümlənin altından da xətt çəkdi, qoşa vərəqi bir-birindən ayırmadan qatlayıb konvertin içərisinə qoydu. Və çalışdı öz fikrini qərarlaşdırmasın, çünki yorulmuşdu, bədənini yüngül ağrı almışdı gecənin bu vaxtında. Çarpayısını açdı, uzanmağı ilə yuxu onu apardı...

Xumara xanım bəd xəbər eşidəndə sarsıldı, dizlərindən ağrı qopdu, susdaldı və divana söykəndi. Saçları pərişan halda sinəsinə dağıldı, hər saçın ucunda nəsə yanırdı. Xalatının qabağından döşlərini saçları boğmaqda idi və O, darıxdı. Hansı mübhəm hissi idi, özündən soruşdu: – Mən ki Çapayla yataqda olmamışam, amma istəmişəm, nə üçün kimsəsiz otağımda etiraf etməyim? Divarlardır da! Ona sənətçi yoldaşdan daha çox hansısa hissiyatımla acıyıram, bu hisslərimi də boynuma alıram. Bizim tale yollarımız şəhvət meydanında görüşmədi, güman bundan sonra da! Mən ilk əvvəl bir qadın kimi məchul və gözəl dünyamı tapmaq ümidində idim, bu alə-

mə ehtiraslı nəzərlə baxırdım, qadınlara yapışıb qopmayan kişilərdən uzaqda dayanırdım, çünki ərdən sonra kişilərin təqibini görməyə bilməzdim. Şöhrət alverçili qadınların səssiz çığırtısını da eşitmişəm, guya ki, cinsi məhəbbəti yaşayırdılar. – Xumara xanım güldü, gözlərinin dairəsi işıqlandı, bağıra bilmədiyi bu dəqiqələrdə toxdaq olmağa çalışırdı, qaşlarının altından gözləri məsumanə parladı, pırtpaşıq saçlarını yığdı: – Çapay ehtiyatını əldən buraxmayan adamdır, məruz qaldığı maneləri qabaqcadan duyandır. Əgər qəzada bir əngəllik varsa. – Xumara xanım çiyinlərini dartdı, dizlərinə dirsəkləndi və hıçqırdı. Çapaya bütün ürəyilə bağlanmamışdı, bəzi təşəbbüslərini şüursuz etmişdi. Axı bu, sədaqətli məhəbbət deyildi, dul qadın şəhvətinin səsiydi, onu çağırırmış.

Yaş onun dodaqlarının dövrəsindən süzülürdü, barmaqları heç nə tutmurdu, cansız çubuq kimiydi və indicə, bəli, bu saniyələrdə Xumara xanım təhqir olunmuş qüruruna acığı tutdu. – Nə iztirabdır? Mən məgər onun qadınıyam, yoxsa oynaşıyam? O, kiminsə arvadı ilə. – Dilini burada qıfılladı və ucadan dedi: – Mən böhtan atmarammı? Görməzə-bilməzə hədyan danışaram. – Gicgahında, ağzının yanlarında qırışlar əmələ gəldi. Gözlərində şübhə ifadəsi oyandı. Amma qısqanclıq qasırğa kimi üzərinə hücum çəkdi və bu məqamlarda da özünə qarşı kəskin irad

yarandı: – Nəyimdir ki ona qısqanıram? Qadınlar niyə bu qədər şəhvətin dalısınca sürünürlər! Divara zillədi baxışlarını, arada titrək kölgələr çapalayırdı, olmaya divara qısqanırlar? – Xumara xanım güldü və belə bir vaxtı o, gümrahlaşırdı, qəşəngləşirdi. Çapayın dediyi sözləri xatırlayanda toxdadı: "Xumara, kişilərin duyğulu hərəkətlərinin gizlinlərini anlamaq gərəkdir, bu isə siz qadınlar üçün çətindir. O vaxt anlayırsız, artıq gecdir. Qadınlarda dəvə kini, dəvə yüyrəkliyi, dəvə dəlisovluğu da olmalıdır".

Xumara xanım birdən oturduğu yerdən qalxdı şaşqınlıqla:

– Nə gəldi dilimə? – dedi. – Cavandır həyatda arzuları çoxdur. O, məni əxlaqsızlıqdan ayırdı. Qadın ərindən sonra biri, ikisilə yatağa girdi olur... – Susdu. O sözü işlətməyi özünə sığışdırmadı. – Minnətdar olmalıyam. Ürəyimdə, hisslərimdə onun yeri həmişəlikdir, məndən asılı deyil. Bilirəm ki qəribə və ciddiyətli duyğulardır. – Qəmli səsləndi...

## 14.

Ata Gülzadənin görüşündən sevinc, nostalji hiss duysa da peşimanladı və bunun onda yaratdığı dərin hissiyatı əgər yaşasa idi, bir də arzulamaq istəmədi, sinirlərini sızlatmışdı: həyat onu narahat və tələbkar adam kimi kənara tullamışdı, sevinclə bərabər izti-

rab da vermişdi. Məhəbbət mehrabında fədakarlığı bacarmamışdı, ilk sevgisi üçün mübarizə aparmamışdı. Çünki şübhələrin təcəsində əzilməmişdi. Gülzadə ilə qısa söhbətində ruhi əzabı ötəri sandı, müdrik yaşına güldü, halbuki, ilk sevgi ömürlük cavan qalmalıdır, nizamla idarə olunmamalıdır. Amma Ata əminlik duydu ki, ilk sevgidən ağlaya bilər, o, görüşə kədərli gözlərini gətirmişdir, hiyləsiz baxışları bəzən azır, qərar tutmur. O, hələ də qapalı mühitin dairəsindən çıxmamışdır, əvəzində isə sakit, sarsıntısız yaşamış, dünyaya uşaqlar gətirmişdir. Vaxtilə qəlbinin dərinliyində cazibədar və zərif bir qız yaşamışdır. – Ata bu məqamda özünü məzəmmət etdi ki, kəpənəklərdən, böcəklərdən daha acizmiş, bu canlılar parlaq şüa saçır, eşqləri naminə ölümlərinə risqə gedirlər, eşqli pərvanələr səhərəcən şam işığında vurxunurlar.

Ata xəyaldan ayrıldı, nisgili uçub getdi, ağrısı yox oldu, amma qulaqlarında Gülzadənin səsi pıçıldayırdı.

Ata çayın körpüsünü haqlamışdı bu düşüncələrilə, gözəllikdən doğmuş kədəri yaşayırdı. Dikin aşağısında durub meşəyə tamaşa edirdi, çayın səsi, səmada uçan qartal cinsli quşları heyranlıqla süzürdü. Çayı keçdi, ətrafı doyunca gəzib-dolanmağı qərara almışdı. Həkimlər piyada yol qət etməyi məs-

ləhət bilməmişdilər, elə doktorlarsız da özünün həkimiydi.

Günəşin yorulmuş şəfəqləri ağacların budaqlarından süzülürdü, sarımtıl yarpaqları əzilmiş otları işıqlandırırdı. İçərisində oyanış yaratmaq istəyirdi – vəhy idimi bu, yoxsa mərhəmətin qəddarlığına qalibiyyət idimi? – Sevgi insanın şıltaqlığıdır, faydasız təşəbbüsüdür. – Atanın beyninə batmışdı indicə. – Budaqlara baxıram, ağacın gövdəsindən yapışıb sallansa da, ölüdür, gələn yaza qalacaqlarmı? Həyatın mənasını açan varmı elə bu həyatın özündə? Həyatla Ölümün bir-birinə bağlılığı və açılmağı mövcuddur, heç vaxt bir-birilərinin yaşmını vermirlər. İnsanın mələk rəftarı həyatın ilahi mərhəmətindən doğur, amma bu mərhəmətə qarşı xəstəlik qalib gəlməyi bacarmaq, bu zaman insanın faciəsi başlayır. Duman arasında görünən işığın nə mənası?

Atanın üzündə, gözlərində ciddiyyətdən savayı mülayim kişi əlamətləri sezilirdi, buna səbəb ilk məhəbbətinin uzaqdan boylanan və eşidilən sədası idi! Ölümə xas şübhələrdən uzaqlaşmaq ifadəsiydi. – Hansısa kitabda oxumuşdum ki, Ölümün məchul və sirli caynaqları insan ruhunu aparmaq üçün yaxınlaşanda o vücud, o varlıq titrəyir, necə ki insan bir gülü qoparanda budaq silkələnir, qəribsəyir.

Kəndə və bu meşəyə haçansa gəldiyi təpənin başında oturmuşdu, yüngülləşdi. Ov ovlamaq ürəyin-

dən keçdi, hündür otların arxasında gizlənmək istədi, işıq onu ələ verə bilərdi, az sonra fikrindən yayındı. – Deməli, Ölüm haqdır, insanlar da süni yolla bunu həyata keçirirlər. Budur, pusquda dayanmışam, hansı bir canlı keçərsə qabağımdan – öldürməyə nail olaram.

Ata siqaret çıxarıb yandırdı, məqsədinə güldü, güldü ki: – Papirosun tüstüsü və kəskin iyinə heyvanlar duyuq düşər. Yoxsa bütün mərhəmətinə baxmayaraq ovçu harisliyinə tabe olacaqdır. – Ata sümükləri çıxmış barmaqlarını şaqqıldatdı və yerini dəyişdi. Uzaqlar hələ nəzərindən kənarlaşmamışdı. Biçilmiş taxıl zəmilərinin yerini yandırmışdılar, quşların ümid yerini kəsmişdilər, yalnız aldanan quşlar, dovşanlar buralara baş çəkir, peşimanlayıb qayıdırdılar. Yanılmamışdı, bir cüt dovşan addabudda yığılmış samanlığa tərəf qaçmaqda idi. Məsafə uzaq deyildi, tüfəngi gözünə tutdu, əlləri əsdi və barmağını titəkdən çəkdi. Bu vaxt iki turac kövşənlik uzunu uçub uzaqlaşdı. Laqeyd və yorğun halda quşları müşayət elədi, onlar meşənin cənubuna sarı süzürdülər.

Ata qəlbini sıxan kədərə, qüssəyə qarşı laqeyd olmaq istəyirdi, ətrafında insan nəfəsinin yoxluğu cansıxıcı sükut yaratmışdı, olmasa da boğmaq istəyirdi. Bəli, Ata ehtiraslı ovçu həvəsini süni laqeydliklə gizlətməyə çalışırdı. Halbuki, bir zaman onun

brakonyer yerişi vardı, ayaq tappıltısını gizlədirdi, ayaqları altında çör-çöp sınmırdı. İndi onun nəzərində soyuq meşə idi, füsünkarlığı itmişdi.

Ata kövşənliyə baxdı, həmən dovşanlar uzun qulaqlarını yatırdıb geri qayıdırdı. Yazıq və yaşamaq instiktini saxlayan dovşanlar yanında dayandılar və birdən sıçradılar, qulaqlarını qısıb, seyrək və hündür tullanışla uzaqlaşdılar. O, qoca palıd, fındıq, qovaq ağaclarının haraya uzandığını təyin edirdi, buralar ov məskəniydi. İndi hövsələsiz həyatı ilə mübarizədə idi. – Hayıf ki taleyi iki dəfə yaşamaq mümkünsüzdür. – Ata pıçıldadı. – Ona baxan olsaydı gözlərində məsum uşaq işartısını görərdi, axtarmağa ehtiyac qalmazdı. – Ürəyim tənbəlləşibdir, laqeydləşibdir, beynimin sözünə baxmır.

Ata yenə ruhsuz gileyləndi və qonur xəzan yarpaqlarını külək yerindən oynatdı, ətrafa dağıtdı. Bu yarpaqlar Atanın nəzərində ölmüşdü, cəmi bir fəsil yaşamışdı. – Bir mövsüm a! – Ata qəzəbləndi, əyilib bir ovuc yarpağı götürdü, ovcunda sıxdı və havaya buraxdı.

Meşənin payız lətafəti kövrəlmiş haşiyə kimi sakit məhəbbətə bənzəyirdi, bu sevgi Atanı tərk etməkdə idi. O, meşə qırağının döngəsində ayaq saxladı, qurumamış yemişan budağını qırdı, qoxuladı, bu dəfə sola buruldu, günəşin çəhrayı rəngə boyadığı cığıra keçdi. Üzü çaya istiqamət aldı. Göyün sə-

masına saçaqlı bulud ləkə salmışdı, yağış havasına köklənmişdi. Bu "gəlişi" duyan çəkçəki quşun, bildirçinin cingiltisi eşidilirdi. Uzaq üfüq şəfəqinin parıltısı sönməkdə idi. Bu ara birəbitdən quşu Atanın qabağından elə ötdü, sanki yanıq verirdi...

Çay sahilində uşaqlar yox idi, balıqlarını tutub dağılışmışdılar. Ata körpünün tən ortasında dayanıb üzüaşağı boylandı. Su quşları kiçik ləpələri sinəsilə yara-yara üzürdülər, yerləri dalğanırdı. Başı üstə su cüllütləri uçur, çox-çox aralıda, çayın qırağına enirdilər. Bu çağlar onların "nahar" yeməyinə çağırırdılar, axşam düşəndə uçub gedəcəkdilər: Haraya?

Səma nazlana-nazlana qaralırdı, buludlar çəhrayı – ağ köpük kimi burula-burula üzü Şərqə tərəf süzülürdü, görəsən bu buludların son məskəni hara olacaqdı?

Ata isə dədə-baba evinə gedirdi... Xəyalında dəccal, dünyasının sonu ilə yaşamaq ümidi birləşmişdi. İki hiss üz-üzə dayanmışdı: sağlamlığının pozulması bədbəxtliyini başa düşmək ağrısı və sağalıb qızının yanına quş qanadında uçub getmək həvəsi. Qulağında səslənən həqiqət qanunları onu rahat buraxmırdı: Ölüm – İnsanın yaşamaq həqiqətini əksinə olaraq Allah-Təalanın qanunlarına itaət etməyin ən sadə və son yoludur. Bu göndərilmiş qismətdən qaçmaq qeyri-mümkündür. Allaha itaətin son nəticəsidir. İnsan Ölümündən qorxar, amma Ölümdən qorx-

mamalıdır, onun nə qədər şüuru işləyir – qarşılamalıdır. Əzabla Ölümü qarşılamaq caiz deyil, sağlam vücudla olmasa da döyünən, vuran ürəklə onu qəbul etmək gərəkdir. Məsələ ondadır, həyatın mənasını, indiyəcən necə yaşamısan, nə qalır səndən – onları anlayıb ruhuna köçürməmisən – ruh ölmür, bədəni torpağa tapşırıb Məchul məkana gedir, bax orda səni qarşılayacaq və sənə Allah tərəfindən ayrılmış yeri göstərəcək.

Ata düşünür, doğma həyati üçün tələsirdi. Hələki kəndə, aləmə qaranlıq düşməmişdir, canlı məxluqat işıqdan ayrılmamışdır, gözəlliyni itirməmişdir. Yaşadığı ömrün bütün dolaylarını: enişini və yoxuşunu, insanlarla münasibətini məhz indi dərk etmək istəyirdi və burada üç anlamın: xeyirxahlıq, gözəllik və həqiqətin nə olduğunu fərqlənməsinə vara biləcəkdimi? Sual çıxmışdı, cavabına hazır deyildi – etiraf etdi. Əgər hər bir İnsan yaşadığı ömrü dərk etsəydi, Ölüm ona bu qədər yaxın olmazdı. Ölüm anlamayanlar üçündür, dəlilər üçün həyat əbədidir, bircə bu həyat qırmızı rəngə bürünüb, onların qabağına çıxmısan.

Atanın üzü sarımtıl – bozarmışdı, gözləri bulanıq idi, səsi yoğunlaşmış xırıltılı ahəng almışdı, yaşadığı bu dünyanın qərarını gözləyirdi. Xəstə kədərlə irəli baxır, yerişində davam edirdi. Hissləri – yaşadığı, çalışıb-vuruşduğu illər vardı. Müvəqqəti hə-

yatın illuziyalarına qalibdimi, yoxsa məğlubdumu – ayırd edə bilmirdi. Və özünün müşahidə etdiyi adamların çəkdiyi əzabları yaşamaq istədi, bu niyyətin də mənasını başa düşmək istəmədi və daxilində bir ağırlıq duydu. Əllərini uca Göyə qaldırdı:

– İlahi, mənə hələlik, lap bir neçə gün olsun, sakitlik bəxş elə, yeganə övladımı görüm, səsini eşidim. O, bu evdə doğulmuşdur. Son sözümü ona deyim: – Aytacım, insanları sev, düşmən gözü ilə sənə baxanları da sev, bu hisslər sənin əsil sevgindir, başqa sevgi üçün xiffət etmə. Yaşasam yalnız belə hərəkət edərdim, bir qarışqanı da yuvasından perikdirməzdim, axı, o, ruzusu dalınca vurnuxur. Nə deyim, nə diləyim İlahidən. İndi isə...

Bədənindən xoş titrəyiş keçdi və canında üşütmə duydu, ürəyi dolub-boşaldı, gözlərində riqqət yaşları gilələndi.

## Dan qaranlığı

### 1.

Çapay qəzaya düşmüşdü, hər bir adamın başına gələn faciədir, ağırı və yüngülü olur. Amma təəccüblü məqam onda idi, Çapayın adı maşınla heç vaxt hallanmamışdı, çünki maşını yox idi. Vaxtilə sürmüşdü, bu gün almaq imkanı da yox idi. Bu, o demək deyildi Çapay hansısa dostunun maşınını idarə eləmir, maşınla haraya gedib gəlmir. Yay aylarında çimərliyə yoldaşları ilə yol eləyir.

Xəbər gözlənilməz səsləndi, həqiqət o idi, ilk xəbər tutan Yusif Qasımov olmuşdu. Kabinetində məşğul ikən telefon səslənmiş, xəstəxanadan ona xəbər çatdırmışdılar.

Yusif Qasımov təmkinli adamdı və dəqiqləşdirməmiş hadisəni yaymaq istəməmişdi. Son vaxtlar "qorxunc" anonim zənglər adi hal almışdı. Bu xəbər də mümkün idi

Kollektivi Çapayın həyatı marqlandırmışdı, ölümdən keçdiyinə sevinmişdilər. Xumara xanım özünü saxlaya bilməmişdi: – Ağır xəsarət almasın, şikəst olmasın. Onun taleyi səhnədir, rəqsdir. – Əsaslandırmışdı.

Xumara xanım mövhumata inam gətirən qadındır, dini etiqada sahibdir. O, bəzi insanları aydın görür, bəzi məsələlərlə maraqlanır, amma deyilən söz-

lərə, şaiyələrə inanmaq istəmirdi. Dərrakəsi yerində, yozmağı əsaslandırmaq qabiliyyəti heyranedici, özünə maraqlı, karyerasına əngəl yaradan sözlərə laqeyd idi, şübhələri sönüb getməz, özü isə həyəcanlanmazdı. O, ruhən özünü zəngin, müstəqil sayır, mübahisəyə girişir, ehtirasın nəyə qadirliyini bilirdi. Ərindən ayrılandan sonra bir müddət darıxdı, özünə sığışdırmadı. Günlərini, hətta illərini yola salarkən həyəcanlanırdı, taleyinə acıyırdı və gözlərində "göy qurşağının rəngbərəng dairələr" əmələ gəlirdi. Söndükcə sakitləşir, heyfslənmirdi, qismət hesab edirdi. Ehtirasını ödəmək üçün vurxunanda – gizlətmir – Çapayı seçəndə – əxlaq qanunlarını vacib sanmırdı, hüdudları aşıb – keçməyə də hazır idi. Lakin şəhvət hissləri füsünkar və sakit olmayan bədənində cərayan oyanırdı, hərəkətə gəlirdi. Məşqdən, yaxud konsertdən qayıdanda evinə vannada xumarlanır, elə suyun içində yaşamaq üçün necə gözəl maddiyyat olduğuna inanar, kişi təmasının əvəzsizliyini arzular. Çapaya ilk meylində özündə cəsarət tapdı, mübhəm arzulara qovuşmaq ümidini itirmədi. Sevgiyə düçar olmayan qadınlardan fərqli olaraq, istədiyinə nail olmaqdan çəkinmirdi. Əriylə neçə vaxtı yaşamasına səbəb də belə xasiyyətdə olması idi.

Xumara xanımın bəs istədiyin nə idi: səhnə, yoxsa Çapay, yaxud başqa bir kişimi? O, qadınlıq instinqtini ödəmək üçünmü arzularının dalısınca sü-

rünürdü? Əgər bu idisə sağlam, imkanlı kişiyə ərə gedərdi, sifət və bədən görkəmini itirməmişdir.

Çapaydan da soyuyurdu, kollektivdə iş yoldaşı idi, vəssalam. Xumara xanımın qadın olaraq tələbləri vardı, əslinə qalsa, heç nə istəmirdi. Bəlli idi oxuculara: əriylə dözə-dözə yaşamışdı, arvadı idi, uşaq dünyaya gətirməmişdi. Bir dəfə elə Çapayın özünə o məftun görüşlərin sonuncusunda demişdi ki, bütün kişilərə nifrət eləyirəm. Çapay bicliklə sual vermişdi, bəs mənə də nifrət edirsən? Susmuşdu. Bəlkə də cavabında etiraf etməkdə ehtiras hissinin təzyiqi altında düşünmüşdü, özünü soyuqqanlı aparmışdı. Çapayın emosiyası həqiqəti anlamqda çətinlik çəkər, həqiqəti söyləyə bilməz... Sofistlərin fikridir ki, həqiqəti vəhy qüvvəsilə dərk etmək mümkündür. Xumara xanım bu ovqata gələndə gözlərinə kədər rəngi çökürdü, mənasız əzabına nifrət edirdi. Ruhdan düşəndə isə gənclik arzularının mənasız olduğunun israrından dönür, məyus olurdu.

Çapayın sualı onun üçün şərti deyildi, baxmayaraq kişilər haqqında kəskin ifadə etmişdi, əsası o idi, qadınlara qarşı istəklərini alandan sonra diqqətsizdilər, darıxdırıcı mühakimələr yürüdürdülər. Bax O adam ən maraqlı nümunədir, niyyətini ortaya qoymazdı, özü mətləbini açmağa vadar elədi.

Xumara xanım yerində dikəldi, balışı sol qoltuğuna saldı, ayaqlarını döşəməyə salladı. Özünü nə-

yisə axtaran, kimisə görməyə can atan qismində aparırdı, daxili aləmində məqsədini duyurdu: Çapayın başına xəyanət məsələsilə əhvalat gəlmişdi. Allah belə nakişiliyi bağışlamır. Mən vecsizliklə yaşayanda belə addım atardım, lap gözəl, dəbdə olan bir rəqqasə idim, amma buna yol vermədim, qorxdum. Məndə cavanlıq ehtirasları daha güclü və çevikdi, şöhrətpərəstlik qarabaqara izləyirdi məni. Cah-cəlal gözləyirdi. Ancaq anamı və atamı sevirdim, onlar məni əzizləmişdilər.

Xumara xanım nəhayət ayaqlarını döşəmədə toxdatdı, barmaqlarının ucunu oynatdı – adəti idi, rəqsdən qalma idi. Gərnəşdi və gülümsədi. Başlamaq istədiyi romandan bir-iki səhifə oxumaq istədi, həvəsi çatmadı, sonra işinə qayıtmalı idi. Və bu rejimə əməl elədi. Şəhərə düşdü, Nəsiminin heykəli qoyulan bağcıkdakı skamyada oturdu. Yanaqları pörtmüşdü, gözləri işıq şüasında parıldayırdı.

İnsanlardan çoxunun laqeydliyinə acıyırdı, bu xasiyyəti amansızlıq gözündə təsəvvürə gətirirdi: – Çapay, rəqqas üçüncü gündür – təxmini hesablamışdı – ağır halda çarpayıdadır, soruşan bir-iki nəfərdir. Belə halda bir adama, başqa birisini, hətta özünü qurban verməyin mənasız təşəbbüs adlandırıram. – Ümidsizliklə alçaqdan bu sözləri pıçıldadı. Qopardığı yaşıl yarpağı əzişdirmişdi, qoxulayıb tulladı həmin ağacın altına. – İlər mənimçün şax ötmür, sürü-

nə-sürünə keçir, o halda mənimçin xoş olar ki... – Sözünü tamamlaya bilmədi, uzaqdan bağça yaşlı iki qız uşağı topla əylənirdi, hansısa topu vurmuşdu, dığırlanıb ayaqları altında sol ayağına ilişmişdi. O, saxladı və uşaqlara sarı vurdu. Qızlar həqiqətən məsum, qəşəng idilər, qayğısız idilər. Qibtə ilə onlara baxdı, o yaşlarını xatırlaya bilmədi, günahkar illər idi. – İnsan üçün xoşdur ki, vaxtın surətini hiss etməyəsən, səni sevindirə-sevindirə ötüb keçsin. Taleyinə küsənməyəsən, çünki duyğularını, fərəhli hisslərini əlindən qoparmaya. – Fikrini davam etdirmədi və uşaq təbəssümü ilə gülümsədi. – Hər şey öz vaxtında baş verir – insanın özündən asılı olmur, qəza da həmçinin, vaxtını gözləyirmiş. Hər kəs gündəlik həyat rejimini dəqiqliklə hesablamalıdır, ağılla, ayıq Çapay bu halı gözləyə bilməmişdir, həmin qadını isti yuvasından çıxarmışdır, sonu da budur.

Xumara xanım gizlin iradlarını tutqun halda fikirlərində dolandırırdı, yarı inamlı düzgün nəticə çıxardığına əmin idi. Bu məqama çatanda səsinə süstlük verdi, hirsləndi və ayağa durub dar küçəyə çıxdı.

Foyedə Aytacla üzləşdi, o, qəmgin halda salam verdi, Xumara xanım da eyni ovqatla salamı qarşıladı, Çapayın vəziyyətini soruşmağa qəsdən tələsmədi – özünün qadın "siyasəti" idi. Aytac bu cür siyasətlərdən uzaq idi və vecində deyildi.

– Xumara xanım. – Əlindəki vərəqləri burmaladı, gözlərini bir də qaldırıb baxdı, onun alnına işıq şöləsi düşmüşdü. – Çapayın səhhəti ümidvericidir, – dedi. – Yusif müəllim çatdırmışdır.

Xumara xanım köhnə duyğularının sabitliyini büruzə vermədi, amma içində vaxtilə oyanmış bir həyat çırpınırdı. Xumara xanım hiss etmişdi Çapayı qadın təsiri altına salmaq qüdrəti yoxdur, onunla ikilikdə qalmaqda iqtidarı aman verməyəcəkdir, ola bilsin ürəyincə yaşamağa imkan yaratmayacaq, başqa-başqa qadınlarla oturub duracaqdır. Çapay ondan xeyli kiçikdir, bu da səbəb olardı və üstünlük qazanardı, qəlbinin kədərinə mane olardı. Bir də Çapay ona demişdi ki, sən sentimental qadınsan, bu isə həmişə uğur gətirmir, xanımı aldadır.

Çapay qadınlara laqeyd deyildi, bu hiss Xumara xanıma əzab gətirirdisə, Çapayın işarələriydi, bir neçə dəfə bunu ona işarə etmişdisə, faydası olmamışdı, o vaxt ürəyində demişdi: “Su sənəyi suda sınar”. Budur, o məqam yetişdi və ağır yol qəzası baş verdi.

Çapayın qadın gözəlliyinə məftunluğunun özəlliyi vardı, baxışı vardı: bəzən həqarətlə baxırdı qadına, hisslərindən əl çəkməli olurdu, sevgiyə son illər inanmırdı – romantik, cəfənciyyat zövqündə baxırdı, hissiyyatına aldanmırdı, özünü xəstəhal kimi hiss edirdi. Xumara xanım əvvəl xoşuna gəlmişdi, gözü tutmuşdu, sonra barəsindəki dedi-qodular, özünü

sərbəst aparması, bir kişiylə tanışlığı qulağına çatmışdı, hətta ikilikdə ona yaxın durmadı və bunu Çapay öz uğuru kimi sonralar qiymətləndirirdi. Lakin son tanışlıq və yaxınlıq yaratdığı qadın ürəyinin dərinliyinə işləyirdi. Təyyarədə tanışlıq yaranmışdı. Dolu bədənli, ağsifət, qabarıq sinəli, üzü sakit və duru olan xanıma aşiq olmamaq çətin idi. O, qadına incə ehyamlarla duydurmağı bacarmışdı ki, istənilən ehtirasla qadının öhdəsindən gələr – demir gəlir – bu da onun məharətiydi.

Qadın xeyli düşünüb – daşınmışdı, variantlar cızmışdı, ərinin xaricdə uzun müddətli ezamiyyətlərdə olmasa – bir neçə ölkələrdən dəvətlər alırdı– görüşməyə vadar edirdi. Lakin yeganə qorxusu qardaşı idi, ayıq və qısqanc qardaşından yayınmaq ona problem yaşatmışdı, romantik duyğularını boğmalı idi. Halbuki, üzündən həyat qaynarlığı yağırdı və onu yatağa çəkirdi. Bir hissiyyatı vardı ki, gəzib əylənməyi, dənizi seyr etməyi, tənha cüt olmağı xoşlayırdı. Bunu duyan Çapay qadını dostunun maşını ilə bağ evinə apardı, qadından gözləmədən eşitdi: – İmkan yetişib, Çapay, səhərə qalaq, çox yatmağı sevmirəm. O evdən Xəzəri seyr etmək necə gözəl olardı! Və yüngül addımlarla ikinci qata çıxdılar.

Qadını özünü təzələmiş kimi hiss edir, həyat sevgisilə çalxalanan qəlbini görüşə hazırlayırdı. Yorğun və halsız döşlərini xələt örtmüşdü, qeyri-qa-

nuni doğulmuş körpə kimi boğmaq istəyirdi. Təravətli bədəni görünürdü, ehtirasını danmağa çalışırdı. O, nə üçün belə risq addım atdığını qiymətləndirirdi, halı alovlanırdı bu qəribə gecədə. Mənzərədən baxışlarını çəkib, çarpayıya uzanmaq istədi, buna nadir hallarda nail olmuşdu, indi o imkanla üzbəüz dayanmışdı, yanında sağlam bir oğlan, onun pərəstişkarı və onun üçün qeyri-adi. O, əmindi: Kişinin, yəni Çapayın qolları belinə sarılacaq, ətli dodaqlarını soracaq, öpüşlərə qonaq edəcək, nəvaziş göstərəcək, güman ki, tələsməyəcək – kişilər üçün bu, çətin olur, dözümsüzləşirlər. Çapayla ilk tanışlıqda onun ağıllı gözlərindən xoşu gəlmişdi. Bu hal bu anlarda baş verərsə, özünü itirəcək, unudacaq, sonra, sonra... qəzəbi tutacaq ona və peşimanlayacaq. Qadın, eləcə də kişi məxluqatına xas xüsusiyyətlərdir bu. Onu şeytan yoldan çıxardacağını özündə təlqin edəcək və özünə haqq qazandıracaq. Şübhəsiz, Çapayda da müəyyən dəyişiliklər baş verəcək, bədəni isti-isti bir tapıntı olduğunu pıçıldayacaq, bunu onun sifətindəki lal ifadəsi diqtə edəcəkdir.

Çapay qadını heyran eləmişdi, hisslərinə cavab verən kişi qismində görürdü və barəsində düşünürdü, gələcək görüşlərində ehtiyatlığı əldən verməmək şərtilə.

Çapayın nəzərində qadının ağ dərisi, qabarıq döşləri, saç yığımı, üzünün cizgiləri. Gülümsünəndə

dodaqları titrəyirdi, baxışları süzülürdü, kiprikləri ağır-ağır enib qalxırdı. Bir sözlə, onun üçün tapıntı olacaqdı.

Onlar dəniz baxışından sonra kiçik yataq otağına keçdilər. Şamlar işıldayırdı. Qadının ürəyi atlandı, azca sancdı, ilk görüşün zabitəsi belə olur, bu təmasın nə olduğunu anladı və gözlərində xırdaca yaş gilələri sarı işıqda göründü.

Çapay divanda əyləşdi, qadın da yanında ona dirsəkləndi. Çılpaq qollarını köksünə sıxdı, bədəni ürpəşdi, bu, ilk yad kişi təmasından idi. Şamların işığında üzü solğun görünürdü. Gecəköynəyi qadının bədənində ehtiyatla əsirdi – pəncərədən meh gəlirdi. Qadının çarpazlaşmış ayaqlarının ucları görünürdü.

– Ah, Çapay! – Qadın köks ötürdü, keyləşmiş əlini Çapayın çiynindən çəkdi, elə bil cərəyan xəttindən bütün vücudunu sıyırdılar.

Məchul intizar uzanırdı.

– Buralar sakitlikdir, sən də dəniz pərəstişkarısan. Ən münasib məkan olacaq görüşlərimiz üçün. – Çapay dəyirmi stoldan öz bakalını götürdü, yerə qoydu, qadının bakalını ona uzatdı. – Siz də. Tək qoymayın məni. Mən heç zaman səni tənha buraxmaram.

Qadın qımışdı, ürəyindən keçirdi: "Bu adama elə gəlir subay qadınam. Daha bilmir ki, sadə ailənin üzvü də deyiləm. Risqimə elə bilir sevinirəm və ba-

kalını Çapayınkı ilə toqquşdurdu ustufca. Qadını səksəkəli amansızlıq pərdəsi gizlədirdi, tələyə ilişmiş dişi quş kimi darıxırdı, əzab çəkirdi. Sehirli görüşdən alacağı zövqü unutmaq istəmirdi, ehtiras onun sahibindən daha cəsarətli və qüdrətli edəcəkdi. Yanaqları qızarmışdı. O, özünü quzu kimi alışqan, canavar kimi soyuqqanlı hiss edirdi".

– Qadınlar üçün təəssüflənməyə ehtiyac yoxdur, onlar çıxış yolunu tapırlar.

– Ona görə ki, mən qadınam, mənəvi qaydaları pozub, yad yerə ayaq açmışam. Bədənimi sənə qurban hazırlamışam. Amma istəyimlə, könlümlə. Mən belə şeylərə adət eləməmişəm, həyatın o tərəfi məni çəkib gətirmişdir. – Qadın köynəyinin ətəyini qaldırıb dişlədi: – Haçansa ayrılsam, səndən ayrı darıxacağam, bunu hisslərimin coşğunluğu naminə edəcəyəm, Çapay. Necə düşünürsən, eləcə də qəbul elə! Qadınlar o vaxt yolundan sapmırlar – öz həyatını təmiz, qalmaqalsız qurur, yad kişi üçün darıxmır, ağrı hiss eləmir, hissə qapılmır. Mən güman eləmirəm sən təmiz kişisən, həyatını düzgün qurmusan. Budur, bir neçə dəqiqədən sonra yad qadınla çarpayıda yatacaqsan, mən də bunun üçün buraya gəlmişəm.

Qadın mövzunu dəyişdirdi və divandan qalxdı.

– Bu divanın üzü nə ağırmış! – Çapay ehyamı anladı.

İşıq dairəvi qoşa pəncərələrdən parlaq nöqtələr halında sevgililərin üzündə oynaşırdı. Qadının barmaqları titrəyirdi. Bayıra baxanda mülayim qaranlıq gecə görünürdü, dənizin səsi eşidilirdi, otaqda cansız əşyalar da darıxmırdı.

Qadının bədəni soyuyurdu, ürəyi bulanırdı, göz qapaqları ağırlaşırdı, aydın olmayan təmasın enerjisi bədənini susdaldırdı. Döşləri vaxtsız açılmış güllər kimi solur, damarlarındakı coşqunluq sönürdü, yanaqlarının ağ dərisində xırdaca tər damcıları süzülürdü, atlas kimi işıldayırdı. Yaxası açıq gecə köynəyində Çapayın sol əli uyumuşdu. Azacıq diksindi və yuxularına tabe oldular.

## 2.

Yusif Qasımov kollektivi tamamilə sənət baxımından mənimsəmişdi, amma ayrı-ayrı musiqiçilərin psixologiyasına bələd ola bilməzdi. Rəqqaslar, rəqqasələr və xor kollektivində gözünə yaxşı mənada dəyənlər az deyildi, qaldı beş-on nəfərə üzbəüz, yaxud söhbətdə tanımışdı. Onu da hiss eləmişdi imici yaxşıdır, yaradıcı heyyət ondan razıdır, istedadını və bacarığını alqışlayırlar. Özünü yuxarı tutmur. Xüsusilə, Çapayın qəzaya düşməsi ona qəmli təsir eləmişdi, hər gün xəstəxana ilə əlaqə saxlayırdı.

– Bircə ayaqlarına xətər gəlməsin! – Deyir və əlavə edirdi. – Adi qarşılayın hadisəni, söz-gopa inanmayın. O, kollektivin simalarından biridir.

Sözlər ən çox Xumara xanımla Aytaca təsir edirdi, Çapayla təxminən eyni vaxtda rəqs ansamblına gəlmişdilər, bir yerdə oturub-durmuşdular. Əlbəttə, Xumara xanımla Çapayın tanışlığının görünməyən tərəfləri Aytac üçün gizli deyildi və bunu sakit qarşılayırdı. Xumara xanımın qəlbində Çapaya olan dərin hissləri yaşamaqda idi. Özü də baş açmırdı bu hissiyyat haradan onu ağuşuna almışdır. O, heç vaxt bərkinməmişdi ki öz səadətini Çapayda tapacaqdı və əmin olmaq da istəməmişdi. Son hadisə də Çapaya mübhəm münasibətinə xələl gətirməmişdi. Xumara xanımın səadət haqqında məxsusi fikri vardı və o, sonda ərə gedəcəyi ümidini itirmək istəmirdi. Aytacın isə Çapay barədə bir həmkar, işçi yoldaş timsalında düşünür, qəzadan salamat qurtarmasına uşaq kimi sevinirdi, bircə sənətini yaşatmasına maneçilik törədən nəsə olmasını – istəmirdi.

– Cavandır, qıçı-qolu sınarsa, ağır zədə olarsa taleyi tamamilə dəyişə bilər. Ailəsi də yoxdur. – Aytac özünü onun yerində təsəvvür edirdi.

Xarakterinə bax ki ona sevgisini gizlətməyən Çapaydan bu barədə sanki heç nə baş verməmişdi. Yusif müəllimlə söhbəti olmasa idi, hər şeyi tamamilə unudacaqdı. Yusif müəllim onun səadəti üçün

ikilikdə danışmışdı. Yusif Qasımov əvvəl tərəddüd göstərdi, ona görə ki, bu subay qızın taleyinə qarışmamaq olardı, hər bir adamın çəkdiyi yükü var, ağırmı, yüngülmü, onun şəxsi işidir. Yusif müəllim başqa yönümü əsas götürdü ki, istedadı bir yana, xasiyyətcə ləyaqətli, xeyirxah və valideyn sevən bir qızdır. Hələ adına bir söz uydurulmamışdır.

– Aytac, mən səadət barəsində fəlsəfə açmaqdan uzağam. Səadət təbiətdəki gözəllikləri duymaq, sənətin ecazkarlığını yaşamaq, ata-ana sevgisilə bitmir, bunlarsız, əlbəttə, həyat sıfıra bərabərdir. Amma bax, bu həyatda elə dəyərlər mövcuddur, ona nail olmalıdır insan. Özümüzün nail olduğumuz səadət kölgə deyil, xoşbəxtliyin özüdür. Sözlərim gülünc görünməz sənin üçün, çünki nihilist deyilsən, sadə və pak məxluqsan. Bilmək mənə maraqlı olar ki, bu barədə nə düşünürsən? Yalnız sənətin haqqında?

Yusif Qasımov kresloda sağa fırlandı, siqaret qutusunu götürdü və azca kənara sürüşdürdü. Aytac bu hərəkəti gördü və:

– Yusif müəllim, çəkin, – dedi. – Mən adət eləmişəm. Atam papiros çəkəndir.

Yusif müəllim nə “hə”, nə də “yox” demədi və siqaret qutusunu unutdu.

– Söhbətimi ətraflı uzatmaq istəmirəm, sən adi adam deyilsən, cavansan, həyatınız irəliləyir. Onu da fikirləşməmiş deyilsən, sən nə kimi məqsəd gü-

dürsən, ürəyindəki nədir? Mən o “məqsədi” nəzərdə tutmuram, o haqda qərara gəlməyə bilərsən, öz qayğılarının dalısıyca qaçırsan. – Yusif müəllim özündən asılı olmadan siqaret qutusunu sürüşdürdü, bir ədədini çıxartdı və qutusuna söykədi.

Aytac yenə narahat oldu, bir söz demədi.

– Sağ olun, belə səmimi söhbət üçün. – Aytac dilləndi. – Mən fikrimi deməyə öyrəşməmişəm, bir də aramızda böyük məsafə vardır. Düşünməyin ki, nihilist adamam, yox, amma elə nüanslar olur ki...

– Hə, kinayəsiz danışın. – Yusif Qasımov siqareti barmaqları arasında sıxdı, bu dəfə kibrit qutusunun üstünə qoydu. – Yaxşı olardı bizdən asılı olmayan gələcək haqqında fikirləşməyin, bu mənasız bir iş olardı. Yalnız belə “məqsədləri” təsəlli üçün xəyala gətirməli, Aytac qızım.

– Bir də. – Aytac susdu. Kabineti başdan ayağa süzdü, başqa foto-şəkillər sırasında Əlibaba Abdullayevin portreti iri çərçivəyə salınmışdı: “Müəllimini unutmayan həyatda xoşbəxt yaşayır”. – Ürək sözləridi. – İnsanın ürəyində gəzdirdiyi elə nüansları var, danışmaqda acizdir, həmişə söyləmək mümkün olmur.

Yusif Qasımov fikrə getdi və siqareti dodaqlarında ustufca sıxdı, üzünü Aytaca tutdu:

– Razıyam sənlə. – Astadan dedi. – Elə nüanslar şəksizdir. – Sözünün sərgələfini çatdırdı və başını

çiyninə əydi. – Təmkinin sonu olmalıdır. – Sualedici nəzərini Aytacdan çəkdi. – Sənin çəkincəkliyin səbəbini bilmək istərdim, mümkünsə.

Aytac tutuldu, susmuş füsünkarlığı pozmaq istəmədi.

Yusif Qasımov ayağa durub pəncərəyə tərəf getdi, alnını şüşəyə dirədi və nəhayət:

– Aytac, bağışla, bu siqareti çəkim, – dedi.

Sözdən Aytac narahatlandı, amma bədəni uçunurdu, ağlına gətirməzdi Yusif Qasımovla, zabitəli insanla səmimi, əslində üstüörtülü olmayan söhbət baş verəcəkdir. Bu, öncə, gənclikdən gələn uçunma deyildi, rəsmi şəxslə gənc rəqqasənin arasındakı "pərdənin" qeyri – məkrliyindən irəli gəlirdi. Onun sözlərində ehtiram hissi duyulurdu: "Başa düşürəm, ailə qurmaq məsələsinin "sirri"ni öyrənmək istəyir, narahatdır, bu, onun böyüklüyü deməkdir". – Aytac başını yırğaladı, ürəyi döyündü.

Yusif Qasımov ötəri Aytaca nəzər saldı və onun baxışlarında təşviş görmədi, üzündə oynaq qəşənglik və həlimlik vardı, bir də qarşılıqlı ehtiram.

– Sən ailənin tək övladısan, nəslin artması səndən asılıdır. – Səsində səbirsizlik ifadə olunurdu, üzünün qırışları səyriyirdi, gözlərində hətta itaət əlamətini sezirdi və Aytac ayağa durdu, göz yaşını boğazında boğdu, bunu bacardı. Daxilində nə ehtiras,

nə də qəzəb oyanmışdı, yalnız qəlb sirdaşının ehtiramı çırpınırdı.

Yusif Qasımov yerinə qayıtdı, qərar tutmayıb yenə pəncərəyə sarı getdi, siqaretin dadlı tüstüsünü burnuna çəkdi.

Aytac otaqdan çıxmışdı.

## 3.

Ağa Rəhum ezamiyyətdən qayıtmışdı, ilk zəngi Aytaca elədi, təəssüratından söz açmadı, səbəbi: məktubundan incimişmi, yoxsa adi tərzdə qarşılamışdır, maraqlı bu idi. Lakin Aytac soyuqqanlı idi. Yusif Qasımovla söhbətinin təsiri altından çıxmamışdı və onu haqlı sayırdı. Ağa Rəhimə o mənada laqeyd qalmışdı, mühakiməli, filosofyanə təbiətlidi, gərgin aura yaradır: – Naturası belədir, qazandığı ixtisasın rolu az olmur, qınamıram onu. Bəlkə də xarakterindən arvadı sakitcə, hansı bəhanə ilə ayrılıb ondan. Bir üstün cəhəti məncə, ondan öyrənməkdir, söhbətindən sonra düşünməkdir. O, bu səviyyədə məni anlamalı idi, hər halda bütün ciddiyyətimlə yanaşı incəsənət adamıyam, üstəgəl rəqqasəyəm. Ümumiyyətlə, insan musiqili məxluqdur, şəhvət hissi qıcıqlandırır, ruhi qida coşğunluq hissi yaradır, xalqda deyim də var: "Musiqiçilər gec qocalır". Hətta düşünürlər ki, oxuyanlar, rəqs eliyənlər kədərdən qaçırlar. Sonuncuya inanmıram.

Aytacın qətiyyətindən doğmuşdu qənaəti. – Mən təcrübəyə əsaslanıb deyirəm ki, incəsənətin vəzifəsi mühakimələrlə çatdırılan hansısa əsər olsun, lap rəqs nümunəsi olsun – başa düşülməyən, anlaşılmayan cəhətləri əyani nümayiş etdirməkdir. Məsələn, rəqs nömrəsindən əvvəl plan cızıram, əyani kiçik parçanı evdə göstərirəm ki, tamaşaçı baxanda öz duyumunu, bundan yaranan təəssüratını, yəni fikrini sözlə ifadə etsin, öz "daxili nitqinə" çevirə bilsin. Rəqsimizə baxanlar elə də sadə deyillər. XXI əsrdir, intellektli adamlardır, onlar öz yozumlarında rəqsin verdiyi estetik məlumatı mənimsəyirlər. Onların hissləri ötürücü rol oynayır. Amma həmişə bu, baş tutmur. Rəqqasların qayəsini qavraya bilmirlər, yaxud çətinlik çəkirlər. Olur ki, zövq almırlar. Rəqsə adi baxan tamaşaçılar haradan "Vağzalı"nın, "Naz eləmə"nin, "Xançoban"ın məntiqini tutsun! Ona görədir nə gəldi verirlər, oxuyurlar. Uzun illərdir "Yanıq Kərəmi"nə qol açırlar, haqlı irad tuturlar da...

Aytac ustad müəlliminin neçə illər qabaq dediyi fikri yadına saldı. O, heç nə gizlətmədi rəqs sənətinin doğurduğu bəzi hissiyyatları: – Qızlar, – deyirdi. – Musiqi, əlbəttə, rəqs havasını nəzərə alıram – rəqsin müəllifi səhnədə oynayan müəllifi təmsil edir. – Tamaşaçının coşğunluğunu ehtizaza gətirir, hətta şəhvaniliyi oyadır. Xüsusilə, Şərq rəqslərində erotik çalarlar güclüdür o vəziyyətlərdə – hisləri üstələyir,

insan emosional ovqatını yaşayır. O vaxt ki tamaşaçı sosial qayğılardan uzaq olsun. Rəqsdəki ritmilik şəhvani şüanı özündə əks etdirsin.

Ustadımız kiçik bir detalı özü göstərir və deyirdi: – Rəqs havalarının emosional çalarları ovqatın tənzimlənməsində az rol oynamır. Ona görə də balet əsərlərində müstəqil rəqslərdən, onun motivlərindən bəstəkarlar istifadə edirlər. Unutmayın, gənc qızlar, belə məqamlar əsərin məzmununu açır, bundan əlavə baxanların yorğunluğunu alır.

Aytac fikrə daldı, bu şərhindən sonra ən cavan rəqqasə kimi bir rəqsi oynamağı xahiş elədi.

– Rəqsin adını unutmuşam. – Ha fikirləşdi, xatırlaya bilmədi. – Oynadım. Əsası o idi, ustadım yerində dayanmadı, ayağa qalxdı, gözlərində bir kədər vardı, əllərində xallar əmələ gəlmişdi, ruhca isə.

Təxminən üç dəqiqəyə rəqsi tamamladı. Onun üzü açılmışdı, alnına yapışmış saçlarını araladı, nazik hörüklərini çiyinlərindən arxaya atdı.

– Hə, baxın mənə. – Tövşüyürdü. – Baxın, ruhum, əhvalım dəyişdi, cavanlığıma qayıtdım.

Aytac bir dəfə Ağa Rəhimlə rəqs sənəti haqqında söhbətində: – Aytac heç vaxt həqiqəti gizlətməyi xoşlamır, – dilindən eşitmişdi: – Bəşər nəsli mövcudluğundan əsrləri adladıqca həyat – məişət baxımından iki cəhəti nəzərə almışdır.

Bəziləri əməkdən sonra istirahət vaxtlarını xoş keçirsinlər, yorğunluqlarını alsınlar, bunun üçün mahnılarla bahəm rəqs havaları da qoşmuşlar, eyni zamanda əzələlərinin gərginliyini çıxarmışlar. Digəri döyüş ruhunu, hücum ovqatını müşayət edən rəqslər – cəngilərdir. Bu rəqslər hələ də səhnədən düşmür.

Ağa Rəhimin əhvalı yerindən oynamışdı yaxşı mənada, bəlkə də qadınsızlıq idi buna səbəb. Belə mühakiməli, savadlı insanlar hələm-hələm emosiyaya qapılmırlar, özlərindən asılı olmur. Aytacla söhbətində bu, müəyyən məqamlarda nəzərə çarpırdı və Aytac üstünü vurmurdu, əsası öyrənməkdi, daxili münasibət yaratmaqdı.

– Yaşadığımız mühitdə şəhvət – erotika anlamı azca qorxulu əks-səda oyadır hələ də. Sözün mənəvi – sosial tərbiyəsi barədə narahatçılıq olmamalıdır, "Erotika" pıçıldayanda kövrək, ilahi hissi anlamalıyıq. Aytac, vurğuladım ki, rəqsin emosional təsiri bir yana – rəqs edəndən çox şey asılıdır – bunu sənə aydınlaşdırmağa ehtiyac görürəm. Qadın rəqqasələr havacatın ritmindən, tempindən asılı olaraq tamaşaçıda xoş əhval oyadır. Sinəsinin elastikliyi, belinin incəliyi, qollarının havada sınması və ilaxırlar ilk növbədə tamaşaçılarda erotik həvəsi qıcıqlandırır.

Rəqqasə musiqi ilə yaşadığı üçün şəhvət barədə düşünmür, yalnız musiqinin diqtəsini yerinə yetirir. Lakin.

Ağa Rəhim sözlərinə ara verdi, təsbehini biləyindən çıxartdı, Aytacın qarşısına qoyduğu çay stəkanını götürüb cüzi içdi. – Belə məqamlarda tamaşaçının rolu tamamilə fərqlidir: O, gözü qarşısında bütün əzaları ilə musiqiyə bələnən, uyan rəqqasənin görkəminin elementlərinə diqqət kəsilir, şəhvət hissi özündən asılı olmayaraq oyanır. Rəqqasələr uğur qazanmaq üçün. – Ağa Rəhim çayın qalanını içdi, təsbehi bir neçə dəfə çevirdi. – Rəqqasə rəqsdə üzünün cizgilərini, qaşının çatmasını, dodaqlarının titrəməsini diqqət mərkəzində saxlamalıdır. Rəqqasənin sinəsi qabarıq olanda, saçları pərakəndə töküləndə tamaşaçını daha çox özünə çəkir. – Fikrini tamamladı və Aytacın üzünə baxdı, reaksiyasını öyrənmək üçün.

– Bizlərə yazılan məktublarda bu məsələyə toxunurlar tamaşaçılar. Xatırlayıram, bir kişi xeylağı yazmışdı ki, qəşəng və cavan rəqqasə ləngərli, yumşaq rəqs edəndə qadınla ünsiyyətim varsa, xəyalımda onu yaşadıram, sanki rəqs edən onun özüdür.

Ağa Rəhim mövzunu davam etdirmək arzusunu daha da gerçəkləşdirmək istəyirdi:

– Rəqs gözəllikdir, emosiyalar mənbəyidir. Kişi ehtizaza gəlir – sözlərini Aytac üzr istəməklə kəsdi və sual verdi:

– Ağa, rəqqasənin çılğın oyunu əxlaqca məqbul sayıla bilərmi? Axı rəqs məzmununa müvafiq çalınır, bəs rəqqasə əks tempdə oynasa?

Ağa Rəhim sualı təbii qarşıladı, çünki cavabda müəyyən cəhətlər nəzərə alınmalıdır, düşündü.

– Rəqslərimiz ləngərli və ağır tempdədir. – Ağa Rəhim sakit cavab verib davam elədi. – Gəlin, özümüzə pıçıldayaq bəzi rəqsləri. "Heyvagülü", "İnnabı", "Turacı" və sairə. Bu rəqslər çalınanda rəqqasə yorğun, su təşnəli qu quşu kimi süzür, köks dolusu arxayın nəfəs alır. Məqamı yetişəndə dayanır, bəzi elementləri yerinə yetirir, bu isə tamaşaçılarda, xüsusilə kişilərdə erotik əhval yaratmır, ona görə ki, rəqqasə xanımın bütün vücudu, əndamı sakit görünür, hər cür eyni titrəyişdən uzaqdır. Üzr istəyirəm.

Ağa Rəhim təsbehi biləyindən çıxarıb stulun söykəncəyindən asdı sol tərəfindən, çünki o, sol əliylə daha çox işləyirdi. – Şəhvət – erotika hər iki cinsin sağlamlığı, gələcək partnyorlar kimi bir-birinə uyuşması üçün lazımdır. Unutmayaq ki, keçici şənlikdən alınan emosional əhval-ruhiyyə tez də sönüb gedir.

Ağa Rəhim ayağa qalxdı, açıq pəncərədən Bakının panaramı cazibəli görünürdü, Xəzərin sakit

çağları idi, qağayıları havada rəqsə çağırırdı. Xeyli tamaşa elədi və qayıdıb yerində oturdu.

– Rəqqasla rəqs arasında sevgi olmalıdır. – Aytac əlavə elədi. – Sevginin zühuru. – Qımışdı, – hissi anlarla bağlıdır.

Bu dəfə Ağa Rəhim üzr istəməklə Aytacın sözünü qırdı və əlavəsilə fikrini qüvvətləndirdi:

– Vaxtilə məşhur italyan ulduzu olub, Rafaella Korra – xoşlayırmış ki, parıltılı, şəhvətli tərzdə görünsün, o zaman tamaşaçılarda özünə sevgi hissi aşılayırmış. Belə yanaşmalara "seksual şəfa" da deyilir. Bu rəqqasəni emosional meylə səsləyir, onu coşdurur, sanki təhtəl-şüur altına aparır.

Ağa Rəhim indicə anladı ki, çox danışdı, Aytaca belə mühakimələri eşitmək qədərincə olmalıdır. Ağa Rəhim özündəki intellektual coşqunluğu hiss edirdi, hərçənd, Aytaca olan hisslərini bəyan eləmişdi. Və incə şəkildə söhbətlərində sezdirmişdi. Qərara aldı son fikrini çatdırsın:

– Erotik – şəhvani münasibət iki yanaşma ilə bağlıdır: biri zahiri əyləncəyə, nəşəyə əsaslanır, belə də çalışmaq lazımdır kökdən düşməyəsən. Digəri, məhəbbətin fiziki nəzəriyyəsinə, yəni simbioza – birgə yaşamağa meyillilikdir, özünü fədaya hazırlamaqdır. İnsan vücudunda iki hiss yaşayır: İnsanilik və şəhvanilik ruhu. Birincisi alidir, bəşəridir, ikincisi intimlikdə tam fərdidir: şəxsi nəşəyə bürünüb ani,

keçici zövqlə hər şeyə nöqtə qoymaqdır, ruhi təmizlikdən uzaqlaşmaqdır.

Ağa Rəhim Aytacın tər qonmuş yanaqlarına ötəri nəzər yetirdi, bu qızın dərrakəsinə və təmkinli davranışına bir daha heyranlığını gizləymədi:

– Sən, tamamilə xoşbəxtliyə layiqsən, – dedi.

## 4.

Çapayla qəzaya uğramış qadın üçün narahat olanlar çox deyildisə, vardı. Evdəkilər "taksi"də hadisənin baş verdiyinə inanmışdılar. Amma qardaşında şübhələr əlaməti çəkilməmişdi. Bu qadının adı da maraq doğurmaya bilməzdi, amma naməlum qalacaq, çünki şəhərdə tanınmış bir familin qızı idi, əri haqqında məlumatınızı təzələyirəm ki, xaricdə bir neçə illik müqavilə ilə çalışır. Sadəcə "O qadın" adlandırmaq daha məqsədəuyğundur.

Sezilmədən öyrəndi ki, Çapay filan xəstəxanada yatır, ümumi palatadadır. Zəng vurdular o, təkotaqlıya keçirilsin!

Çapayın bədən və baş ağrıları çəkilmişdi, problem sağ ayağında idi. Çapayın təkotaqlıya adlamasını Yusif Qasımovun xeyirxahlığı ilə bağlamışdılar, üstəlik, telefon qoyulmuşdu şəhərlə danışmaq üçün.

Çapay O qadınla təsadüfi tanışlığında bir zərurət görmüşdü və peşiman deyildi. O qadın kimi zəngin-

lik bir yana, xasiyyətcə alicənab, çəkinməz idi. Bircə dilindən qaçırmışdı ki, məni sənin yatağına çəkib gətirən səbəblər var, mən gəzəyən qadın olmamışam, ilk xəyanətimdir. Ailəmiz: atam, qardaşlarım çox nüfuzludur, hələlik açıqlamayacağam və bu barədə mənə sual verməyin.

Çapay sözlərdən, düzü, ehtiyatlandı, qadının ağzından sözü ala bilməmişdi və qalın kəndirin ucunun hara dirəndiyini təsəvvürə gətirməyi bacarmamışdı. Amma əmin idi mətanətli qadındır, sərtliyi var, ailə "tərcümeyi-halını" xoşlamır – xasiyyəti bəllidir.

O gecə sakit və romantik keçdi, şirin idi təbəssümləri. Ovqatının anlarında Çapay dedi ki, mən qadına məftun olmağı bacarmıram və güldü, gecə ayazında üşüdüyündən pencəyini onun çiyninə saldı, ətli biləyini tutub sıxdı.

– Hə, üşüyürəm, – pıçıldadı. – Sən qadına məftun olmağı bacarırsan. – Çapayın işarəsinə cavabında dedi.

– Baxır hansı xanıma. Subay oğlanlar bu cür düşünür.

Qadının yarıyuxulu və yarıaçıq gözlərində sualı Çapay oxudu, yenə "kəndir məsələsi"ni xatırladı. Gəncliyinin əldən çıxdığına heyfslənir, gələcək həyatının o tayını, uçurumunu, boşluğunu yadına salır, dəhşətə gəlirdi. Onun arxasında dayanan nə güclü doğması, nə də dostu var. Nə qazanmışdısa sənətinə

borclu idi, əgər ayağından şikəst qalarsa... Vahimələndi: “Bu qadın da məndən qaçar, qadınları kişilərin sağlam bədəni maraqlandırır, başı yox”.

– Nə çox fikrə getdin? – Qadın nəcib əda ilə Çapayın sığallı ağımtıl sifətinə toxundu. – Razıyam sənlə o mənada, hər qadına məftun olunmur. Qadınlar var...

– Yastığı o biri üzünə çevirdi və qollarını boynuna dayaq tutdu.

İndi pəncərədən dənizin parlaq çılğınlı suları daha aydın görünürdü. – Sən o vaxt məftun olarsan, səni başa düşən qadını sevəsən.

Çapay ortaya atdığı kəlamın qadına bu qədər təsir edəcəyini gözləmirdi. Özü fərqinə getməmişdi və özündən şübhələndi ki, bu dərəcədə fəlsəfi fikir söyləmişəm?

– Qadını sevərsə məftun olar, özünə də məftun olar. Bu barədə o qədər bitib-tükənməz ehtimallar irəli sürülüb, birini mən dedim. Hələ tapmadığım hislərimi ifadə etmişdim.

Onun qəlbinin dərinliyində atdığı bu addımın əks-sədası səslənirdi: “Necə oldu görüşə razılıq verdim?” Hətta bu gecəmi onunla keçirdim, olmaya qisasım idi bu risqli addımı atdım? Gecə açılan çiçəklər səhər tezcə solur, daha heç kəs onları qoxumur – fikrinə himayə durdu: “Mən ondan qorxuram Çapayı ürəkdən sevəm. Onun gələcək taleyinə qarşı divar

hörəm. Allah bu addımı mənim ünvanıma yazmasın". – Azacıq diksindi, yerində qurcalandı. Udduğu sözlər dodağının ətrafında titrəyirdi, diqqətini sabitləşdirməkdə çətinlik çəkirdi: "Hər halda Çapayı da belə asanlıqla unuda bilməyəcəyəm, hislərim sözümə baxmayacaq". – Sanki şikayətlənirdi özündən, xəcalətindən doğan coşqunluqdan qurtulmaq istəyirdi, həm də sevinc dolu əzabı yaşayırdı. Hiss olunmadan Çapayı yanıqlı baxışlarla süzdü, gözlərini qapamışdı, amma eşidirdi, qadın da susmuşdu.

O qadın Çapaydan xəbər tutmamışdı, isti vaxtıydi hadisənin, gəlib-gedənlər olardı, xüsusilə, iş yerindən. Təkotaqlı palataya köçürüləndən sonra arxayınlaşdı və həmin gecənin ilğım təəssüratında yaşadı. Gecədən keçəndən sonra zəng atmağı qərara aldı, nəhayət, o məqam çatdı. Əri gedəndən tək qalırdı, arabir anası gəlirdi, yaxud qardaşı oğlu dəftər-kitabını gətirib şənbə-bazarı bibisilə keçirirdi.

O, ərli olsa da qadınlıqdan ciddi məlumatı yox idi və əri də "soyuq" kişiydi. Adətən, bu ayamanı qadınlara tuşlayırlar, onun qarşısına isə özü yox, əri çıxmışdı. Hələ üç ili tamam olmamışdı. Bu, acısı o qadının ərinə olan tellərini qırmaqda idi. Xaricə işləmək üçün yollananda anası razı olmamışdı ona qoşulsun. Nədənsə bir qaynana kimi kürəkənini xoşlamırdı, quruluğu, çəlimsizliyi, işə hədsiz bağlılığı əsas vermişdi. Ailə qurmaqda mühüm rolu oğlu mə-

suliyyəti üzərinə götürmüşdü, bir elmi müəssisədə işləyirdilər, indinin özündə də.

O qadın soyuq yox, ehtiraslı idi və bu ümidlərlə ərə gəlmişdi. Ehtiyac sarıdan hər iki tərəfdən təminatlı idi. Amma vaxt ötdükcə real görünən arzuları fantaziyaya dönürdü. Bir dəfə də olsun kişi olan bəndə uşaq barədə söz salmamışdı, bu da ona bir qadın kimi pis təsir edirdi və öz-özünə söylənirdi ki, bəlkə mənimlə bağlıdır sonsuzluq? Bəlkə özümdən gəlmədir? Sən, a kişi, qadınına alüdəçilik elə, əlindən bir gün çıxar! Budur, o məlum gün gəldi, mən yad çarpayıya girdim... – Əti ürpəşdi bu etirafından və gecə köynəyində yataqdan usandı, televizorun səsini aldı. Otağı kövrək sükut aldı, bayırda əsən külək səngidi. Güzgülü pəncərədən küçəyə boylandı, hələ şəhərdə gediş-gəliş vardı.

Pələng dərili kreslo oturacağında əyləşdi, bu kresloda təptəzə güllər olurdu, solmağa qoymurdu, aşağıdakı zibil yeşiyinə atırdı, yazığı gəlirdi, hələ can üstündə olan güllərə: – Yox, nəyiniz varsa verdiz, amma yaşaya bilmədiz.

Gecənin bu çağında Çapay zəng gözləmirdi. Həmin gün xəstəxanaya gəlmək imkanı olmamışdı.

– Alo! – Dəstəyi qaldırdı, səsi tanıdı. Yorğun halda cavab verdi. – Gecənin bu vaxtı? Düzü, gözləmirdim. Mənə olan lütfikarlığın üçün minnətdaram. Mən qarşınızda nə etmişəm ki! Yanılmamışam. –

Qadın sözlərin hansı niyyətlə dediyinə aydınlıq gətirməyə çalışdı.

– Nə etməli idiniz? Mənim bərbəzəkli həyatıma? – Susdu və bu dəfə Çapay sözlərindəki mənanı anlamadı.

– Bərbəzəkli həyatınıza zəhər qarışdırdım, eləmi? O addımı atmamalı idim? Sualların yeri idi və görüşünün dərinliyinə getməsindən yenə vahimələndi.

– Təqibdən qorxursan? – Qadın ikibaşlı fikrini bildirdi. – Həyatda qorxu, narahatçılıq dolu məlumatlı kişi də, qadın da bəzən çıxış yolunu tapmaqda çətinlik çəkir, bir tərəfdən yetərincə həzlə, zövqlə qadınla yaşamaq istəyir, o biri yandan...

Fikrini tamamlamaq istədi. Cavab almadığından sözlərinə davam elədi.

– Belə hallarda bütün səksəkəliyi, nigarançılığı üstələyib emosional ovqatını saxlamağa çalışır, gərginliyini aradan qaldırır. Qadın kişinin stresdən qurtaran yeganə məxluqdur. Öz payıma deyirəm ki, mənimlə sənin təmasın əhvalıma müsbət təsir elədi, daxili enerjimi daha da qüvvətləndirdi.

Çapay qulaq asırdı, bayırda hər şey sakitləşmişdi, palatalarda addım səsləri yox idi.

– Onsuz da sənin kifayət dərəcədə enerjin vardı, bəlkə də bunu duymursan. Bu, hər qadına nəsib deyil. – Çapay əlavə elədi. – Nadir dəyərdir qadın

üçün. Bir şərtlə, pessimist olmayasan, özünü gizlədən pessimist ideyadan uzaqda dayanasan.

– Mən necə, dayanmışdımmı? – Qadın divandan qalxıb billur nimçədəki meyvələrdən əriyi götürdü və ikiyə ayırdı, çərdəyi hoppandı, stolun üstündə diyirləndi. – Enerjinin oyanması üçün nə gərəkdir: kişinin oyundaşına mehribançılığı, otağın sakitliyi, hər ikisinin müvazinəti. Başqa emosiyalar yaradan şərtlər də.

– İlk təəssürat hələ tam qənaət üçün zəmanət vermir. – Çapay çarpayıda dikəldi, ayaqlarını salladı. Yenə perikmiş, həmcinsini itirmiş quş özünü pəncərəyə çırpdı və peşimanlayıb qaranlıqda itdi. – Maraqlıdır, xanım. – Çapay ilk dəfə bu sözü dilinə gətirdi, qadının xoşuna gəldi. – Bayaqdan bir azmış quşcığaz özünü pəncərəyə çırpır, içəriyə can atır, onun halını anlayıb pəncərəni açacaqdım ki, gözümdən uzaqlaşdı.

– O quş dediyin güman ki erkəkdir, tayını axtarır. Tayını itirmək fəlakətdir.

Çapay qadının ehyamını belə yozdu ki, əri yanında yoxdur, qadın hisslərini yaşamaq istəyir.

– Mən də sənin kimi düşünürəm. O quş fəhmən dişi tayını tapacaqdır. Bəs biz insanlar belə məqamlarda nəyi düşünürük? Yalnız özünü, tərəf – müqabilini?

– Çapay astadan dedi, nəsə əlavə etmək istədi. – Səbəbindən biri emosionallığın ifrat həddinə çatmasıdır, çünki iradəmizi tərbiyə etməyi ikinci yerə çıxarırıq. Təki streslərimizi çıxaraq. Halbuki, belə dəqiqələrdə həmin qadın kürüsünü dağıtmış qızıl balığın aqibətini yaşayır.

Mühakimə qadının xoşuna gəldi.

– O anlar qadının faciəsidir yataqda. Kişi "qınına" çəkilir, tənhalığa can atır.

Qadına da əzab gətirən bu atmosferdir, əzab verən təsirlənmələrdən uzaq olmaqdır. Mənfi emosiyaları məhz oyundaşına ötürür. Qadının üstünlüyü onda olar ki, müsbət emosiyalara qabaqcadan hazır olsun, içərisində yetişdirsin. Kişilər o halda qadınların gözündən düşər ki, "özü üçün tamaşa" hazırlayıb, baş rolda oynayır. Bu rolu qadına həvalə etməlidir. Şəhvət hissi sosial missiya ilə yanaşı, ruhi roluna da təminat verməlidi. Qadın doğacağı uşağın sağlamlığına qərar verməlidir, ovqatını tək kişi, yaxud qadın daşımamalıdır. Qeyri sağlam, mənfi emosiyalı əhvalda olan oyundaşlardan natamam uşaq dünyaya gəlir – bu, faktdır. Sağlam olmayan kişi, xüsusilə, özündə inam aşılamalıdır yataqda.

Qadın pauza verdi, nəyisə unutmuşdu, gülümsünüb pıçıldadı:

– Filosof Volter deyib ki, sağlamlığa inam elə sağlamlığın yarısı deməkdir.

Çapay qadını dinlədikcə hər şeyi unudurdu: beynində gəzib-dolaşan, hislərini cırmaqlayan gərginliyini, qara-qura fərziyyələrini. Bir gecənin subyekti – qadının başqa yöndən də zənginliyi var imiş. Bu dəqiqələrdə keçirdiyi qənaətlərindən xoflandı, hətta qorxdu da: "Bu qadının cazibəsinə düşürəm, o, çəkib aparır məni, o yerə ki iki hislə üzbəüz durmalı olacam: taleyimi bu xanıma bağlamaq və başıma nə gələcəksə yolunu gözləmək. Hər ikisi həm gözəldir, həm də təqiblidir. Bu qadınla haraya qədər yol yoldaşı olmaq? Yoxsa sonacan yol qət etmək?"

Qadın kresloda təkrarən oturmuşdu, qalxıb divana dirsəkləndi, aypara əriyin bir "tayını" yemişdi. Bu dəm məxmər tüklü cavan pişik onun ayaqlarına sərıldı və başladı bədənini isti baldırına sürtməyə. Pişiyin gözləri dairəsində yanırdı, işıq saçırdı. Miyoldadı, bu dəfə quyruğu ilə məzələnməyə başladı:
– Düz eləyirsən, pişiyim, ehtirasının qulu olan xanımı "ovlamaq" gümrah sayılmır. – Dəstəyi boynunun arxasına aparıb güldü. – Mən xasiyyətimi dəyişmirəm, istəmişəm ən yaxın və inandığım adamla açıq danışım, istərdim səninlə də bu cür rəftar edim. – Qadın sanki Çapayı görürdü, sinəsi enib-qalxırdı, çətinliklə nəfəs alırdı, həyəcanlanmışdı. – O gecə söhbətimizdə çox sakit idin, məmnun idin.

Qadının rəngi qaçmışdı. Çapayın nə haqda düşündüyünü bilmirdi.

– Bəlkə addımlarımızda yanılmışıq?

Çapay pəncərə ağzına söykənmiş stulda oturdu, darıxdı.

– Əgər bizim bir-birimizə ehtiyacımız zərərdirsə... – Ayağa qalxdı. – Bir gün-də, üç gündə bir-birimizi anlamaq çətin olar. Bir də kişilik vicdanı var, hər halda nə atayam, nə də ərəm hansı qadın üçünsə. Səndən aldığım gənc və təravətli duyğunu danmaq istəmirəm. Hələlik "cazibə" sözünü dilimə gətirmirəm.

Qadın Çapayın sözlərində coşğunluq hiss elədi, qərar tutmayıb o biri otağa keçdi, dərhal qayıtdı: "Onun belə səmimi, açıq etirafı xoşa gələndir" – ürəyindən keçdi.

– Deyim ki mən səndən qorxuram, yəni sənin özündən yox, ətrafından. Amma sənə də inanıram. Mənim elə bir qüdrətim yoxdur, qadın diqqətini cəlb etmək hələ yenilməzlik deyil.

Dəhlizdə qırıq-qırıq səs çıxaran qoşa çəlik tappıltısı eşidildi. Çapay həmin yaşlı kişi olduğunu yəqinləşdirdi. Sözlərinə ara verdi. Addım səsləri aralandı.

– Səni dönmədən sevmək mümkündür. – Birbaşa bilixtiyar dilinə toxundu sözlər. – Əbədilik də olar. Mən bu kəlmələri deməyə də bilərdim. Sən gərək ərinlə ömür yoldaşı olaydın, yox, olacaqsan! Bu sonuncunu bacarsan fədakarlığın olardı.

Qadın qulaqlarını sol əliylə qapadı və gözlərini yumdu, otaq zil qaranlığa bələndi, deyəcəkləri içində boğuldu. Çapayın belə bir fikrini gözləmirdi. Cavab vermək istəmədi, elə şeylər var açılmamış qalsa yaxşıdır.

– Cavab verməyini rica edirəm. – Çapay yumşaq səslə dilləndi.

Otağa dərman qoxulu hava sızırdı. Və hissiyyatına məğlub olmaq istəyirdi. – Söhbətimizi xatırlayın, biz uzun illərin tanışı kimi danışırıq. Bu saat, bağışla, dəmdəməçilik etmirəm, olanlar arxada gəlirlər, mən çox qabaqda gedirəm, çatmayacaqlar. Çox nəsnələr yox olub gedir. Mən bir sözdən qorxuram.

Qadın xoş nəzərlə boşluğa baxdı, otağın sükutundan vahimələndi, təkliyin necə ağır olduğunu dərinliyilə anladı. Amma gülümsədi, o, özündə təlqin etmiş ki, Çapay onu görür, onu süzür.

– O söz nə deməkdir? – Sual verdi və yerindən sıçradı. – Mənim, yoxsa sənin? Mənim başa düşdüyümü izah etməyə risqim çatmır, çatmayacaq da. – Ayaq üstə haçandan durduğunun fərqinə varmamışdı, qəşəng əllərində telefonun dəstəyi sıxılırdı.

– Çapay. – Məsum halda hıçqırdı, göz yaşlarına təbəssümü ilə cavab verdi.

Adətən, sevənlərin gecə vaxtı göz yaşlarını saxlaya bilməməsi – bacarmaması iki şəxsin, kişi və qa-

dının vücudunun minnətdarlıqla, həya hissilə nə qədər səadətə qovuşacağından soraq verir. Sevgisiz günləri, illəri başa vurmaq mümkün olan işdir, amma okeanda uçan balıqlar havaya qalxır, xeyli süzür və yenidən suya düşürlər. Qadın kişiyə qovuşmalıdır, orbitindən çıxmamalıdır. O qadın Çapayla tanışlığında ağlına sığışdıra bilməzdi ki, bu adama belə bağlana bilər. Bunun mənəvi – cismani zərurəti öz yerində. Adət-ənənə tələbləri daha vacib şərtləri ortaya qoyur.

Qadın bu vəziyyəti düşünürdü, solğun üzündə zərif vahimə həvəsi çırpınırdı. Məgər hər şey, hər istək – hər sevgi bu qədər asanlıqla həll olunur? Qadın onu düşünürdü, Çapay ərli qadını necə sevər? Ən yaxşı o variantı seçər, gizlincə görüşər: "Xeyr, bu mümkünsüzdür, ona qarşı acı istehzadır, belə yol seçərsə".

– Mən hələ hansı kişiyəsə sədəqə olmamışam. Bir gecənin də öz intiqamı var, – xırıltılı səslə dedi. Və belə qara-qura fikirlərdən peşimanladı, telefon ovcunda elə bil ürəyindən keçəni eşidirdi.

Qadın "ah" çəkdi və son sözünü sıxılmadan dedi:

– Gecədən çox keçib, səni yordum, istirahət lazımdır sənə. Mən də yatmaq istəyirəm.

Hər iki tərəfin telefonu susdu...

O qadını tutqun hislər neçə gün idi buraxmırdı, hisslərinin təsiri altına düşür, o məqama gəlir çıxış

yolunu axtarırdı, halbuki, ərli olduğunu və tanınmış ailədən tərbiyə aldığını unudurdu. Qarşısına hansı maneələr çıxacağını düşünürdü.

İşdən sonra evə gələnədək anasına yoluxur, bişirdiyi xörəkdən yeyir, ayrılanda üzündən öpür, qapıdan çıxırdı. Ana qızını üzünə vurmasa da xiffət çəkirdi, gənc qadın kimi bu yaşlarında ona ər xüsusilə lazım idi, uşaq doğmalı idi, qohum-tanış məclislərində görünməli idi. Altdan-altdan qızına baxanda üzünün cizgilərində həyatına etiraz əlaməti sezilirdi və oğlunu müqəssir hesab edirdi, üzə çırpmırdı, ana ürəyi buna imkan vermirdi. Son beş-altı gündə cuzi dəyişikliyi görürdü və duyurdu. Bu isə ananı şübhəyə salırdı, lakin qızına inanırdı, belə şübhələri yaşı ilə bağlayırdı, "qocalıqdandır" – özünü günahkar hiss edir və belə olduğuna sevinirdi. Hər halda qızı dalğın görünürdü.

Qılçası sarınmış Çapay dəhlizə az hallarda çıxırdı, vaxtını kitab oxumaqla keçirirdi. Həkim qəti söz deməmişdi, ancaq müalicənin normal aparıldığını bəyan edirdi. Daban sümüyü möhkəm əzilmişdi, ayağını yerə basmağa hələlik icazə verilmirdi, vaxt lazım idi. Bu isə Çapayı darıxdırırdı: – Bir ciddi xəsarət olarsa, o vaxt necə? – Sualı tez-tez verirdi və bədbin cavablandırırdı. – İş yoldaşları onun praqnozunu təqib edirdilər. Aytac nə desə yaxşıdır: – Çoxdanın romanı olub, məktəbli idim, atam evə gətir-

mişdi, qalın kitab idi. Atam dedi ki, roman iki ayağını müharibədə itirmiş təyyarəçinin həyatından bəhs edir, gərək ki, famili Meresyevdir, rus yazıçısı Baris Polevoy yazıbdır. İradəsi ona yaşatmaq, rəqs etmək şücaətini qazandırmışdır.

Çapayı maraq götürdü, Aytacdan o kitabı gətirməsini xahiş elədi. Aytac romanı kitabxanadan alıb Çapaya çatdırdı. Oxudu, xeyli nəticələr çıxardı.

– Mən  o təyyarəçidən daha iradəliyəm, – bu sözləri şüar elədi özü üçün. Hətta cavan birisi Çapaydan o kitabı alıb bir-iki günə oxudu və qaytardı.

O qadının qarşısında kimin həyatı dayanmışdı: Çapay, yoxsa özünün? Sualı düşünmüşdü, müxtəlif səmtlərə yozmuşdu, Həyatmı – Yaşamaqmı və ya Çapaya – kişiyə qurban getməkmi. Cavab tapmaqda çətinlik çəkirdi: birinci onun aləmində və cəmiyyətdə mövqeyini təmin edir, göydən o düşməmişdir: ikinci özünə bəlli olmayan sevginin bu yolda fədakarlığa təminatı idi. Bu labirintli cığır məcaralara aparıb çıxaracaqdı onu. Uşaqlığından gəlib çıxmışdı yeniyetməliyinə – cəsarət hiss eləmişdi özündə: O, bir şeyi xoşlayıb qapılanda mütləq nail olmalıydı: Narazılığından susdumu, onun dönməzliyi axıracan düyünlənirdi. Nifrət edəndə hissiyatına qalib gəlirdi. Belə zahiri görünəndə də heyranedici idi, valideynləri qıyıb bir söz demirdi, təki qızlarının ürəyincə olsun. Anası qürurla baxır (indi də), güləndə dodaqla-

rının titrəyişi, saçlarının daraqdan qaçması... məlahətliliyi. Bu əlamətlər indi həyatının "birinci hissəsinin" (öz bölümü idi) xoşbəxtliyə aparmadığına işarəydi: Mənəvi uğursuzluq. Sonsuz ehtimallar. Qeyri -nəcib hislərin coşğunluğu. Ümid damlası parıldayırdı baxışlarında, sual dolu gözlərini anasına zilləyirdi: "Ana, məni bu günkü taleyim üçün dünyaya gətirmişdin. Mən məcbur olub ləyaqətli yalan da danışacam!"

Qadın Çapaya dəyməyin mümkünlüyünün olub-olmamasını götür-qoy edir, münasib vaxtı hesablayırdı. Çəkindiyi o idi, iş yoldaşları ilə üzləşər, qadın tayfasına bir balaca mövzu gərəkdir şişirtsin, qarışqanı dəvə boyda canlandırsın.

Nəhayət, o, nahara qalmış yoluxmağı qərara aldı. Bu saatlarda içəri – palatalara kimsə kənar adam buraxılmır. O, ürəyində dolandırdığı "ləyaqətli yalanı" işə salmalı idi və iki zəngin gül dəstəsi, iki qutu bahalı konfet alıb "taksiyə" oturdu (özünün şəxsi maşını vardı), birbaşa xəstəxananın bağa açılan tərəfində düşdü. Qapıda kişi gözətçi dayanmamışdı – sevindi ki, çənə-boğaza çıxmayacaq, qadın qadınla asanlıqla dil tapır – orta yaşa çatmamış ağ xalatlı həkim, güman tibb bacısı idi, yoğun ayaqlı stulda oturmuşdu. O, qapıya sarı ağır addımlarla yaxınlaşan xanımı gözaltıya aldı. Yaraşıqlı, saçları sinəsində yellənən bu qadını tanımaq istədi, yaxud, haradasa gör-

düyünü güman elədi. Yanılmamışdı, ötən həftə bu gələn xanım ekrana çıxmışdı, maraqlı müsahib kimi aparıcı ona daha çox sual verir, rejissor isə iri planda göstərirdi. – Yanılmamışam. – Nəzarətçi – tibb bacısı xanım gələnə qədər gümanını dəqiqləşdirdi və ayağa qalxdı, ikitaylı qapının bir tayını araladı ki asanlıqla içəri girsin. Salamını unutmadı, qabaqladı.

– Buyurun. – Təntənəli halda əlini ona uzatdı. – Buyurun. – Təkrar etdi. – Sözünüz?

Qadın "ləyaqtli yalan"ı deyib – deməməsi barədə ani fikirləşdi, çünki onu nəzakətlə, səmimiyyətlə qarşılamışdı, amma yenə "ləyaqətli yalan"da dayandı, etiraz edə bilərdi, məsələ qəlizləşərdi.

– Belə nəzakət üçün sağ olun. – Parlaq gözlərini tibb bacısına zillədi. – Əvvəla bunlar sizə çatacaq, – dedi. – Təəccüblənməyin.

Tibb bacısı necə təəccüblənməsin. Gözləmədiyi mənzərə alınmışdı, susmağı lazım bildi.

– Alın! Çəkinməyin! – İlk anlarda siz mənim duyğularımı anladız, bu hər qadın üçün müəssər deyil. Yoluxacağım xəstənin bu gün doğum günüdür, istədim hamını qabaqlayım! Və gülümsədi, dişlərini örtən saçlarını geriyə atdı, danışığına rəsmi ton vermədi.

Tibb bacısı lal-kar riqqətdə çaşıb-qalmışdı: "Bu, o qadındır, ağıllı mühakimə yürüdürdü, fikirlərini ifadə etməkdə çətinlik çəkmirdi. Yaşıla çalan paltar-

da idi, indi kiseyi don geyinmişdir" – bu yerəcən dəqiqləmə apardı və əlini uzatdı, ani olaraq da saxladı.

– Hədiyyələrim gül-çiçəklərdir, bir də şirin şeydir, o adamın adından verirəm, sevinci tək bölüşmürlər.

Hədiyyələri alıb kiçik stola qoydu və qanrıldı:

– Hansı mərtəbədə, palatadadır? – Xəbər aldı. – Bəlkə məşhur rəqqasdır? – Dəqiqləşdirmək məqsədilə dilləndi. – Ayrıca palatada yerləşdirilibdir. Bizim baş həkim incəsənət adamlarına xüsusi hörmət bəsləyir.

Söhbət uzanmamalı idi. Tibb bacısı:

– Üçüncüdədir, – dedi. – Ötürməyə ehtiyac varmı? Və özünü saxlaya bilmədi. – Ötən həftə televiziyada danışırdız! Xatırladım.

Bu sözləri bitirənə qədər qadın bir-iki addım aralanmışdı, bəlkə də ünvanına söylənilən kəlmələri eşitməmişdi.

– Mərifətli kübar xanımlar nə yaxşı var! – Nəzərlərini çəkəndə o, ikinci mərtəbəyə qalxırdı...

Söhbət qısa alındı. Xanımın gəlişi Çapayı göylərə qaldırdı, kiçicik buketin qoxusu dərman iyi dadan havanı qovmaqda idi. Bir müddət heç biri danışmadı, bir-birinin təbəssümünü oxudular, baxışdılar. Nəhayət, Çapay danışdı:

– Gözləmirdim. – Səsinin ahəngi xəstəxanaya gələndən dəyişmişdi, indi-indi əvvəlki ovqatına gə-

lirdi. – Sözü xırıltıyla dedi, həm də tələsdi. – Bunu fədakarlıq adlandırıram. – Çapay çevrilib təkidli nəzərlə qadını süzdü. Sıxılmırdı, əksinə, qurulanırdı. – Bu həyat mənimçün sən düşündüyün qədər də qibtəedici keçməməkdə davam edir, nə qədər dözülməz günlərim var imiş. Səninlə tanışlığım başımdan qaranlıqları qovur, həm də özümü günahkar sanıram, bəli, ifadəm üçün məni bağışlayarsınız, yolundan çıxartdım səni, çalışın məni uzaqlaşdırın özünüzdən. Bəxtinizdən imtina etməyin. Mən şikayət etmirəm, xarakterimin buna səlahiyyəti çatmır, biləsən! Hislərimin pıçıltısıdır, qəzadan sonra.

Çapay çarpayıdan qalxıb sağ qıçını astaca döşəməyə qoydu, dəmir qoltuq ağacını unutmuşdu. Qadın dərhal ona tərəf əyilib çiyinlərinə keçirdi qolunu.

Çapay nə üçün yerindən durduğunu unutmuşdu, kortəbii addımlar atmışdı. Yerinə qayıtdı.

– Hə, qəzadan sonra fırtınanın haçansa qopmasını gözləyirəm. Fırtına insan cəsarətsizləşəndə coşur. Təsəllim o olur sənlə görüşümdən, telefon danışığımızdan sonra mənim yaxşı cəhətlərim, lap gəncliyim qayıdır. Taleyimdə sönük işıq zolağı canlanır. Güman edirəm ki, parıldayan zolaq bizim ayrılığımızdan sonra öz yerini tutacaq.

Çapay ensiz balışı köksünə sıxdı, kəskin sözlər içində nəyisə qırdı. Qadın qeyri-ixtiyari kiçik çarpayıda oturdu, qolları süsdadlı, dizləri tutuldu, nə edə-

cəyini unutdu: özünü göz yaşlarından saxlaya bilmədi.

– Niyə belə sərt qərar verdin? Qarşındakı insanın qadın olduğunu unutdun. Sənə qəzəblənə bilmərəm, bacarmaram. – Hıçqırdı, gərək o gecədə özümü dənizə ataydım, yol uzaqda deyildi. Xoşbəxt olmaq üçün bunu etmədim, sənin xoşbəxtliyin üçün. Mən onsuz da bədbəxt qadınam. Yoxsa sənin çarpayına niyə təslim olurdum. Hələ də xoşbəxtliyin nə olduğunu anlamıram. Mənə inanmasan da olar, mən isə sənə inanıram. Nə üçün taleyim sənin qarşında məni kəniz etdi? Bu yaşımda lazım idimi? Xoşbəxt olsaydım bu palatada nə işim vardı. Sən ayaqlarını itirmiş olsan onun günahkarı mənəm. Qarşındakı bu kübar xanımdır. Məgər səadət kübarlıqdadır, yox! Yox! Kübar qadınlarda hiyləgərlik də olur, yad deyil onlara.

Çapay birtəhər ayağa qalxdı, qıçları sancırdı, sümüyü üşüyürdü. Qolunu açıb qadını özünə çəkdi, bədəni tirəyirdi, dodaqları səyriyirdi.

– Mən günahkaram, mən! – Başını köksünə sıxmışdı, özünü cilovlamağı bacarmırdı, onun gözlərini barmaqları ilə qapadı, kiprikləri çırpınırdı, yaralanmışdı. – Bəsdir, günahı bağışlarlar.

– Qoy gözlərimi boşaldım, unudun. Mən ağlıma gətirməzdim qəfil sevgi qadını zavallı uşağa döndərər. Biz daha görüşməyək, bunun çarəsi mənim üçün var. Xaricə gedəcəyəm.

Qadın hirslə ağlayır, bədəni soyuyurdu. Çapay bunu duydu və qadını bərk-bərk özünə sıxdı:

– Sən and içmişdin məni tənha qoymayacaqsan.

Qadının üzündə zəif təbəssüm oyandı və çəkilib getdi, yerini ürkək ifadə aldı. Və ayağa qalxıb pəncərəyə söykəndi.

Çapay səndirlənib çarpayının dəmir tutacağına söykəndi. Qadın sakitləşirdi, vaxtın uzandığından nigarandı.

– Mənə əzab vermək üçünmü gedirsən? Hə, yaxşı, yeniyetmə deyiləm, taleyim qarşısında diz çöküb doyunca ağlayardım. Heç kimdən çəkinməzdim. Məhəbbətinə, səadətinə sadiq bir qadının önündə sevginin dadını duymadığımı etiraf edərdim. Onu da pıçıldayardım ki, bir qadının qəlb dünyasında məhəbbət hissini oyatdım, amma yaşatmağa gücüm çatmadı.

... O qadınla qardaşı arasında söhbət oldu, əri dəvət edirdi, işlədiyi müəssisədə ona ixtisası üzrə yer ayırmışdı. Bacısı etirazını anasına demişdi ki, mən xarici diyarda yaşamağı bacarmaram, rahatdır bura mənim üçün. Anası yavaşca davasız-şavasız: "O, sənin ərindir, qadını yanında olmalıdır, qardaşın təkmidir, qızım" – desə də, güllə havaya boşuna atılmışdı.

Qardaşı elə həmin günün axşamı bacısıgilə gəldi oğlu ilə. Məqsədə hələ aydınlıq gətirilməmişdi. Oğ-

lu atasına bildirdi ki, məşqdən sonra bibisigilə gələr, birgə qayıdarlar. Razılaşdılar.

Axşam düşmüşdü, hava bulanıq su kimi rəngini itirmişdi. Palatadan çıxanda tibb bacıısına təşəkkürünü unutmadı:

– Siz məgər rastlaşmadınız?

Qadın şübhələndi və çiyinlərini çəkdi:

– Kiminlə? – Narahatçılığı o idi, baş həkimlə qarşılaşar, icazəsiz gəlişi üçün tibb bacısını cəzalandırar.

Palatadan çıxanda baş həkimin xəstələrlə görüşmək saatına düşmüşdü. O isə başqa çıxışdan enmişdi.

– Xəbərdar olub palatanı tərk elədim, səndən ötrü. – Pörtmüşdü.

– Uzun boylu, qara kostyumlu bir nəfər iki axranı ilə gəldi. Azca əvvəl həkimə zəng atdı, bir yoldaş gəlir, onu birbaşa yanıma ötürün. Gəldi. Xəbərdar olduğumu hiss elətdirmədən qarşıladım, onunla yuxarı qalxmaq istədim. Təşəkkürünü bildirib: "Həkim, narahat olmayın, kabinetini tanıyıram" – dedi. – Zabitəli kişidir, gözlərində nazik dəmir sağanaqlı eynək gördüm, diqqətlə baxa bilmədim, sarsıldım.

Qadın sakit və təmkinli idi, qardaşının Çapayın onunla qəzaya düşməsindən informasiya sızmışdı. Lakin məsələnin təfsilatından ailə xəbərdiz idi. O gecə evdə yoxuydu. Haradansa əlaqələr yaranmışdı. Şübhələr dirilirdi, cana gəlirdi. Anasının təkidilə

onun ərinin yanına getməsi təsadüfi deyildi. Bircə ondan ciddi narahatdı, təkotaqlı və telefonlu palatada yerləşdirilməsinin mənbəyi aşkara çıxmasın. Qadın az sonra arxayınlaşdı, bildirdi ki, baş həkimdən soruşmuş, cavabında: – Bədii rəhbəri Yusif Qasımovun xahişilə olmuşdur. "Hə, o rəqqası tanıyırıq, respublikada tanınır, bu cür sənətkara sağ olun ki, hörmətlə yanaşırsınız" – demişdir direktoru.

Qadın qardaşının xəstəxanaya gəlişini başqa səbəblərlə bağlamağı artıq bilmişdi: "Yalnız Çapayla əlaqəlidir, bu hörümçək toru növbəti qurbanını alacaqdır. Dostuna xəyanətimi bağışlamayacaqdır. Onun üçün namus varlığından üstündür, qardaş mənimdir, xasiyyətini bilirəm. Çapay da fikir səsləndirmişdi: "Fırtınanın nə vaxtsa qopmasını gözləyirəm". İnstuisiya qabaqcadan olacaq hadisənin ilk daşıyıcısıdır, parapsixoloqlar bunu təsdiq edir. Çapayın günahı nədir, onu yolundan azdıran bacındır, sonra biləcəksən. Uşaqlıqdan sən sərt idin, qısqanc idin, sevgidən qaçırdın, oğlanlar qızlara "şanlı məktublar" göndərirdi, sən isə. Ona görə də otuzu keçəndən sonra evləndin, bir uşağın üstündə dayandın.

Qadın soyuqqanlı tibb bacısı ilə dil tapdı, gələn o adamın kiminlə görüşdüyünü soruşdu:

– Baş həkimlə beş-altı dəqiqə danışdı, xəstə həkimiylə şirin söhbət edirdi. Baş həkimi nazirliyə çağırdılar bu vaxt, xudahafizləşib getdi.

– Bəs palatalara baş çəkmədi? – İncə şəkildə maraqlandığını çatdırdı.

– Yox, xanım, hər şəxsi palataya buraxmırlar, bəlkə şəxsi söhbəti varmış.

– Ola bilər. – Qadın bir də təşəkkürünü çatdırıb bağa düşdü, oradan da küçəyə çıxdı. Onu "taksi" gözləyirdi...

– Məsləhətdir, ərin təkdir, çətinliklə üzləşir, onun işi ağırdır, böyuk "layihənin" bir qolunu araşdırır, optimal nəticələr alır. – Qardaşı bu sözləri çatdırmağı lazım bilmişdi.

– Mən Amerikada yaşaya bilmərəm, məni başa düşün. O, yaxşı ər olsa idi vaxtında aparardı. Üstümə düşməyin, xasiyyətimə sən bələdsən. Burada işlərim rahat gedir. Oturmuşam da! Qoy o, sərbəst işini aparsın. – Qadın hövsələsini basmağı bacarmırdı. – Məcbur eləməyin! Çıxıb gedərəm, yerimi də bilməzsiz!

Qardaşı tempini yavaşıtdı, məsələni öz xoşuna yoluna qoymaq istəyirdi.

– Çay hazırla, – deyib kresloda oturdu, təzə güllərdən birini götürüb qoxuladı: "Sənin bacın qəzaya təsadüfən düşsə də, onun haradan gəldiyini sübh çağında öyrənmək borcundur. Cavan, qəşəng qadın ərsiz qalanda ox atanlar az olmur. Onu bir cavan subay kişinin oxu tutmuşdur, ürəyinə sancılmışdır, ürəkləri bu ox bir-birinə bağlamışdır. Sənin əlində dəqiqləş-

dirmək bir saatlıq deyilmi?" – Səs hər iki qulağında cingildədi, diksinib yerindən qalxdı. Səsdən o taqətsiz qalmışdı, belə bir hadisəni duymamışdı, bu, onu gəmirən dözülməz boşluq idi, iki nəfərə məxsus idi. Onlar ətraflarına qarşı laqeyd idilər, heç nədən çəkinmirdilər. Amma onu dəqiqləşdirməyə çalışırdı ki, bacısının həyatı ağır zərbə altındadır. Məchul, bir daha dərin boşluq onu gözləyir, orada boğular. Bu zavallı qadını onun anası doğmuşdur, anasının döşündən hər ikisi süd əmmişdir. Oyuncaqlar üstə o qədər savaşıblar ki. Bacı, hələ tezdir, bu sərt və ağır daşı ətəyindən tök. O şəxs ağıllı və namusludursa, ərli qadını yolundan azdırmazdı. O şəxs hələ qasırğaya düçar olduğunu anlamır, hislərinin qurbanıdır. O şəxs hər gün səni daha zəhərli boşluğa tulazlayacaqdır, o zaman bəlkə əliuzun qardaşın bu dünyada olmayacaqdır, o zaman ruhum qəbrimdən çıxacaq, amma mənim qisasımı almaqda aciz olacaqdır! Fiziki gücü olmayan ruh nə edər?

Ayıldı qəfil xəyaldan və əlini ürəyinə tutdu. Sancırdı. Bacısı pürrəngi çay gətirmişdi. Stəkanına bir dilim limonu salmışdı, gümüş papaqlı qaşıqla qarışdırdı.

– Ürəyin ağrıdı? – Çaşqın halda soruşdu və dərman dalısınca tələsdi, tez də qayıtdı. – İç, divanda uzan, uşağın gələn vaxtıdı, narahatsan onun üçün: "Bu işi təcili başa çatdırmaq lazımdır" – ürəyin səsi-

ni cavabsız buraxmadı. – O, sıxılırdı, qüruru coşurdu, vücudunda bacısı kədərli hislər oyatmışdı. Otağın havasının qıcıqlandırıcı nəfəsi süzülürdü. İnadını hələlik boğurdu, sifətində qətiyyət vardı, gözləri qıyılmışdı. Bacısının ona çevrilən baxışlarından qaçındı.

Qapının zəngi çalındı, gələn oğlu idi. İdman çantasını çiynindən aşırıb yerə qoydu, salamlaşdı.

Atası ayaq üstə idi, qapıya sarı getdi, mətbəxdə olan bacısına dedi:

Mən evə gedirəm, ana azca soyuqlayıbdır. Qardaşoğlu bu gecə səninlə qalacaq. Bir şey lazımdırsa uşaqla göndərim.

Bacısı artıq asılqanın yanında durmuşdu.

– Anama salam söylə, özünə diqqət yetir.

Oğlu atasının üzündən öpüb qayıtdı.

– Susamışam, bibi, – astadan dilləndi, kresloda yayxandı.

Vədiylə gecə Çapaya telefon açmalı idi, qardaşının onun palatasına gəlib, yoxsa gəlməməsini dəqiqləşdirməliydi. Ancaq onu didən şübhələrdən uzaq olmalı idi, bəlkə fantaziyasıdır, qəlb birini sevəndə bütün təhlükələrin onun başı üstə dayandığına inanır. Xəstənin ürəyinə qorxulu heç nə düşməməlidir. Amma qardaşı oğlunun bu axşam onunla qalması şübhələrini təzələyirdi. Ortaya ərinin yanına təcili getməsi şübhəsinin reallaşmasından xəbər verirdi.

Qadın israrında qalmışdı. Qardaşı oğlu yüngül xasiyyətli deyildi, fikri idmanda idi, gələcək arzularını idmana bağlamışdı. Uşaq bibisini çox istəyirdi, gəlməyəndə zəng vururdu.

Bibisi şam yeməyi tədarükünə başladı, ət çəkdi, başqa qida məhsullarını, hansı ki kotlet üçün lazımdır, onları da hazırladı.

Bu saatlarda qardaşı oğlu televizoru açmışdı, kanalları dəyişdirirdi, özü də kəsdirmirdi necə mövzulu veriliş istəyir. Nəhayət, tapana oxşayırdı, komediya idi, özünü saxlaya bilmir, doyunca gülürdü, hətta bibisini də baxmağa çağırırdı. Süfrə hazırlandı, sadə, zəngin. Məşqdən gələnin iştahı necə olar? Ona görə də bol idi, sulu yemək dünəndən qalmışdı, isitdi, dərin boşqablara çəkdi.

– Rahat ye, – bibin sənə qurban. Haçandan gəlmirsən.

– Süfrəyə birinci özü əl uzatdı. Qadın qardaşı oğlunun birinci gəlişi olmamasına baxmayaraq nəsə şübhə izi dammışdı ürəyinə: "Gecə Çapayla söhbətimdən xəbər tutarlar? – Texniki cəhətdən mümkündür, bəzi orqanlar qulaq asırlar bəzi adamların danışığına, əlbəttə, bu, siyasi məsələdir, mən ki siyasətçi deyiləm, siyasətlə məşğul olmuram. Qaldı məsələyə, yalnız qardaşı bu addımı atar, səlahiyyətli şəxs olacaq".

Qətiləşdirdi fikirlərini: "Uşağın gəlişi dəqiqləşdirmə aparmaq üçündür". O, balkona baxan otaqda oturmağı qərara aldı. Buradan dənizin bir hissəsi görünürdü, gecələr çıl-çırağa bürünmüş yük gəmiləri, baydarkaların yelkənləri və neft rəmzi olan məşhur "Vışka" diqqəti cəlb edirdi. Bu küçə şəhərin digər iri küçələrinə nisbətən yaşıllıq idi, mənzərə yaxın olduğu üçün yaşlı ağacların axırına çıxılmamışdı, ölkə rəhbərindən birinin mənzili bu küçədə idi: küçənin və sakinlərin bəxti gətirmişdi, yoxsa kimdir camaatın səsini eşidən, oxuyanların və çalanların səsi daha yaxşı qulaqlarına çatır, bu sənət adamlarının bəxti gətirmişdir.

Otaqda kiçik yazı masası, kitab rəfi, köhnə yazı makinası yerini dəyişməmişdi. Mənzil bir tanınmış adamdan alınmışdı, yaşa dolmuş bu adam madii vəziyyətinin ürək açan olmaması ucbatından satmış, mikrarayona birotaqlıya köçmüşdü. Oğluna nisbətən yaxın idi, nəvələrinə baxırdı. Oğlu, uşaqlarının atası "20 Yanvar hadisəsində" xəsarət almışdı...

Bu əhvalat haradansa yadına düşdü, alimin yazı-pozu otağı bu olduğu üçün xatırladı.

Qadın məktub qaralamaq istədi, bir neçə dəftər vərəqi hazırladı, masaya yaxınlaşdı, amma ürəyi soyumuşdu, qəlbi bumbuz olmuşdu və nə yazacağını fikirləşdi, düşündü, nəhayət, qərarından döndü: – Hazır deyiləm, nigaranam. İlahi, bu yaşımda...

Diqqətini başqa bir yerə ayırdı, yenə alınmadı.

Televizorun ekranı işıqlanırdı. Qardaşı oğlu baxmırdı, ona ayrılmış çarpayıda yuxuya getmişdi: Uşaq yorulmuşdu...

O, taleyinin sonunu görmək istərdi, bu, kimə qismət olmuş ki? Öncəgörənlər aqibətin axırını yoza bilirlər ancaq. Hələlik elm acizdir. Çapayla bağlı görüşü, telefon danışığı (o gecədən əvvəl baş vermişdi) ümid verməyən sevincdən xəbər vermirdi, ürəkdən daş kimi sallanırdı və "qasırğa" məsələsinə gəlib çıxırdı. Amma ona sevgisi heç bir çıxarılan qərarı dəyişdirmək gücündə deyildi, onu dənizdən qopan qasırğa, tufan sahilə tullaya bilməzdi. İradəsi sarsılmamışdı, baxmayaraq sevinc, səadət qapıları bağlana bilərdi, labüd ola bilərdi, taleyin hökmünə necə çıxaq? – Sualın cavabı müəmmalı idi: – Çapay sağlam buradan çıxarsa, elə bu, mənim xoşbəxtliyimdir, səhnəyə qayıtsın. Ondan gələcək yaşam tərzi ayaqlarından asılıdır.

Qadın düşüncələrində qərar tutmurdu və fikirlərinin sərkələfini itirmişdisə, bu yaşında tutulduğu sevgisini heç nəyə dəyişmək istəmirdi: – Sevgi bir dəfə doğulur, öz yuvasını dəyişmir, hansı təzyiqlər bu hissi tərsinə çevirə bilər?

Çapay üçün məhz bu çağında qadın sevgisi gərəkdir, o ayaqdan məhrum ola bilər, bəs sonra? Bir də mənim uğrumda qəzaya düşmədimi? – İradəsi və

hissiyyatı özünə tabe idi və başqa əmr gözləmirdi. Düşündükcə vaxt da əriyirdi. Otaqda var-gəl elədi, köhnə kitablara kənardan boylandı, şüşənin altından kölgəli görünürdü. – Bizə məktəblərimizdə bu kitablardan dərs deyiblər, öyüd-nəsihət veriblər. Hanı onları yazanlar? Bəziləri acından, sıxılmaqdan, sıxışdırılmaqdan korluq çəkmişlər, bəziləri yarınmaqla ucalıblar. Hər iki xasiyyətlilər torpaqda yer alıblar, eyniləşmədilərmi? Götürək bu evin sahibini, on illərlə cibinin pulu ilə aldığı kitabları da qoyub mənzildən çıxdı, bezib ki çıxıbdır.

Qadın yenə də kresloda əyləşdi, sağ yanını pəncərəyə çevirdi, dənizin və şəhərin mənzərəsi sanki ölmüşdü onun üçün. Gözəllik ürəyinə soxulub sönmüşdü, ixtiyarsız gözlərini qapayır, saçlarını barmaqları ilə darayır, ayaqlarını qoşalayırdı. O, telefonu şunuru ilə kresloya gətirdi və dəstəyi qaldırdı. Onun üçün nəzarət filan yox idi, yalnız öz hislərinə hesabat verirdi, yeganə qorxusu da hisləri idi. – İki dəfə sevmək? Yox! Qadın bir dəfə sevir və bununla öz həyatı ilə müqavilə bağlayır, qəlbinin qapısını bağlayır başqa yad ürək içəri girməsin. Mənim qəlb tellərim elə bağlanıb! – Səsi xırıldadı, bu anlarda anladı ki, bərkdən danışırmış, lap o biri otağa gedib çıxırmış.

Yavaş addımlarla qardaşı oğlu yatan otağa keçdi, uşağın başı üstə dayandı. O, necə də sakit idi, ba-

har kəpənəyi çiçəyin – gülün yarpaqları üstə yuxu tutmuşdu, arabir qanadlarını yellədir, nəfəs alır. – Xoşbəxtdir anası, – pıçıldadı, – bu, elə möcüzəli səsdi, kəpənək də eşidə bilməzdi, ayılmazdı. – Mənim nə üçün övladım olmasın, İlahim! Məni günahkar sanma, Allahım! Görünür, mənim ərimə olan yox, ərimin mənə olan soyuqluğudur, uşaq üzünə həsrətəm! Beləmi getməlidir? Səadət budurmu – bolluca yeyəsən, gəzəsən, qulaqlarında ən qiymətli sırğaları sallandırasan, barmaqlarına brilyant, zümrüd qaşlı üzükləri keçirəsən?!

Qadın aralandı və özünü ələ almağa çalışdı. O, sanki zülmət qaranlığa düşmüşdü, yolunu itirmişdi, amma haradasa işıq yanacaqdı və o gedəcəkdi işığı tuta-tuta. Bu yolun başında əri onu gözləsə də səmtini dəyişəcəkdi... O səmt isə qarşısında sarsılmaz dayaq idi, qranitdən hörülmüşdü, daha heç nə onun üçün yox idi. Və saata baxdı, nömrələri yığdı. Səs Çapayın idi.

– Çox gözlədim. Bağışla! Səni yuxudan elədim. – Ayaq üstə dayanıb otağı süzdü, elə bil meşəni başına götürmüş cırcıramalar yatmışdı, ya da səslərindən bezmişdilər, quşları yuxuya vermişdilər. Ayın işığı yarıqaranlıq – hansı rəng çaları idi seçmək çətindi – içəri süzülürdü pəncərədən. Qulağına qaibana səs gəldi, elə bil uşağın sayıqlaması idi yorğunluqdan. Boylandı, hər şey sükuta dalmışdı, hətta pi-

şiyi də özündən xəbərsizdi, qıvrılıb yatmışdı. – Narahatdım, ürəyimdə qara fikirlər dolaşır hələ də. Sənin dəqiqliyindən iztirab keçirirəm. Mən hey fikirləşirəm sənin azadlığına şərik çıxıram, sən ərinlə xoşbəxt yaşamağa qadir qadınsan. Mən isə. – Səs azca boğuldu, sözlər boğazda ilişdi. – Həkimin qırımı xoşum gəlmədi, ümidsiz danışdı, tər götürürdü onu. Mənim gələcəyim üçün güman əzab çəkirdi, yaxşı bilirdi mən rəqqasam, bir qıçım belə. – Səs yenə boğuldu. – Bir ciddi zədə alarsam kimə lazım olaram, heç kəsə. Cavan ikən karyeramı kəsilmiş ayağımla birgə dəfn etməli olaram. Sənin də bütün hislərin, mənə olan sevgin yetim qalmazmı? Son dəfə səndən xahişim.

Qadın Çapayın sözünü dilində dondurdu.

– Sus. Sus. Nə danışdığını bir düşün, dediyin "qara" fikirləri ətəyindən tök. Mən həyatımı sənin üçün risqə qoymuşam sona qədər. Mənim taleyim üçün risqə gedən, qəzaya düşən adama xəyanət etməm. Onsuz da qadın olaraq xəyanət etdim, ya bir dəfə, ya on dəfə – fərqi nə, ömürlük xəyanət sayılır, bu ləkəni yumalıyam, bu ləkəni sən üzərimdən götürməlisən.

Qadının üzünün ifadəsində məchulluq nişanələri göründü, parlayırdı, hiss edirdi bu qısa vaxtlarda o, başqa bir qadına çevrilmişdir, sanki tələsdirmişdir, özünə inamı daha da möhkəmlənmişdir. Ürək

sakitliyini itirmişdir. Ərli qadın olaraq duyğularından narazı idi – etiraf edirdi, "masqalanmış" qonağa dönmüşdü, səssiz-səmirsiz yalnız bir adamla danışır ürəyində, amma görüşə bilmir ətrafından, hələlik çəkinir. Amma Çapayın indicə dediyi sözlər vücudunu sarmış coşğunluğu ilə düz gəlmirdi, bir-birinə zidd hislər basılır, məğlub olur. Onun ilk və son dəfə Çapay tərəfindən hisləri – ehtirasları qarət edilmişdi, amma oğruya çevrilməmişdi, igidə dönmüşdü. Məğlub olan özü idi.

Çapay gecənin bu çağında palatada sıxıntılı əzabını çəkirdi. Qərar tutmur, dəstəyi gah sağ, gah da sol qulağına aparırdı, elə gəlirdi ona, hər bir qulağın məxsusi sözləri dəyişmək imkanı vardır və dəstəyi uzaqlaşdırıb sakit ovqatla güldü fantaziyasına. Divara mıxlanmış ürəkşəkilli (belə güzgünü birinci dəfəydi görürdü) güzgüdə özünə baxdı: rəngi qaçmışdı, bir ayağı titrəyirdi, o birisi donmuşdu.

– İstərdim bu iztirabların tez keçsin.

Çapay sükutu pozdu. – Sonrası? Ağıllı qadınlar çılğın hislərə aldanmır.

– Sevgi vurxunub gedəndə o ağıl itir. – Sonrası olur xoşbəxtlik! – Son fikrim ağlımın nəticəsidir, deməli, ağıllı qadınam, qərarımı dəyişmirəm, əzabım mənə şirin dadır.

Çapay susdu, səbəbi o idi, üzbəüz otağın qapısını növbətçi tibb həkimi tələsik açmışdı.

– Qonşu palataya həkimlər gəldi indicə, nəsə olub ki. – Bağışla, gecən xeyirə. Qarşı tərəfdən cavab almadı.

Qadın çıxılmaz vəziyyətdə qalmışdı, düşünüb-daşınmaqdan keçmişdi, özündə qadınlara məxsus vəhşi ifadə yaranmışdı. Anasına və qardaşına qarşı əsəbi tərzdə münasibət bildirmək istəyirdi. – Son silahı idi bu. Hissiyatına qalib gələcəkdimi? Acizanə sərbəstliklə etirazını bildirdi, qardaşı təkin. Ana dilini çeynəyib dururdu.

Ana qızını süzürdü, O, necə dəyişmişdi – görürdü –qızı ər-arvad borcunu tapdayır, ərindən bu dərəcədə qaçır, xaricdə yaşamaqdan uzaqlaşır. Tez-tez hirslənir, əlacı olsa hamını qırıb çatar.

Ana üzünü yana çevirdi, qızından vahimələndi: qaranlıqda pişiyin bəbəkləri kimi gözləri genişlənmişdi. – “İlahi, bu nə haldı?” – Anasının ürəyində sözlər səsləndi, dözmədi və fikrinə düzəliş verdi, özünü ələ aldı.

Qızı otağa keçdi, bir vaxt ərə getməzdən qabaq onun iş otağı hesab olunurdu. Burada dərslərini hazırlayırdı. İndi gəlin ona yiyə durmuşdu, bərbəzək yeri idi – kövrəldi.

Keçmiş ona hakim kəsilmirdi, bu otağın havası onun gəlişini duymuşdur, gözləri dolmuşdur, çıxmağa bənddir, xatirələrini sabuna çəkəcəkdi. O, başa düşdü, başqa çıxış yolu hələlik görünmür, ərinin ya-

nına uçmalıdır. Amma əri onun olmayacaqdır, qadın hərarəti qar olub əriyəcəkdi, axıb gedəcəkdi, bəlkə o vaxt sakitləşər. Çapayın ona, onun Çapaya sevgisi – hər iki tərəfi həqiqət bilirdi – onun sədaqətidir. Buradan hələlik uzaqlaşması labüd çıxış yoludur, rüsvayçılıq da baş verə bilər, hissiyyatın coşğunluğu qarşısı alınmaz olur, ehtiyatlığı oğurlayır. Deməli, bu şəhərdən getmək lazımdır, Çapayı agah etmək şərtilə, bu isə mümkünsüz olacaqdır, telefon isə... şübhəlidir, yeganə vasitə ona məktub göndərməkdir...

Çapay üçün digər qadın da narahat idi, onun cavan taleyini düşünürdü, tamam fərqli şəkildə: bu, Xumara xanımdı. Və əsasən Aytacla dərdləşirdi.

– Yaxına buraxmırlar, hal tutasan. – Əsəbi dilləndi və afişanın ilk əlyazma variantını gözdən keçirdi, xoşuna gəlmədi, kişi rəqqaslar qadın rəqqasələrin kölgəsinə düşmüşdü. Çapay görünmürdü, fikrini Aytaca bildirdi. – Çapayı bu tezliklə qara haşiyəyə alıblar? – İstehzalı və ikibaşlı dedi. – O, çox rəqs edəcək, onu ruhlandırmaq lazımdır, foto şəkillər köhnədən qalmadır. O vaxt Çapay qartal kimi şığıyırdı üstümüzə!

Aytac afişanın yanında dayandı, diqqətini yönəltdi:

– Yaxşı tutmusan, Xumara. – Gözünün üstündə qıvırılan saçını ovcunda düyünlədi. Ürəyi ağır-ağır döyünürdü.

Çapayın gələcək karyerasına qələm çəkmək deməkdir. Təsadüf olmasaydı iki xanım rəqqasə mübahisə aça bilərdi, kollektivdə bir nömrəli söz-söhbət Çapay üzərində gedirdi, onun əməliyyat olarsa neçə bıçaq altından çıxacağı praqnozlaşdırılırdı, kədərlənənlər çoxdu. Yusif Qasımov mənzərəni görüb kabinetinə qalxmışdı, xanımların yanına addımladı "salam"da onları qabaqladı.

– Çoxdanmı burdasız? – Soruşdu, afişanın ilk variantına gözü sataşdı.

– Hə, necədir? Fikriniz?

Xumara xanım əlini afişaya uzatdı, azca yuxarı qaldırdı, işıq öndəki rəqqasənin sifətində titrədi.

– Yusif müəllim, biz xanımları irəli veriblər.

– Lap yaxşı! Bizim fatoqraf qadınlara qarşı alicənabdır, – dedi. – Afişada hiss edilir.

Xumara xanım afişanı tamam açdı, barmağını "solo" oynayan rəqqasa uzatdı.

– Hanı Çapay bəy? – Sualı yumşaq səsləndirmədi, əsəbiliyini gizlətmədi. – Biz onu ruhlandırmalıyıq. Foto çoxdanı əks etdirir.

– Ötən ildi. – Aytac rəfiqəsinin sözlərinə qüvvət verdi. – Çapay qırğı kimiydi.

Yusif müəllim ayılan kimi oldu və afişanı özünə yaxınlaşdırdı, nəsə seç-məkdə çətinlik çəkirmiş kimi gözlüyünü taxdı, kədərli görünüş aldı.

– Haqlısız, ən böyük laqeydliyimizdir, – dedi və sözlərilə üzünün ifadəsi bir-birini tamamladı. Mobil telefonu çıxartdı, nömrəni yığdı.

Xanımlar susmuşdu, Yusif Qasımovun haraya, yaxud kimə zəng açdığın-dan narahat olmaqda idilər. O, bir söz demədən telefonu qapadı, pencəyinin sağ cibinə qoydu. Bir neçə dəqiqədən sonra fotoqraf peyda oldu və Yusif Qasımova yaxınlaşdı. Yusif Qasımov afişanı havada tutdu.

– Xanımların haqlı iradlarıdır. – Afişanı Aytaca verdi. – Bizim Çapayımızı burda görmürəm. O, bütün rəqslərdə rol almışdır.

Fotoqraf vəziyyəti seçə bildi: həqiqətən Çapay nəzərə çarpmırdı.

– Arzu edərdim o, afişada qabaqda görünsün. Təcili yenisini hazırla, bir ədədini xəstəxananın küçəyə baxan yerində vurun, birini də mən özünə çatdıraram. — Üzünü fotoqrafa çevirdi:

– Bu qədər, öz işində ol.

Fotoqraf afişanı loğalaxlayıb öz labaratoriyasına getdi.

– Xoşuma gəldi iradınız, çiyin yoldaşınıza məhəbbətiniz, Çapay tezliklə qayıdar. Həqiqətən, qulaq asıb idrak etmək hər birimizin vəzifəsidir, kiçicik

yalnışlıq sonra böyüyür, ciddi məsələyə dönür. Başqa sözünüz?

– Hələki yoxdur. – Xumara xanım söhbətə nöqtə qoydu.

Yusif Qasımov bayıra çıxdı.

Xumara xanım birbaşa mənzilinə gəldi, məşq bir yandan, havacat bir yandan, ən ağırı Çapayın durumu idi.

Son üç gündə Yusif Qasımov Çapay barədə söhbətdən yayınırdı, bu isə adamın fikrini şübhələrə çəkib aparır. Görünür, məsələ başqadır, olmaya Çapayın hissləri parçalanmış, darmadağın edilmişdir. Qəzada yanında bir qadın məxluqunun olması ehtimal olunur. Mətbuatda və ya televiziyada məlumat verilməmişdir. Əslində, Çapayın gələcək taleyinin mənə dəxli yoxdur, yollarımız tezliklə ikiləşdi, amma o, istedadlı olmaqla karyerasını qururdu. Böyük yüksəlişin vasitəçisi onun çevik ayaqları, uzun qolları, işləyən başıdır. Bunlardan biri yoxsa, hər şey bitir. – Xumara xanım bu cür düşünürdü: – Mən ona qısqanmıram, yaşa doluram, o isə.

Telefon zəng çaldı, nömrəyə baxdı, münasib adam deyildi, dəstəyi qaldırmadı, mətbəxə keçdi, axşam yeməyinin çeşidlərini dəqiqləşdirdi və qayıtdı, divana yanını qoydu. Yorğunluğundan suya atılmış daş kimi tərpənmədi.

## 5.

Aytac neçə gündü yuxusunu qarşdırırdı, bunu atası ilə bağlayırdı, baxmayaraq "mobil"lə danışırdı. Atasını üzbəsürət görmək, söhbət etmək, səhhətinin düzəldiyinin şahidi olmaq – ata məhəbbətinin əyani duyumudur. Ona arxayınca kəndə gedib-qayıtmaq üçün bir gün əlavə lazım idi, şənbə və istirahət günü öz ixtiyarında olacaqdı. Anası bir söz demədi, razılaşdı: "O da qəribsəyib sənin üçün" – deyib, bəzi şey-şüy almışdı, şəhər bazarlığı eləmişdi.

Xəbərsiz-ətərsiz Aytac darvazanı açdı, həyətdə heç kəsi görmədi, toyuq-cücələrdən savayı. Yad adamın gəlişini xoruz duydu və qanadlarını şappıldadıb banladı, ətrafında saralmış otlarda yem axtaran toyuqlar yerindən qopdular, xoruzun başına toplaşdılar. Xoruz gələn adama baxırdı. Bu vaxt artırma balkonun qapısı açıldı:

– Kimsən? – Xarranmış səsi Aytac eşidib: – Ay dədə, – o həmişə "ata" deyərdi, bu dəfə "dədə" qeyri ixtiyari dilinə gəldi və eşitdi.

– Qızım? Aytac! – Səs cingiltili çıxdı.

Xoruz tələsik səs gələn tərəfə götürüldü. Onlar taxta pilləkənin aşağısında qarşılaşdılar. Xoruz bu dəfə banlamadı, amma qanadlarını şappıldatdı və toyuqların arasına özünü verdi.

Aytac əlindəki çantanı yerə qoymuşdu, əlləri boşaldı, qolları açıldı. Ata-bala həyətə enmədilər, evə qalxdılar. Aytacdan ürək ovunduran hönkürtü çıxdı, gözünün qarasını axıdırdı. Ata-bala bir-birinə sarıldıqca döşəmədə sanki rəqs edirdilər, onların ağırlığından artırma cırıldayırdı.

Aytacın ilk sevinci o oldu atasının ağıllı baxışlı gözləri dəyişməmişdi, hiss edirdi Aytac: – Atası iztirab duyğusunu büruzə vermir, gülümsünür, qızının xiffətindən darıxır, dodaqları titrəyir, nəsə demək istəyir, bu zaman müdhiş görkəm alır. Üzündə yaşadığı ömrün puçluğu – sonu duyulurdu. Aytac atasının ətdən düşmüş barmaqlarının saçlarında gəzdiyindən xoşallandı, beləcə olmasını istədi. Fövqəlada ata məhəbbətinin qarşısında duruş gətirə bilmirdi, göz yaşlarını boğurdu. Atasının xasiyyətinə bələddi: güclü vüqar hissi olmasına baxmayaraq kövrəkdi və küsəyəndi. Həmişə cəsarətli ümidlərlə sabahı açmışdı, hislərini pula bağlamamışdı, dəbdəbəli həyatının cazibəsinə aldanmamışdı.

Aytacın xəyalından o da keçdi ki, yeniyetmə yaşına girəndə, gözəllik qapısını açanda – onu əlyetməz məxluqların şahzadəsinə bənzədirdi, o isə bu tərəfdən fərəhlənirdi.

Onlar otağa girdilər – "qonaq otağı" kimi Aytacın yadında qalmışdı, görkəmi əlbəttə, dəyişmişdi, köhnə əşyalar yenisi ilə əvəzlənmişdi, atasının ca-

vanlıq şəkli öz yerində idi. Qədimi xalça öz yerində deyildi, ata nənəsi öz əliylə toxumuşdu və oğlunun doğum ilini, ayını ağ saplarla həkk eləmişdi. Aytac bu rəqəmə diqqət yetirmədi.

Aytac bibisinin harada olduğunu soruşmağı unutmuşdu, həyacan onu basmışdı, amma atası məlumat verməyi lazım bildi, ona görə ki, bəs kişiyə qulluq edən yoxsa nə üçün xəbər verməmişlər.

– Aytac. – Ata dilləndi. – Bibin evdədir, həftəlik bazarlıq üçün rayona gedib, sən demişdin gəlməyini.

Aytacın ürəyi yerinə düşdü.

– İndicə gələr, o, yubanan deyil, – deyib mətbəxə keçmək istədi, ayağa qalxmışdı ki, qızı onun biləyindən tutdu.

– Mənim işimdir bu, çay qoyaram, bibim də özünü yetirər.– Şad halda dilləndi və mətbəxə keçdi.

Aytacın ürəyində qarmaqarışıq fikirlər dolaşırdı: insan qocalanda həyat onu məngənəyə salır, ünsiyyətində tez qərar verir, azadlıq üçün darıxır. Məhəbbəti üçün gecikdiyinə heyfslənir. Atası heç vaxt məhəbbətindən söz açmamışdır, bu hiss hələ də onun üçün qaranlıqdan çıxmamışdır. Amma meşəqırağı gəzintilərindən, ovçuluğundan, balıq tutmağından danışmışdır. Təsadüfi deyildi, şəklinin altından uşaqlığından gördüyü tüfəngi asılmışdır. Bibisindən tez-tez eşidirdi: meşə gəzintisinə tüfənglə çıxır, balaca uşaqlarla söhbət edir. Bəzən ovu boşa çıxır.

Meşə, vadilər, təpəciklər, uzaqlarda heykəlləşmiş dağlar onu daima yaşatmışdır, ruhən qidalandırmışdır, çobanla görüşü isə unudulmayacaqdır, yaddaşından silinməyəcəkdir.

Ata kənd havasında gəzib-dolaşdığı yerlər təkcə zövq mənbəyi deyildi, kəndistan enerjisi insanı daxilən paklaşdırır, ülvüləşdirir, ləyaqət hissini sınağa çəkir, hətta tənəzzülə məruz qalmış münasibətlərdə tarazlıq yaradır, şübhələrin pəncəsindən adamı azad edir. Bəli, kəndistan havası mühakiməyə məruz qalmayan enerjidir. Lakin bunların yaşam və sönən vaxtı olur, ömür haçansa borcunu ödəyir, həyat yorulur, dayanır. Necə ki günəş batanda səmada parlayan fəcr sönür, harayasa çəkilir. Ömrün gözəlliklə birləşməsini. Ölüm ayırır, səadət və xoşbəxtlik qorxuya yerini güzəştə gedir, yaşam təziqidir, insan düşüncələri onun davranışına qəribə rənglər qatır. Sönük havada istəmir qalansın, vurnuxsun, ətrafındakıların cazibə mərkəzinə düşsün, amma zatən ağıllı kişilər yaramaz əxlaqdan kənarda dururlar.

Atanın nəzəri – xəyalı uçub getdi, azca yüngülləşdi, qulaqlarında isə aldadıcı səslər anlaşılmaz nəsə pıçıldayırdı.

Atanın dodaqları titrədi, inamsızlığını heç cürə qova bilmədi: Ölümün önündə edilən mətanət heç də valehedici olmur – kim belə fikirləşirsə səhvdədir. – Ata belə düşündü və özünü o yerə qoymadı.

Qızı gəlmişdi, bəlkə də son dəfə görüşləri olacaqdı. – Bu ağır tənəsini beynindən qovdu.

Aytac çayı dəmləmişdi, stəkanlara süzmüşdü. Atasının sevdiyi konfetdən gətirmişdi, onu da ortaya qoydu.

Qapı iltifatla açıldı, bibisi göründü, o, fəhmlə hiss eləmişdi qardaşı qızı gəlib, evdədir. Atasını görməyə gələn qız övladının məhəbbəti qadında ruhi dönüş yaratdı – vəhydimi, gendəngəlmə qüdsiyyətdimi, mərhəmətin laqeydliyə qalib gəlməsidimi – ayırd etməyə ehtiyac yox idi.

Bibi sevincindən ağlayırdı, qardaşı övladına kor-koranə tərbiyə verməmişdir.

Aytac nisbətən arxayın qayıtdı, atası günyarımı qızıyla həyətdə, bağda keçirdi, bolluca nəfəs aldı, atasıyla bir gecə yatdı. Bundan böyük səadət olardımı övlad üçün? Düşündü və sevindi.

Yola qədər bir gəldi, kəndin "taksi"sinin bir gün əvvəl vədini almışdı atası.

Sakit ayrıldı, kişi qıvraq göstərdi özünü:

– Qızım, mən yaxşıyam, səhhətim düzəlir, bu gün-sabah gələcəyəm şəhərə, anandan muğayat ol. Bibin hələlik yanımdadır. Yanıma yaşıdlarımdan, müəllimlərdən gəlirlər. Hə. Aytac, "taksi" səni gözləyir, – deyib qızının alnından öpdü və geri qayıtdı.

Qəribə o idi, qısa günlərdə Aytac toyuq-cücəyə yaxşı baxırdı, dənlərini bol edirdi, xoruz öyrəşmişdi

yad adama, mehribançılığını duyanda bayıra çıxcaq, bu qonağı şəstlə qarşılayır, yanını kəsdirirdi. Aytac atasıyla darvazaya sarı gedəndə xoruz ayıq düşdü, iri ayaqlarını asta basa-basa darvazaya qədər gəldi, dairəvi muncuq gözlərilə qonağa baxır, bu həyətdən – evdən ayrıldığını duyurdu, heyvanların hissiyyatı elə sadə deyil.

Bir dönüş heyvanat aləminə: Müəllif xoruz ayıqlığını təsadüfən təsvir etməmişdir: Səmada uçan quşlara, yerdə gəzən heyvan cinslərinə diqqət yetirmək necə də maraqlıdır, onlarda elə qəribəliklər var – yaradan Allah-Təalanın əzəmətinə, qüdrətinə və hikmətinə heyran olmamaq mümkünsüzdür.

Heyvanlarda, o cümlədən, quşlarda istiqamət hissi güclüdür. Bu, ona bir sübutdur ki, heyvanlarda müşahidə edilən bu xariqüladə hallar onların təsadüfən var olmadıqlarına, hərəkət etmədiklərinə sübutdur. Təəssüf ki, bir misalı tez-tez aforizm yerində işlədirik: “Onun başı quş başıdır”. “Şüuru zəifdir, yaddaşdan yoxsuldur” mənalarını verir: yəni, əsla belə deyil; quşlar, o cümlədən, xoruzlar xüsusilə yüksək şüur tərəfindən istiqamətləndirilir. Belə ki, qurulmuş saat yatır, ya geri qalır, ya da irəli qaçır. Xoruz isə hətta çəpərə, yaxud hündür yerə çıxıb səhərlər banlayır, insanları oyadır! Bəli, məmnunluqla vəd edirik: – Xoruz banı məni filan yerdə gözləyərsən. Əlavə deyirik: – Birinci xoruz banı! Bəli, “qo-

naq qızın" – yad adamın gəlişini birinci duyan xoruz olmadımı? Ona bir-iki gün qulluq göstərən Aytacı, həmin qonağı ötürmək xoruz üçün qeyri-adi görünməyə bilər.

...Səhəri işdə Aytacın ata nigarançılığına Çapayın yaxşı olmayan halı əlavə olundu: "qanqrena" məsələsi ortaya çıxmışdı. – Aytac acı xəbərdən sarsıldı, vücudu əsdi, sanki onun qıçını kəsəcəkdilər. Həkimlərimiz üçün "kəsmək əməliyyatı" necə də münasib və yüngül işdir. – Aytac düşündü. – Səhv diaqnoz qoyub xəstənin hislərini cibinə qurban verirlər. Baxmır bu adam kasıbdır, varlıdır, imkanlıdır – nədir? Atır bıçağın altına! O həkimə çatmırmı onun taleyi ayaqlarından asılıdır, onun ölümü deyilmi? Bəs Yusif müəllim məsələyə necə yanaşır? Özüm danışaram onunla, hörmətli, çəkisi olan şəxsdir.

O, bu fikirlərin qatmaqarışığında yanında laldinməz durmuş Xumara xanımı görməmişdi. Qanrılıb baxanda onun göz yaşlarına acıdı. Ona təsəlli üçün dedi:

– Ağlama, binəsiblərin də Allahı olur. Allah onun cavanlığına bağışlar. – Ağ yaylığını əl çantasından çıxarıb tərini sildi. – Al, üzünə çək, hər şey yaxşı keçər. Yusif müəllimədir ümidimiz.

– Hə, o səhər tezdən xəstəxanaya bu məsələ ilə bağlı getmişdir. – Divardakı saata baxdı. – Gələn

vaxtıdır, operativ insandır, lazımdırsa qapıları döyməkdən çəkinmir. – Aytac başıyla Xumara xanımın sözlərini təsdiqlədi və əlavə elədi:

– Yenə qapalıdır palata? – Xəbər tutmaq istədi. – Adamı şübhəyə salan belə-belə şeylər olur. Biz onu görmək istəyirik. Yusif müəllim deyir ki, mənə onun səhhətilə bağlı zənglər gəlir, müxbirlər informasiya istəyirlər.

– Qəza sindromu da qapalı qalmışdır. – Xumara xanım qayğılı dedi.– Özlərinə lazım gələndə dərhal açılar. Çapay kimdir onlar üçün? Qollarından sallanan rəqqas, ayaqları üstə hərlənən... – Susdu və üzünü yana tutdu, burnunu çəkdi.

– Gözləyək Yusif müəllimi. – Aytac dilləndi və ayrılıb ikinci mərtəbəyə qalxdı.

## 6.

O qadın xarici ölkəyə düşdü, onu bir yerli əcnəbi qarşıladı, rəhbərlik etdiyi labaratoriyanın əməkdaşı idi, magistrantı olmuşdu, elmi rəhbərliyilə dissertasiya işi müdafiə etmişdi. Əvvəlcədən hər ikisi məlumatlı idi. Əri qarşılaya bilməyəcəkdi, təyyarənin enməsi ərinin elmi simpoziomunun plenar iclasına düşmüşdü. Ərindən narazı qalan qadınına pis təsir etməyə bilməzdi və bu hərəkəti özlüyündə “laqeydlik” kimi qiymətləndirdi.

Bu vəkil olmuş adam proqramla mənzilinə gətirdi, yerləşdirdi. Qonaqdan razı qalmışdı, ingiliscə ədəbi dildə danışırdı (O, sonralar elmi rəhbərinə bu üstünlüyü dəfələrlə xatırlatmışdı).Təbii ki, doğma şəhərin kaloriti, mənzilin estetikası, məişət cihazları fərqli görümlərdi, üstün olsa da bəyənmədi, hər şey ona soyuq idi, əl vuranda diksindi, əlini elə bil ilan sancdı.

Axşam "N" şəhərinə düşəndə hər yan yanırdı çil -çıraqdan. Maşınlar siqnal vermədən təsbeh dənələri kimi süzülür, hər addımbaşı dayanmır. İnsanlarla robotların "davranışı"na fərq qoymaq çətindir. Hər addımda – bu cür səciyyələndirsək – yer altına keçidlər görünür, tıxaclar sıx deyil: – Bu qədər maşınların çoxluğuna baxmayaraq sakit axındır. – Qadın təəssüratını pıçıldadı və doğma şəhərilə müqayisə elədi.

Çapay onun yola düşmə günündən xəbərdardı, o gün həkim onun sarğısını açdı, müayinədən keçirdi, hətta iynə vurdu. Çapay iynəyə razılıq vermirdi, amma xəstə ağır halında bir yarpağa da ümid bağlayır. Məsləhətlə üç gün daha gözləməliydi, sonra evə buraxacaqdı. Bəs bu günlərdə Çapayı gözləyən nə olacaqdı? Sual qapalı idi...

Bircə dəfə şəhərə çıxmışdı, dili bilmək kifayət edir yad adamlar üçün. Amma şəhərin doğma insanları yad görünür. Hamı hərəkətdə, harayasa tələsmədə, alış-verişdə və telefonıa danışıqda. Sanki bu nə-

həng şəhərə ancaq küsülüləri çağırmışlar ki, bəlkə barışdılar. Belə davranış cənublular üçün qəribə gəlməyə bilməzdi. Həqiqətən o, darıxmağa başladı.

Mənzildə kirayəniş kimi yaşamışdı həyat yoldaşı. Bu qoşa sözü arabir səsləndirirdi və özünü haqlı sayır, bir neçə ayın davamında: "O, həyat yoldaşımdan çox həyət yoldaşımdır mənim üçün" – düşünmüşdü. Nigarançılığını üzə vurmurdu, hələlik özünü sakit aparırdı. Onun qoşa çarpayıda yatması da əbəs şey idi, xəbərlər, elmi mühitdə baş verən informasiyalar... Ər kimi halal gözəl, qəşəng, cavan qadın kimi yox. Mübaliğəsiz yanaşmadır. Və bu hiss də ona ilk məktubu yazmağa təhrik elədi. Elə bir təəssürat olmasa da. "Çox məhdud vaxtda yazıram. Yad şəhər ilk saatından mənim ruhunu qəbul etmədi, sıxdı. Gələcəyinin heç də yaxşı olmayacağından xəbər verdi, mən belə qərara gəldim, məncə yanılmamışdım. Etiraflarımı inanıram ki, səmimi qəbul edərsən. Səni nə qədər sevdiyimin sirrini aça bilsəydim... Bilməyəcəyəm də... Sənə sevgimdən əvvəlki borcum imiş – vermişəm. Bununla üstümə günahımı yazdım, bu günahımı isə nə yaxşı bir qadın vücudu ilə yox, sevgimi yumaq istədim – sonu nə olacaqsa... Kaş cavanlıq təravətimi sənə bağışlayaydım, o vaxt bu sevgi məni axtarıb tapmazdı, özümü, qaranlıq hislərimi anlayandan sonra başqa çıxış yolum yoxdur. Mənə iyrənc və qorxunc azadlıq lazım deyil, nəyimə gə-

rəkdir. Bu həyat mənim üçün dərin boşluqdur, qoy sənə olan sevgim mənim cənazəm üstə üç ədəd qərənfil kimi qoyulsun: doğuldum, yaşadım, öldüm. Mən mümkün olan sədaqətlə sənə sadiq olacağam, and içməyə hazıram, amma and içəndə şübhə yaranır. Ən böyük and yerim bədənim – ruhum idi, onu səndən əsirgəmədim. Sənin fikirlərinə şərikəm, üzbəüz bəlkə də etirafından çəkinərdin, telefon elə belə şərait üçün icad olunmuşdur! Sənin ailəli qadının ailə işinə, məhəbbətinə (əgər var isə) qarışmağa mənəvi haqqı çatmır – bu hüququ sənə verirəm. Mənim həyatıma qayıdırsansa... suda boğulan saman çöpündən yapışar – mən varlığımda saman çöpündən çox gücsüz idim, sənə rast gələndən qeyri-adi güc və inam hiss etdim özümdə. Mənim sevgiyə ehtiyacım var, həyatına məhəbbət, sevgi qismət olmayan Mən üçün. Kübar cəmiyyətin, onun xanımlarının (hamı üçün şamil deyil) qeyri-əxlaqi davranışları həqiqət, labüdlük kimi qələmə verilir – qoy olsun, onlardan acığım gəlirsə (gəlir), onlara bəzən haqq qazandırıram. Bu sözlərimlə... Sənin xəstə halına çox yanıram, sonunu bəxtin qorusun, şansın qorusun. Məni qınamayın və yelbeyin saymayın. Sənə sevgim, taleyinə nigançılığım başqadır, parçalanmış hissimi bir şüşə qırıntıları kimi yapışdırmaq istəyirəm – bu, mənimçün olacaqdır, lakin yeri qalacaqdır, hisslərimin nəticələrindən taleyin və taleyim səni qorusun...

Bu sözləri qələmə gətirəndə dodaqlarım səyridi, üzümdə qəmgin kədər çırpındı, sinəsindən yara alan zəif quşcuğaz kimi!

Səni heç vaxt qısqanmamışam – zamanın yaxınlığı və uzaqlığı fərq etməz, qısqanclıq bir saniyənin faciəsindən yaranır, ya qadın, ya kişi olsun. Mən qısqanclıqdan yalnız qorxmuşam, qorxacağam da. Mən Çapay üçün qorxuram.

Mən sevgi barədə heç nə bilmirəm, yox, sevgi haqqında hər şeyi bilirəm, ona görə xoşbəxtəm... Mən səndən, sənin həyatından qorxuram, niyə də etiraf etməyim? Çalışacağam sənə yaxşılığım dəysin. Qəlbimin genişliyini qiymətləndirməyi bacaracaqsan. İndi çox uzaqdayam.

Tezliklə yaxınlaşacağam”.

“Qadın...” İmza. Vaxt.

Məktubu mənzilindən qonşusu götürmüşdü dəmir poçt qutusundan. Açarı Çapay etibarlı kişiyə vermişdi. Məktubun üstündə bir neçə xarici ölkənin möhürləri vurulmuşdu. Belə paket – konvertlərdən tez-tez gəlirdi Çapayın ünvanına. Bu adam həm də çox əsəbləşirdi, qonşusuna yoluxa bilmir, səbəbləri məlum: “Qondarma qanunlar, göstərişlər insanları bir-birinə düşmən edir” – çox yerdə deyirdi.

Çapaya axşam həkimlər son qəraralarını verəcəkdi. O, sərt şəkildə bildirdi ki, Yusif Qasımov burada olmalıdır, əks halda palatadan qaçacaqdır. Və

gecə stolüstü lampanın işığında dərin köks ötürdü, təhtəlşüur altında idi. “Mən bir daha hiss etdim ki, ilk gəncliyimdən uzaqlaşmışam, yetkinləşmişəm. Bir zaman sevgimdə dikbaş idim, gözəlliyə aldanan idim. Bütün qüvvəmi sevgim uğrunda iradəmə sərf edəcəyəm, idealımı məhəbbət əyləncələrində axtarmayacağam... Sən onu mənə hədiyyə etdin, gözlərimi açdın, bu işıqlı baxışlarım səni gördü, bilirəm, bu nə sirr?

Bir zaman istəmişdim xoşum gələn qadının göz yaşlarını əllərimlə sığallayım, bir kəlməsini eşidim: “Səni sevirəm, bu sevgim sənin qucağına atdı məni”. Eşitmədim. İndi düşünürəm ki, nə yaxşı belə oldu, nə yaxşı! Ağıllı “ah” çəkmək hələ qadının zəkaya malikliyinə zəmanət vermir, bu, özünə məğlub olmaqdır, kişiylə həmişəlik vidalaşmağa işarədir.

Mən bu murdar palatadan qorxuram, tənhalığım məni ölümə yaxınlaşdırır. Axı ölüm hər bir fərd üçün onunla ilk və son görüşüdür. Unutmayaq ki, ölüm Allahdan gəlir, insanları təqsirkar etmək günahdır.

Həkim – mənim üçün təhkim olunub, insan adamdır, özündə günahkarlıq duyğusunu gizlətməyə çalışır, bu mənə müəmmalı görünür... Yusif müəllim isə çox narahatdır... Məni yaşadan təkcə bioloji dəyərlər deyil, mənəvi-sosial amilləri unutmamalıyıq. Bizdə həkimlər var qabiliyyətlidir, amma xəstə-

xana ruhi baxımdan yox, dərmanlara düçar edir, bıçaqlara yönəldir. İnsan həyatını maşın gözündə görürlər, qoy olsun, məcazi mənada hansısa zamanda oxumuşdum, təəssüf unutmuşam. Romanda yazılıb ki, insan bədəni bir maşındır və ona hesablanmışdır, qurulmuşdur. Bədəndə həyatı rahat buraxın, qoy bu bədən özünü müdafiə eləsin. Ona dərman vasitəsilə mane olmasanız o, özü naminə daha çox iş görər bizim bədənimiz. Müəyyən vaxtacan işləyən saata bənzəyir, saatsaz onu açmağı bacarmaz. Ancaq onu barmaqları ilə yoxlar və gözü bağlı idarə edər...

Məni gözü açıq əməliyyat etmək istəyirlər, elə dərman verirlər yalnız qılçalarım sancır, hey ovuşdururam...

Bunları sənə yazmaya bilməzdim, sonra əgər yaşasam – özümə necə bağışlardım? Mən qürurumu ölümümlə asanlıqla dəyişə bilərəm, sənətimə gərəksiz bədən yalnız leş qiymətində olur. Yaşamağa, səninlə ömür sürməyə həvəsim tükənməzdir. Sənə minnətdaram ki, mənim boş, havasız qəlbimə sevgi havası gətirdin. Mən bəlkə də həyatımı əyləncələrdə itirəcəkdim. Bəlkə həyatını mənə verməyəsən, Öz ömrünü yaşayasan, mən... Bilirəm, varlığımı fəda etmək asan comərdlik deyil, dəbdəbəli cümlələrlə ört-basdır etmək də deyil. Həyatını mənə verəcək(!) bir kübar xanımla fədakarlığım çatmırsa... Mən nə

sənətə, nə valideynlərimə, nə də sənə lazım olmaram!

İndicə tibb bacısı içəri girdi, qısa müddətdə o, mənə mane olmayacağını əlinin işarəsi ilə anlatdı. "Baş həkim palataları gəzir" – deyib, heç bir tapşırıq vermədən otaqdan çıxdı. Palatada "internet" yoxdur, danışmaq imkanım da yoxdur. Görüşmək ümidilə..."

"Kişi". İmza. Vaxt.

## 7.

O qadında güclü fəhm vardı, duymaq hissiyyatı çox hallarda onu "aldatmırdı", tələbə yoldaşları imtahan ərəfəsində soruşurdular: "Necə olacaq? Kəsilərəmmi? Bəs özün necə?" – O isə gülümsünür və astadan qulaqlarına yüksək qiymətlərdən birini "oxuyardı". Bu xatirələr onu danışdırmırdı, ani beynindən çaxdı və ötdü. Budur, xarici ölkədədir, yad bir şəhərdir, alışmağı bacarmır. Əvvəllər ona elə gəlirdi xaricdə yaşamaq bir taledir, gəzib-dolanasan, amma cibin dolu olsun. Bu da fəhmdi, o da haçansa onun qismətinə düşəcəkdir və alındı: pul da var, rahat mənzil də var, əri də var – bəs çatışmayan nədir? Bu sual ortaya düşdü, hər şeyi alt-üst elədi. Dünən gecə yuxudan hövləng oyandı, doğma şəhərində yaşarkən də yuxular görürdü, ən "qorxulu"sunda bal-

kona çıxar, küçələrin səssizliyindən rahatlanar, dan yeri ağaran vaxtı növbəsindən qayıdan yorğun üzlü, tənbəl yerişli adamlar da ona şirin və doğma görünərdi. Bir də küçə süpürən qadınların "fəhlə" niqabında əllərində süpürgə öz işlərində davamına baxar, amma heyfslənərdi onların – bu yaşlı qadınların nəvələrilə yatan vaxtıdır, amma bir parça çörəyi onlardan əsirgəyirlər... Yuxudan ayıldı, pəncərə qırağına keçdi, şəhərin işıq bazarında özünü itirdi, küçələr insan axını ilə səhəri açırdı.

O biri otaqda yumşaq kresloda əyləşdi. Ayağının altında cavan pələng dərisindən "dabanaltı" sərilmişdi. Yumşaq və isti barmaqlarının ucunu qıdığladı. Qəribəsi o idi, pələngin baş dərisi kəsilib atılmamışdı, bütöv vəhşiydi. – Bu da vəhşiliyin son aqibəti. – Qadın pıçıldadı. – Sən neçə-neçə məsum heyvanları parçalamısan, onların balalarını qamarlayıb yemisən gözünün qabağında. – Gözü qarşısına televizorda göstərilən kadrları canlandırdı. – İndi. Bəs duymurdun, bir gün gələcək sənin özün ovçu gülləsinə tuş olacaqsan? Anaları, balaları göz yaşına qərq etməyi Allah sənə bağışlamayacaq? İndi sən, vəhşi pələng zərif və aciz qadının ayaqları altına sərilmisən. – Azca ayağa qalxdı və sol ayağıyla pələngin başını tapdadı. Sanki qulağına qaibana səs gəldi, iniltiyə oxşayırdı, pələng səsiydi, duydu ki, bu cavan pələngin anasıdır, yuxusuna girmişdir. Və fəhminə

inandı! Amma qadını başqa bir aləmin yuxusu oyatmışdı: bu, sevgiydi, yenicə tapdığı, amma uzun illər sorağında olduğu sevgi idi! – Çapayın başında nəsə var. – Pıçıldadı və yenə balkona çıxdı, qərar tutmayıb otağın birinə keçdi, burada əri yazı-pozu işləriylə mışğul olurdu, zəngin elmi kitablar rəflərə sıralanmışdı. Qat-qarışıq kağızlar, qeydlər, çertyojlar səliqəsiz idi. Anasına ilk məktubu burda yazmışdı, ürəyini boşaltmışdı (o, məktub yazmağı xoşlayırdı, böyük şəxsiyyətlərin məktublardan ibarət əsərlərini çox mütaliyə edirdi). Məktub yazmaqdan əvvəl bir "plan" düşünməyə üstünlük verdi. – Bu gün, elə bu gecə yazaram, çətin deyil. Amma... – Ayağa qalxdı, uzun otağın başına keçdi. Küçəyə açılan pəncərədən geniş xiyaban görünürdü. Ağaclar səmadan süzülən qaranlıqda ayılmamışdı, yarpaqlar sakit-sakit xışıldayırdı – quşların yuxusuna mane olmasın. Axı quşlar da yuxu görürlər, heyif danışa bilmirlər, dərdləşə bilmirlər.

Xiyabanın başlanğıcından çay axırdı, hər dəfə yanından ötəndə bu gömgöy sulu çaya ayaq saxlayıb tamaşa eləmişdi. Kiçik yelkənli qayıqlar ağ papaqlı desantlar kimi suyun üzündı yellənirdi. – Yuxumu qarışdıranda... – Əliylə dodağını qapadı, sakit gözlərini qaranlığa zillədi. – Nə üçün bir-birinə sevgi və mərhəmət bəsləyən İnsan "cütlüyü"nü tale qəribə-qəribə oyunlara vadar edir. Məchul və gözəl dünya-

da yaşamağa mane olur, içində iyrənc həşəratlar çapalayan adamları xoşbəxt edir, məgər bərbəzəkli və əxlaqsızlıq hamı üçündür? Mən Çapayı qadın hislərimin vasitəsilə sevdirməmişəm, cinsi məhəbbətdən də uzaq olmuşam.

Bir neçə saniyəlik onun mürgü sızan gözləri qapandı. Çəhrayı rəngə boyanmış səmada günəş şəfəqləri göründü və özlərini çaya çırpdılar, lal çayı diksindirdilər. Ayağının altındakı vəhşi pələng dilini çıxarıb dişlərini yaladı, quyruğunu qılçaları arasına sıxdı və matəmli səslə bağırdı. Başı gicəlləndi, ayaqları altında süründü, çoxdan uyumuş ruhu ayıldı. – Çapayı...– Dilinə gəlmədi dəhşətli sözləri desin: "Öldürəcəklər mənim ucbatımdan!" – Hıçqırdı. – "Mən onun həyatına bəlalı sevgi gətirdim. O güllə mənə atılmalı idi, bacı məhəbbəti qoymaz tüfəng atılsın. Unutmasınlar qadın qisasını".

Əsəbləri və hiddəti qasırğa kimi onun üzərinə hücum elədi: gözlərini kədər basmışdı, göz çuxurlarında baxışları işıldayırdı. Ağ çılpaq baldırları gizildəyirdi. Qarşısı alınmayan ikrah hissi sakitləşmirdi, alnının görünməyən damarları şişmişdi: "Təcili uçmalıyam, bunu hissiyyatım deyir, onu ya..." – Yenə dəhşət saçan kəlmələri pıçıldamağa cəsarət göstərmirdi: "Mən sevgimin təsirinə qapılıb özümə ləkə vurmamışam. Mənim ucbatımdan səadətini itirən bir insanı xilas etməliyəm! Heç zaman kimsəyə əl

açmamışam, bircə sənə". – Hıçqırdı, qəşəng əlləriylə gözlərini qapadı, mum kimi saralmış burnunu sıxdı. Saçları canı çıxmış otlar kimi qurumuşdu. "Səhər mən orda olmalıyam".

Vanna otağına keçib yuyundu, ərindən xahiş etməliydi anasını yuxuda pis görmüşdür, ərinin kritik hallarda təcili uçmaq üstünlüyü vardı. – O, etiraz etməyəcəkdir. Məktuba ehtiyac qalmır, – düşündü və saata baxdı. Saatyarım yataqda uzana bilərdi, ürəyi sakitləşərdi.

Çarpayıda gecə köynəyində oturdu, əllərini dizləri üstə çarpazladı, ona elə gəldi üzü birdən-birə qırışdı və iztirab ifadə etdi.

Uzun, aydın şüşəli pəncərədən bayıra, səmaya baxışlarını dikdi: ulduzların şövqü artmışdı, səhərə az qalırdı, günəş boylanacaqdı, üfüq qızaracaqdı. Şeh düşmüş xiyaban şəfəqlə işıqlanacaqdı, quşlar oyanacaqdı, birinci dəcəl qaratoyuqlar işinə başlayacaqdı, onların səsinə sərçələr dağılışacaqdı.

Çox keçmədi tirtək işıq fəcri saçdı, qaranlığa sancıldı.

**– 0 –**

... Qadın limandan "taksi"yə oturub birbaşa ata evinə gəldi, anası heyrətindən donub qalmışdı, sual vermək üçün bir səbəb tapa bilmirdi, onu dedi ki, qı-

zım, xeyirdimi? Və “Yox” cavabını alanda ananın dizləri büküldü, əlləri qoynunda qaldı.

– O top kimidir. – Könülsüz dilləndi. – Səni yuxuda pis görmüşəm. – uydurdu və pörtdü, açıq qapılı otaqdan yovşan iyi burnuna dəydi. Qeyri-müəyyən (əslində müəyyən) fikirləri özündən uzaqlaşdırmaq istədi. Hələ məsələ qaranlıq idi. Tərləmiş alnını yaylıqla sildi. Anasına qızı buradakından daha solğun görünürdü, azca arıqlamışdı, ancaq gözləri parlaqdı. Ana öskürəyini boğmaq üçün üz-gözünü qırışdırdı:

– Boş-boşuna gəlməzsən, qızım, – deyib çay hazırlığına başladı.

Süzülən bulanıq gözlərini əllərinin arxası ilə ovxaladı.

Gecənin ayazmış havasında narahat yatmışdı, oğlunun təcili ezamiyyətə yola düşməsi bir səbəbdi, budur, ana duyumu: qızının qəfil gəlişi. Üzündə narazılıq ifadə olunurdu, qızına bu ovqat bəlliydi. Bəlkə də fəhm ona anasının südü ilə keçmişdi.

Qadın açıq qapılı otağa bir-iki addım yaxınlaşdı, yovşan qoxusunu doyunca uddu, balkona açılan ensiz qapının ağzında dayandı, səmaya ütü çəkilmişdi, bir parça bulud göy üzündə şapalaq yeri kimi qalırdı. Dənizin üstünə enmiş buludlar sağılmışdı, əmcəkləri boşalmışdı, küləyi təmizdəmək halında deyildi. Üzü cənuba üz tutmuşdu. Varlığında baş-başa dayanan ziddiyyətlər, çəkilən şübhələr – yaxşılıqla qurta-

racaqmı? – Qadını bu sual tutdu, yumşaq barmağına keçirmiş üzüyü fırlatdı, yeri qaşındı. Həddini aşan ana məhəbbəti onu kövrəltmişdi və hələlik ona heç bir söz deməməyə qərar vermişdi qəlbi...

Ana keyimiş halda:

– Evdəsən yəqin, – soruşdu və qapıya sarı irəlilədi. – Bazara dəyim, çoxdan yemədiyin döşəmə aş bişirim. – Ananın yaşarmış gözləri parladı və qapının açarını burdu.

– Hələlik. Çay dəmlidi, – deyib çıxdı.

Qadın tərəddüd içində duruxdu və qərarına düzəliş vermək istədi, amma bir səbəb tapmadı, qəribə təbəssümlə gülümsədi, səsi içində titrədi. Bu təbəssüm sevincdən deyildi, misgin oyanış idi, dərhal da silindi. – Xəstəxananın əlaqə nömrəsi var dəftərçəmdə. Amma palatada olması şübhəlidir, bəlkə də evə buraxılıb, bəlkə də? – Suala dəqiq cavab ağır gəldi ona. İntizar alovu onun üzündən çəkilməmişdi. Yeganə nicatı günahını yumaq olacaqdı, həm də sevgisini xilas edəcəkdi. Barmaqları ixtiyarsız nömrələri yığdı, kişi səsi uğuldadı, həlim səs idi.

Qadın palatanın nömrəsini və orada yatanın adını dilinə gətirmək istədi, lakin: "Məşhur rəqqasdır" – deməyə üstünlük verdi.

– Siz xanım, məşhur rəqqasımı soruşursunuz? – Ani pauza yarandı, bu vaxt sanki bir günün susqunluğu idi. – Dünən evə buraxıldı, səs tamamilə kəsildi.

Qızın üzgün sifəti kəsəyə döndü, qəlbi od vurulmuş xırman kimi boş qalmışdı, orda-burda tüstü çıxırdı. Qaralmış şüurunda heç bir oyanış yox idi, onun yerini qisas və intizar tuturdu, halbuki, orada sevgi və səadət baş qaldırmalı idi. Həm də anası üçün ağır mühit yaradacaqdı.

Qadın qəlbini sıxan kədər – intizar içində yerini dəyişdi: "Eşitmişdim qardaşların bacılardan keçəcəyi olmur, amma bilməzdim qardaş bacısını qarət etsin" – fikrindən ötürdü, qənaətinin təzyiqi altında ürəyini tutdu.

**8.**

Çapayın evə gəlməsindən bir gün əvvəl anası oğlunu gözləyirdi. Ananın halını təsvir etməyə ehtiyac görmürəm. İlk qapısını açan kollektivi oldu, başda Yusif Qasımov olmaqla, çox oturmadılar, bir stəkan çaya qonaq oldular. Ağlamsınanlar elə əyləşmişdi Çapay onları görməsin. Xumara xanımla Aytacın gözləri Çapayda idi. Çapayın başında, indiki durumu, qüvvətli ayağı zəifləmişdi, bu vəziyyət tamamilə gözlənilməzdi, taleyin haqsız qərarı idi. Bu, Çapayın mənəvi qüvvəsini sınağa çəkmək deyildi. Canlı meyidin görünüşünə bənzəyirdi. Sifəti azca şişmişdi, burnu qızarmışdı, saçlarına daraq çəkilməmişdi. Amma özünü toxt tutmaq istəyirdi, iradəsini

və əzəmətini daxili qüvvəsində cəmləşdirmişdi. Danışığı eşidir, şüurunda ölçüb-biçir, bu macəranın sonunu görmək istəmirdi. Bulanıq gözlərini bayırdan çəkmirdi, ancaq səmanın rənginə aldanmırdı. Bəzən qeyri-ixtiyari divarları, şəkilləri süzür, hər bir tablonun haradan aldığını, hansı rəssamın ona bağışladığını xatırlayırdı. Ona canlı görünən o idi, özünü xəstə hesab etmir, qəzanın ağır nəticəsindən salamat qalmasını Allahın ona hədiyyəsi kimi təsəvvür edir, ayaqları şükürlər ki, cuzi zədələnmişdir – təsəllisi belə idi, eyni zamanda Allahın onu haqlı cəzalandırdığına da haqq qazandırırdı: kəbinli qadınla əlaqəsinin olduğunu etiraf edirdi: "Yaramaz idi hərəkətim, telefon danışığım, formal görüşlərim, mənim hisslərimi yerindən oynatdı, sevgimi – gizli şeyi içimə saldı, vəziyyəti düşünmək iqtidarımı itirdim" – ürəyində neçə dəfə dolandırdı: O, qadındır, hər halda iradəsi tab gətirmədi, "mənim ömrümü təxmini yaşayırmış" – dərman qoxusundan öskürdü, oxuyur və yorulub beş-on dəqiqə mürgüləyirdi. Hissləri yaşadığı həyat xülyalarına qalib gəlmişdi, iztirab çəkən qadınlar qarşısında öyünməmişdi, üstünlüyünü gözə soxmamışdı. Lakin Aytaclar kimi qızlara ehtiyaclı olduğunu özündən gizlətməmişdi. Və buna ehtiyac duymamışdı. Nəhayət, vuruş cəbhəsinə atdı özünü – meydanı qiymətləndirmədən. İndi qəlbini sıxan əzab – ölümün heç də ondan uzaq dayanmadığına

inanmalı idi. Daima şöhrətə, ad-sana meylilik göstərən həmin Çapay kimi sakitlik istəyirdi, sevgi payı umurdu, onun üçün iztirab çəksinlər. Halbuki, sağlam vaxtı bunlara daha çox ehtiyacı vardı, bəs bu gün?

Çapay divardan boş otağa tərəf çevrildi, qoşa yastığın birini (anası bu gəlişində gətirmişdi) götürüb sol böyrünə dirədi. O, əvvəlki əzəmətinə qayıdır, amansız canüzücü halını bərpa etmək istəyirdi. Çoxmu buna nail olacaqdı? Hadisələr və gedişatlar ağırlığı ilə onu rahat buraxmırdı, həkimin yerli-yersiz ona yoluxmasından əvvəllər utanırdı, sonralar nifrət etməyə başladı: "Bunlar məndə nə görüblər axı? Bir rəqqas üçün bu qədər canfəşanlıq?" – düşüncəsinə aydınlıq gətirdi. Bu qənaətini bircə dəfə Yusif müəllimə açmaq istəmişdisə, daşınmışdı: "Bu cəza qalmaqalında yaranan mühitin iştirakçıları nə düşünür?" – Bayaqkı fikrinə gəldi: "Adi bir rəqqasın bu dərəcədə yaxşılığa nə ehtiyacı?" Belə düşüncələrin məqamında ümumi həkim otağına girdi, salamdan sonra Çapayın çarpayısı yanında oturdu, əlindəki qəzetlərdən hansını oxumaq istədiyini soruşanda o, birini seçdi və ona verilməsini istədi. Həkim başqa qəzeti də qoşub tumbuçkasının üstünə qoydu:

– Qəzetdən bir müxbir sizdən müsahibə almaq üçün gəlmək istəyir, – deyib gülümsündü.

– Hələlik ehtiyac görmürəm, ağrıyıram, – deyib qaşlarını yığdı və məsələ bununla tamamlandı.

İnsan həyatda nə hərəkət etdiyini şüurlu başa düşməlidir və “bütövün” içindən “kiçiyini” unutmamalıdır: atdığı addımın nə məqsəd daşıdığını bilməlidir. Yad bir qadın ona hansı baxımdan zövq verməlidir və bu şəhvanilik onun üçün zəruridirmi, ehtiyacıdırmı və kişiyə nəyi vəd edir. Deməli, “bu bütövün”, “vahidin” içərisindəki nəsnəni özbaşına buraxmaq olmaz, insan öz hissiyyatını cilova sala bilməyəndə arası kəsilməyən fəsadlar daima onu izləyir. Çapayın təsəvvürüncə şəxsi zövq üçün kişinin, yaxud qadının həyat tərzi vasitəsilə fərəhə çatdırır. İlahi nemət – erotika – ali müdriklik şəxsi xidmətdən asılı olmur, əgər əxlaqın qanunlarına tabedirsə, əks halda, hər iki oyundaşı üçün xəyanət sayılır, fərəhə, şəhvət zövqünə nail olmaq “xeyirxah əməllərdir” – deyənlər yanılmırlar. Ortada sevgi olmalıdır, bu sevgi fəzilətlər üzərində qurulmalıdır, zorakılığa əsaslanmamalıdır. Belə olanda şəhvət hissinə nailolma əxlaqın bir elementinə çevrilir, günah axtarma, qarşılıqlı sevgi nemətdir, dünyaya övlad gətirməkdir. Ona görə də qadın və kişinin intim münasibəti ilahiliyə yönəlir, məhəbbətdə toxdayır. Burada nə kişi, nə də qadın xudbin hərəkətə yol verməməlidir, qürurunu və təkəbbürünü gözə soxmamalıdır.

Çapay gözünü açdı, otağın qaranlığı çəkildi, amma əzab – intizar hələ sürünüb çıxmamışdı. Qarşısında anası dayanmışdı, ona başı ilə işarə elədi ki,

gecdir, get yat, səhər erkən oyanırsan. Ana oğluna hansı ki çarpayıda dikəlib oturmuşdu – Onun gözlərində Çapay daha uca idi, qolları sağa və sola qartal qanadları kimi açılır, səmada süzürdü. Üzü məsumluğunu itirməmişdi, ülgüc çəkilməmişdi.

Köksü asta-asta qalxıb enirdi. Baxışları iti və istiydi, arabir gülümsünürdü. Bu sevinc çox sürmürdü. Həkim özünü Çapaya həmişə mehriban göstərməyə adət eləmişdi və bu təəssüratdan süni-istifadəyə arxayın olmuşdu.

– Çapay, – astadan demiş – əməliyyat yalnız sənin ayaqlarını xilas etmək üçündür. – Baş həkimin proqnozudur, bu adamı xilas etməliyik – daima bu sözləri təkrarlayır. Bədəninin sağlamlığı əməliyyatın uğuruna zəmanət verir.

Bihuşdarın təsir dozası aşağıdır, hətta bir dişi çıxarmaq lazımdırsa bihuşdarı iynə əvəzləyir.

– Dediklərini, doktor, musiqi də əvəz edər. – Çapay əlavəsini dedi. – Mənim sənətim elə başdan-ayağa musiqi deyilmi?

Həkim üzünü o biri həkimlərə – onların biri qadın idi – tutdu ki, öz fikirlərini eşitdirsinlər, yalnız baş həkim cavab verdi:

– Musiqi musiqiçiyə, sənətçi olanlara aid olmur, Çapay bəy. – Xələtinin qatlamış varatnikini düzəltdi, sığalladı ki ütüsü pozulmasın. – Bir balaca özünə gələndə televizorda hətta solo rəqsinə baxacaqsan!

Əldə etmişik, daxili studiyamızda hazırlanmışdır. Siz böyük rəqqassız, təsadüfi səslənmir ki, rəqqas Mahmud Esenbayevlə müqayisə edilir.

Çapay bu ismi eşitcək güldü, istehza dolu gözlərini baş həkimə dikdi:

– Bilməmişəm, siz mənə belə əzəmətli qiymət verirsiz, – deyib yerində qurcundu. – Bu, sizin qiymətləndirməniz olar! – Əlini baş həkimə uzatdı. – Təklifinizin mətləbə dəxli yoxdur, ancaq nə edim bıçaq siz həkimlərin əlindədir!

Bu sözlərdən həkimlərin üçü də sarsıldı, özlərini o yerə qoymadı. Yalnız qadın həkim beş-altı addım onlardan uzaqlaşdı və üzünü pəncərəyə çevirdi. Ağacları yel – külək tutmurdu, yarpaqlar asta-asta öz ətalətləri hesabına yellənirdi. Quşlardan soraq yox idi. Sahənin kiçik yerində bağça salınmışdı, hər cür güllər əkilmişdi. Vaxt olcaq qadın həkimlərdən bağçaya düşənlər vardı, biri də həkimin özüydü, operasiyaya gələndə ürəyindən keçmişdi bu qızılgüllərdən qoparsın, Çapay üçün gətirsin. Çoxdan ürəyində dolanan bu təşəbbüsü həyata keçirə bilməmişdi. Amma bircə bu gün peşimanladı.

Əməliyyat otağı üç idi, həmişə hazır olurdu, yaşı – təxminən əlli olardı – məşhur olmayan şair də yatırdı palatanın qonşuluğunda. Bir dəfə Çapayın palatasına gəlmişdi, səbəbini dedi ki, böyük rəqqas – şairlər təntənəli söz deməkdə mahir olurlar – sənin

üçün bir şeir yazmışam. Yanında oxumuram, sənə əlyazmamı bağışlayaram. Vaxt gələr, toyunda oxuyaram. – Sözlərdən Çapay təsirləndi.

Şairlə dünən dəhlizdə görüşdülər, palataya gəlirdi, amma ehtiyac qalmadı. – Birisigün sağ qolumdan operasiya olunacağam. – Nikbin dedi bu xəbəri. – Bir şey olarsa solaxay da yazaram, müəllimimiz alışdırmışdı, bərayi – ehtiyat.

Çapay xəbəri ürəyincə qarşılamadı, bir-iki ruhlandırıcı kəlmə işlətdi, eyni günə düşdüyünü də çatdırdı:

– O gün, ancaq saatı bəlli deyil, ayağımı əməliyyat gözləyir. – Bu sözlərdən şairin ovqatı kövrəldi, fikrə getdi, gözləri uzaq nöqtəyə uçdu.

Çapay uzaqlaşdı, vaxtı vardı, operatorların başı televiziyanın quraşdırılmasına qarışmışdı, qulağı nazik arakəsməli operasiya otağında idi; Səsi şairin eşidilirdi, həkimlər bir şeyə aldanmışdılar: Çapayı arxayınlaşdırmaq, onu ruhlandırmaq, yüksək peşəkarlığı nümayiş etdirmək məqsədilə şairin əməliyyat stolunu, xüsusilə, şairi bütöv fonda rejissor ekrana verməliydi. Məsələ bunda idi, həkim heyyəti palatada gəzib-dolaşan ən xırda detala belə həssas yanaşan şairin satirik şeirlərindən tamamilə xəbərsizdilər. Şairin özü isə özünü təqdim etməyi məqsədəuyğun saymamışdı...

Çapayın hələ beş-on dəqiqə vaxtı qalmışdı, ruhən hazırlaşmağı qət eləmişdi. Ekranda görünən və eşidilən səs: – Uffff. – Ağır iynə oldu bu! – Həkimə dedi. Onun üzü göründü, dişini dodaqlarına qıcamışdı, dartınmaq istədi, səy göstərmədi. Bir feldşer şairə – xəstəyə yaxınlaşdı, sakitliyə çağırdı.

– Şeir yazanlar dözümlü olur axı!

– Dözümlü olmuşuq ki, iynənin yerini dəyişik salırsız. Vurduğunuz iynə qolum üçün deyil. – Həkimə hirsləndi və sol əlini qaldırdı. – Bu barmaqlarımla da şeir yazıram! – O, yenə dartınmaq istədi, bu dəfə təşəbbüs də oldu, ancaq taqəti çatmamışdı. Və yuxu onu apardı. Ekranı toranlıq aldı.

Qadın həkim Çapaya yaxınlaşdı, əyilmiş başını düzəltdi, yuxarıdan sağ ayağına toxundu, solu da sağa yaxınlaşdırdı və ah çəkdi, əlini sinəsinə apardı. Baş həkim onu yanına çağırdı, o isə yenə pəncərəyə söykəndi, bağçaya nəzərlərini yönəltdi. Səhərki güllərdən elə də əsər qalmamışdı, solmuşdu ləçəkləri, budaqları əyilmişdi, gülləri saxlamaqda çətinlik çəkirdi.

Çapay baxışlarını ekrandan çəkdi, keçmiş günləri, O qadının harada olduğunu – xaricə ərinin yanına getdiyini – huşu itməmişdi, yaddaşında daha çoxdan olmuş hadisələr, xoşbəxt günlər qalmışdı, xatirələrin canlanmasında şüur daha möhkəm olur: Uşaqlığı, anasının dalısınca necə ürəklə ağladığını,

Bakı illərini... O qadınla keçirdiyi o xoş və məşum gecəni yenidən yaşamaq istədi. Bu dəqiqələrində xoşbəxt idi və qeyri-ixtiyari ayaqlarını tərpətdi, yerində idi. Gözlərini qapadı, bədəni keyləşirdi, bu ağır dəqiqələrində qulaqlarına səs gəldi. O qadın qaça-qaça ona tərəf tuşlanmışdı, arxasınca qara paltarlı kişi ona çatmağa çalışırdı. Çatacaqdımı?

Çapay səsin içindəki sözləri eşidirdi: "Gözləyin, tələsməyin, qatillər! Özümü çatdırıram! Çapay, nə üçün susursan, nə üçün stoldan sürüşüb mənə sarı qaçmırsan. Qaç, qaç, məni də xilas elə!" Və səs doğrandı, qırmızı rəngə qarışdı. Çapay bu səsi eşidib ağlamaq istəyirdi, axı o, şöhrətə indi-indi irəliləyirdi, onun ən pik vaxtı idi, bu şöhrətin sevincində öz sevgisini tapmışdı...

Gecə uzanırdı. Anası daş kimi yatmışdı. Yorğunluqdan yox, fikirdən idi...

Çapay daha dəhşətli düşüncələrə yar olmuşdu. Əlini sevdiyi qadından üzmüşdü, onu qınamırdı, Bakıda deyildi...

Bu dəhşətli xülyamı, həqiqətmi – nədən xəbər gətirirdi: o, təntənəli və maraqlı ömrünü yaşayırdı, neçə illərdi xürrəm gəncliyi onunla addım atmışdı, sağlam bədən, ayıq baş bəxş etmişdi. Seçdiyi peşəsində yanılmamışdı, əksinə, uğurlar qazanmışdı. Bunlar da onun həyatsevərliyini tamamlamışdı. Kənddən arxayın idi, anası atasının iştirakçısı oldu-

ğu Vətən müharibəsindən sonra Kolxoz təsərrüfatında çalışmışdı, məşhur pambıqçı olmuşdu. Müharibədə baldırından aldığı asqol – qəlpəni uzun illər daşımışdı. Dəfələrlə baldırını kəsmək təşəbbüsündə haqlı idilər – kişini yaşatmaq istəyirdilər. Razılaşmadı, fəsada çevirdi düşmən qəlpəsini və bir gün ata dünyasını dəyişdi. Onun təqaüdü yetərliydi və həyat yoldaşına – anasına əta elədi hökumət. Ata vüqarını, əzəmətini ölümə tabe eləmədi. Ölümə üstünlük verdi. Bu zəhərli fenomenin adı Ölümdür! Düşünməyə dəyər: Ölüm – müəmmasını açan olmuşmu? Ən kamil və müdrik insanlar öz ölümünü qabaqcadan duymuş, amma səbəbini açmaqda aciz qalmışdır. Məhəmməd Vin Xab Əl Kürazi nəql edir ki, bir zamanlar Ömər bin Əbdüləzizlə Mədineyi – Münəvvərrədə qarşılaşmışdım. O bığ yeri yenicə tərləmiş gənc idi, bolluq içində yaşayırdı. Daha sonra xəlifə oldu və yanına getdim. İzn istəyib içəri keçdim. Onu görəndə təəccübləndim, üzünə mat-mat baxdım. O, mənə: – Ey Məhəmməd, nə üçün hələ heyrətlə nəzər yetirirsən? – dedi.

Mən ona: – Ey möminlərin əmiri, rənginiz solmuş, bədəniniz taqətdən düşmüş, saçlarınız ağarmışdır, dişləriniz tökülmüşdür. Sizi bu halda görəndə heyrətimi gizlətməyi bacarmadım, – dedim.

Ömər bin Əbdüləziz mənə üzün tutub dedi:

– Ey Məhəmməd, məni qəbrə qoyulandan üç gün sonra görsən kim bilər nə qədər təəccüblənəcəksən? O zaman qarışqalar gözlərimi çıxarmış, gözlərim yanaqlarımın üzərinə axmış, burnum çınqılla dolmuş olacaq. Məhz o zaman məni heç kəs tanımaz, daha çox heyrətlənərsən. İndi bunları bir kənara qoy və sən mənə İbn Abbas Rəsullahın hədisini təkrar elə: – İnsan öncə öz aqibətini anlamalıdır: Son nəfəsi necə alacaq, qəbir həyatında nələrlə qarşılaşacaq? Axirətdə hansı məqamda olacaq? İnsan üçün ən məchullar bunlardır, yəni qundaq ilə tabut arasındakı məsafənin sirrini bu dünyaya gəlişi və buradan da axirətə gor eləməsinin hikmətini qavraya bilməz...

Yer üzündə yaşayan hər kəs fanidir, yəni ölümə məhkumdur.

Dünyanı iki qapılı evə bənzədirik, saysız insanlar gəlir və gedir, dolur və boşalır. İndi o insanlar haradadır? Bir müddətdən sonra biz harada məskunlaşacağıq? Bilən yoxdur, ancaq o, bəllidir ki, zalimlərə də, məzlumlara da əbədi həyatın başlanğıcı olan qiyamət bizi gözləyir.

Təsəvvürə gətirək ki, üzərində ayaq döydüyümüz bu Yer bu günümüzə qədər gələn milyardlarla insanın torpağa kömülmüş cəsədi ilə doludur, elə bil üst-üstə düşmüş qatı kölgələrdir. Sabah biz də torpağın bağrına əməllərimizlə basdırılacaq və bu sıx kölgənin qucağında süzüləcəyik. Sonra əbədi bir həyat, sonsuzluğa səfər başlayacaq. Şair Aşıq Paşa yazıbdır:

***Nazərin bu ömrümüz, bir göz yumub***
***açmış kimi,***
***Gəldi keçdi, duymadıq, bir quş qonub***
***uçmuş kimi.***

İnsan Dünya ilə bağlılığının kəsildiyini, xeyir, yaxud şər iş görmüşsə – hər ikisilə baş-başa qalacaqdır. Əməllərinin əvəzini təsəvvüründə canlandırdıqda günahlardan uzaqlaşır, saleh işlərə daha çox meyl göstərir, daha doğrusu, ölümü idrak etmək şüurlanmağa, həyata dürüst və nizam-intizamla yanaşmağa, axirəti gözəlləşdirməyə səbəb olur.

Biz insanlar heyif ki, Ölümü nadir hallarda, doğma – yaxın adamı məzarıstana yola salanda xatırlayırıq – gizlətməyək. Halbuki, biz ölümə hazır olmalıyıq, ölümü xatırlamaqla günahlardan təmizlənməliyik. Əgər biz zəngin ikən ölümümzü düşünsək, bu bəlalardan bizi qoruyar, həyatımızdan razı qaldığımıza inandırar.

İnsan üçün ən mühüm sınaq, ən ağır bəla ölümdür, amma bundan da pis olanı ölümündən xəbərsiz yaşamaqdır, yaddaşından silməkdir, haqqa layiq əməllərdən kənarda durmaqdır. Ağıl sahiblərinə lazım olan isə Ölüm gəlməzdən əvvəl ona hazırlanmaqdır, nəfsini bəd əxlaqdan təmizləməkdir.

Şeyx Sədi yazmışdır ki, ey qardaş, axırda torpaq olacaqsan, torpaq olmaqdan torpaq kimi təvazökar olmağa çalış.

Çapayın gözünə yuxu getmir, anasının bərk yuxuya getməsindən istifadə edib otaqda taytıyır, ayrıca kiçik yazı masasında qalaqlanmış, pərakəndə hala düşmüş vərəqləri, kitabları, karandaşları, teatr rəssamının çəkdiyi rəqs eskizlərini və sair şeyləri yad adam kimi nəzərdən keçirirdi. Topuqdan dizinə qədər yer keyləşmişdi, əlini toxundurcaq elə bil kəsirdilər. Ayaq barmaqlarından ikisinin yeri boş qalmışdı. – Mənim deyəsən ayaqlarım, – öskürəkdən fışqırdı səsi və hecalar sözlərdən ayrıldı, elə bil qarışqaların yuvasına çöp soxmuşdu dəcəl uşaq. – Sol ayağı sızıldadı. – Bu ayağımı da... – Yenə çarpayıya qayıtdı, qərar tutmadı, masaya gəlib nəyisə axtardı, huşunu topladı. – Məktubu hara qoydum? Romanın arasındadır, – pıçıldadı və kitabı tapdı, qadının məktubu vərəqlərin arasında idi. Düşündü: – Oxuyummu? Bəlkə cırıb atım bizim sevgimizdən xəbər tutmayım? O, ərli qadındır! – Fikirlər onu sıxır, rahat buraxmırdı. – Ax o günlər, qastrollar, uzaq səfər gözləyirdi bizi... Solo konsertə hazırlaşırdıq üçlüklə: Aytac, Xumara, Mən. Həvəslə məşq edirdik. – Özünü ələ almağa çalışırdı, iradəsini toplamaq istəyirdi, bacarmırdı.

Çapay cavandı, amma çox çətinliklərlə üz-üzə qalmışdı, sonra həyat onun üzünə gülmüşdü, zövqlər səltənətinə tullamışdı. Toy – şənliklərdə ondan rəqs istəyirdi doğmaları, dostları. Və hər şeyi unu-

durdu, onun üçün rəqsin oyatdığı sevgi lazım idi. Ona eşq elan edən qızlar da az olmurdu, axı subay idi, “Subaylıq sultanlıq” deyilmi? Hanı o sultanlıq, onun bir qanadı qırılmışdır, tək qanadla uçmaq olarmı? Bu sultanlıq da nəhayət, öz sevgisini tapdı, ancaq?

Çapay fikirləşirdi palatada, onun ağ çarpayısında. Onu da düşünürdü böyük risqə gedir sevgisində: ərli qadını sevmək böyük cəsarətdir və özünə haqq qazandırırdı: – Əsl sevgi belə gəlir ürəyə, sonrası yayılır bədənə – ruha. – Özünü cilovlaya bilmədi və masa arxasından qalxıb balkona çıxdı.

Səhərə qalırdı, ulduzlar təkəm – seyrək ağ kəpənək kimi uçuşurdu. Ayı itirmişdilər, bəlkə də axtarırdılar. Qara lentə bənzər buludları hava qayçılayırdı, bir parçası dənizə süzülürdü, bu balkonda tənha oturub səhərin fəcrini gözləmişdi, sonra divana söykənib günün “planlar”ını xatırlamışdı.

Çapayı hıçqırıq aldı, məktub əlində idi, bu ürək parçasını haraya qoyacağını, yaxud harada gizlədəcəyini qərarlaşdıra bilməmişdi. – Ax, onu görmək istəyirəm, o, əlaqəni də kəsdi, qınamıram, ixtiyarı özündə olsaydı. Amma cəsarətlidir. – Çapay beləcə köks ötürür, ya ürəyində, ya da aşkar danışırdı. Suallar çıxırdı ortaya, cavabları özünü qane etmirdi.

Çapay anası yatan otağın qapısını ehmalca araladı, anası sakitcə yatmışdı. Ətsiz sinəsi enib-qalxır,

üzünün qırışları səyriyirdi. Dümağ saçları başına bağladığı ləçəyindən çıxıb alnında düyünlənmişdi.

– Ana! – Bu səs dilində səsləndi, ürəyində çırpındığından böyük vücudu titrədi, sarsıldı və tab gətirməyib geriyə, öz otağına döndü, çarpayıya birtəhər özünü atdı, sağ ayağının altına balış qoydu, azca ağrısı toxdadı. Və yenə:

– Ana, səni kimin ümidinə... – Sözünü tamamlaya bilmədi.

Anası yatdığı otaqda çarpayı cırıldadı. Döşəməyə dəyən ayaqların tappıltısını qulağı aldı. Səs ona yaxınlaşırdı. O, dərhal gözlərini yumdu, sifətindəki gərginliyi yumşaltdı. Anası öz qədərində kənarda dayandı, oğlunu süzdü, arxayıncasına astadan dedi:

– Hə, balam yatıb, ağrıları kəsilib. Yat, oğlum!. Tanrı səni bəlalardan qorusun. Və geri qayıtdı, çarpayı cırıldadı, nə axtarırdı – əvvəl kəsdirə bilmədi, duruxdu, yaddaşını oyatdı:

– Mən bu gözə qoymuşdum. – Susdu. – Kimsə vermişdi, xatırlaya bilmədi. – Susdu. – Yox, özüm almışdım. Nə məqsədlə? – Susdu. – Bunun nə dəxli. Öz əlimlə almışam, aptekçi qız üzümə hörmətlə baxmışdı, sözünü boğmadı: “Cavan oğlan, nəyinizə lazımdır bu?” demişdi. Mən: “Sizin nəyinizə lazımdır?” Cavab vermişdi. – O, təkidindən dönmədi: “Mən, əvvələn, həkiməm. İkincisi, nəyi kimə satdığımla maraqlanmalıyam – öyrənmək səbbələrin nə

ziyanı?” –Hə, axırı aldım. Həmin aptekə yolumu o cavan xanıma görə salırdım, onun məni sorğu-suala tutması xoşuma gəlmişdi. O, məni görüb birbaşa suala tutdu: “Siz hələ o dərmandan dadmamısız? Daha o dərmana qadağa qoyublar! Sonralar televiziyada baxanda, arabir sizi rəqs edən görürəm. Barənizdə bir verilişə təsadüfən baxmışam”.

Aptekçi xanım bu dəfə məmnunluq ifadə edən gözlərini Çapaya zillədi: – “İndi hansı dərman lazımdır? – Xəbər alıb həmən təbəssümlə ağ xalatının yaxasını bağladı, sarışın saçlarını geriyə yığdı.

– Heç nə, – Çapay cavab verdi. – Sizi görmək istədim. İlk “mübahisəmizi” xatırladım.

Çapay darıxdı, əlini rəfin gözünün sonunacan apardı, həbi çıxartdı. O, birtəhər stolun arxasında otura bildi, bədəni ağrıdan daha çox kəsilib kənara atılmış, hələ soyumamış, damarlarında qanı qurumamış ət parçası idi. Ayaqları stolun altında sanki buza qoyulmuşdu, hələlik başı işləyirdi, ancaq xatirələri üçün idi: Bir şeyi, yaxud olayın ilk təəsüratının verdiyi qəribə və həyəcanlı hissi bir dəfə də olsa yaşamışdır. İnsanda əsrarəngiz hissiyyat yaratmışdır, sadəcə, bir hissdirmi? Yoxsa narahatçılıq doğuran bir ana bənzəmirmi, xatirələr hey vurnuxur, danışmaq üçün dilinin ucuna gəlir. Keçmişini yaşayan bir adam divarın o tərəfində nə görəcəyini təxmin edən insandan daha aydın təsəvvüründə canlandıran de-

yil. Lakin "çoxdan olmuş"u xatirələrə bağlaması bənzərliyin əsas açarıdır, bu qapı açılandan sonra isə... Xatirəni yaşamadan, onun həsrətini çəkmədən sevdiyin bir qadının siması. Görüşdüyün məkan, kövrək söhbət.

Çapay gözlərini vərəqdən çəkdi, pəncərədən qaranlıqla baxışdı: – Qabaqkı olmuşları, görüşlərimi şüurlu xatırlamaqda çətinlik çəkirəm. – Mızıldadı. – Şüurum gördüyüm bənzərliyin fərqindədir, bu, qabaqcadan hiss etdiyim narahatlıq, iztirab və bəd fikirlərin nəticəsidir. O, qərar tutmur: – Sevgimin bir alətidir, bir-birimizə aşıq olduğumuz haldır, mənimçin sarsıdıcıdır. – Ruçkanı vərəqin üstünə qoydu, dizindən aşağı iti və kəskin ağrını yumşaltmaq üçün ovuşdurdu. Əsəblərini cilovlaya bilmədi, anası olmasaydı səsini ucaldardı, bəlkə iniltisində ağrısını unudardı. Bu da çarə olmayacaqdı.

– Səhəri açmaq? Məni görməyə gələnlərin qarşısında bükülüb bir uşaq cismində? Mən Çapayam axı.

Vərəqi qabağına dartdı, ruçka barmaqları arasında sözə baxmırdı, lakin ürəyini deşən sözlərini ağ vərəqə köçürməliydi.

Çapay xatirələrdən artıq usanmışdı, dərmanın gücsüzlüyünə nifrət edirdi, həm də mat-məəttəl qalmışdı, axı zəifləmiş bədənə, zədələnmiş ayağa gücü çatmırmı? Yoxsa O qadının duvasıdır məni...

Daha bir söz ağzında oyanmadı, nə deyəcəkdi, yazacaqdı: "Mən daha yaşamaqdan bezdim". – Çapay unutdu ki məktubu kimə ünvanlamışdır? Sonra bir-iki cümlə tarixləşdirilir, cinayət maddələri açılır. Və "Q" hərfini, bir isim kimi yazmağı qərarlaşdırdı. – Ad məndən sonra qapılara aparar. Mən oynamağı bacardım, onun nə günahı? Onsuz da. – Düşünə bildi. "Əzizim, "Q". Mən daha yaşamaq istəmədim, bacarmadım. Səhnəni itirdim, günahkar səhnə deyil, arada dəyərli oyunçular var, sonralar da rəqs edəcəklər... Mənə bu dünyada rəqs etmək qismətimdə yox imiş, amma taleyimə sevgi payı qismətmiş, səni də tapdım və erkən itirdim. İstəməzdim. Amma nə etməli? Əzizim, səndən bir-iki ricam olacaq. Anamdan savayı bir bacım da var kənddə. Başım çəkən bu bəladan xəbərsizdir, gözləri hələ də ekrandadır, qardaşının rəqslərinə baxıb öyünsün. Anam yanımdadır: yazıq analar, niyə bu qədər cəfakeşsiz? Bizi dünyaya gətirmək kifayət edərdi!.. Bu sətirləri yazanda göz yaşlarım mənə həyan durdu! Daha ağlamaq qismətimə düşməyəcək...

"Q", əzizim, mənim anama həyan ol, qoy övladının bu mənzilində həmişəlik yaşasın, bu, mənim rəsmi vəsiyyətimdir, çətinlik yaranarsa qəlbimdə özümlə onun xeyirxahlığını aparacağam. Yusif Qasımovun köməyindən çəkinmə. Heyfslənirəm, bu qeyrətli insanla işləmək taleyimə yazılmayıbmış...

Mənim doğulduğum torpaq düşmən əlindədir, qəbrim üçün yer yoxdur orada. Yasamal qəbristanlığında bir yer götürərsiz...” – Çapay bir-iki cümlə əlavə etdi, oxudu və üstündən xətt çəkdi, fərqinə getmədi, nəydi səbəbi? “Əzizim “Q”, mən yalnız səni sevdim, nə yaxşı sevib ayrılıram. Sonra... Sonra bu sevgimi qəlbimdən oğurlayardılar. Qoy əbədi ruhumda yaşasın. Amma istərdim, son nəfəsimdə bu qaranlıq otağımdan qaranlıq Məkana tənha köçməyəydim. Sən yanımda olaydın, əllərin ovcumda... Mən qaranlıqda ölümə təslim deyiləm, səhər açılanda canımı tapşıracağam. Hə, deyəsən quşlar bunu mənə xəbər verirlər...”

Telefon şəbəkədən çıxarılmışdı. “Mobil” açıq idi, bəlkə də bilmədən idi bu. İşıq yandı, səsi qulağına güclə çatdı, anası yatan otağın qapısı bağlı idi. – Hə, hə? Sənsən? İlahi! – Çapay ruçkanı vərəqin üstündən götürdü, kənara qoydu.

– Ev telefonun cavab vermədi. Bakıdayam, evdən çıxmışam, maşına oturu ram. Çapay, əzizim, sənin səsini eşidirəm? Nəyə bikefsən?

Çapay eşidirdi, qadının səsində nikbinlik vardı, axı nə biləydi? – İlahi, mənə azca ömür ver, o, məni görsün! – Allah məni eşidəcək! – Hə, darıxma, gəl, qapını anam açacaq!

Çapay başını dikəltdi, mədəsi doğranırdı, susamışdı.

– Ana, ana, yatmamısan ki? – Yavaşca çağırışı anası eşitdi və cəld özünü yetirdi:

– Bala, nə istəyirsən? Çay hazırlayım?

– Ana, qonağım gəlir, çataçatdı, qapını aç.

Anası qapını açdı, pilləkanla kimsə qalxırdı: "Çapayın qonağıdır" deyib gözünü pilləkənlərə dikdi. Gələnin qadın olduğunu görüb tez qapıdan aralandı. Qadın artıq içəridə idi, ananı qucaqladı, öpdü və Çapayın yatdığı otağa girdi. Dizləri qıfıllandı, qolları qırılmış budaq kimi yana əyildi, tor pərdə çəkildi.

Çapay tövşüyürdü, dodaqları qurumuşdu, yanaqları solmuşdu. Ana bu halı keçən axşam hiss eləməmişdi, balasını gümrah qoyub yatmağa getmişdi. Bəs bir gecədə nə baş vermişdi, nə bəlaydı?

Ana qonağı unutmuşdu, özünü oğlunun üstünə saldı. Ürəyi çırpınırdı, köksündən çıxacaqdı: "Çapay, mənim balam. Hara uçursan, ananı kimə tapşırırsan? Çapay, İlahi, balamı – sözləri dilində çalpacıq düşür, səsi boğulurdu".

– Yaxşı, ana, – qadın onu qaldırdı, kətildə oturtdu.

Çapay uzun qolunu qadına sarı uzatdı, buna iradəsi tab gətirmədi. Nəsə demək istəyirdi, dodaqları tərpənirdi:

– Sevgilim, – güclə eşidiləcək səslə pıçıldadı. – İnanırdım gələcəksən, səni görüb gedəcəyəm. – Əli-

ni qaldırdı, qadın onu ovcuna alıb sinəsinə sıxdı. Çapayın ürəyi çırpınırdı, yaşamaq istəyirdi.

– Çapay, məni kimə tapşırırsan? Mən tənhayam. Sən idin, sən! Niyə bu yolu seçdin?

Çapay baxışlarını qadına zilləmişdi, gözlərinin dairəsi sönürdü, üzündə məzəmmət cizgiləri səyriyirdi, məruz qaldığı zəhər bədəni tamamilə almışdı. Baxırdı, sanki yuxuya tələsirdi. Canındakı həyat eşqi ölmək istəmirdi. Başını tərpədirdi, bu, bəlkə də onun peşimançılığına işarəydi.

Qadın ananın qoluna girdi.

– Ana, gedək otağına, azca dincəl, Çapay özünə gələcək, səni ağlayan görməsin. – Hüzn ifadəli səslə deyib ananı apardı.

Ana şüursuz çarpayıya uzandı. Onun inamında Allahın cürəti və qüdrəti birləşib balasına kömək edəcəkdi. Ana nə biləydi oğlu təhqir olunmuş qürurundan bu yola əl atmışdır, bu çiçəklənməni ona qısqanmışdılar.

Qadın Çapayın çarpayısında ustufca oturdu, başını sinəsinə söykədi, ürək bayaqkı kimi döyünmürdü. Sevdiyi Çapayın bədəni soyuyurdu.

Sıx qara saçları yapışmışdı, geriyə çəkdi və iti barmaqları ilə sığalladı. Sıxıntı və zavallı görünüşünü unutmağa çalışdı. Özünün isə iri gözlərində miskinlik vardı, bayaqkı həlimlik çəkilmişdi, mübhəm iztirablarından pörtən üzü yanırdı. Heç bir şey haq-

qında düşünmək istəmirdi. O, özünə xəyanətini daha əzablı yaşayırdı, hissləri çox nəsnələrin üzərindən pərdələri götürürdü. Çapaya susamış nəzərlərilə baxırdı, cilovsuz ehtiraslarını boğmağı bacarmamışdı, əvəzində çılğın ümidlər qazanmışdı, amma qısqanclıqdan onun səadətini pozdular. Çapaya yox, özünə qarşı olmalı idi. Sevgi nəşəsinin rayihəsini dadmağa imkan vermədilər, fövqəlada sevgi sərvətini əlindən qamarladılar.

Bunu Çapay qiymətləndirmişdi etibarı və vüqarı ilə. İnandı ki vəfalı qəlb, tez alışan çılğınlıq sevgini erkən ölümə apardı, ona Çapay tez valeh oldu, o isə gənc qadın olaraq ətirli çiçəklərini ərmağan elədi, tələsdimi? Yox, sevgi beləcə gəlir... Həyatın bir parçası olan sevgisi onun başına bəla açmışdı.

O, başını Çapayın sinəsindən çəkdi, bayaq əl çantasından götürdüyü dərmanı bütöv içdi. Bilirdi nə edir. İstəyirdi Çapayın çarpayısında onunla yanaşı uyusun.

Həyat bumudur, şəxsi səadətə və sevgiyə məxsus ömrə qısqanclıq ucbatından başqasının, əslində doğmasının bədbəxtliyinə nail olasan.

Bədbəxtlik hər bir insanın özündən gəlir, bəlkə inanmayaq, əsla! O insan da bədbəxtliyin iradəsində oyuncaqdır.

Qadın alatoranda divarları süzdü, qısa divarın yuxarısında Çapayın rəqs edən tək fotosunu gördü

(o, ilk dəfə bu mənzilə ayaq basırdı), geniş açılmış qolları, üzü, ayaq barmaqlarının uclarında rəqsi. – Baxdı: – Müqəssir sən deyilsən, Çapay. – Güclə pıçıldadı, səsi ilişdi. – O, müqəssir səninlə yanaşı uzanmışdır, heyf, xəbərsizsən. Mənim başqalarına, lap birisinə cəza verməyə haqqım çatmır. Onu son anlarda bağışlamaq olarmı? Mən qadınam, kişi günahı bağışlada bilmir, onlar kişi doğulmuşlar. Amma kişilər əfv etməyi bacarmalıdır, sevgi naminə üzünü yana çevirməlidir.

Qadın işin ilk günlərində qardaşı barədə gümanlara düşmüşdü, onda yaranan qisas hissi qəlbini didirdi, sovuşmurdu. – Güclə çevrildi, pəncərədən süzülən işıq onun gözlərini tutdu. Duyduğu kin barədə düşüncələrini davam etdirməyə canı qalmamışdı, amma yadında qalan kəlmələri pıçıldadı: "Unutmayaq, bədbəxtlik Allahdan gəlir, insanlar təqsirkar olmurlar". İndi onlar bir-birinə lazım deyildilər.

Otaq işıqlandı, divarlardakı şəkillər, evdəki əşyalar, kitab rəfi, yazı stolunun üstündəki kağızlar, ruçkalar, qələmlər aydınca görünürdü. Bir məktub da qoyulmuşdu, ötən gecədə yazılmışdı, heç kəs oxumamışdı. Otağı günəşin sarımtıl-qırmızımtıl şəfəqləri almışdı, elə bil alov içində nəsə çatırtlayırdı, getdikcə qüvvətlənirdi, birdən öləzidi və söndü. Divarlardan alov dilimləri saçdı, qara tüstü üstün gəldi, burula-burula iki cəsədin üstünə cumdu və hər iki

insanın üzü işıqlandı, qara rəngi qovdu. Tavan titrəməyə başladı, divarlar əsdi, nəsə bir şey otaqdan çıxmaq üçün işıq nöqtəsi axtarırdı. Bu, uyumuş iki sevgilinin ruhları idi...

## 9.

Aytacı öz hesabına on günlük məzuniyyətə buraxmışdı Yusif Qasımov öz ərizəsilə, atasının səhhəti pisləşmişdi. Ana və bala birbaşa maşın tutub kəndə getdilər. Yolda Aytac iki dəfə zəng atmışdı, bibisi cavab vermişdi, xoşuna gəlməmişdi, ancaq "babatdır" demişdi. Kənd yoluna düşəndə xeyli yardımçı yolla getməlisən. Yolun sağı və solu qovaqlar, çinarlar, tut ağacları və adda-budda başqa meyvə ağacları da əkilmişdi. Məktəbli olanda bu ağaclar bar vermişdi, təzə-təzə meyvə gətirirdi. Quşlardan ala qarğalar və sağsağanların yuvaları qalın budaqlar arasından görünürdü – diqqət yetirəndə. "Onlar bu yuvaları elə qururlar  görünməsin, balalarına xətər yetişməsin". Aytacın fikrindən keçdi və atası gözünün qabağında canlandı. "Mən, yeganə qızı atamı qoruya bilmədim". Və əlini yuxarı qaldırdı. Bu sürücünün gözündən yayınmadı, anladı ki, xəstələri var, ona dəyməyə gedirlər. Yaşlı olmayan dilavər sürücü fəhmlə dedi:

– Yaxşılıq olar, bacı. Doğmandır xəstə, eləmi?

Anası Aytacı qabaqladı və sürücünün insanlığına sevindi, təşəkkürünü gizlətmədi.

– Allah qorusun sizi, – astadan dilləndi. – Bəli, Aytacın atasıdır.

Sürücü qəmgin ovqatı yumşaltmaq məqsədilə:

– Bəs sizin həyat yoldaşınız deyil? – deyib, güldü: – Hər şey yaxşı olar, o yuxarıdakı Allah verir ömrü. Xiffət eləməyin. Mən bir dəfə, inişil bu kəndə klent gətirmişdim. Biz sürücülərin öz marşurutları var, klentləri yadımızda saxlayırıq. Səhv eləmirəmsə bu yolla üzüaşağını göstərdi kişi. Zabitəli, səliqəli geyinmişdi. Boz kostyumda idi. Bu yola düşəndə hiss elədim, yerlidir, arabir gəlib-gedəndir, həm də qulluq sahibinə oxşatdım. Dedi sualımla bağlı:

– Ata yurdumdur bu kənd, çoxdan şəhərə köçmüşəm. Amma unutmuram, gəlib-gedirəm. Soruşdum ki, indi yurdda kimsə qalırmı? – Bəli, bacım köçüb bura. Yeganə övladım var, ikisi olsaydı birisinin ayağını bağlayardım kəndə. – Bu cavabdan sonra kişi güldü, əlini sağ tərəfə uzatdı:

– Bu ağacları biz şagirdlərlə müəllimlərimiz əkibdir. Eh! İllər! Sən hələ cavansan, yaşa, qocal, yaxşı mənada.

Mən maşını asta-asta sürürdüm, yol da belə deyildi. – Kişi siqaret qutusunu çıxartdı.

– Bağışlayın məni, – dedi və üzümə nəzər saldı, razılığımı gözləyirdi. Kişidə mədəniyyət vardı.

– Buyurun, əmi, bu nə sözdü.

O, siqaret yandırdı, qullab vurdu, tüstüsünü gözlükdən bayıra üfürdü. – Bax, o uzaqda görünən meşəqırağı, meşəni müşayət edən çay bizim ovlağımız idi. Eh, uşaqlıq, gənclik! – Bu sözləri deyib köks ötürdü. – Ov yerləridir, turac, qırqovul, meşə xoruzu, eh, hansı quşdan desən var meşədə.

Mən onun şirin söhbətinə əlavə elədim.

– Ovçu olmamış olmazsız, eləmi?

– Bəli, tüfəngim həmişə məni gözləmişdir, – cavab verdi. – Ov insanı cavan saxlayır. Bir də balıq tutmaq tilovla, yoxsa domcanı salıb on beş-iyirmi balığı birdən yox! Qırmaq ki, titrədi!

– Bacı, – üzünü Aytaca tutdu:

– Maraqlı kişiydi, yumşaq nitqi ovsunlamışdı məni. Mənə xoş gələn həm də o idi, ata-baba yurdunu unutmamışdı. Duymuşdum ki vəzifəlidi. Amma bunun yurd sevgisinə dəxli ola bilər?

Sürücü susdu, qarşıdakı maşına yol verdi.

– Allah-Təala belə insanları qorusun.

Sürücünün söhbəti ana-balanın ofsunlamışdı, kənd içində hansı tərəfə sürməyi unutdurmuşdu. Ana həyəcanla irəli baxdı, sakitləşdi: başqa həyətə çıxar, yığışar uşaqlar, evdəkilər – narahatçılıq yaranardı. Sürücü əyləci sıxdı.

– Məncə, düz gətirmişəm. – Gülümsündü və arxaya çevrildi. – Vəhlə anladım ki, siz o kişinin ... – Buyurun.

Maşından düşdü, arxa yükqapısını açdı, üç ədəd bağlamanı götürdü, yolun kənarına, darvazaya beş-on addım qalmış qoydu.

Ana və Aytac donub qalmışdı, dil-ağız edib içəri dəvət etməyi unutmuşdular.

– Sağ olun, şadam o kişiyə yoluxursuz, şadam o kişi sağ-salamatdır. Söylədiyim xatirələri danışmayın, bir ovqat izi xatırladım.

Ana əl sumkasını açıb danışılan məbləği ayırdı və Aytaca uzatdı.

– Sürücüyə ver, qızım, "sağ ol" da de. Evə gəlmək istəmədi.

Aytac geri qanrıldı.

– Ana! – Titrək və peşimançılıq duyğulu səslə dedi. – Ana!

Sürücü sürət götürüb uzaqlaşmışdı...

Darvaza cuzi aralanmışdı, həyət nazik qövsi-quzey kimi görünürdü, tamam səssizlikdi. Maşının səsinə deyəsən toyuq-cücələr, bir də xoruz duyuq düşmüşdü.

Atası bilirdi onların gəlişini, vaxtını – saatını isə yox. Təbii olaraq həyət bacada məxsusi sükut hökm sürürdü.

Aytac irəli yeridi, dəmir darvazanın qapısını içəri itələdi, cırıltı səsi elə bil ilan ağzında haray çəkən qurbağa səsi idi. Və bu səsi xoruzun qanadlarının şappıltısı pozdu. Xoruz dərhal darvazaya sarı taytıyıb qaçdı, ilkini Aytacı görüb dayandı, qırmızı qarpız diliminə oxşayan pipikləri titrədi, muncuq gözləri bulandı və təkrar qanadlarını şappıldatdı. Xoruz Aytacı tanımışdı, onu daha qonaq hesab etmədi və geriyə qaçıb doğranmış odun qalaqlarının təpəsinə tullandı, qanadlarını bərk-bərk çırpıb banladı. Bu, siqnal deməkdi, "gələn var" deməkdi.

Bibisi Aytacın evdə imiş, qardaşının yanında oturub onu yelləyirmiş, bəlkə də xırda-xırda söhbət edirlərmiş.

– Gələn var! – Bibisi yerindən sıçradı, qapını açıb artırmaya girdi. Hövsələ etməyib aynabənddən həyətə boylandı.

– Aytacdır, Anadır! – Bu, dəfə sevincək onları qarşılamaq əvəzinə içəri girdi ki qardaşını sevindirsin.

Ata sövqi-təbii hiss eləmişdi, telefondan da bilirdi. O, başını dikəltdi, telini düzəltdi, qımıldandı, döşəməyə ayaqlarını qoymağa taqəti yoxdu, ancaq gücünü topladı ki, çevik görünsün. O, sübdən oyaq idi, gecə də vur-tut bir-iki saat çimir vurmuşdu. Həkimin qulluğu daha kömək eləmirdi, bədən gücdən düşürdü, ürəyinin hesabına yaşayırdı, özünə bu, bəl-

liydi. Gözü hey yolda idi, gündüz zəngdən sonra vücudunda oyanış yaranmışdı, iradəsi hər ağrını udurdu. O, qızını yanında görmək istəyirdi: "Əzrayıl, Aytacım gəlməmiş məndən əl çək" – pıçıldayır, sanki gözlərini ona zilləmiş kabusu görürdü: "Bəs deyillər, mən də oxumuşam, Əzrayıl gözə görünmür, nəfəsini göndərir. Budur, Əzrayıl mənə gözlərin sancır, tələsdirir əbəs yerə, ey kabus". – Ata səsini qaldırdı, gözünü ovuşdurdu və küncdə qaranlığa bürünmüş Əzrayılı gözündən kənarlaşdırmadı: "Hə, gedib yatsana! Məni də qoymursan gözümün çimirini alım! Bilmirsən ki gözləyənim var! Bəs sənin övladın yoxdur?"

Ata alnında tumurcuqlanmış tərini yaş dəsmalla sildi, adəti naminə saçlarına barmaqlarıyla sığal çəkdi – cavanlıqdan idi bu vərdişi – ayaqlarını dizlərinə qədər qatladı, azca toxdadı: göz qapaqlarını yummaqla Əzrayılın gözləri ona sarı bərəldi. – "Hələ itilib getməmisən? Bu gecə get, sabah gələrsən! Get!" – Qışqırmağı ilə Əzrayılın çəkilməsi bir oldu.

Ata rahatlandı, alnında giləlenmiş tərini rahatca sildi, gecənin hansı vaxtıydı, yoxsa gündüz idimi – ayırd edə bilmədi, gümanladı ki, Əzrayıllar "ova" gecələr çıxır, gündüzdən qorxurlar yarasalar kimi. Gecələr həm də xəstələr yorğun və taqətsiz olurlar, min bir olmuşlar xəstəni təngə gətirir. Bu, həqiqətdir, neçə gündür "ağırlaşıb" keçmişlər bir-bir onun

pişvazına buyurur, kino lenti kimi canlanırlar, neçə gündü elə hey meşəqırağını çiynində tüfəng gəzib – dolanır, o yerlərə bir də baş vurur, ovladığı "dilsiz" heyvanların son fəryadını eşidir. Yaralayıb öldürdüyü heyvanların da axirət dünyası varmış, onların səsi oradan gəlir bir səda kimi: "Deməli, mən o canlarına qəsd durduğum heyvanların əzrayılı imişəm! Bəli, bu, həqiqətdir, Ata! Bir udum ləzzət, rahatlıq üçün azad canlıları gülləyə qurban eləmişəm, Ata!". – İçindən gələn səsi cavabsız buraxdı: "Onlar məni bağışlamazlar, onların buna haqqı çatır". – Ata sol əli ilə götürdüyü soyumuş çaydan bir qurtum aldı, boğazını yaşladı, səsi cırıldadı.

Aytac atasının yuxuya getməsindən istifadə edib həyətə endi, elə bil neçə ay gəldiyi ev, bağça-bağ deyildi, uzun illərdir ata ocağına ayaq basmamışdır, dəyişən nəydi, həyat əvvəlki ahəngiylə getmirmi? Heyrətlənməyə dəyərdimi? Dəmir darvazadan içəri girəndə otlar yaşıllığını saxlamışdı (bibisi hər səhər sulayır), ancaq ahəngliyində idi, gəlmə "quşlar" getmişdi, sərçələr ağacın aşağı budağına qonurdular, yanından keçəndə uçuşurdular və səpələnirdilər, lazım gələndə bir göz qırpımında toplaşırdılar, birgə qidalanırdılar.

Aytac onu da xatırladı ki, kənddə, ata evində olarkən toyuqlara dən səpəndə cəhcəhlə sərçələr torpağa qonur, toyuqların yeməyinə şərik çıxırdılar.

Görəsən o sərçələrdən yaşayanlar varmı? Bu fikrini təkzib elədi ki, mən özüm yaşlanıram, cavan atam qocalıb, anamın qara hörükləri ağarıb, axı quşaların ömrü 10-15 ildən çox deyil, amma Nəsil həmənkidir, doğma yerdən uzaqlaşmırlar.

Sərçələr ağacdan yenə yerə düşüb dığırlandılar, müvazinətlərini saxlaya bilmədilər, toyuq-cücələrin böyür-başlarında başlarını girlədilər. Toyuqlar daqqa qablardakı sudan içirdilər, başlarını hər damla içdikcə göyə qaldırıb dua edirlər. Xarı xoruza diqqət yetirdi: qürurunu saxlamaqdadı, bir-iki dəfə arpadan-buğdadan udandan sonra kənara çəkildi, iri kök toyuğu yanladı, çəpəki gərilib özünü göstərdi və əvvəlki vəziyyətinə düşdü, bağçanı ayıran çəpərin başına hoppandı, yerini rahatladı və son toyuğacan – hələ qarnını doyuzdurmamışdı – müşayət elədi.

Aytac həvəslə, bir az da qəmli baxırdı, güman qəmini dağıtmaq istəyirdi. Həyət, bağça sanki yuxuda idi, dirrik yüngülləşmişdi: Məhsulları dərilmişdi, yemiş-qarpız tağları soluxmuşdu, sudan korluq çəkən xırda qarpızlar, sarımtıl pamidorlar və tumluq yerpənəklər gözünə dəyirdi ki, bunları gecə oğruları kirpilərin, dovşanların, danadişlərin payı hesab edirdi.

Gəldiyi qədim cığır, indiki yola dönmüşdü, ağacların kölgəsində kəndə uzanırdı, ta kəndin dairəsindən parçalanırdı, bağça ilə həyəti alçaq çəpər ayırırdı, çəpər uzanı qızılgüllərdən, nərgizlərdən

ibarət kərdilər salınmışdı, yaz vaxtı otluq məxmər kimi dalğalanır. Məktəbli vaxtı dərslərini hazırlayandan sonra çəmənlikdə xeyli oturub yorğunluğunu alar, o vaxta qədər Ay doğur, ağacların arasından süzülən işıqdan zövq alırdı, bu dəqiqələrdə əzbərlədiyi şeirləri "məşq" edirdi. Atasının səsini eşidib, "Aytac, qızım, gecdir, gəl evə, televizorda veriliş gedir, bax" çağırışından sonra ayrılırdı. Bu, o çağlardı, gəncliyinə qədəm qoyan Aytacın məlahətdən doğan incəliyin, çiçəkləyən gözəlliyin işığında qürurlanırdı. Şüurundan ürəyinə aydın bir hiss keçirdi: Həyat onu məngənədə sıxmasın, insanlarla ünsiyyətində səhvlərə yol verməsin, sərbəst olsun, sevgisində yanılmasın. İrəlidə onun məhəbbətin heyranedici çağları gözləyir: o, xoşbəxt olacaqdır. Ona görə də Aytac incəsənət aləminə uğurla qədəm basanda şahanə səxavət, möhkəm mətanət axtarmışdı, bunlar olmayan məhəbbət təkliflərindən qaçmışdı: "Məhəbbət, İlahi, elə də sadə deyilmiş, nə qədər də həll edilməmiş şübhələri varmış" etirafını gizlətməmişdi. Sonralar, məşhur rəqqasə kimi tanınanda sönməkdə olan məhəbbətin oyatdığı ümidsizliyi də boynuna almışdı. Bir dəfə rəfiqə həmkarı Xumara xanımın hönkürtüsündəki kədəri duymuşdu, onu sözsüz notlarda axtarmışdı: "Bu, onun ümidsizliyindən və çarəsizliyindəndir" pıçıldamışdı. Ona uzanan kişi əllərinə: sehirli yerlərə və qonaqlıqlara dəvətlə-

rə uymamışdı, onlarla qoçaqlıqla mübarizə aparmışdı, ehtirasların qurbanına çevrilməmişdi və: “Bunlar vəhşi hisslərin tör-töküntüsüdür, onların gözlərindəki quduz ehtiraslara bir sübutdur” demişdi.

Aytac həyatdən beləcə zövq almaq istəyirdi və özündən bilixtiyar xəyallarına qapıldı. Bibisini alqışlayırdı ürəyində və sözlərində: əslində bu qadın həyatının bir hissəsini xəstə qardaşı üçün qoruyub saxlayıbmış, indi-indi başa düşür, kövrəlir: “Mən Bakıdan qopub atamın yanında olmalı idim. Bu ev-eşiyin nizamını pozulmağa qoymamalı idim” ucadan demişdi. Budur, evdə, həyət-bacada dirrikdə həmin təmizlik, səliqəlik, mebellər yerindədir, çıxdaş olub atılmamışdır. Bəs dəyişən nədir? – Sualı Aytac yolu gələrkən özünə vermişdi: Gördükləri – elə o vaxt gələndə də – adamlar qocalıblar, ancaq üzlərindəki nuranilik, sakitlik, qayğılar qalmışdı, silinib getməmişdir. Səsləri codlaşmışdır. Bəlkə dəyişənin biri də özüdür: ürək, atacanlı, yurdsevər, mənəvi əzablara tez reaksiya verən. Başlıcası isə: Həyatının ən cavan və romantik illərini sevgisiz keçirən bir qız! Amma o, ömrünü fərəhsiz yaşamır, xeyirxah peşə ilə məşğuldur, qəlbindəki ümidlər sönməmişdir, içərisində yenə nazlı və qəşəng Aytacdır, həmişə özünü məmnun göstərir.

Aytac atasını kəndə yola salandan sonra özünə arxayınlıq qüruru baş qaldırmış, bu yurdun övladı-

dır. Onda yaranan inamsızlıq yalnız atasının həyatla ölüm arasındakı mübarizəsi idi. Ata iradə nümayiş etdirir. Onun gəlişində ağrını unutdu, səsinin tonuna çalar qatmadı. Adi həyat tərzi davam etməkdə idi.

Həmin gün – günortadan gün əyiləndə evə çatmışdılar – evdə, atasının yatdığı otaqda sıxıntı yox idi, Bibisi yox, anası çörək hazırlamışdı, əri dovğa sevəndi, həyətdən yarpız və yağlıtərə yığıb bişirmişdi. Dairəvi stolda üçü oturmuşdu: ata onlara özgə bir ovqatla baxırdı, ağrını unutmuşdu. Ata donuq gözlərilə qızına, bacısına və həyat yoldaşına baxır, arada gülümsünürdü. Sol əlində fincanı tutmuşdu, soyumasını gözləyirdi, bu isə hamını sevindirirdi:

– Təkcə dovğayla hara gedərsiz? – Ata özünə hərəkət verməyə çalışdı və nail oldu. – Başqa yeməyiniz olar.

Bacısı başı ilə təsdiq elədi və öz yağında bişirilmiş “bozartmanı” qabı ilə yuxarı qaldırdı, yəni hazırdı.

Ata başı ilə razılığını ifadə elədi, azca gülümsündü, damarları çıxmış əliylə saçlarına daraq çəkdi və bu, Aytacın gözlərindən ona görə yayınmadı, atasını hafizəsi yerindədir. Tezcə qalxıb atasına yaxınlaşdı, təlislə alnını sildi və öpdü. Atası sağ əlini qaldırıb qızının boynundan ustufca tutub sinəsinə sıxdı. Aytac atasının ürəyinin necə çırpındığının səsini eşidir, istəyirdi beləcə qalsın.

Səhəri atası vaxtında oyanmışdı – o, ata yatan otaqda divanda mürgüləyib yuxuya getmişdi – çarpayıda otuzdurdu, isti ılıq su ilə ayaqlarını yudu. Ata narazılıq elədi, belə xasiyyəti yox idi – qızı etiraza baxmayıb işini gördü, rahatladı, alt köynəyini təzələdi.

Ata Aytaca doymadan, sanki uzun illərin ayrılığından sonra baxır, yetgin qadını kimi görmək istəyirdi, ancaq Aytac indiki qız deyildi, uşaq idi. Nazik sünbül hörüklü, saçı lentli, məktəbli döşlüyü geyinmiş Aytac, ata bu fantastik dəyişməyə necə də sevindi!

Aytac dizlərinin üstündə oturmuşdu, qiymət cədvəlini vərəqləyir, aldığı qiymətləri ucadan oxuyurdu ki! Ata bu "bicliy"in mənasını bilirdi, "mükafatını" alacaqdı! Aytac atasından ayrılmaq istəmirdi, təzəcə oxuduğu bir sehirli nağıl söyləmək istəyirdi. Anası "göz ağartması" verirdi ki, atanı yorma, işdən gəlib. Amma belə işarələr onun vecinə deyildi, axır nağılı danışardı və "ikinci" mükafatını alıb gedərdi. Aytac indicə o illərin ixtiyarında idi, atası üçün "mükafat"ını gətirmişdi, bibisinə vermişdi ki, atama nə lazımdı, ürəyindən nə keçirsə bibi yadında olar. Hər həftənin sonunda mənə "əla"larım üçün mükafat verirdi, onda sən tələbəydin, səni də unutmurdu.

Bunları xatırladanda bibisi özünü saxlaya bilmədi, göz yaşları yanaqlarından süzüldü, ürəyi sanc-

dı və: "Aytac, kaş o günlər olaydı, Ata sağ-salamat bizə mükafat verəydi. Kaş!" Aytac sözlərinin peşmançılığını çəkdi və bibisini sakitləşdirdi.

Ata heç zaman qızıyla sözə gəlməmişdi, o da atasını acıqlandırmamışdı, aralarında peşimançılıq yaranmamışdı. Ata qəlbində xoş ata-bala hisslərini axtarmışdı və tapmışdı, qızına olan əvvəlki nəvazişini saxlamışdı, indiki durumunda da Aytac onun güvənc yeriydi. Taqəti çatsaydı Aytacı dizi üstə otuzdurar, uşaq kimi əzizləyər və bu hissiyyatı özündə oyadardı.

Ata xoşbəxt günlərin yaşayan insan kimi, həyatının qüssəsi, qəmini qulaqardına vurmaq istəmirdi, amma xəstəliyi, bədəninin taqətsizliyi, Əzrayılla gecələr əlbəyaxası onu xatirələrdən uzaqlaşdırırdı. Astadan qızından soruşdu:

– Haçan gedəssən və suala özü də cavab verdi:

– İşindən ayrılmısan, onlara lazımsan.

Atanın dodaqları əsdi, göz qapaqları ani yumuldu, gözlərində yaş giləleri göründü. Və o, üzünü divara çevirdi (belə təqdirdə onu görməmək üçün edirdi).

Aytac otaqda gəzindi və gəlib atasının çarpayısının baş tərəfində durdu:

– Ey Allah, başqalarının səadəti üçün iş görmüş bir insanın ömrünü uzat. – Sözləri elə pıçıldadı atası eşitmədi. – O, bir bəndənin bədbəxtliyinə səbəb olmamışdır.

Bu sözləri anası eşidib qızın sol əlindən tutub özünə çəkdi və yan otağa apardı. Bir kəlmə də söz demədi, arvad boğulurdu, tövşüyürdü, bu da Ay-tacı qorxutdu, divanda əyləşdi, bir fincan su gətirib yarısını içizdirdi:

– Ana, həyatın qanununa qarşı çıxmaq olmur. – Aytac əlini anasının dirsəyinə toxundurdu, göz yaşları içində parlayan gözlərindən öpdü. – Sən belə aparırsan özünü? – Bu dəfə təsəlli verən qızının özü göz yaşlarını saxlaya bilmədi.

Atası halsız halda idi, üçüncü gün səhər bir balaca özünə gəldi, sonra huşunu itirən kimi oldu, əllərini sinəsindən götürdü, Aytac ovcuna aldı. Əllərinin göy damarları uşaq barmaqlarındakı qələm kimi səyriyirdi. Gözlərini açsa da bir nöqtədə donub qalmışdı, dodaqları qurumuşdu. Sifəti yumşalıb sıxılmışdı. Üzünün cizgiləri balacalaşmışdı. Aytac əyilib əvvəlcə atasının alnından, sonra əllərindən öpdü, barmaqları tərpəndi. Ata gözlərini açdı və qızının əlindən öpmək istədi, gücü çatmadı, Aytac əlini atasının dodaqlarına yapışdırdı, kişinin qaşları cuzi dartıldı, bu, onun hələ duyumunun yaşadığının əlamətiydi. Aytac atasının dodaqlarının acıqlı-acıqlı tərpəndiyini gördü: nəsə demək istəyirdi, Aytac qorxu içində atasını süzürdü, onun nə istədiyini başa düşməyə çalışırdı və yerini dəyişdi, sağ tərəfə, divarla onun arasında oturdu ki, atası qızını görsün. Ata bir

neçə saniyəni sakit keçirdi, başını qızına əydi, amma bu, uzun çəkmədi, yenə yastığa söykəndi, yenə dodaqları tərpəndi, dili göründü, səs eşidildi, danışmaq, nəsə demək istəyirdi, səsi sözləri quraşdıra bilmirdi. Ataya təhtəlşüurun nəzarətində elə gəldi ürəyindən keçənləri başa düşürlər, kim anlamasa da arvadı anlayır.

Ana tərpəndi yerindən və ilk dəfə bu saatlarda ərinin sol qolunu qaldırdı, necə də ağır gəldi ona. Necə də! Əyilib üzündən öpdü, Atanın dodaqları titrədi, sözlər yox, səslər eşidildi. O, dilini çətinliklə tərpətdi, dodaqları arasında gizlətdi. Ana – həyat yoldaşı Ataya – ərinə baxır, nəsə eşitmək istəyirdi, boğazında çırpınan hönkürtüsünü saxlaya bilmir, qızın gözlərinə son ümidi kimi baxıb inamını itirmirdi. Ata yenə dodağını tərpətdi, səsini çıxartdı, yəqin ona elə göründü, ürək sözlərini deyə bilmişdir, daha sözü qalmamışdır. Ancaq sifətindəki sualedici qımıltı, titrəyiş donub qalmışdı, sonacan çəkilmədi. Bacısı ümidlə qardaşının sinəsinə çökdü, uzun, dərənin dibindən həyat işığına çıxmaq istəyən, lakin əlacsız qalmış insan idi. Otaqda qapıya sarı qaçdı, başı qapıya dəydi, geri qayıtdı:

– Qardaş! Qardaş! Qardaş! – Üç dəfə sözü təkrar edib, ona sarı gələn Aytacın üstünə atdı özünü, ayaqları altına yıxıldı.

– Bibi! Bibi! Dur ayağa! Atam bu halını görməsin. Sən Allah, bibi!

Bibisinin halı özündə deyildi, dən düşmüş saçlarının hər bir teli ayrılmışdı və üzündə dəli havasına oxşayırdı. Aytac taqətsiz onu qucaqladı, divanda əyləşdirə bildi, atasını tək buraxmışdı, o da dəli hönkürtü ilə: "Ata, atacan, gəlirəm!" – deyib haraya qaçdığını anlamadı. Atasına tərəf addımlamışdı ki, ayaqları kətilə ilişib ağzı üstə döşəməyə yıxıldı. O, dodaqlarını sürtür, nə axtardığını özü də bilmirdi: – Hə, hə, tapdım, atamın ayaq izlərini tapdım! Qoymaram harayasa getsin. Qoymayacağam, ana! Və özünü anasının qolları arasında huşuyla hiss elədi. Gözlərini açdı:

– Atam hanı? Qoymaram getsin! Ana, yalvarıram!

İçəri qonşu arvad girdi, səsə şüblənmişdi. Atanın xəstə olduğundan xəbərdardı. Tez bayıra çıxıb qaçdı, telefonla ərinə zəng vurdu və dərhal qayıtdı.

Aytacın kəskin ağrı ilə birlikdə gözlərində parlaq şimşək oyandı, sarsıdıcı qışqırtı ilə anasının üstünə atıldı, hər ikisi gurultu ilə döşəməyə yıxıldı. Ana-bala bir-birinə təsəlli verə-verə döşəmədə sürünür, meyidə tərəf hərəkət edir, lakin onların qabağını kəsir, hər ikisini yan otağa aparmağa çalışırdılar. Döşəmədən qalxan tozu uda-uda yuvarlandılar, nəhayət çarpayıda otuzdurdular. Onların nəfəsləri

təngləşir, havaları çatmırdı, anası üz-gözünü didir, nə edəcəyinin fərqinə varmırdı. Qəfil ayıldı və qızına baxıb qollarını onun belinə doladı, var gücü ilə ağuşunda saxladı, sifətində qan ləkələrini görüb qışqırdı. Ani özünə gələndə qızının titrədiyini duydu, əlini yanaq tərəfdən Aytacın üzündə saxladı, sifətini cırmaqdan qorumaq üçün bu hərəkəti elədi – bunu şüuru kəsdi.

Bu çarpışma, dəlicəsinə vurnuxma onlara heç bir ağrı vermirdi.

...Qəbirstanlıq kəndin qurtaran ərazisində idi, ilk evlərin salınması buradan başlamışdı, illər keçəndən sonra qəbirstanlıq cənuba, kənd isə şimala doğru uzandı. Aytac bir dəfə andırmışdı atasının və anasının sağında yer boşdur, gülümsəməklə demişdi ki, ora mənimdir – qızının halı pozulmasın. Aytacın yadına düşdü və ağsaqqallara fikrini çatdırdı.

El adətilə dəfn günü qadınlar qəbirstana getmir, səhəri olurlar.Və həmin gün halından çıxmışdı, sübh vaxtı o, sakitcə evdən çıxdı, kənd öz sükutunda idi, cığırlar boş idi, erkən duranlar həyət-bacanı süpürür, sağmal heyvanlarını yüngülləşdirirdilər. O, elə bil qaranlıq uçurumla gedirdi, aşağıda sal daşlar bozarırdı, sahibsiz idilər yüz illərdən bəri. Bir neçə dəfə cəhd eləmişdilər məzar daşları düzəltsinlər, baş tutmamışdı: Künc-bucaq ovulur, parçalanırdı. Bunu o, atasından eşitmişdi.

Uzaqlarda salınmış kəndlərdə alacıqlar quraşdırılmışdı, məhsul yığımında adamlar hətta gecələr orada yatırdılar, indi külək-yağış onların böyür-başlarını aparmışdı. Başının tacı qoparılmış günəbaxanları yalnız quşlar "yoxlayırdı". O, kənddən xeyli uzaqda dəmir yolunu görürdü, relsləri yox, qatarlar gedib-gəlirdi, ərazinin qış vaxtı ən münasib nəqliyyat vasitəsiydi. Çünki bu məkanda qış ağır keçir, qar əindən tərpənmək çətinləşir. Aytac ilk dəfə sərnişin qatarına atası ilə Bakıya getdiyini də xatırladı... Və artıq atasının məzarı üstə çatdığını anlayıb dayandı. Qəbri üstə qalaqlanmış torpaq qurumamışdı.

Qıçları əsirdi, zəiflədiyini hiss edirdi, tələsik düzəldilmiş bir neçə nəfərlik taxta oturacaqda əyləşdi. Aclıqdan və yorğunluqdan ürəyi bulanırdı, qıçları əsirdi. Ətrafı, uzaqda qalmış kəndi, yollara çıxan adamları, yüngül minik maşınlarını görürdü. Evlərin həyətindən, bağlardan burula-burula qalxan tüstü dumanı işıqda itir, yox olurdu. Havada həm şaffaflıq, həm də quruluq duyulurdu. Qəbirstan yolunda şeh ayaqqabılarını islatmışdı, donunun ətəklərini tutmuşdu. Qəbirstanlığı qulaqbağırtıcı sükut bürümüşdü. Uzaqda, dəmir yolu relslərin üstündə manevr edən, fit verən paravozların səsi eşidilirdi. Bu səslərdə sükutu pozan canlı və təşvişli həyəcan vardı.

Səmada yüngül buludlar gecədən asılıb qalmışdı, Ay solğun paltarda saymazyana ötüb keçmişdi.

Qəbirstan sonsuz və soyuq gəlirdi Aytaca, onun təsəvvüründə qəbirstanlıqla göy arasında boşluq ki var – başdan-başa əbədi kədərlə doludur: “Allah bəndələrini öləndən sonra öz yanına aparır” – Aytacın ürəyində bu fikir yarandı, coşqunluqla kədər, narazılıq və ata məhəbbəti hissi acı-acı nəsə pıçıldayırdı, amma mənasını anlamağı bacarmırdı. Aytac gözlərini qapadı: üstü zərxara ilə örtülmüş tabut çiyinlər üstə ağır-ağır yırğalanır, dostlar, tanışlar, uşaqlar tabutun dalınca yola çıxıb gedirlər. Hamısının gözlərində yaş və üzlərində kədər sürünür, qaşqabaqlı olmayan yoxdur. Uşaqlıq və gənclik dostlarının üzü ağlamaqdan şişmişdir. Bibisi və anası heç kimə etina etmədən ağlayır, kişilərin ardınca qaçmaq istəyirdi, amma onları tutub saxlayırlar. Evdən, dədə yurdundan yeganə oğul gedir. Hüzünlü səs-küy, ağlamaq səsi, qışqırtı sakit havada yayılır, şübhəsiz, onun sağalmasını, əcəlinin gecikdirilməsini istəyənlər az deyildi: “Yaxşı insan idi”, “Qabiliyyətli mütəxəssisdi, əl tutandı”, “Yurdundan ayrı yaşaya bilmirdi” etirafları da ürəklərdən keçirdi.

Aytac acı-acı düşünürdü, son sözü bu oldu: “Çox gecdir!..”

– 0 –

Mən – qəhrəmanlarımı izləyən qələm adamı kimi Atanın ölümündən xeyli sonra xəbər tutmuş və onun yaşadığı yurda gəldim, kəsə yol salınmışdı: meşəqırağı çayın körpüsünə qədər gəlib başqa səmtə gedirdi. Atanın çox sevdiyi meşə idi. İynəyarpaqlı, qarağaclı, şabalıdlı meşənin çınqıl gövdəli ağacın altında durdum, nəfəsimi dərdim. Sakitlik idi, sanki meşədəki canlıları başqa meşəyə yasa çağırmışdılar, hələ qayıtmamışdılar. Belə sakitlik payızla qışın arasında olur, amma qar yağmasın. Bu günlər isə qar gəlmişdi meşəyə, özünə yer eləmiş, budaqlara qəşəng və soyuq görüntü vermişdi, çılpaq budaqları aşağı əymişdi, yarpaqlar olan yerlərdə gizlənmişdi.

Arada ağacların başından budaqcıqlar qopur, yüngülcə çıtırtıyla başqa nazik budaqlara toxunurdu. Zəif günəş işığı hara düşürdüsə, orada qar çəhrayı rəngə çalırdı. Meşənin soyuq, təntənədən qalmış səssizliyində elə bil donub qalmışdım, kimisə gözləyirdim, o isə gəlib çıxmırdı. Onu hiss etdim – vaxt – zaman yavaşca, səssiz-səmirsiz yanımdan ötüb keçir.

Tələsib meşədən çıxıram, çayın şırıltısını eşidirəm, uşaqların səs-küyünü də. Onlar havanın mülayimliyindən, qarın kəsilməsindən fərəhlənib çay kənarına gəliblər, tilovsuz. Əllərində yumru-yumru qar topası ilə.

Kəndin isti bacalarından tüstü qalxır, göyün təmizliyində əriyir, səmada buludların xallı sıraları görünür, bir yerdə qərar tutmurlar. Qərbdən isə qıraqları çəhrayı rəngli buludlar sürünə-sürünə gəlir. Kəsif havadan yağış gözlənilir, naxoş adamları xatırladır. Torpaq qar təbəqəsinin altında qalmışdı, qurumuş qar örtüyündən çıxan otların başı yapıxmışdı, zərif kölgəsi düşürdü, xəstəhal adamın yanaqlarındakı qızartı kimiydi.

Mən gedirdim – haraya? Bu yol niyə bu qədər uzaq düşüb məndən?

Məzarıstandır, gəlib-gedən yoxdur bu havada – yanılmışdım? Təzə qəbrin başdaşını bir qız ilk və son balasını itirmiş ana kimi ağuşuna sıxmışdı. Ona bu halında yanaşmaq hünər istəyirdi bir-birindən ayırsın.

Atası qızının sinəsində çırpınırdı, nəsə pıçıldayırdı, amma bu səsi nə eşidir, nə də anlayırdı.

Qəbirstanlığın girişində qara rəngli maşın dayandı. Qapı açıldı, qara kostyumlu boz köynəkli, əlində tər qərənfil buketi tutmuş bir adam maşından düşdü və kənarda qara cildli kitabı vərəqləyən qara əbalı, dümağ saçlı Axund bu adamı görüb ayağa durdu. Qara kostyumlu şəxs Axunda tərəf gəlib dayandı və salamlaşıb təzim elədi.

Axund bu adama diqqətlə baxıb dedi:

– Siz mənə tanış gəlirsiz. – Ani susdu.

– Televizorda görürəm Sizi, səhv etmirəmsə Ağa Rəhimsiz. Yəqin Ata müəllimin. – Yenə susdu:

– Müdrik, xeyirxah sima idi. Allah o dünyasını versin, qızı məşhur rəqqasədir. Adı Aytacdır. Bu gün Ata müəllimin "3"üdür. O, hər gün atasının məzarı üstə gəlir. Əlini sol yana uzatdı. – Qızı ordadır, – deyib sıx otluğu ovuclayıb cığıra tərəf irəlilədi.

***04.07.2018***
***Bakı***

ALLAHVERDİ EMİNOV

# RƏQQASƏ

**roman**

BAKI – 2025

# QEYD

# QEYD

Çapa imzalanıb: 18.10.2025
Format: 60x84 1/8.  Qarnitur: Times.
Həcmi: 55 ç.v.

---

**ADMİU-nun mətbəəsində çap edilmişdir.**

**Ünvan:** Bakı şəhəri, Zərdabi küç., 39a
**Telefon:** (+994 12) 434-50-04